**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ƏLİYEVA  ZƏRİFƏ**

# PEDAQOGİKA

(Mədəniyyət və İncəsənət təmayüllü ali məktəblərin
bakalavr pilləsində  təhsil alan tələbələr üçün dərslik)

Dərslik Azərbaycan Respublikası Təhsil Nazirliyi
«___» ______-ci  il  tarixi  ______ saylı
əmri ilə təsdiq edilmişdir.

PREZİDENT
KİTABXANASI

**BAKI - 2004**

Elmi redaktor: **Ə.MƏMMƏDOV,**
*professor*

Rəyçilər: **F.SADIQOV**
*ped. elm. doktoru, professor*
*ADMİU-nun prorektoru.*

**Ə.QƏDİMOVA**
*ped. elm. namizədi,*
*Azərbaycan Respublikası Təhsil Problemləri İnsitutunun aparıcı elmi işçisi*

**M.Məmmədova**
ped. elm. namizədi, dosent
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin elmi işlər üzrə prorektoru

# M Ü N D Ə R İ C A T

Ön söz
Pedaqogikanın obyekti və predmeti
Pedaqoji fikir, məktəb və  maarifin inkişafı tarixinə dair
1920-90-cı illərdə Rusiyada və Azərbaycanda təhsil  sistemi
Pedaqogika mədəniyyətin tərkib hissəsi kimi
İncəsənət və tərbiyə
Tərbiyənin məqsədi
Əqli təhsil və dünyagörüş formalaşdırılması
Əxlaq tərbiyəsi
Estetik tərbiyə
Fiziki tərbiyə
Əmək tərbiyəsi
Hüquq tərbiyəsi
Tərbiyə  prosesinin mahiyyəti
Tərbiyə prinsipləri
Tərbiyənin üsulları
Tərbiyə  ilə  özünütərbiyə  prosesinin qarşılıqlı əlaqəsi  və dialektikası
Didaktika
Təhsilin məzmunu
Təlim prosesi
Təlim prinsipləri
Təlim üsulları
Tərbiyə ilə özüntərbiyə  prosesesinin dialektikası
Pedaqoji  prosesdə  özüntəhsil

## ÖN SÖZ

Bu dərslik mədəniyyət və incəsənət təmayüllü ali məktəblərin bakalavr pilləsində təhsil alan tələbələri üçün nəzərdə tutulmuşdur. Bu ali məktəblərdə tələbələrə pedaqoji biliklər, pedaqoji universitetlərdən fərqli olaraq, ümumi şəkildə verilir. Yəni tələbələrə qısa olaraq pedaqogika tarixinə, pedaqoji nəzəriyyələrə, təhsil sisteminə, pedaqogikanın ümumi problemləri, təlim, tərbiyə və təhsilin əsas məsələlərinə aid məlumatlar verilir. Tələbələr cəmiyyətin şəxsiyyət formalaşdırılması tələbləri, ümumi tərbiyə problemləri haqqında elmi məlumatlara yiyələnirlər. Həmçinin dərslikdə tələbələrin müstəqil failiyyətini təmin etmək məqsədi ilə pedaqogikanın bir çox sahələri haqqında əlavə məlumatlar da verilmişdir. Ümumiyyətlə, insanlarda elə bir səhv münasibət mövcuddur ki, pedaqogikanı yalnız müəllimlər, xüsusən də orta məktəb müəllimləri bilməlidirlər. Bu münasibətdə bir həqiqət var, çünki şəxsiyyət formalaşdırılması işi məqsədyönlü və mütəşəkkil şəkildə orta məktəblərdə aparılır. Lakin bu iş özü də uşaq və yeniyetməni əhatə edən digər mühit və fəaliyyət adamlarının pedaqoji biliklərə malik olması şəraitində aparıldıqda daha səmərəli nəticə verir. Digər tərəfdən məlumdur ki, öyrətmə, tərbiyələndirmə yalnız məktəb həyatı ilə məhdudlaşmır. Əvvala, insan ömrünün sonuna qədər öyrənir, dəyişir, yeni-yeni əxlaqi və əqli keyfiyyətlər kəsb edir. Digər tərəfdən müxtəlif kollektivlər ona müəyyən tələblər verir. Bu əlavə tələblərin, münasibətlərin səmərəli təsirə malik olması üçün, heç olmazsa, bütün ali təhsilli şəxslərin zəruri pedaqoji biliklərə malik olması vacibdir. Ona görə ki, insanlara göstərilən müxtəlif təsirlər bu və ya digər səviyyədə şəxsiyyət formalaşdırılmasına təsir göstərir. Şəxsiyyətin formalaşdırılması məsələsi isə bütün dövr, zamanlar üçün iqtisadi problemlər kimi aktual olmuşdur. Çünki bu, müəyyən mənada cəmiyyətin mövcudluğu şərtlərindən biridir. Cəmiyyətin özü ona lazım olan, iqtisadiyyatını, mədəniyyətini qoruyan və inkişaf etdirən insanlar formalaşdırmağa çalışır. Bununla da, geniş mənada tərbiyə prosesinin iştirakçısına çevrilir. Cəmiyyət, onu təşkil edən birliklər, şəxslər, böyüyən nəsil, ümumiyyətlə insanların formalaşmasında bu və ya digər mövqedən iştirak edirlər. Ona görə də ayrı-ayrı müəssisə və idarələrdə çalışan rəhbərlərin valideynlərin az çox dərəcədə tərbiyə ilə məşğul olan insanların pedaqoji biliklərə mallik olması zəruridir. Hər bir idarə rəhbərləri insanları idarə etmək, onların fəaliyyətlərini istqamətləndirmək üçün pedaqoji ustalığa, fərdi yanaşma qabiliyyətlərinə və s. bu kimi pedaqoji biliklərə malik olmalıdır. Mədəniyyət işçisi apardığı tədbirlə, icra etdiyi tərbiyə işləri ilə hansı əxlaqi keyfiyyətlər aşılayacağını, bu keyfiyyətlərin aktuallıq səviyyəsini bilməlidir. Hər insan valideyn kimi uşaqlarına təsir etməyin, tərbiyələndirməyin səmərəli yol və vasitələrini bilməlidir. Formalaşdırma, tərbiyələndirmə göründüyü kimi geniş və mürəkkəb məsələdir. İnsanların formalaşdırılması, həyat üçün hazırlanması yalnız təlim - tərbiyə müəssisələrinin işi ilə məhdudlaşmır. Cünki, hər bir insan - uşaq, yeniyetmə, gənc, işçi – həm də bir ailənin üzvü, bir mühitin yaşayanı, bir kollektivin nümayəndəsi, bir idarənin işçisidir. Bu birliklər, mühit, insanlara müxtəlif təsirlər göstərir. Ona görə də ali təhsil müəssisələrində də pedaqoji biliklər verilməsi, cəmiyyətdə pedaqoji biliklərin təbliği dövrün aktual problemlərindən biridir. Dərslikdə ümumpedaqoji biliklərlə yanaşı, mədəniyyət müəssisələrində təlim tərbiyə imkanları, bu müəssisələrin şəxsiyyət formalaşdırılmasında rolu verilmişdir. Həmçinin mədəniyyət və incəsənət sahələrində pedaqoji prosesin, yeni pedaqoji təsir vasitələri, pedaqoji vəziyyətlər də izah edilmişdir. Bu müəssisələrdə müxtəlif yaşlı insanların tərbiyəsi, formalaşması problemi mövcud olduğundan çox vaxt dərslikdə pedaqoji problemlər tərbiyə olunan və tərbiyə edən, öyrədən və öyrənən baxımından təhlil edilmişdir. Dərslikdə pedaqogikanın ən ümumi məsələləri haqqında tələbələrə elmi məlumatlar verilir. Tərbiyə problemləri, cəmiyyət və tərbiyə, tərbiyənin formalaşmada rolu, pedaqoji proses və onun cəmiyyətin inkişafı ilə əlaqəsi və s. bu kimi pedaqoji məlumatlar təhlil edilmişdir. Həmçinin, təlim-tərbiyə müəssisələrində olduğu kimi pedaqogikanın bütün problemləri deyil, ən ümumi məsələləri əhatə edilmişdir. Bu isə Mədəniyyət və İncəsənət Universitetlərində pedaqogikaya verilən saatların miqdarı ilə əlaqədardır. Həmçinin, bu universitetlərdə tələbələrə pedaqogika haqqında - pedaqoji fikir tarixi, tərbiyə, təlim – yığcam, qısa, konkret məlumatlar verilir. Bu fənnin tədrisi, müəyyən mənada, pedaqogika ilə ümumi tanışlıq məqsədi daşıyır. Yəni pedaqoji universitetlərdəki kimi geniş, hərtərəfli pedaqoji biliklərə yiyələndirmə - tərbiyəçi, müəllim kimi hazırlama məqsədi daşımır.

## PEDAQOGİKANIN OBYEKTİ VƏ PREDMETİ

Pedaqogika insanın formalaşması haqqında elm olub, qədim tarixə malikdir. Beləki, insan yaranan gündən onun mövcudluğu uğrunda mübarizəsi, özünü təmin etməsi, qoruması, malik olduğu həyat təcrübəsinin böyüyən nəslə ötürməsi problemi mövcud olmuşdur. Bu isə bütün dövr və zamanlar üçün həmişə aktual bir problem məsələ kimi çıxış etmişdir. Həmin problemlər isə cəmiyyətin ictimai, iqtisadi inkişafı ilə müəyyən edilmiş, məhsuldar qüvvələrin inkişafından asılı olaraq dəyişmişdir. Məsələn, məhsuldar qüvvələrin ən zəif inkişaf etdiyi ibtidai icma dövründə mövcud olan primitiv fəaliyyət üsullarını icmanın bütün üzvləri böyüyən nəslə öyrədirdi. Lakin inkişaf etmiş cəmiyyətdə isə həm fəaliyyət üsulları, həm də bəşər təcrübəsi və onun tərkib hissələri, elm, istehsalat və s. inkişaf etdiyi üçün onların da böyüyən nəslə ötürülməsi və ona verilən tələbələr də dəyişmiş, mürəkkəbləşmişdir.

İnkişaf etmiş cəmiyyətdə artıq şəxsiyyət formalaşdırılması, təcrübənin ötürülməsi prosesi mürəkkəbləşmiş və xüsusi fəaliyyət sistemi tələb edirdi. Bu isə pedaqogika elminin meydana gəlməsi, elm kimi inkişaf edib formalaşmasına səbəb olmuşdur.

Pedaqogika qədim yunan «paydaqoqos» sözündən olub, hərfi mənası «uşaq ötürən» deməkdir. Onun obyekti insanın formalaşdırılması, həyata hazırlanması, həyat üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnməsi prosesidir. Predmeti isə bu prosesin pedaqoji nöqteyi nəzərdən tədqiq edilməsidir.

İnsanın həyata hazırlanması, geniş mənada insan anadan olandan ölənə kimi müxtəlif səviyyə və formalarda aparılır, davam etdirilir. Ümumiyyətlə, cəmiyyət özünə davamçı, varis hazırlayır, yəni cəmiyyyətin mövcudluğu tələbi özü insanların həyata hazırlanmasını tələb edir. Bu tələb isə həm sistemli təlim müəssisələrində, həm cəmiyyətdə mövcud olan bütün birlik, təşkilat, fəaliyyət sahələrində, ailədə və s. müxtəlif səviyyədə yerinə yetirilir. Həmin birlik və təşkilatların bilavasitə vəzifəsindən, cəmiyyətdəki mövqeyindən asılı olaraq, insanların həyata hazırlanması işi həyata keçirilir. Bu nöqteyi-nəzərdən pedaqogikanın aşağıdakı anlayışlarını göstərmək olar. Pedaqoji gerçəklik, pedaqoji proses, təlim, tərbiyə, təhsil (B. Əhmədov, A. Rzayev – «Pedaqogikadan mühazirə konspektləri» B. Maarif, 1983).

Pedaqoji gerçəklik ümumiyyətlə, cəmiyyətin insanların həyata hazırlanması prosesini əhatə edir. Bura cəmiyyətə daxil olan bütün idarə, təşkilat, birlik, müəssisə, istehsal və qeyri-istehsal sahələrində təcrübənin insanlara ötürülməsi daxildir. Məsələn, istehsal prosesində rəhbər-işçi münasibətləri, qarşılıqlı yardım, işçilər arasında səmərəli münasibət, ünsiyyət formalarının yaradılması, hər bir işçini fərdi xüsusiyyətlərindən – bacarıq və qabiliyyətlərindən əmək məhsuldarlığının artırılmasında istifadə edilməsi və s.

Mədəniyyət müəssisələrində insanların mövcud tələblərə uyğun formalaşdırılması işinə misal olaraq asudə vaxtın səmərəli təşkili, insanların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən təlim işləri – dərnəklər, texniki yaradıcılıq birlikləri, müxtəlif yaşlı insanlarda yeni biliklər yaratmağa və bacarıqlar formalaşdırmağa xidmət edən marağa görə məşğələləri; münasibət formalaşdıran məşğələlər, aktual tərbiyə və ideoloji problemlərə həsr edilmiş tədbirləri və s. göstərmək olar.

Ailə tərbiyəsi də pedaqoji gerçəkliyə daxildir. Ailə cəmiyyətdəki ictimai və iqtisadi münasibətlərin güzgüsü olmaqla pedaqoji məqsədlərin həyata keçirilməsində, ümumiyyətlə insanların həyata hazırlanması prosesində mühüm rol oynayır. Ailə tərbiyəsinə ata-ana, valideyn övlad münasibətləri, uşaqların fiziki sağlamlığı, düzgün, - yəni cəmiyyətin tələblərinə uyğun şəkildə tərbiyə olunması daxildir.

Ailə, onun göstərdiyi tərbiyəvi təsirlər insanları bütün ömrü boyu müşayət edir. Ailənin qorunması, ailədə sağlam qarşılıqlı münasitbətlərin təşkili ailə başçılarından, onların pedaqoji ustalığından çox asılıdır.

Pedaqoji proses isə sistemli təlim və tərbiyə müəssisələrində insanların həyata hazırlanması prosesini əhatə edir. Bu uşaq bağçalarından başlayaraq müxtəlif tip təhsil müəssisələri, orta ümumtəhsil məktəbləri, litseylər, gimnaziyalar, seminariyalar; ali təhsil müəssisələri (institutlar, universitetlər, ali hərbi məktəblər, akademiyalar, musiqi və rəssamlıq akademiyaları və s.) aspirantura, elmi-tədqiqat işləri, müxtəlif yaradıcılıq fəaliyyətləri və s. əhatə edir.

Məhz insanların sistemli, məqsədyönlü şəkildə həyata hazırlanması işi pedaqoji proses qarşısında qoyulmuş birinci, əsas vəzifədir. Daha doğrusu, pedaqoji proses insanların bilavasitə həyata hazırlanmasına xidmət edir.

Təlim – öyrədənin rəhbərliyi ilə öyrənənlərin həyatı dərk etməsi və bu əsasda bilik, bacarıq, vərdişlərə

Tərbiyə – insanlarda fəaliyyət formalaşdırma, yəni insanlarda cəmiyyətin müəyyən etdiyi əxlaq normaları, davranış qaydalarına yiyələndirmə prosesidir.

Deməli pedaqogika insanları bilik, bacarıq, vərdişlərə yiyələndirərək, onlarda cəmiyyətin müəyyən etdiyi əxlaq normaları və davranış qaydalarına uyğun münasibət formalaşdıraraq, həyata hazırlanması

haqqında elmdir. İnsanların həyata hazırlanması problemi bütün dövrlərdə mövcud olmuş və onun vəzifələri hər dövrün özünün ictimai-iqtisadi tələbləri əsasında müəyyən edilmişdir

Müasir dövrdə pedaqogikanın vəzifələri cəmiyyətin tələbləri baxımından təlim, tərbiyə və təhsilin aktual problemlərini, pedaqoji gerçəklik problemlərini, insanların həyatının və fəaliyyətinin düzgün qurulmasında pedaqogikanın rolunu; pedaqoji prosesin ayrı-ayrı sahələrinin məqsədi, məzmunu, vasitələri, səmərəli üsullarını müəyyən etməkdən ,inkişaf etdirib zənginləşdirməkdən ibarətdir.

İnsanların həyata hazırlanması bəşəri və əbədi prosesdir. Çünki o, insanlara, insan cəmiyyətinə, onun mövcudluğuna aid olan bir prosesdir. Onun aşağıdakı mənbələri mövcuddur.

1. Nəzəri klassik irs – bura klassik pedaqoqların nəzəri fikirləri, müxtəlif dövrlərdə yaşamış mütəfəkkirlərin pedaqoji görüşləri, təlim, tərbiyə, təhsil haqqında fikirləri; həmçinin müxtəlif fəlsəfi, dini cərəyanların pedaqogikaya təsiri daxildir.
2. Müasir pedaqoji nəzəriyyələr.
3. Maarif, təlim, təhsil, tərbiyə və onların aktual problemləri haqqında dövlət sərəncam və qərarları.
4. Xüsusi metodikalar.
5. Qabaqcıl təcrübə.

Nəzəri klassik irsə qədim dövrlərdən son zamanlara qədər klassik filosofların təlim və tərbiyəyə aid mövqeyləri, nəzəri işləri, müxtəlif tarixi dövrlərdə mövcud olmuş təhsil sistemləri daxildir. Həmçinin, klassik pedaqoqların nəzəri fikirləri və təcrübi işləri də bura daxildir.

Müasir pedaqoji nəzəriyyələrə isə, indiki dövrdə yaşayan pedaqoqların nəzəri fikirləri, pedaqoji təcrübələrin nəticələri, təlim, tərbiyə və təhsilin ayrı-ayrı sahələrinə aid nəzəri fikirləri, elmi kəşfləri daxildir.

Təlim, tərbiyə və təhsil haqqındakı qərar və qətnamələrdə maarif və təhsil qarşısında qoyulan vəzifələr öz əksini tapır. Bu qərarlar da cəmiyyətin pedaqoji proses qarşısında qoyduğu vəzifələr öz əksini tapır. Daha doğrusu, bu qərarlarla inkişaf, texniki, ictimai-siyasi tərəqqi ilə təlim, tərbiyə, təhsil – pedaqoji proses əlaqələndirilir.

Ümumi pedaqoji nəzəriyyələr xüsusi metodikalar vasitəsi ilə reallaşır və təsdiq edilir. Xüsusi metodikalar müəyyən mənada, pedaqoji yeniliklərin mənbəyi kimi çıxış edir. Beləki, təlim, təhsil və tərbiyəyə aid yeniliklər əvvəlcə xüsusi metodikalarda üzə çıxarılır, sınaqdan keçirilir, sonra digər sahələrə tədbiq edilərək həyata vəsiqə alır. Deməli, xüsusi metodikalar nəzəri cəhətdən ümumpedaqoji müddəalara istinad etməklə, həm də onların inkişaf edib zənginləşdirilməsinə səbəb olur. Qabaqcıl müəllimlərin yaradıcılıq işləri də pedaqogikanın inkişafında əhəmiyyətli yer tutur. Beləki, müəllimlərin öz işlərinə yaradıcı yanaşması nəticəsində yeni qabaqcıl təcrübələr meydana çıxır. Belə səmərəli işlər, təcrübələr əsasında isə yeni ideyalar, elmi fikirlər, nəticələr üzə çıxarılır, müəyyən edilir. Yeni tədqiqat sahələri üzə çıxarılır. Hər bir elmdə olduğu kimi, pedaqogikanın da xüsusi tədqiqat metodları mövcuddur. Bu tədqiqat üsulları pedaqoji prosesin və pedaqoji fəaliyyətin spesifik xüsusiyyətlərinə uyğun müəyyən edilmişdir və pedaqoji prosesin xüsusiyyətlərini özündə əks etdirir.

Pedaqogikanın ən ümumi tədqiqat metodlarını aşağıdakı şəkildə ümumiləşdirmək olar: müşahidə, müsahibə, eksperiment, sənədlər, elmi pedaqoji mənbələr, ədəbiyyatın öyrənilməsi, tərbiyə olunanların yaradıcılıq fəaliyyətlərinin öyrənilməsi. Bu tədqiqat metodları pedaqoji gerçəkliyin butun sahələrindəki tədqiqatlara da tədbiq olunur. Bu metodların tədbiqi zamanı tədqiq edilən sahənin, prosesin spesifik xüsusiyyətləri nəzərə alınır.

Hər hansı bir pedaqoji işi təbii vəziyyətdə öyrənmək üçün pedaqoji müşahidələrdən istifadə edilir. Pedaqoji müşahidə işin, prosesin gedişinə hər bir müdaxilə etmədən onu mövcud vəziyyətdə öyrənməyə xidmət edilir. Onu təşkil edərkən tədqiqatçı əvvəlcədən tərtib etdiyi plan əsasında hərəkət edir. Müşahidə zamanı tədqiqatçı, müəllim, tərbiyəçi, təlimatçı araşdırmaq istədiyi məsələnin mövcüd, yəni indiki zamandakı vəziyyətini öyrənməyə çalışır. Ona görə də müşahidə zamanı müşahidəçi işin qedişinə heç bir müdaxilə etmir. Müşahidə metodu pedaqoji gerçəkliyin bütün sahələrində tətbiq edilir. Beləki, təlimin müxtəlif mərhələləri, təlimdə tərbiyə işlərinin qoyuluşu, təhsilin bütün sahələri, məktəbşünaslıq, məktəbin idarə olunması, pedaqoji ustalıq, məktəbdənkənar tərbiyə müəssisələrindəki təlim işləri, dərnəklər, tərbiyəvi tədbirlər, digər asudə vaxt tədbirlərin tərbiyəvi əhəmiyyəti, mədəniyyət müəssisələrinin tərbiyə fəaliyyəti, teatr və digər müəssisələrin tərbiyə fəaliyyəti, inzibati dövlət orqanlarının tərbiyə fəaliyyəti və s. sahələrdə aparılan tədqiqat işlərində geniş istifadə edilir. Pedaqoji müşahidədən təkcə tədqiqatçılar deyil, həm də tərbiyə və təlimlə bu və digər səviyyədə məşğul olan şəxslər öz fəaliyyətlərini səmərəli təşkil etmək üçün də istifadə edirlər. Məsələn, hər müəllim dərs dediyi şagirdləri, təlimatçı, işlədiyi insanları, dərnək rəhbəri dərnək üzvlərini öyrənmək, onların inkişaf səviyyələrini düzgün müəyyənləşdirmək üçün, qabaqcıl müəllimin iş təcrübəsini öyrənmək məqsədi ilə müşahidələr aparılır. Rejissor - aktyor münasibətlərini üzə

çıxarmaq və ya rejissorun aktyora təsiri vasitələrini öyrənmək üçün rejissorun məşq zamanı fəaliyyəti teatr tədqiqatçıları müşahidə edilir və s.

Məktəbdənkənar və ya mədəniyyət müəssisələrində aparılan tərbiyə işləri – tədbirlərin uşaqlara, yaşlılara göstərdiyi təsiri öyrənmək üçün işin təşkili və gedişi üzərində müşahidə aparılır. Müşahidənin səmərəli və obyektiv aparılması üçün aşağıdakı şərtlərə riayət olunmalıdır; müşahidə məqsədi dəqiq və aydın olmalıdır; müşahidə obyekti əvvəlcədən myəyyən olunmalıdır; müşahidə zamanı hadisənin gedişinə heç bir müdaxilə edilməməlidir; müşahidənin nəticələri qeyd edilməli və ümumiləşdirilməlidir.

Müsahibə hər hansı bir pedaqoji məsələni sual-cavab, söhbət vasitəsilə aydınlaşdırmağa deyilir. Müşahidə zamanı hadisəyə müdaxilə edilmədiyi üçün onun mahiyyəti bəzən tam şəkildə açılmır. Bu nöqteyi nəzərdən müsahibə əhəmiyyətli yer tutur. Müsahibədən həm mövcud vəziyyəti öyrənmək, həm tədqiqatın gedişi prosesində, həm də nəticəni aydanlaşdırmaq üçün istifadə edilir. Müsahibə həm yazılı, həm də şifahi şəkildə aparıla bilər. Hər iki halda nəticə ümumiləşdirilməlidir. Müsahibə təbii və normal psixoloji şəraitdə, lakonik, məntiqi, aydın cümlələrlə aparıldıqda daha səmərəli nəticə verir. Pedaqoji müsahibə metodundan pedaqoji gerçəkliyin bütün sahələrində aparılan tədqiqatlar zamanı geniş istifadə edilir.

Pedaqoji eksperiment tədqiq edilən pedaqoji məsələni xüsusi təşkil edilmiş şəraitdə öyrənməyə deyilir.

Tədqiqat zamanı irəli sürülmüş fərziyyə məhz eksperiment vasitəsilə təcrübədən keçirilir, yoxlanılır. Eksperiment zamanı öyrənilən hadisə, pedaqoji fakt əvvəlki, təbii vəziyyətindən fərqli, tədqiqatçının irəli sürdüyü fərziyyə əsasında təşkil edilir. Məsələn, təlimə aid aparılan tədqiqat irəli sürülmüş fərziyyə təlim prosesində tədqiqatçının irəli çürdüyü metod əsasında xüsusi şəraitdə aparılır.

Mədəniyyət müəssisələrində insanların tərbiyəsinin səmərəli təşkilinə aid aparılan tədqiqat işi həmin müəssisədə tədqiqatçının irəli sürdüyü metod əsasında, təklif etdiyi xüsusi şəraitdə aparılır.

Eksperiment metodu istehsal müəssisələrində işçilərin təkmilləşdirilməsi, yeni bacarıq və vərdişlərə yiyələnə; inzibati dövlət orqanlarının tərbiyə fəaliyyəti; mədəniyyət, səhiyyə, idman kompleksləri, kütləvi infformaçiya vasitələrinin tərbiyəvi fəaliyyətinə aid tədqiqat işlərində də tədbiq edilir. Müaisr dövrdə pedaqoji eksperiment ən aktual problemlərdən biridir.

Pedaqoji eksperiment zamanı tədqiqatçı ona lazım olan şəraiti özü yaradır. Səmərəli nəticə almaq üçün şəraiti istədiyi zaman dəyişir. Pedaqoji eksperiment üsulundan təqdiqatçılarla yanaşı tərbiyə işi ilə məşğul olan yaradıcı şəxslər də istifadə edirlər.

Pedaqoji eksperiment üsuluna keçid dövrlərində daha çox ehtiyac vardır. Çünki yeni ictimai-iqtisadi quruluşa keçid, yeni insan formalaşdırılması prosesi yeni-yeni eksperimentlər qoymağı tələb edir.

Sənədlərin araşdırılması və öyrənilməsi də tədqiqat işində böyük əhmiyyətə malikdir. Təhsil müəssisələrində təhsil alanların təlim müvəffəqiyyətini, müxtəlif dövrlərdə aparılan tərbiyə tədbirləri, tərbiyəvi işlərin təşkili, tərbiyə tədbirlərinin formalarını, məktəbkənar tərbiyə müəssisələri, mədəniyyət müəssisələri, ayrı-ayrı dövrlərdə incəsənətin və digər ictimai təşkilatların apardıqları tərbiyə tədbirləri, onların insan formalaşdırılması işindəki rolunu öyrənməkdə sənədlər və onların araşdırılması əhəmiyyətli yer tutur. Həmçinin, pedaqogika tarixinə aid tədqiqatlarda, məktəb və maarif müəssisələrinin yaranması, təşkili formalarının öyrənilməsində də sənədlər, yazılı ədəbiyyat, arxiv materiallarının öyrənilməsi xüsusi əhəmiyyətə malikdir.

Tərbiyə olunanların yaradıcılıq fəaliyyətinin öyrənilməsi də əhəmiyyətli pedaqoji tədqiqat metodlarından biridir. Yaradıcılıq fəaliyyəti dedikdə tərbiyə olunanların çəkdiyi şəkillər, bədii əsərlər, əl işləri, bədii tikişlər, quraşdırılmış cihazlar, modellər, maketlər, yazılmış musiqi əsərləri, müxtəlif məzmunlu tablolar və s. nəzərdə tutulur. Tədqiqat işində hər hansı bir məsələnin araşdırılmasında tərbiyə olunanların bu yaradıcılıq işlərinə də müraciət edilir. Buna xüsusilə insanların asudə vaxtlarının səmərəli təşkilinə aid aparılan tədqiqat işlərində daha çox ehtiyac olur. Bu metodlardan başqa pedaqogikanın təhlil və tərkib, induktiv və deduktiv, riyazi hesablama kimi üsulları da mövcuddur ki, tədqiqat prosesində bunlardan da istifadə edilir.

Yuxarıda qeyd edilən tədqiqat üsulları biri-biri ilə qarşılıqlı əlaqədədir, biri- digərinin mövcudluğunu təmin edir.

**Pedaqoji elmlər sistemi.**

Pedaqoji elmlər sistemi dedikdə, pedaqogikaya daxil olan elmlərin məcmusu nəzərdə tutulur. Pedaqoji elmlər sisteminə aşağıdakılar daxildir: məktəbəqədər pedaqogika, məktəb pedaqogikası, orta ixtisas məktəbi pedaqogikası, xüsusi pedaqogika, ali məktəb pedaqogikası, hərbi pedaqogika, xalq pedaqogikası, istehsalat pedaqogikası, mədəni fəaliyyət pedaqogikası, xüsusi metodikalar, pedaqogika tarixi, ailə pedaqogikası, sosial pedaqogika, müqayisəli pedaqogika və s.

Məktəbəqədər pedaqogika anadan olandan məktəbə gedənə qədər uşaqların təlim-tərbiyəsinin, məktəbə hazırlanmasının aktual problemlərini tədqiq edir. Bu dövrdə uşaqların hazırlığı əsasən psixoloji inkişafa istinad edir. Uşaqların minimum səviyyədə həyata hazırlanması məsələləri araşdırılır.

Məktəb pedaqogikası orta ümumtəhsil məktəblərində uşaq və yeniyetmələrin həyata hazırlanmasının aktual problemlərini əhatə edir. Pedaqogikanın bu tərkib hissəsi də öz növbəsində ibtidai, natamam orta, orta olmaqla üç hissəyə ayrılır. Bura həmçinin litseylərdə, gimnaziyalarda təlim, tərbiyə, orta təhsil məsələləri, onların əsas problemləri də daxildir.

Orta ixtisas məktəbi pedaqogikası orta ixtisas məktəbləri, seminariyalar, kolleclər, gimnaziyalar, texnikumlarda pedaqoji işin spesifik xüsusiyyətlərini: təlim, tərbiyə, təhsilin aktual problemlərini tədqiq edir.

Xüsusi pedaqogika əqli və fiziki cəhətdən nöqsanlı uşaq və yeniyetmələrin təlim, tərbiyə və təhsili problemlərini araşdırır və defektologiya adlanır. Bura: surdopedaqogika – lal və kar uşaqların təlim-tərbiyəsini öyrənən pedaqogika;

oliqofrenopedaqogika – əqli cəhətdən zəif inkişaf etmiş uşaqların təlim-tərbiyəsini tədqiq edən elm;

tiflopedaqogika – kor uşaqların təlim-tərbiyəsini tədqiq edən elm;

loqopediya – nitqi nöqsanlı olan uşaqların təlim və tərbiyəsi haqqında elm daxildir.

Ali məktəb pedaqogikası ali təhsil sistemi müəssisələrində – institut, universitet, akademiyalar və s. – pedaqoji prosesin aktual problemlərini araşdırır, təlim, tərbiyə, təhsilin məzmunu, səmərəli yol və vasitələri və s. məsələləri müəyyən edir.

Hərbi pedaqogika hərbi məktəblərdə, ali hərbi məktəblərdə, hərbi akademiyalarda, adi ali təhsil müəssisələrinin hərbi kafedralarında, hərbi hissələrdə, orta məktəblərdə, orta ixtisas məktəblərində gənclərin hərbi hazırlığı, hərbi təlimi, tərbiyə və təhsilini tədqiq edir.

İstehsalat pedaqogikası müxtəlif istehsalat müəssisələrində, idarə və təşkilatlarda aparılın tərbiyə işləri, cəmiyyətdə yaranan yeni problemlərlə bağlı aparılan tərbiyə işləri, formalaşdırılması, texniki inkişaffla bağlı yeni əmək və təlim bilik, bacarıq və vərdişlərinin formalaşdırılması və digər pedaqoji problemləri araşdırır.

Mədəni fəaliyyət pedaqogikası mədəniyyət müəssisələrində, klublarda, muzeylərdə, məktəbdənkənar tərbiyə müəssisələrində, radio, televiziya, teatr, konsert zallarında aparılan pedaqoji fəaliyyəti həmin müəssisələrdə tərbiyə, təlim məsələlərini, insanların asudə vaxtlarının səmərəli təşkili və bu prosesdə zəruri əxlaqi keyfiyyətlərə yiyələnmənin səmərəli yol və vasitələrini, məzmunu və s. bu kimi problemləri tədqiq edir.

Fənlərin tədrisi metodikası ayrı-ayrı fənlərin tədrisinin aktual problemlərini tədqiq edir. Ümumpedaqoji qanunları fənlərin spesifik xüsusiyyətlərinə uyğun şəkildə tədbiq edilməsini araşdırır. Yəni təlim, tərbiyə, və təhsilin prinsipləri, üsulları, elmi- pedaqoji yeniliklər fənnin spesifik xüsusiyytlərinə uyğun şəkildə tədbiq edilməsi məsələlərini araşdırır.

Pedaqogika tarixi bütün ölkələrdə pedaqogikanın yaranma və inkişafı tarixini öyrənir. Bu isə pedaqoji fikir və məktəb tarixi olmaqla iki yerə ayrılır. Pedaqoji fikir tarixi qədim dövrlərdən indiyə qədər pedaqoq, filosof və digər mütəfəkkirlərin nəzəri pedaqoji fikirlərini tədqiq edir. Məktəb tarixi isə müxtəlif dövrlərdə təşkil olunmuş məktəblər, təhsil sistemi, onların quruluşu və s. öyrənir.

Ailə pedaqogikası ailədə uşaqların tərbiyəsinin düzgün təşkili, ailədə düzgün münasibətlərin yaradılması, ailə ilə məktəb və digər tərbiyə müəssisələri arasında səmərəli əlaqə yaradılması, cəmiyyətlə ailənin tərbiyəvi təsirlərinin əlaqələndirməsi, bunların insanların həyata hazırlanması işinə təsiri və digər problemləri araşdırır.

Müqayisəli pedaqogika müxtəlif ölkələrdə mövcud olan təhsil sistemi, onların ümumi və spesifik xüsusiyyətlərini araşdırır.

Pedaqogikanın digər elmlərlə əlaqəsi.

Pedaqogika bütün elm sahələri ilə qarşılıqlı əlaqəlidir. Bu pedaqogikanın obyektinin xarakterindən irəli gəlir. Pedaqogika öz inkişafı prosesində həmin elmlərin çıxardığı nəticələrdən istifadə edir. Digər tərəfdən pedaqogika bütün elm sahələrinin son nəticələrinin böyüyən nəslə öyrətmənin səmərəli yol və vasitələrini,

öyrədiləcək məlumatların məzmununu, formalaşdırılacaq bacarıq və vərdişlərin məzmunu tədqiq edir, müəyyənləşdirir. Ona görə də onun bütün elm sahələri ilə əlaqəsi obyektiv zərurətdən, tələbdən doğur.

Pedaqogikanın fəlsəfə ilə əlaqəsi.

Məlumdur ki, dialektik və tarixi materializm təbiət və cəmiyyətin obyektiv ienkişaf qanuna uyğunluqlarını müəyyən edir. Bu qanunlar pedaqoji gerçəkliyin ayrı- ayrı sahələrində də fəaliyyət göstərir. Pedaqoji prosesdə insanların biliklərə yiyələnməsi və inkişafı fəlsəfi qanunlar əsasında baş verir. Təlim və tərbiyə prosesində mövcud olan ziddiyyətlər inkişafın əsasını təşkil edir. Digər tərəfdən elmi dünyagörüş varlığın obyektiv şəkildə dərk olunması, maddi aləm hadisələrinin qarşılıqlı əlaqə və vəhdətdə olduğunu qavraması, inkişaf və dəyişmənin zəruriliyinin dərk edilməsi əsasında baş verir. Bu isə pedaqogikanın fəlsəfə ilə qarşılıqlı əlaqəsi sayəsində mümkün olur.

Pedaqogikanın sosiologiya ilə əlaqəsi.

İnsanlar məhz tərbiyə vasitəsilə sosiallaşır, cəmiyyətin sosial təcrübəsinə qoşulur. İnsanlara formalaşma prosesində məqsədyönlü tərbiyə ilə yanaşı sosial mühit, sosial münasibətlər də təsir edir. Digər tərəfdən tərbiyəvi təsirlər bilavasitə sosial mühitdə reallaşır, həyata tədbiq edilir.

Deməli insandan, onun arzu və istəyindən asılı olmayaraq o, sosial mühitlə qarşılıqlı əlaqəyə girir. Pedaqoji proses isə bu qarşılıqlı əlaqəyə nəzarət etməli, sistemli tərbiyəvi təsirlərlə sosioloji təsir arasında məqsədyönlü, səmərəli düzgün münasibət yaratmalıdır.

Pedaqogikanın fiziologiya ilə əlaqəsi.

Pedaqogika fiziologiya ilə bilavasitə bağlıdır. Xarici təsirlər baş beyin qabığında özünə müvafiq mərkəzi oyandırır, oxşar qıcıqlandırıcılar isə bir mərkəz oyandırır. Bu isə oxşar əşyaların çətin fərqləndirilməsinə səbəb olur. Fiziologiya isə öyrədir ki, oxşar qıcıqlandırıcıları elə fərqli cəhətlərini tapmaq lazımdır ki, izah zamanı o, bir deyil, iki mərkəz oyandırsın. Bu isə fiziologiyanın pedaqogikaya inkişafetdirici təsiridir. Digər tərəfdən insan böyüdükcə onun fiziki və fizioloji imkanları da dəyişir. Təlim-tərbiyə, formalaşdırma işində bu dəyişmənin spesifik cəhətləri nəzərə alınır, pedaqoji proses inkişaf və dəyişməni öz arxasınja aparmaqla onu düzgün istiqamətə yönəldir.

Pedaqogikanın psixologiya ilə əlaqəsi.

Pedaqogika psixologiya ilə qarşılıqlı əlaqəlidir. Bu əlaqə insan psixikası əsasında yaranır. İnsanların psixi xüsusiyyətləri daim inkişafda və dəyişmədədir. Pedaqoji prosesdə mütləq bu dəyişmə və inkişaf nəzərə alınmalıdır. Digər tərəfdən müxtəlif yaş dövrlərində tərbiyə olunan insanlar fərdi psixoloji xüsusiyyətlərə malikdirlər. Təlim-tərbiyə prosesində bu fərdi psixoloji xüsusiyyətlərə istinad edilir, bu xüsusiyyətlərdən pedaqoji işin səmərəliliyini artırmaq üçün istifadə edilir.

İnsanlarda psixoloji proseslər, onların inkişafı pedaqoji prosesin müvəffəqiyyətini təmin edir. Yəni maddi aləmin dərk olunmasında hafizə, diqqət, təfəkkür, nitq, qabiliyyət və s. psixoloji proseslər mühüm rol oynayır.

Digər tərəfdən psixoloji proseslərin inkişafında pedaqoji proses vasitə rolunu oynayır. Məsələn, məsələ həllində təfəkkür əsas yer tutursa, məsələnin həlli prosesində həm də təfəkkür inkişaf edir, aydınlaşır. Ona görə də pedaqoji fəaliyyət göstərən, insanların formalaşmasında hər hansı çolu olan hər kəs həm də psixologiyanı bilməli, insanlarda psixoloji xüsusiyyətlərin inkişafı haqqında əsaslı, elmi məlumata malik olmalıdır.

Pedaqokanın etika ilə əlaqəsi.

Pedaqogika etika ilə qarşılıqlı əlaqəlidir. Fəlsəfi elm olan etika, əxlaq tərbiyəsinin əsasını təşkil edir. Pedaqoji prosesdə əxlaqın meydana gəlməsi, təşəkkülü haqqında məlumatlar da əhəmiyyətli yer tutur.

Pedaqogika həmçinin gigiyena, genetika, erqonomika, ədəbiyyat, incəsənət və s. –lə də qarşılıqlı əlaqədədir.

Müstəqil iş üçün sual və tapşırıqlar:

1. Pedoqoji gercəklikdə mədəniyyət müəssisələrinin yeri.
2. İctimai mədəni fəaliyyətə verilən pedoqoji tələblər.
3. İnsanların yaradıcı fəaliyyətinin pedoqoji əsasları.

# PEDAQOJİ FİKİR, MƏKTƏB
# VƏ MAARİFİN İNKİŞAFI TARİXİNƏ DAİR

Yuxarıda qeyd etdik ki, pedaqoqikanın tərkib hissələrindən biri də «Pedaqoqika tarixidir». Pedaqoqika tarixi özü də məktəb və pedoqoji fikir tarixi olmaqla iki yerə ayrılır. Pedoqoji fikir tarixi müxtəlif dövr və cəmiyyətlərdə meydana gəlmiş pedaqogikaya aid təlim, təhsil və tərbiyənin müxtəlif sahələrinə aid nəzəri fikirləri əhatə edir. Bu nəzəri fikirlərə istinad edilmədən yeni insan formalaşdırılması işini daha da təkmilləşdirmək, yeni səmərəli üsul və vasitələr kəşf etmək təcrübəni nəzəri cəhətdən əsaslandırmaq, nəzəri yeni fikirləri qneseoloji cəhətdən əsaslandırmaq da mümkün deyildir. Həmçinin, məktəb tarixinin tədqiq edilməsi, yeni məktəb təlimin təşkili formalarını təkmilləşdirməyə də imkan yaradır. Ona görə də müxtəlif dövrlərdə yaradılmış məktəblər, onların təşkili, quruluşunu öyrənmək həmişə aktual olmuşdur. Bunlarla bərabər həmçinin tərbiyənin meydana gəlməsi, inkişafı, bəşər cəmiyyətində onun rolu, əhəmiyyəti həmişə pedaqoqları düşündürmüş və onları bu sahədə tədqiqatlar aparmağa məcbur etmişdir. Bu sahədə müxtəlif ziddiyyətli fikirlərdə meydana çıxmışdır. İnsanların təhsil müəssisələrində formalaşdırılması, həyata hazırlanmasına aid bütün dövr və cəmiyyətlərdə mübahisəli fikirlər mövcud olmuşdur. İnsan cəmiyyəti, məhsuldar qüvvələr inkişaf edib dəyişdikcə tərbiyə, böyüyən nəslin biliklərə yiyələnmə sistemi də dəyişib inkişaf etmişdir. Məsələn, ilk ictimai quruluş olan ibtidai icma quruluşunda hər şey hamıya məxsus olduğu kimi tərbiyə də ümumi xarakter daşıyırdı. Bu dövrdə insanlar əsasən təbiətin hazır məhsullarından istifadə edir, ovla məşğul olur, əldə edilmiş ov hamıya bərabər bölünür, bu prosesin şahidi olan uşaqlar da həmin ruhda tərbiyə olunurdular. Tərbiyə işləri olduqca sadə idi. Uşaqlar ümumi olduqlarından onların tərbiyəsi ilə də hamı məşğul olurdu. Onlara həyat üçün zəruri olan əmək vərdişləri aşılanırdı. Getdikcə oğlanlarla qızların tərbiyəsində fərq əmələ gəldi: qızlar ev işlərilə məşğul olar, qab-qacaq hazırlamaqla, oğlanlar isə silah, ov alətləri hazırlamaqla və ovda iştirak etməyə başladılar.

Gənclərin tərbiyəsi xüsusi adamlara tapşırılmağa başladı. Onlara əmək, bacarıq vərdişləri ilə yanaşı, bir sıra dini mərasimlər, qəhrəmanlar haqqında rəvayətlər, əfsanələr və s. haqqında məlumatlar da verilirdi. Oğlanlar yetkinlik dövründə tam hüquqlu icma üzvü kimi böyüklər sırasına keçmək üçün ağsaqqalar yığıncağı qarşısında ciddi yoxlamadan keçməli idilər. Göründüyü kimi ibtidai icma quruluşunda da tərbiyə diqqət mərkəzində olmuşdur. Lakin məhsuldar qüvvələr inkişaf etdikcə «sənin, mənim» anlayışı əmələ gəlməyə başladı, xüsusi mülkiyyət, quldarlıq və təkailəlik meydana gəlir. Bununla əlaqədar olaraq ibtidai cəmiyyətdə təbəqələşmə əmələ gəlir. Fərdi kəbin meydana gəlir. Əhali arasında kahinlər (yarı elm, yarı din adamları), sərkərdələr və ağsaqqalar meydana gəlir. Kahinlərin rəhbərliyi ilə xüsusi məktəblər yaranır.

<u>Quldarlıq dövründə tərbiyə.</u>

Quldarlıq dövründə Şərq ölkələrində elm, mədəniyyət, maarif, incəsənət Qərb ölkələrinə nisbətən yüksək səviyyədə inkişaf etmişdir. Məsələn, Qədim Çində fəlsəfə, astronomiya, riyaziyyat və s. elmlər digər ölkələrə nisbətən yüksək səviyyədə inkişaf etmişdir. Qədim Çində ibtidai və yuxarı dərəcəli dini səciyyəli fəlsəfi məktəblər mövcud olmuşdur. Bu məktəblərdə oxu-yazı heroqlif işarələrlə aparılırdı, dövrünün məşhur yazıçılarının əsərləri, fəlsəfə, astronomiya (nücum), əxlaq və s. öyrənilirdi.

Çinlə digər şərq ölkələrində də, məsələn, Hindistan, Misir və digər ölkələrdə mədəniyyət və maarif inkişaf etmişdir.

Hindistanda yaranmış icma məktəbləri bir neçə min il yaşamışdır. Hindistanın fiziki-coğrafi şəraiti ilə bağlı olaraq burada fizika, astronomiya, coğrafiya, tibb, riyaziyyat digər ölkələrə nisbətən yüksək şəkildə inkişaf etmişdir. Hindistanda əsasən iki tip məktəblər fəaliyyət göstərirdi: 1. Yüksək imtiyazlı şəxslər üçün olan məktəblər. Bu məktəblər həm də saray kahinləri hazırlayırdı. 2. Xırda məmur hazırlayan məktəblər. Birinci tip məktəblərdə heroqlif yazı işarələrindən, ikinci tip məktəblərdə isə heratik yazı işarələrindən istifadə edilirdi. Həmin məktəblərdə cəzalandırmada cismani (bədən) cəzadan da istifadə edilirdi, (xüsusilə aşağı təbəqə üçün olan məktəblərdə). Qulların uşaqları təhsil hüququndan məhrum idilər. Onlar həyat üçün zəruri olan bütün bacarın və vərdişləri ancaq valideynlərindən alırdılar.

Quldarlıq dövründə <u>Yunanıstan</u> öz inkişafına görə xüsusilə fərqələnirdi. Bu ölkədə elm, mədəniyyət, maarif, incəsənət, fəlsəfə, ədəbiyyat digər ölkələrə nisbətən daha yüksək şəkildə inkişaf etmişdir. Yunanıstan ərazisində çoxlu xırda dövlətlər mövcud idi. Bu dövlətlər içərisində Lakoniya və Attika dövlətləri xüsusi yer tuturdu. Həmin ölkələrdə olan maarif sistemləri bu ölkələrin paytaxt şəhərlərinin adı ilə bağlı pedaqogika tarixinə Sparta və Afina tərbiyə sistemi kimi daxil olmuşdur.

<u>Sparta tərbiyə sistemi.</u>

Spartada qulların amansız istismarına istinad edilirdi. Ona görə də tez-tez qul üsyanları baş verirdi. Burada tərbiyənin əsas məqsədi fiziki cəhətdənsağlam, döyüşkən quldarlar yetişdirməkdən ibarət idi. Həm də itayətkar, sağlam, işlək qullar tərbiyə edilirdi. Spartada tərbiyə tam dövlətin ixtiyarında idi, və burada aşağıdakı tərbiyə sistemi mövcud idi.

7 yaşa qədər uşaqlar ailədə tərbiyə alırdılar.

7 yaşdan 18 yaşa qədər dövlət tərbiyə müəssisələrində xüsusi pedanomların (nəzarətçi) rəhbərliyi altında tərbiyə alırdılar.

18-20 yaşlarında xüsusi efeb qruplarında hərbi hazırlıq keçirdilər.

20 yaşdan 30 yaşına qədər isə tam hüquqlu legion olurdular.

Spartada tez-tez qul üsyanları və qonşu dövlətlərin basqını baş verdiyi üçün qızlara da hərbi təlim verilirdi.

Afina tərbiyə sistemi.

Afina da Sparta kimi əkinçiliklə məşğul olurdular. Lakin burada həm də sənətkarlıq və ticarət də inkişaf etmişdi. Afinada həmçinin fəlsəfə, ədəbiyyat, incəsənət, heykəltaraşlıq, riyaziyyat, tarix və s. elmlər yüksək şəktldə inkişaf etmişdir. Afinada 7 yaşa qədər uşaqlar ailədə tərbiyə alırdılar.

7 yaşdan 13-14 yaşa qədər qrammatika və kifara (musiqi ) məktəblərində təhsil alırdılar. Bu məktəblərdə uşaqlar oxu, yazı, riyaziyyat və musiqi öyrənirdilər. Təhsil ya ardıcıl və ya parallel şəkildə aparılırdı. Təhsil pullu idi. Məktəbdə uşaqlara didaskal-müəllimlər dərs deyirdilər. Pedaqogikanın didaktika bölməsinin mənası da buradan götürülmüşdür. Uşaqları məktəbə aparan qullar pedaqoq adlanırdı.

13-14 yaşdan sonra uşaqlar iki illik palestra (idman) məktəblərində idmanın beş növü üzrə, qaçmaq, hoppanmaq, güləşməq, ox atmaq, üzmək, hazırlıq keçirdilər. Gənclərin əksəriyyəti üçün təhsil bu səviyyədə bitirdi. Dövlətli gənclər isə dövlətin idarə olunmasında iştirak etmək üçün xüsusi gimnaziyalarda fəlsəfə, ədəbiyyat və siyasət öyrənirdilər.

18-20 yaşlarda gənclər Spartada olduğu kimi Afinada da xüsusi efeb qruplarında hərbi hazırlıq keçirdilər. 20-30 yaşlarında tam hüquqlu leqion olurdular. Afinada təhsil pullu xüsusi məktəblərdə aparılırdı. Ona görə də sistemli təlim müəssisələrində ancaq varlı uşaqları təhsil ala bilərdilər. Qul uşağları isə təlimi ancaq öz valideynlərindən ala bilərdilər. Əgər valideyn qul öz peşəsini övladına öyrətməsə o, gələcəkdə övlad qayğısından məhrum edilirdi. Afinada qızlara hərbi təlim verilmirdi.

Qədim Yunanıstanda müxtəlif tip məktəblər və nəzəriyyəçilər mövcud idi. Öz pedaqoji nəzəriyyələri və görüşlərinə görə Platon xüsusilə fərqlənirdi.

Platonun pedaqoji görüşləri.

Platon obyektiv idealist fəlsəfi nəzəriyyənin banisidir. O, aləmi iki yerə: keçici hadisələr (bu dünya), əbədi ideyalar (axirət) dünyalarına bölürdü. Platona görə çoxlu ideyalar mövcuddur. Bunların ən alisi Allahdır. Onun fikrincə insan anadan olarkən onun ruhu ruhlar aləmindən ayrılıb, bədəni ilə birləşir, ölərkən isə ruh bədəndən ayrılıb, ruhlar aləmi ilə birləşir. O, ruhu üç yerə – ağıl, iradə, hiss bölürdü. Buna uyğun olaraq da insanlar üçün üç əxlaqi keyfiyyət müəyyən etmişdir: müdriklik, mərdlik və mötədillik. Bu əxlaqi keyfiyyətlərə uyğun olaraq da insanları üç qrupa bölürdü – sərkərdələr, filosoflar, əkincilər. Filosoflar, ölkəni idarə etməlidilər sərkərdələr ölkəni müdafiə etməlidirlər, əkincilər ölkəni maddi nemətlə təmin etməlidirlər. O, tərbiyə işinə ciddi yanaşır, onu dövlət işi hesab edir, dövlətin gələcəyinin, müəyyən mənada, ondan asılı olduğunu qeyd edirdi. O, aşağıdakı tərbiyə sistemini müəyyən etmişdir:

3-6 yaşlı uşaqlar xüsusi dövlət meydan çalalarında oyunlarla tərbiyə almalıdırlar.

7-12 yaşlarında dövlət məktəblərində oxu, yazı, hesab, musiqi və s. öyrənməlidirlər.

12-16 yaşlarında polestra məktəblərində fiziki hazırlıq keçməlidirlər.

16-18 yaşlarında əməli əhəmiyyət kəsb edən elmlər (riyaziyyat, həndəsə, astronomiya və s.) öyrənməlidilər.

18-20 yaşlarında efeb qruplarında hərbi və mülkü təcrübə keçməlidərlər.

20-30 yaşa qədər isə hərbi xidmətə getməli, legion olmalıdılar.

Əqli qabiliyyətləri yüksək inkişaf etmiş gənclər isə hərbi xidmətə deyil təhsilin üçüncü səviyyəsinə keçməlidirlər. Yəni 20 yaşdan 30 yaşa qədər təhsil almalıdırlar. Xüsusi istedada malik olanlar isə yenidən 5 il oxuduqdan sonra dövlət işində çalışa bilərdilər. Həmin adamlar 50 yaşdan sonra dövlət işindən çıxıb elmi-tədqiqat işi ilə məşğul olmalıdırlar.

Platon qızların hərbi təliminə yüksək qiymət verirdi. O, qullara münasibətində mürtəce mövqe tutaraq onları «danışan alətlər» hesab edirdi.

Aristotelin pedaqoji görüşləri.

Aristotel (Ərəstu) də öz tərbiyə münasibətləri ilə xüsusi yer tuturdu. O, öz müəllimi Platondan fərqli olaraq ruhu və bədəni qarşılıqlı vəhdətdə olan maddə və forma hesab etmişdir.

O, ruhları üç qrupa ayırmışdır:

1. Bitki ruhu (bu qidalanma və artma ilə səciyələnmir).
2. Heyvan ruhu (bu hiss və arzuya malik olması ilə fərqlənir)
3. İnsan ruhu (bu bilik və təfəkkürlə səciyyələnmir)

Pedaqogika tarixində ilk dəfə olaraq Aristotel inkişafı dövrlərə bölmüşdür:

1. Bitki dövrü – 7yaşa qədər olan dövr.
2. Heyvani dövr – 7-14 yaşa qədər dövr.
3. İnsani dövr – 14-21 yaş dövrləri

7 yaşa qədər uşaqların fiziki inkişafı qayğısına qalmaq. Onların düzgün, sağlam böyüməsi üçün xüsusi qayğı göstərməyi lazım bilirdi.

Heyvani dövrdə uşaqlarda iradi, hissi və əxlaqi keyfiyyətlər formalaşdırmağı zəruri hesab edirdi.

14-21 yaşları isə əqli təhsilin ən səmərəli dövrü hesab edirdi.

O, insanların əxlaqi keyfiyyətlərində üç cəhəti irəli sürmüşdü: çatışmazlıq, artıqlıq, orta hədd (mötədillik).

Orta həddi bütün insanlar üçün kafi hədd hesab etmişdir.

Qədim dövrdə Azərbaycanda elm, maarif, mədəniyyət, fəlsəfə, riyaziyyat, astronomiya və s. inkişaf etmişdir. Azərbaycan ərazisində qədim dövrlərdə Aratta, Lullubu, Kuti, Manna kimi dövlətlər mövcud idi. Bu dövlətlərdə incəsənət, naxışlıq, memarlıq, maldarlıq, atçılıq, fəlsəfə, riyaziyyat və s. inkişaf etmişdir. Oxu və yazı, heroqlif işarələrlə aparılırdı. Əhali türk dilində danışır, oxuyur və yazırdı.

Qədim dövrdə Zərdüştün «Avesta» əsəri xüsusilə fərqlənirdi. Burada düzlük, doğruçuluq, paxıllığa qarşı barışmazlıq, zahiri və daxili paklıq, xeyirxah işlər görmək, kimsəsizlərə, yetimlərə həyan olmaq, qayğı göstərmək mühüm və zəruri əxlaqi keyfiyyət sayılırdı. Bu əsərdə göstərilirdi ki, mövcud olanın əxlaqı təmiz olmalıdır. «Avesta»da deyilirdi ki, «tərbiyə həyatın ən zəruri sütunu hesab edilməlidir. Hər kəsi elə tərbiyə etmək lazımdır ki, o, oxumağı, yazmağı bacarmaqla yüksək pilləyə qalxa bilsin».

Burada tərbiyə dedikdə mənəvi, fəziki tərbiyə, oxu və yazı nəzərdə tutulurdu.

Qədim Romada tərbiyə.

Qədim Romada tərbiyənin məqsədi bacarıqlı əkinçi, qüvvətli döyüşçü, dindar şəxs tərbiyə etməkdən ibarət idi. Burada aşağı ibtidai və yuxarı dərəcədə qrammatik məktəblər mövcud idi. İbtidai məktəblərdə cəmiyyətin imtiyazsız təbəqələri təhsil alırdı.

Roma respublikasının son dövründə ritorik məktəblər meydana çıxdı. Bu məktəblərdə təhsil haqqı yüksək olduğundan ancaq yuxarı təbəqənin uşaqları fəlsəfə, huquq, yunan dili, riyaziyyat, musiqi və s. elmləri öyrənirdi.

Mark Fabiy Kvintilian Roma pedaqoqlarının ən görkəmli nümayəndələrindən biri idi (42-118). «Natiqlik tərbiyəsi haqqında» ki 12 cildlik əsərində o, pedaqogika tarixində ilk dəfə məktəb təcrübəsini əks etdirdi. Kütlük və istedadsızlığı o, insanlar üçün müstəsna hal hesab edirdi və onların istedadına inanırdı. Uşaqların istedadına yüksək qiymət verirdi. Onun fikrincə müəllimlər yüksək təhsilli, təmkinli, əxlaqca nümunəvi olmalı, uşaqları sevməli, onları dərindən öyrənməli, rəğbətləndirməyi və cəzalandırmağı bacarmalıdır. Riyaziyyatı təfəkkür tərbiyəsinin mühüm vasitəsi hesab edirdi. O, musiqi təhsilinə də yüksək qiymət verirdi.

Feodalizm dövründə məktəb və maarif.

Feodalizm dövründə cəmiyyət üç zümrəyə bölünürdü: dünya feodalları, ruhanilər və kəndlilər. VII – VIII əsrlərdə müsəlmanlıq qələbə çalmış, Asiya, Affrika və Avropanın bir çox ölkələrində yayılmışdır. Şərqdə elm – mədəniyyət inkişaf edirdi. IX əsrdə özbək alimi Mahmud Əl-Xorəzmi, XI-XIII əsrlərdə Azərbaycanda Xəqani Şirvani, Bəhmənyar, Mahmud Naxçıvani, Nizami Gəncəvi, Nəsirəddin Tusi və s. riyaziyyat, fəlsəfə, ədəbiyyat, astranomiya, triqonometriya, həndəsə və digər sahələrdə böyük elmi kəşflər etdilər.

Xəqani Şirvani elm adamlarına, elmi fəaliyyətə yüksək qiymət vermişdir. Sadəlik, təvazökarlıq kimi əxlaqi keyfiyyətləri yüksək qiymətləndirmişdir. Savadsızlıq və nadanlığa qarşı çıxırdı. Xəqani müəllimlik fəaliyyətinə, öyrənən hər kəsin zəhmətinə hörmətlə yanaşırdı.

Nizami Gəncəvi (İlyas Yusif oğlu) Orta əsrlərin ən görkəmli şəxsiyyəti olmuşdur. O, dövrünün bütün mövcud elmlərindən xəbərdar olmuşudur. Nizami Gəncəvi elmə, maarifə, biliklərə yiyələnməyə yüksək qiymət verirdi. O, göstərirdi ki, elm ictimai-faydalı xarakter daşımalı, millətinə, ölksinə, xalqına xidmət etməlidir. O, xalqı biliklərə yiyələnməyə, hüquqlarını dərk etməyə, mübarizliyə, haqsızlığa, xürafata qarşı durmağa çağırırdı. O, təlimə, onun tərbiyələndirici xarakterinə, onun insanı maddi və mənəvi cəhətdən yüksəltməsinə böyük əhəmiyyət verirdi. Nizamiyə görə təlimə kiçik yaşlarından başlanılmalı və bu onların ömrünün sonuna qədər davam etməlidir.

O, qızların da təhsil almasını zəruri hesab edirdi. Nizami təlimin məzmununa da toxunmuşdur. Qeyd etmişdir ki, məsciddən kanar məktəblərdə oxu, yazı, ərəb, fars, yunan dilləri, riyaziyyat, astronomiya, coğrafiya, poetika və digər təbiət elmləri tədris edilməlidir. Nizaminin XII əsrdə maarif haqqında söylədiyi fikirlər XVI əsr humanistlərinin, XVIII əsr Avropa maarifçilərinin ideyaları ilə eyni səslənirdi.

Nizami əsərlərində əxlaq tərbiyəsinə də toxunmuşdur. O, zülmə, ədalətsizliyə, işgəncəyə, pozğunluğa qarşı nifrət, barışmazlıq təbliğ edirdi. Acgözlüyü, tamahkarlığı pisləyir, insanları öz ehtirasının qulu

olmamağa çağırırdı. Onun tərbiyə mövqeyində xalqlar dostluğunun da xüsusi yeri vardır. Dostluğa yüksək qiymət verir, insanlar arasında yoldaşlıq münasibətlərini əsas əxlaqi keyfiyyət hesab edirdi. Nizami Gəncəvinin əxlaqi görüşlərində əmək tərbiyəsi əsas ana xətt kimi verilmişdir. Şair insan həyatının əsas mənasını əməkdə görürdü. Halal zəhmətlə yaşamağı ən böyük nemət hesab edirdi. O, əməyi insanlarda yüksək əxlaqi kyfiyyətlər fomalaşdırılması vasitəsi hesab edirdi. Müəllimə, böyüyən nəslin tərbiyəsində onun roluna yüksək qiymət verən mütəfəkkir onların geniş biliyə, saf əxlaqa, iti zehnə, pedaqoji ustalığa malik olmasını tələb edirdi.

Nəsirəddin Tusi (1201-1274) ensiklopedik biliyə malik olmuşdur. Avropanın bir çox görkəmli alimləri – Kepler, Kopernik, Dekart, Nyuton, Lobaçevski və başqaları hələ XIV əsrdə onun əsərlərindən istifadə etmiş, nəzəriyyəsinə istinad etmişlər. Tusinin astronomiya, riyaziyyat, triqonometriya sahəsindəki əsərləri nəinki öz dövrü üçün böyük əhəmiyyətə mialik olmuş, hətta müasir dövrdə də öz aktuallığını itirməmiş, həm təcrübədə istifadə edilir, həm də nəzəri məsələlərin elmi əsasına çevrilmişdir. Onun yuxarıda qeyd edilən görüşləri "Şəklül-qita", "Təhrir öqlidis", "Zic Elxani" əsərlərində verilmişdir. Pedaqoji görüşlərini "Əxlaqi Nasiri" əsərində şərh etmişdir. Bu əsərdə onun fəlsəfə, psixologiya, əxlaq, siyasət, tərbiyə dövlətçilik, Şərq fəlsəfəsi haqqında fikirləri, İslama münasibəti, "Quranın" ayələrindəki əxlaqi məsələlərə münasibəti izah edilmişdir. O, insanın formalaşmasına təsir edən amilləri ətraflı izah etmiş, insanın həyatda mövqe tutmasına xüsusi əhəmiyyət vermişdir. Onun fikrincə insan öz nəfsini onu zəiflədən şeylərdən saxladıqda onun daxili, mənəvi qüvvələri hərəkətə gəlir, elm öyrənmək, maariflənmək, həqiqəti dərk etmək və s. kimi fəaliyyətlərə başlayır. Elm və bilik əldə etmə prosesində bu daxili qüvvə getdikcə güclənir, insanı yeni-yeni yaradıcı fəaliyyətə təhrik edir. Nəsirəddin Tusiyə görə özünün zəifləməsinə imkan vermədən daim inkişaf edib təkminləşən insanı kamil şəxs adlandırmaq olar. Kamillik dərəcəsi isə genişdir. İnsanın kamilləşməsində isə iradə, inam, əhval, onların qarşılıqlı əlaqəsi mühüm yer tutur. O, tərbiyədə irsiyyət, mühit və tərbiyəni eyni dərəcədə əhəmiyyətli hesab etmişdir. Əsərdə təlim və tərbiyənin insanın formalaşmasında həlledici rolu elmi faktlar və nümunələrə istinad edilərək əsaslandırılmışdır. Nəsirəddin Tusi ailə tərbiyəsinə də xüsusi əhəmiyyət vermişdir.

Bir sıra Şərq ölkələrində ibtidai və yuxarı tipli məktəblər, mədrəsələr meydana gəlmişdir. Dərslər ərəb dilində aparılırdı.

Ərəblər Avropa mədəniyyətinə də öz təsirlərini göstərmişlər. Onlar Kordovada universitet açmışdılar ki, bununla da Avropa antik əsərlərlə tanış edilmişdir. Səlib yürüşləri zamanı isə Avropa və Rusiya, Vizantiya mədəniyyəti ilə tanış olmuşlar.

Qərbi Avropada uzun illər boyu təhsil Kilisənin əlində olmuşdur. Feodalizm dövründə ruhanilərin üç tip - məhəllə, monastır və sobor, yaxud kafedra məktəbləri olmuşdur. Məhəllə məktəbləri kənd kilisələri yanında, yaxud ruhaninin evində təşkil edilirdi. Burada oğlanlar həm oxuyur, işləyir, həm də atalarının peşələrini öyrənirdilər.

Monastır və sobor məktəbləri şəhərlərdə monastır yanındıkı xüsusi binalarda yaxud böyük kilisə yanındı olurdu. Daxili məktəbdə oxuyanlar orada yaşayır və rahibliyə hazırlanırdılar. Xarici məktəblərdə oxuyanlar isə ruhani olmaqdan başqa məmur da ola bilərdilər. Monastır və kilsə məktəblərinin məzmunu üçlüyə və dördlüyə bölünmüş «yeddi sərbəst sənət»dən ibarət idi. Üçlüyə – qrammatika, ritorika, dialektika; dördlüyə – hesab, həndəsə, astronomiya və musiqi fənləri daxil edilmişdir.

İlahiyyət isə bütün elmlərin tacı kimi tədris edilirdi. Dünyəvi feodallar öz uşaqlarını cəngavər kimi formalaşdırmağa üstünlük verirdilər. Bu hazırlığın məzmununa 7 əsas bacarıq – at çapmaq, üzmək, ox atmaq, qılınc oynatmaq, ov etmək, şahmat oynamaq və şer qoşub oxumağı bacarmaq daxil idi. Oxu, yazı məcburi deyildi. Cəngavər təlimi aşağıdakı kimi gedirdi: feodalların böyük oğulları yeddi yaşından sonra yuxarı rütbəli feodalın sarayına göndərilirdi. Uşağın məktəbi məşhur cəngavərin sarayı hesab olunurdu. 14 yaşa qədər uşaq feodalın qadını yanında paj (şagird) vəzifəsini icra edirdi. 14 yaşdan sonra ona qılınc verilir, cəngavər yanında qılınc daşıyan olurdu. 21 yaşında ona cəngavər adı verilirdi. Əsasən savad qadınlara verilirdi.

XII-XIII əsrlərdə Qərbi Avropa ölkəlri arasında ticarət əlaqələri genişlənir, iqtisadiyyat inkişaf edir. Dinə qarşı şübhələr oyanır, dünyəvi mədəniyyət inkişaf etməyə başlayır. Belə bir dövrdə dinlə elmi barışdırmağa sazişə gətirməyə çalışan sxolastik fəlsəfə meydana çıxdı. İqtisadiyyatın tələbi ilə şəhərlərdə universitetlər açıldı. XII əsrdən başlayaraq İtaliya, Fransa, İngiltərə və Çexiyada universitetlər açıldı. Getdikçə kilisələrin ona təsiri artır, ilahiyyət fakültələri artır, dünyavi elmlər sıxışdırılır. Bu sənətkarlıq və ticarəti təmin etmədiyindən sex və gildiya (ticarət) məktəbləri açılır. Bu məktəblərdə əsasən dünyavi fənlər keçirilir, təlimin məzmunu və quruluşuna görə kilisə məktəblərindən fərqlənirdilər.

İntibah dövründə məktəb və pedaqoji fikir.

XIV-XVI əsrlərdə Papanın mənəvi hökmranlığı qırılır, bir sıra elmi ixtiralar olur. Bu dövrdə həyatdan zövq almağı bacaran gümrah, fiziki cəhətdən sağlam yeni fəal insan tərbiyə etmək məsələsi meydana çıxır.

Belə bir dövrdə humanist pedaqoqlar meydana gəldi. Onların bəziləri hətta məktəblər də açır, bu məktəblərdə də din öz təsirini saxlayır. Şəhər məktəbləri çoxalır. Qızlar üçün də məktəblər açılır. Bəzi şəhər məktəblərində təlim ana dilində aparılırdı. Yüksək tipli latın məktəbləri, orta məktəblər (kollegiumlar) və gimnaziyalar əmələ gəlir.

Hər ölkənin ictimai tarixi inkişafına uyğun olaraq pedaqoji fikri də xüsusi yolla inkişaf edir. Məsələn, humanist pedaqoqlardan Vittorino De Feltre (1378-1446) İtaliyanın mənzərəli bir yerində «Şadlıq evi» adlı məktəb təşkil edir. Bu məktəbdə uşaqların fiziki inkişafına xüsusi diqqət yetirilir və təbiətə tənəzzöhlərə (ekskursyalara) xüsusi üstünlük verilirdi. Vittorinonun yazılı əsəri qalmamışdır. Onun şüarı belə imiş: «Yazmaqdan əməli iş görmək faydalıdır».

Görkəmli humanistlərdən biri də Fransua Rabledir (1483-1553). O, özünün «Qarqantüa və Pantaqruel» əsərində Orta əsr sxolastik təlim və tərbiyə sistemini tənqid edir, Qarqantuanın sxolastik müəllimi hər şeyi şüursuz əzbərlətdirdiyindən uşaq küt bir məxluqa çevrilir.

Rable sxolastik təlimin insanı şikəst etdiyini qeyd edir və bundan çıxış yolunu da göstərir. O, uşaqda yaradıcılıq və təşəbbüskarlığın inkişaf etdirilməsini irəli sürür, bunu öz əsərlərində nümunəvi şəkildə göstərir. Sxolastik müəllimin yerinə humanist müəllim gəlir. O, tərbiyə və təlimi işini kökündən dəyişir. Qarqantua dünyəvi elməlri, musiqini öyrənir, fiziki tərbiyə alır. Deməli, Rable tərbiyənin həyatiliyi və əyaniliyini müdafiə edir.

XVI-XVII əsrlərdə Yan Amos Kamenski (1592-1670) ümumi pedaqoji nəzəriyyəni inkişaf etdirərək yüksək səviyyəyə qaldırmışdır. Onun pedaqoji görüşləri təlim-tərbiyə işinin əsası olmaqla yanaşı müasir dövrdə də öz əhəmiyyətini itirməmişdir. Y. A. Kamenski «Ümumi hikmətlərin müjdəçisi», "Dünyanın dolaşıq yolları", «İşığın yolu», "Dillərin açıq qapısı", "Ana məktəb", "Böyük didaktika", "Fizika" və başqa əsərlərini yazmışdır. Humanizm və demokratizm Kamenski dünyagörüşündəki mühüm ünsür olmuşdur. O, nikbin baxışlı bir pedaqoq olub, insana, onun qüdrətinə, meyl və arzularına inanırdı. Tərbiyənin gücünə inam Kamenskinin pedaqogikaya gətirdiyi yeni fikir idi. Kamenskinin elmə gətirdiyi yenilikləri qısa şəkildə aşağıda kimi şərh etmək olar.

1. Fərdi təlimin əksinə olaraq dərs-sinif sisitemi, birgə təlimi zəruri hesab edib.
2. Gənc nəslin tərbiyə və təlimini 4 dövrə bölüb:
1) 6 yaşa qədər (ana məktəbi)
2) 6-12 dövr hər kənddə, hər icma və qəsəbədə "ana dili məktəbi"
3. 12-18 yaş dövrü, hər şəhərdə latın məktəbi.
4. 18-24 yaş dövrü, ali məktəb

Kamenski yalnız nəyi öyrətmək və öyrənmək deyil, həm də necə öyrətməyin yollarını da göstərmişdir.

Tədris materiallarının mərkəzləşmiş şəkildə verilməsini lazım bilirdi.

Ana məktəbində uşaqların ətraf mühit haqqında təsəvvürləri, hiss üzvlərini inkişaf etdirmək, təsərrüfata alışdırmaq tələb olunurldu. Kiçik yaşlarından uşaqlarda səliqə, doğruçuluq, ədalət, insanlara məhəbbət tərbiyə etməyi tələb edirdi. Valideynlərə bu yaşda uşaqların tərbiyəsində kömək məqsədi ilə Kamenski "Ana qucağı məktəbi" adlı əsərini yazmışdır.

"Ana dili məktəbində" silkindən və cinsindən asılı olmayaraq bütün uşaqların (oğlan və qızlar) təhsil almalarını lazım bilirdi. Bu məktəbin dərs planına oxu, yazı, həndəsə, hesab, təbiət coğrafiya, tarix, din, əl əməyi, nəğmə daxil etmişdi. Belə ana dili məktəbi pedaqogika tarixində ilk dəfə Kamenski tərəfindən əsaslandırılmışdı.

O, latın məktəbinin tədris planını daha da genişləndirərək ora 7 sərbəst elmdən (qrammatika, ritorika, dialektika, hesab, həndəsə, astronomiya, musiqi) başqa fizika, coğrafiya, xronologiya, tarix, əxlaq, ana dili və xarici dəllri də daxil etmişdir. Kamenski bir novator pedaqoq kimi elmlərin tədrisi sistemini illər üzrə də dəyişdirmişdi.

Ali məktəblərdə o, 4 fakültə nəzərdə tuturdu: qrammatika, ritorika, fəlsəfə, hüquq. Beləliklə Kamenski pedaqogikaya ümumi təhsil ideyası, ətraflı işlənmiş məktəbəqədər tərbiyə nəzəriyyəsi, təlimin ana dilində aparılması, geniş tədris planı olan orta məktəb və s. kimi yeniliklər gətirmişdir. O, həmçinin öz dövrü üçün tədqirəlayiq olan bir neçə dərs kitabları da tərtib etmişdir. Kamenski 1632-ci ildə özünün "Dillərin açıq qapısı", 1654-cü ildə isə "Real aləm şəkillərdə" adlı dərsliklərini yazmışdır. Kamenskinin böyük xidmətlərindən biri də təlimin təşkili məsələlərini geniş işıqlandırmasıdır. Onun fikrincə məktəb lazımi təchizatla təmin edilməli, işıqlı və yaraşıqlı olmalı, məktəb yanında meydança, məktəbyanı sahə, məktəb bağı olmalıdır. Kamenski dərs-sinif sisiteminin üstünlüklərini qeyd etmişdir. Bu indi də təcrübi əhəmiyyətini itirməmişdir. Onun fikrincə hamı dərs ilinə eyni vaxtda başlamalı, uşaqların məktəbə qəbulu ildə bir dəfə - payızda olmalı, dərs ili 4 rübə bölünməli, axırda uşaqlar sinifdən sinifə keçirilməlidirlər. Dərs saatı ana dili

məktəblərində 4 saat, orta məktəblərdə isə 6 saat olmalıdır. Kamenski tərbiyənin qarşısında aşağıdakı vəzifələri qoyurdu: a) bizi əhatə edən şeyləri, xarici aləmi dərk etdirmək

b) insanın nə etməli olduğunu öyrətmək

c) dinə sadiq, mömin insan yetişdirmək

Fiziki tərbiyə sahəsində o, mötədil (orta) həyat tərzi, sadə sağlam əmək, fiziki çalışmalar, zəhmətlə istirahətin növbələşdirilməsini tələb edirdi. Onun fikrincə məktəbdə aparılan təlim insanı müdrik, mərd və alicənab etməlidir. Əxlaq tərbiyəsinin əsas vəzifəsi xeyirxah insan tərbiyə etməkdir. Buna nail olmaq üçün 16 qayda irəli sürür.

1. Gənclərə bütün xeyirxaqlıqlar aşılanmalıdır.
2. Xeyirxaqlıqlar içərisində müdriklik, etiqat, mərdlik və ədalət əsas tutulmalıdır.

Qalan 14 bənddə isə bu 4 xeyirxaqlığın aşılanması yolları qeyd olunur. Ümumiyyətlə Kamenski təlim və tərbiyənin demək olar ki, bütün sahələrinə aid mülahizələr söyləmiş, ona əsas vermişdir. O, müəllimin vəzifəsini ən üstün, ən şərəfli vəzifə hesab etmişdir. Kamenski müəllimi hər gün göyü hər tərəfdən işıqlandıran günəşlə müqayisə edirdi.

Fransız maarifçilərinin tərbiyə haqqında görüşləri.

XVII əsrdə mütərəqqi xarakter daşıyan burjuaziya ilə feodal quruluşu, onun köhnə qaydaları arasında mübarizə kəskinləşirdi. Köhnə quruluşun qaydaları tənqid edilirdi. Fransız materalist filosoflarının görkəmli nümayəndələrindən biri Klod Adrian Helvetsi (1715-1771) idi. Helvetsi fitri ideyaları rədd edərək tərbiyənin rolunu qiymətləndirirdi. Onun fikrincə tərbiyə hər şeyi həll edir, tərbiyə vasitəsilə dahilər yetişdirmək mümkündür. Bu isə onun idealist – «dünyanı rəylər idarə edir» baxışından irəli gəlirdi. Helvetsi yazırdı ki, insan biliyi onun duyğularının məhsulu olduğundan, tərbiyənin əsas vəzifəsi hiss orqanlarını tərbiyə və inkişaf etdirməkdən ibarətdir. Həqiqətlər nə qədər yüksək olursa olsun hamı tərəfindən qavranıla bilər - deməklə insanlar arasında olan təbii fərqləri inkar edirdi. (Bu isə onun səhvi idi).

Helvetsi əxlaqın mütləqliyini inkar edir və onun insanın ictimai mənafeyi ilə müəyyən edildiyini qeyd edirdi. Onu fikrincə din xadimlərini məktəbdən qovmaq, köhnə sxolastik feoldal məktəbini kökündən dəyişmək, məktəbləri dünyəvi etməklə dövlətin ixtiyarına vermək lazımdır. Helvetsi ictimai tərbiyəni ailə tərbiyəsindən üstün tutaraq məktəb tərbiyəsinə böyük əhəmiyyət verirdi. «Ağıl haqqında», «İnsan, onun əqli qabiliyyətləri və tərbiyəsi haqqında» əsərlərni yazmışdır.

Deni Didrro (1713-1784), fransız materialist filosoflarından biridir. D. Didro «Fəlsəfi düşüncələr», «Korların məktubu və gözlülərə nəsihət» adlı əsərlərində feodal quruluşunu tənqid edir, öz fikirlərində ardıcıl olaraq materiyanın məhv olmammasını və yaşamasını möhkəm müdafiə edirdi. O, duyğuları qiymətləndirərək deyirdi, ağlımız hakim, duyğularımız isə şahidimizdir. Didro tərbiyənin əhəmiyyətinə böyük qiymət verirdi, lakin Helvetsi kimi onu həddindən artıq şişirtmirdi. Helvetsiyə cavab olaraq deyirdi: «Tərbiyə hər şey yox, çox şeydir». O, insanlar arasında təbii imkanların və ona tərbiyənin təsirini izah edirdi. Didro köhnə məktəb sistemi və proqrammlarını dəyişdirilib aradan götürülməsini tələb edirdi. O, öləndə belə öz materialist fikrindən dönməmişdir. 1773-cü ildə o, İkinci Yekaterina tərəfindən Rusiyaya dəvət edilmiş və ona yeni əsaslar üzrə maarif planı tərtib etmək tapşırılmışdır. O, «Rusiyanın universitet planı» adlı lahiyə tərtib edir, plan demokratik ruhda (məktəblər ümumi pulsuz, məcburi olmalı, ibtidai məktəbi bitirənlər bütün məktəblərə daxil ola bilməli, maarifdə silki məhdudiyyət olmamalı və s.) olduğundan həyata keçirilmədi.

Jan Jak Russo (1712-1778) da fransız materialist maarifpərvərlərinin görkəmli nümayəndələrindən biridir. C. Lokkun (ağ lövhə, sağlam ruh sağlam bədəndə olar; dövlətin mənşəyi haqqında belə iddia etmişdir ki, insanlar əvvəllər azad və bərabər yaşamışlar, sonralar öz hüquqlarını könüllü olaraq hökmdarlara vermişlər ki, hökmdarlar da onları müdafiə etsin; aşağı təbəqəyə, fəhlələrə və onların uşaqlarına açıq nifrət edirdi) dövlətin mənşəyi haqqında nəzəriyyəsinə əsaslanaraq qeyd edirdi ki, insanlar «təbii halında» həmişə «azadlıq», bərabərlik, qardaşlıq üçün təbii hüquqa malik olmuşlar. O da digər fransız maarifpərvərləri kimi qeyd edirdi ki, yeni insan tərbiyə edilsə onlar özləri dünyanı yeni qaydada qura biləcəklər. Onun «İctimai müqavilə», «İnsanlar arasında bərabərsizliyin mənşəyi» adlı əsərində sübut edirdi ki, bərabərsizlik mədəniyyətlə yanaşı inkişaf etmişdir. «Emil, yaxud tərbiyə haqqında» (1762) romanında yeni insanı feodal əxlaqından, qanun və qaydalarından xilas olmuş insanı – burjuaziya cəmiyyəti adamını tərbiyə etməyin yollarını göstərmişdir. Əsər tonqallarda yandırıldı. Russo isə Cenevrəyə - Bern şəhərinə, sonra da İngiltərəyə qaçmalı oldu. Yalnız 5 ildən sonra vətənə qayıda bildi. Russo köhnə tərbiyə sisteminin yenisi ilə əvəz edilməsini, tərbiyəni psixoloji cəhətdən əsaslandırılmasını, tərbiyədə uşaqların fərdi xüsusiyyətlərini nəzərə alınmasını lazım bilirdi.

Russoya görə insanlar tərbiyəni üç mənbədən, təbiətdən, əşya və hadisələrdən, ətrafdakı adamlardan alırlar. Birinciyə insan qabiliyyətlərini hiss orqanlarını inkişaf etdirmək, ikinciyə uşaq şəxsiyyətinə onu əhatə edən mühitin təsiri, üçüncüyə isə məqsədli pedaqoji təsir daxildir.

Russo yeni insanın əsas keyfiyyətlərini əməkdə görür, əməklə məşğul olmayan hər bir gənci oğru adlandırırdı.

İyohan Henrix Pestalotsi (1746-1827) isveç alimi olub pedaqoji fikrin inkişafında görkəmli yerlərdən birini tutmuşdur. Ona görə tərbiyənin əsas məqsədi insanın təbii qabiliyyətlərini inkişaf etdirmək, daim onu təkmilləşdirməkdir. O, hər bir vətəndaşın tərbiyə almasına tərəfdar olmuş, insanın qüvvə və qabiliyyətlərinin ahəngdar inkişafını təbliğ etmişdir. Bu isə əqlin, qəlbin və əllərin inkişafını tələb edir. Pestalotsi ibtidai təlimə, təlimdə əyaniliyə dair qiymətli fikirlər söyləmişdir. O, "Həyatdan atılmışların axşam saatları" və "Linqart və Gertruda" əsərlərini yazmışdır.

İyohan Fridrix Herbart (1776-1841) özün idealist fəlsəfəsi, etikası və psixologiyası əsasında pedaqoqikanın sistemini yaratmağa çalışmışdır. Pedaqoji işin müvəffəqi yyətlə getməsi üçün pedaqoji nəzəriyə ilə silahlanmagı zəruri hesab edirdi. Tərbiyənin məqsədininin müəyyənləşdirilməsinə böyük əhəmiyyət verərək o, bu məqsəddən asılı olaraq tərbiyə vasitələrini müəyyənləşdirir. Əsasını daimi və dəyişməz əxlaqi ideyalar təşkil edən etik nəzəriyyəsinə müvafiq olaraq Herbart tərbiyənin məqsədini xeyrixah insanın formalaşmasında görür. Bu ümumi məqsəd iki yerə bölünür.

1. İmkan daxilndə olan məqsəd.
2. Zəruri məqsəd

Birinci ixtisas verməni, ikinci əxlaqi xarakter formalaşdırmağı nəzərdə tutur.

Herbart tərbiyə prosesini 3 hissəyə bölürdü – idarə, təlim və əxlaq tərbiyəsi. Herbart «Tərbiyənin məqsədindən doğan ümumi pedaqogika» (1806), «Psixologiya dərsiliyi» (1816), «Psixologiyanın pedaqogikaya tətbiqi haqqında» (1831), «Pedaqogika üzrə mühazirələr xülasəsi» (1835) adlı əsərlərində pedaqogikanın psixoloji əsasları, təlim, tərbiyə və s. pedaqoji məsələlər haqqında müxtəlif mülahizələr söyləmişdir.

Adolf Disterveq (1790-1866) (Alman) tərbiyənin təbiətə müvafiqliyini, yəni uşaq tərbiyəsinin onun təbii inkişafına müvafiq qurulmasını tələb edirdi. O, müəllimdən uşaq üzərində müşahidə aparmağı, onun inkişaf qanunlarını bilməyi tələb edirdi.

Didaktikanı Disterveq təlimin ümumi qanunları və qaydaları haqqında elm hesab edirdi.

Bu barədə fikirlərini 23 təlim qaydaları şəklində şərh edərək onları 4 şərti qrupa bölürdü: 1) uşaqlara aid olanlar; 2) təlim materialına aid olanlar; 3) xarici şəraitə, zamana, məkana, vəziyyətə və s. aid olanlar; 4) müəllimə aid olanlar.

Disterveq təbiətə müvafiq təlimin əsasını əyanilikdə görür.

O, təlim materiallarının şüurlu mənimsənilməsinə yüksək əhəmiyyət verir. Disterveq həmçinin təlimdə sistemliyi və ardıcıllığı tələb edirdi. ("Pedaqoji ideyalar və imkanlar" "Mədəniyyətin zəruri məsələləri" adlı kitabçalarda).

Müəllimə yüksək qiymət vermişdir, onun fikrincə yaxşı dərs deyən müəllim həm də yaxşı tərbiyə edir. Tərbiyə və təlim üçün "Reyn vərəqəsi" jurnalını nəşr edib.

Robert Ouen (1771-1858 ) (İngilis) utopik sosialist olub, kapitalizmi kəskin tənqid etmiş və kapitalizm şəraitində əməyin lənət damğası olduğunu, onun ehtiyaca, təcavüzə, ölüm təhlükəsinə əsaslandığını göstərmişdir. (Ş. Furye, Sen-Simon kimi) O da, XVIII əsr maarifçiləri kimi «dünyanı insan rəyləri idarə edir» fikrini əsas tuturdu.

Ouenin fikrincə insan özü öz xarakterini müəyyən etmir, o insandan asılı olmayan xarici şəraitlə müəyyənləşdirilir. Bu prinsipi əsas tutaraq mənəvi cəhətdən aşağı səviyyədə olan fəhlələri tərbiyə etmək istəyirdi.

Onun fəaliyyətinin əsas mərhələsini Nyu-Lenark təcrübəsi təşkil edirdi. Nyu-Lenarkda fabrikdə fəhlələrin vəziyyəti ağır idi, az əmək haqqı alır, gündə 14-15 saat işləyirdilər, 6-7 yaşlı uşaqlırın və qadın əməyindən çox ucuz istifadə edilirdi. «İnsan öz xarakterini təşkil etmir, o, ətraf mühitin təsiri ilə müəyyənləşir» - prinsipini rəhbər tutan Ouen fəhlələrin iş şəraitini yaxşılaşdırır, iş saatını azaldıb 10 saat edir, uşaqların 10 yaşadək işləməsini qadağan edir, cərimələri ləğv edir, əmək haqqını artırır, fəhlələr üçün ucuz yeməklər təşkil edir, mənzil şəraitini yaxşılaşdırır; 10 yaşından yuxarı istehsalatda işləyən fəhlələr üçün axşam məktəbləri təşkil edir, onların iş saatını qısaldır. Nəhayət yaşlı fəhlələr üçün mühazirələr və məsləhətlər verir. Bu təlim-tərbiyə müəssisələrinin hamısını bir yerdə Ouen 1816-cı ildə «Xarakterin təşəkkülü üçün yeni institut» adlandırmışdır. Ouen uşaqların fiziki, əmək, bədii tərbiyəsinə xüsusi əhəmiyyət vermişdir. Onun təşkil etdiyi ibtidai məktəbdə uşaqlar ana dilini, coğrafiyanı, təbiəti və tarixi öyrənirdilər.

Ouen öz təcrübəsində müəyyən etdi ki, kapitalizm cəmiyyətində şəxsiyyətin hərtərəfli inkişafı mümkün deyildir.

R. Ouen «Cəmiyyətə yeni baxış, yaxud insan xarakterinin təşəkkül prinsipi haqqında», «Yeni əxlaq dünyası» və başqa əsərlərində qeyd etmişdir ki, insanın xarakteri onları əhatə edən şəraitə uyğun olaraq

yaranır, xarakterindəki çatışmazlıq və eybəcərlik onların həyat tərzindən əmələ gəlir. O, xarakterin düzgün formalaşması üçün beş şərt irəli sürür: 1) insan orqanizminə xarici şəraitin qarşılıqlı təsiri; 2) öz iradəsindən asılı olmayaraq hisslərin və etiqadın xaricdən alınması; 3) bu hisslərin və etiqadların birlikdə hərəkət üçün stimul alması; 4) heç bir şərtlə təsirlə iki fərdin eyni olmaması; 5) yaşadığı şəraitin təsirindən asılı olaraq uşaqın aşağı və yüksək səviyyəli təşəkkülünün mümkünlüyü.

Ouen «Xarakterin təşəkkülü» adlı əsərində bütün bədbəxtliklərin səbəbini ata-babaların avamlığında, onların pis tərbiyəsində, mühitin pis təsirində görür. Ouen insanın mühit və tərbiyənin məhsulu olması haqqında Helvetsinin nəzəriyyəsini qəbul edir, insanı mühitin passiv məhsulu hesab edir.

Rusiyada pedaqoji fikir.

Qədim Slavyanlar tərbiyəyə böyük əhəmiyyət vermişlər. Tərbiyəçinin əsas vəzifəsi qüvvətli və bacarıqlı işçi, əkinçi, ovçu hazırlamaq idi. Slavyanların tərbiyəsi sərt ailə və patriarxal qaydalar üzərində qurulmuşdu.

Slavyanların yazısı xristianlığın qəbulundan əvvəl meydana gəlmişdir. Bir sıra sənədlərə əsasən, demək olar kı, VII əsrdə Şərqi Slavyanların ana dilində yazıları mövcud olmuşdur. Knyaz Vladimirin dövründə Kiril və Mifodeyin islah etdiyi əlifba daha geniş yayılır. Xristianlıqla birlikdə Kiyev Rusuna Vizantiya mədəniyyəti də təsir etmişdir. Rusiyada ilk ruhanilər yunanlar olduğundan rus kilsəsi Vizantiyadan asılı idi. Bu hal həmin dövrdəki məktəb və tərbiyə sisteminə də təsir etmişdir. Yunanlardan nəsihətnamə xarakterli "Svyatoslav külliyatı", "Zlatoustı", "Zümrüd", "Patüşklər", "Şestodnyev", "Fizoloq" və s. kimi yarıəfsanəvi, yarı elmi kitablar rus dilinə tərcümə edilmişdir.

O zamanın pedaqoji ədəbiyyatları da dini-əxlaqi xarakter daşıyırdı. Tərcümə edilmiş pedaqoji ədəbiyyatlarda uşaqlarda Allaha məhəbbət və ondan qorxmaq, dini mərasimlərin öyrənilməsi tələb edilirdi.

"Vladimir Monomaxın uşaqlara nəsihəti" ilk orijinal rus pedaqoji ədəbiyyatı olub, ölkənin mənafeyinə uyğun olan yaşama qaydaları və uşaqlara məsləhətlər müəyyən edilmişdir.

Monomax uşaqları ölkənin bütövlüyünü qorumağa, öz torpaqlarını müdafiə etməyə, zəhmətsevən və igid olmağa, ədalətli iş uğrunda ölümdən qorxmamağa çağırır. Monomax oxumaq dedikdə təkcə dini deyil dünyəvi elmləri öyrənməyi də nəzərdə tuturdu.

XIII-XV əsrlərdə Rusiyada məktəblər kifayət deyildi. Mövcud məktəblər savada olan tələbi ödəmirdi. XII əsrdə bu tələbi ödəmək üçün «savad ustadları» meydana çıxır. Onlar kilsə xaricində, öz evlərində və ya valideyn evlərində uşaqlara oxu, yazı və dualar öyrədirdilər. «Savad ustası» uşaqla fərdi məşğul olurdu.

XVIII əsrin 1-ci yarısında I Pyotrun maarif islahatı böyük əhəmiyyətə malik olmuşdur.

Məktəblərin sayı əhəmiyyətli dərəcəyə artırıldı, ilk dəfə olaraq ibtidai dövlət məktəbləri meydana çıxdı, hesab və həndəsə təliminə üstünlük verilirdi. Bu məktəblər təhsilin məzmununun həyatla əlaqəsinə görə Qərbi Avropa məktəblərindən üstün idi. I Pyotrun açdığı dünyəvi mülki dövlət məktəblərindən ən məşhuru riyaziyyat və dənizçilik elmləri məktəbi idi (1699).

XVIII əsrdə rus xalqının ən görkəmli maarifpərvərləri içərisində M. V. Lomonosovun böyük xidmətləri olmuşdur. O, elmlərin və insan biliklərinin bütün sahələrinə toxunmuşdur. A. S. Puşkin deyirdi ki, Lomonosov Rusiyada universitet təşkil etməklə bərabər özü də canlı bir universitet idi. O, bir tarixçi, natiq, fizik, mexanik, kimyaçı, mineroloq, rəssam, şair, dilşünas, filosof kimi hər şeyi sınaqdan keçirmiş və hər şeyə dərin nüfuz etmişdir.

Lomonosov fəlsəfəsi görüş etibarilə materialist olmuşdur. O, hər cür mövhumata, falçılığa, cahilliyə qarşı mübarizə aparmışdır. O, ilk dəfə olaraq uşaqları və anaları mühafizə müəssisələrinin yaradılmasını təklif etmişdir.

O, uşaqların ölümünün qarşısını almaq, bunları tərbiyə etmək və müxtəlif peşələri və sənətləri öyrətmək üçün tərbiyə evlərinin açılmasını lazım bilmişdir. Lomonosov dinin xurafat cəhətinə, elmin və tərəqqinin düşməni kimi baxmışdı, ona görə də o, elmin xurafat əsarətindən xilas olunmasını inkişaf üçün mühüm şərt hesab etmişdir.

Lomonosova görə təlim-tərbiyə xalqın və ölkənin mənaffeyinə uyğun olaraq dövlət tərəfindən istiqamətləndirilməlidir. O, təhsil və tərbiyəni xalqa xidmət etməsi kimi vətənpərvərlik ideyasına tabe etmişdir. Lomonosov fizika, riyaziyyat, coğrafiya elmlrinə əsaslanan dünyəvi təhsil sistemini irəli sürmüşdür.

Lomonosov o dövrdə hökm sürən sxolastik təlimə qarşı çıxmışdı.

O, müəllimin nitq mədəniyyətinə də ciddi tələbkarlıqla yanaşaraq, qeyd edirdi ki, danışıq nə yeknəsək, nə də insan beynini deşən qışqırıq kimi olmamalıdır.

Lomonosov təlimdə əyaniliyə yüksək qiymət vermiş, öz təcrübələrində ondan geniş istifadə etmişdir. "Ritorikadan qısa rəhbərlik", "Həqiqi fiziki kimyanın kursu", "Rus qrammatikası" və s. kimi dərslik və rəhbərliklər hazırlamışdır.

XVIII-XIX əsrdə rus pedaqoji fikrinin inkişafında N. İ. Novikovun da əhəmiyyətli rolu olmuşdur (1744-1818). Novikov ilk dəfə olaraq uşaqlar üçün “Detskoye çteniye dlya serdça i razuma” jurnalının nəşrinə başlayır. Sonralar bu jurnalın nəşrini Karamzin (tarixçi və yazıçı) davam etdirir. Novikov təhkimçilik köləliyinin əleyhinə olmuşdur. O, kəndliləri yüksək əxlaqi keyfiyyətə malik olan adamlar hesab etmişdir. Novikova görə tərbiyənin vəzifəsi fəaliyyətini vətəninə və vətəndaşlarına fayda verməyə həsr edən fəal, xeyirxah şəxslərin formalaşmaqdır. O, maarifi və əxlaqı nəsihətləri həddindən artıq qiymətləndirirdi. Ona görə uşaqlar yoxsullara və kölələrə mərhəmət etmək ruhunda tərbiyə edilməlidir.

Novikov əqli təhsildə, biliklərə yiyələnmədə xarici hiss üzvlərinin inkişafına üstünlük verirdi.

A. N. Radişevin (1749-1802) XVIII əsrin 2-ci yarısında pedaqoji fikrin inkişafında mühüm rolu olmuşdur. O, qeyd edirdi ki, insan həmişə gözəlliyə, böyüklyüyə, yüksəkliyə can atır. Radişev xalqın qüdrətinə inanmış və «Ey böyüklük və şərəf üçün doğulmuş xalq» deyə rus xalqına müraciət etmişdir. «Peterburqdan Moskvaya səyahət» adlı əsərində yaşadığı dövrün ictimai, siyasi təhlilini vermişdir. O, biliyin, maarifin, elmin, tərbiyənin roluna qiymət vermiş , öz dövrünün məktəb və ailə tərbiyə sistemini tənqid etmişdir. Radişev insanı təbiətin bir hissəsi kimi qiymətləndirmiş, Rusoonun təbii və fərdi tərbiyəsi əleyhinə çıxmışdır. Maarif sahəsindəki bərabərsizliyi kəkəskin tənqid etmişdir. “Vətən oğlu necə olmalıdır haqqında müsahibə” əsərində tərbiyənin məqsəd və vəzifələrini müəyyən etməyə çalışmışdır. Onun fikrincə tərbiyənin vəzifəsi vətəndaşlıq şüuruna malik olan yüksək əxlaqi keyfiyyətli və vətəni hər şeydən artıq sevən vətəndaşlar yetişdirməkdən ibarətdir. Onun fikrincə “İnsan nə rəhmli, nə də rəhmsiz doğulur”, onlar yaşadıqları şəraitdən asılı olaraq formalaşırlar.

Təbiətə müvafiqliyi (tərbiyədə) müdafiə, fərdiyyətçiliyi tənqid etmişdir.

Radişevə görə insanın formalaşmasında əxlaq tərbiyəsi kimi əqli tərbiyə də əhəmiyyətli yer tutur. İnsanın hərtərəfli və ahəngdar inkişafını müdaffiə edirdi.

Əqli tərbiyədə əldə edilən biliyin mənbəyini həyatda və təcrübədə görürdü.

Həm humanitar, həm də dəqiq elmlərin tədrisi tərafdarı olmuş təlimin ana dilində aparılmasına yüksək qiymət vermişdir. O, sxolastik təlimi, əzbərçiliyi kəskin tənqid etmişdir.

Radişev əmək, hərbi və fiziki tərbiyənin də əhəmiyyətli rolunu qeyd etmişdir. İncəsənətin, bədii tərbiyənin əhmiyyətindən danışaraq göstərirdi ki, musiqi, nəğmə, ədəbiyyat və s. insan qəlbini yumşaldır, həyatın dərk olunmasında ona kömək edir. Onun pedaqoji fikirləri öz dövründə Rusiyada mövcud olan pedaqoji fikrin zirvəsi səviyyəsinə qalxmışdır.

Rus pedaqoji fikrin inkişafı və zənginləşdirilməsində V. Q. Belinskinin, A. İ. Gertsenin, N. İ. Piroqovun, N. Q. Çernışevski və N. A. Dobrolyubovun rolu böyük olmuşdur.

XIX əsrdə yaşayıb yaratmış görkəmli rus pedaqoqlarından biri də K. D. Uşinski (1824-1870) olmuşdur. Uşinskinin fəlsəfi görüşləri idealizmdən materializmə doğru inkişaf etmiş, lakin bu materializmin tam zirvəsinə yüksəlməmişdir. O, pedaqoji görüşlərini fəlsəfə ilə sıx əlaqələndirməyə çalışmışdır. Uşinskinin pedaqoji fəaliyyətində xəlqilik əsas yer tutur. “İctimai tərbiyədə xəlqilik haqqında”, “Tərbiyədə əxlaqi ünsürlər haqqında”, “Vətən dilinə rəhbərlik” , “Pedaqoji antropologiya və ya insan tərbiyənin obyektidir” və s. məqalə və əsərlərində xəlqiliyə yüksək qiymət vermiş, xalqı tarixin böyük qüvvəsi, böyük mədəni sərvətlərin, dilin, incəsənətin və s. yaradıcısı kimi qiymətləndirmişdir. O, “İctimai tərbiyədə xəlqilik haqqında” əsərində qeyd edir : “hamı üçün ümumi olan tək bircə fitri meyl var ki, tərbiyə ona hər zaman arxalana bilər, buna biz xəlqilik adı veririk”.

Uşinski xəlqiliyi hər bir xalqın öz tarixinə və həmin xalqın səciyyəvi xüsusiyyətlərinə müvafiqlik kimi başa düşürdü. Gənc nəslin tərbiyəsi xəlqilik üzərində qurulmalı və onlarda milli iftixar hissi yaratmalıdır. O, rus xalqının yaradıcı qüvvəsinə inamını xəlqiliyin xüsusi əlaməti hesab edirdi.

Uşinski tərbiyə haqqında qiymətli fikirlər söyləmiş, tərbiyədə insanın özünə arxalanmağı əsas götürmüşdü. Onun fikrincə insanı hərtərəfli tərbiyə etmək üçün onu hərtərəfli öyrənmək lazımdır. O, qeyd edirdi ki, insan kamil olmalı, fiziki, əqli, əxlaqi cəhətdən ahəngdar inkişaf etməlidir.

Uşinski öz dövründəki mülkədar tərbiyəsində olan nöqsanları, avaraçılığı, acgözlüyü, ikiüzlülüyü, mənsəbpərəstliyi və bu kimi çirkin sifətləri tənqid etmişdir. O, gənc nəsldən vətənpərvərlik, xalqa bağlılıq, ictimai vəzifə hissi, insanpərvərlik, əqidədə möhkəmlik, işgüzarlıq, yüksək iradə və əzm kimi müasir dövrdə də aktuallıq kəsb edən sifətlər tərbiyə etməyi irəli sürürdü.

Uşinskiyə görə tərbiyənin məqsədi ictimai və xalq mənafeyini üstün tutan həqiqətə, doğruluğa, xeyirxahlığa can atan bütün insanlığın mənafeyini xalqıqının və özünün mənafeyi ilə birləşdirməyi bacaran həqiqi insan yetişdirməkdir.

O, əxlaq tərbiyəsi üçün aşağıdakı vasitələri götürürdü: 1. Təlim. 2. Müəllimin şəxsi nümunəsi. 3. İnandırma. 4. Düzgün pedaqoji rəftar. 5. Xəbərdarlıq. 6. Rəğbətləndirmə və cəza. 7. Rejim. 8. Yaxşı rəftar, adətlər.

XVIII-XIX əsrlərdə yaşamış Azərbaycan ədibi A. Bakıxanovun da (1794-1847) tərbiyəyə və təhsilə aid mütərəqqi, qiymətli fikirlər söyləmişdir. O, xoşbəxtliyin yolunu elmdə görürdü. “Gülistani İrəm”, “Qanuni Qüdsi”, “Fars dilinin qrammatikası”, “Tənzibul əxlaq”, (Əxlaqın təmizliyi), “Nəsihətnamə”, “Kəşfül Qərayib” (Amerikanın kəşfinə dair) əsərlərində əhəmiyyətli pedaqoji fikirlər irəli sürmüşdür. O, tərbiyənin məqsədini müəyyənləşdirməyə çalışaraq qeyd etmişdir ki, tərbiyənin məqsədi həqiqi insan yetişdirməkdir. Onun fikrincə insan orqanizmində başlıca üzv ürək olduğu kimi kainatda da insan ən yüksək varlıqdır. O, bilmədiklərini öyrənməyə qadirdir.

İnsanın yetişməisndə tərbiyənin böyük rolu olduğunu qeyd edən Bakıxanov tərbiyəyə lap kiçik yaşlarından başlamağı tələb edirdi. Onun fikrincə uşaqlıqda verilən təlim iti alətlə daş üzərində salınmış nəqş kimi möhkəm olur.

Bakıxanovun tərbiyəyə aid ideyaları içərisində əxlaq tərbiyəsi əsas yer tutur. Cəmiyyətdə olan qeyri insani vəziyyəti görən Bakıxanov bütün insanları dostluğa çağırırdı. Onun fikrincə varlılar və yoxsullar ancaq əxlaqlarındakı çatışmamazlığa görə yola getmirlər.

Bakıxanov uşaqlarda ancaq arzu olunan keyfiyyətlər – nəzakətlilik, təvazökarlık, səmimiyyət, doğruçuluq, düzlük, diqqətlilik, dostluq, dəqiqlik, həssaslıq, səlistlik, özünütənqid, dözümlülük, düşüncəlilik, ehtiyatlılıq, əməksevərlik və s. kimi keyfiyyətləri tərbiyə etməyi irəli sürürdü.

Bakıxanov elmi məlumatların öyrədilməsini yüksək qiymətləndirmiş, elmi elm xatirinə öyrənməyin əleyhinə olmuşdur. Bakıxanov deyirdi ki, təbiətin və bəşəriyyətin qanunu hər bir şəxsdən öz vaxtını və qiymətli həyatını bəşəriyyətin xeyrinə sərf etməyi tələb edir. O, elmin öyrənilməsində obyektiv olmağı məsləhət görürdü.

Bakıxanov müəllimlərdən yüksək dözümlülük və həssaslıq tələb edirdi. Hər hansı məsələnin həllində adamlara taktla yanaşmağı lazım bilirdi.

Ümumiyyətlə Bakıxanov XIX əsrin başlanğıcında Azərbaycanın böyük alimi, öz dövrünün nəzəriyyəçisi, maarifpərvəri, hərtərəfli inkişaf etmiş zəkaya və tükənməz enerjiyə malik olan sözü işindən ayrılmayan görkəmli bir alimi olmuşdur.

Müstəqil iş üçün sual və tapşırıqlar:

1. Quldarlıq dövründə pedaqoji fikir.
2. Tusinin pedoqoji görüşləri.
3. Komenskinin təhsil sistemi.

## 1920-90-CI İLLƏRDƏ RUSİYA
## VƏ AZƏRBAYCANDA TƏHSİL SİSTEMİ

Təhsil sistemi dedikdə ölkə daxilində movcud olan bütün təlim və tərbiyə müəssisələrinin məcmuu nəzərdə tutulur. Bura məktəbəqədər tərbiyə müəssisələri, ümümtəhsil məktəbləri, orta və ali ixtisas məktəbləri, məktəbdənkənar tərbiyə ocaqları daxildir.

Təhsil sistemi üstqruma daxil olub ölkənin ictimai və iqtisadi quruluşuna müvafiq şəkildə, həm də dövlət tərəfindən müəyyən edilmiş prinsiplər əsasında qurulur. Ona görə də aydındır ki, ictimai-iqtisadi quruluşu müxtəlif olan ölkələrdə təhsil sistemlərinin və eləcədə sosialist ölkələrinin xalq maarifi sistemlərinin özlərinə məxsus spesifik xüsusiyyətləri vardır.

Oktyabr sosialist inqilabınadək Çar Rusiyası xalq maarifinin inkişafına görə Avropanın bir çox ölkələrindən geridə qalırdı, Çar höküməti də digər kapitalist ölkələri kimi varlı balalarının təlim və tərbiyəsi qeydinə qalır, xalq kütlələrini, xalq balalarını isə cəhalətdə saxlamağa çalışırdı. Bütün məktəblər pullu idi. Bu isə hamıya eyni səviyyədə təhsil alma imkanı vermirdi.

Digər tərəfdən o dövrdə istehsalın, sənayenin inkişaf səviyyəsi də aşağı olduğundan savadlı fəhlə hazırlığına ciddi tələb də yox idi. Ona görə də zehni əməklə fiziki əmək kəskin şəkildə ayrılırdı.

Çar Rusiyasında aşağı təbəqənin uşaqları dövlət və ictimai təşkilatların açdığı məhəllə ibtidai və məhəllə kilsə məktəblərində təhsil ala bilirdilər. İbtidai məktəblərə 4 sinifli yüksək tipli ibtidai məktəblər daxil idi. Bu məktəblərdə də, əsasən, xırda burjuaziya və varlı kəndlilərin uşaqları oxuyurdular. Məktəbi bitirinlər xırda məmur və idarə işçisi vəzifələrində işləyə bilərdilər. İbtidia məktəblərdə təhsilin əsas məzmunu din, hesab, yazı və oxu təşkil edirdi. Burada şagirdlərə coğrafiya, tarix və təbiətə aid bəzi məlumatlar də verirdilər. Məhəllə-kilsə məktəblərində is əəsasən din və dini mahnılar öyrədilirdi. Savad təlimi və hesaba çox az vaxt verilirdi. Orta təhsil başlıca olaraq oğlan və qız gimnaziyalarında və habelə realni məktəblərdə verilirdi. Gimnaziyada oxumaq üçün evdə xüsusi hazırlıq keçirilirdi. Bu hazırlıqdan sonra gimnaziyada 8 il təhsil alırdılar.

Gimnaziyada hümanitar fənlərin tədrisinə daha geniş yer verilirdi. Oğlan gimnaziyalarını bitirinlərə universitetə girmə, hüququ verilirdi. Qız gimnaziyalarında təhsil bir qədər aşağı səviyyədə olduğundan, bu gimnaziyanı bitirənlərə universtitetə girmə hüququ verilmirdi. Qızlar yalnız axırıncı kurslarda pedaqoji hazırlıq verən ali ixtisas kurslarına girə bilərdilər.

Realnı məktəblərdə isə şagirdləri ali texniki məktəblərə hazırlayıdılar. Bu məktəblərdə dəqiq elmlərin tədrisinə daha geniş yer verilirdi. Realnı məktəblərə ibtidai təhsili olanlar daxil edilirdi və təhsil müddəti 6-7 il idi. Realnı məktəblərlə yanaşı tiçarət məktəbləri də mövçud idi. Bu məktəblərdə də orta təhsil verilirdi. Tiçarət məktəblərində ümümtəhsil fənləri ilə yanaşı mal dövriyyəsi, hesabdarlıq, mühasiblik kimi xüsusi fənlər də keçirilirdi. Məktəbi bitirənlərə ticarət institutlarına daxil olma və ticarət, sənaye müəssisələrində işləmə hüququ verilirdi.

Gimnaziyalarda dvoryan uşaqları təhsil aldığı halda realnı və ticarət məktəblərində isə iri və xırda burjuaziyanın uşaqlaı təhsil alırdı.

Yuxarıda qeyd edilən məktəblərdən başqa əsilzadə balaları üçün 8 sinifli hərbi orat məktəblər (kadet korpusu), 8 sinifli «nəcabətli» qızlar institutu, «paj orta məktəbi», «ruhani seminariyaları» və silki məktəblər də var idi.

Ali təhsil əsas etibarı ilə universtitetlərdə, texniki, ticarət və kənd təsərrüfatı institutlarında verilirdi. Bunlardan başqa baş rühani idarəsinin ixtiyarında olan rühani akademiyası da vardır.

Rus olmayan xalqrlar üçün açılmış məktəblərdə təhsil, başlıca olaraq, rus dilində aparılırdı. Bu məktəblərdə də yerli dövlətlərin uşaqları oxuyurdular.

Bu dövrdə Azərbaycanda da məktəblər açıldı. Bu məktəblər Azərbaycanda müəyyən qrup ziyalılar yetişməsində müsbət rol oynadı. Amma əhalinin 90%-i savadsız idi. Belə halda Çar hökümət mollaxana və mədrəsələrdə dərs deyilməsini daha da genişləndirdi. Molla məktəblərində təlimin məzmunu başlıca olaraq din təşkil edirdi. Həftəlik dərsin 4 saatı şəriətə, dördü moizəyə, altısı namaz-dəstəmaza, üçü mərsiyəyə və s. verilirdi. Dünyavi təhsil verən ibtidai məktəblərin sayı son dərəcədə az idi. Məsələn, 18 30-cu ildən 1914-cü ilə dək Çar hökümət Azərbaycanda cəmi 943 ibtidai məktəb açmışdır. Bunlarda oxuyan 61249 uşaqdan yalnız 22161 nəfəri Azərbaycanlı idi. Cəmi 15 orat məktəb vardı ki, bunlardan 7-9 Bakıda idi. Orta məktəbdə təhsil alan 7158 nəfər uşağın çoxu yerli dövlətlərin balaları idi.

İnqilabdan əvvəl Azərbaycanda ali məktəb yox idi. Rusiyada təhsil almış az miqdarda azərbaycanlılar isə varlı uşaqları idi. 1920-ci illərdən başlayaraq əhali arasında savadsızlığı ləğv etmək, ölkədə məktəb şəbəkəsini genişləndirmək, ümumi icbari təhsilə kemək, yeni mütəxəssislər hazırlamaq məqsədilə məktəblər açılmağa başlandı.

1920-90-cı illərdə Azərbaycanda 5000-dən artıq gündüz orta məktəbləri 100-dən çox orta ixtisas məktəbləri, 15-dən çox ali məktəb fəaliyyət göstərirdi. İlk dəfə SSRİ-də xalq maarifinin əsasları 1919-cu ildə qəbul edilmiş Partiya proqramında müəyyənləşmişdir. Həmin əsasalar sosializm quruculuğu dövründə möhkəmlənib inkişaf etmiş, daha da təkmilləşdirilmiş və SSRİ Konstitusiyasında təsdiq olunmuşdur. Bu əsaslar məktəbin həyatla əlaqəsini möhkəmlətmək və SSRİ-də xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında kı qanunda, «Ümümtəhsil və peşə məktəbi islahatı haqqında»kı, qanunda əks olunmuşdur. Həmin əsaslar aşağıdakılardan ibarətdir:

SSRİ-də bütün təhsil sistemi həyatla, kommunizm quruculuğu işləri ilə sıx əlaqədar qurulur.

SSRİ-də maarif müəssisələri dövlətin ixtiyarındadır.

SSRİ-də məktəb ümumidir.

Bütün xalqların istədiyi dildə təhsil almaqda bərabər hüququ vardır.

SSRİ-nin xalq maarifi sistemində vahidlik vardır.

Tənsil dünyəvidir.

Qadınlar və kişilər bərabər təhsil hüququna malikdir.

Uşaq və gənclərlə yanaşı yaşlıların da təhsil hüququ vardır.

O cümlədən Azərbaycanda da təhsil bu müddəalar əsasında qurulmuşdur.

SSRİ-də və Azərbaycanda xalq maarifi aşağıdakı quruluşda idi:

- körpələr evi, uşaq bağçaları (1-6 yaş)
- ibtidai məktəblər (1-4 sinif)
- natamam orta məktəblər (1-9 siniflər)
- orta məktəblər (1-11 siniflər)
- xüsusi və yardımçı məktəblər (fiziki və əqli cəhətdən nöqsanlı olan uşaqlar üçün internat məktəblər)
- fəhlə və kəndli gənclər üçün axşam növbəli qiyabi orta məktəblər (VI-
VII, VIII-XI).
- ixtisaslı fəhlə kadrları hazırlayan texniki-peşə məktəbləri
- 9 illik təhsil texniki-peşə məktəbləri üzərində qurulmuş 1 və 2 il təhsil müddəti olan
- 9 illik təhsil üzərində qurulan və təhsil müddəti 2,5-3 il olan texnikumlar,
orta ixtisas məktəbləri
- XI illik təhsil üzərində qurulan və təhsil müddəti 1,5-2 il olan texnikumlar,
- orta XI illik təhsil üzərində qurulan və təhsil müddəti 4-6 il olan ali məktəblər, bura daxildir: universitetlər, institutlar, konservatoriyalar, akadameyilar. Akademiyalar dedikdə burada ali təhsil verən, məsələn: kənd təsərrüfat akademiyası, hərbi akademiyalar, tibb akademiyaları və s. nəzərdə tuturlur.
- elmi kadrların hazırlanması üçün ali məktəblər və elmi tədqiqat institututları nəzdində 3 illik aspirantura: buranı bitirənlər elmlər namizədi alimlik dərəcəsi almaq üçün disertasiya müdafiə etməlidir.

Xalq demokratiyası ölkələrində maarif demokratik əsaslar üzərində quruludu. Bu ölkələrdə məktəb kilsədən ayrılaraq dünyavi xarakter aldı. Qadınlara da kişilərlə bərabər təhsil hüquq verildi. Məktəb yaşlı uşaqların hamısı üçün 7-8 illik icbari təhsil həyata keçirildi. Yaşlılar arasında savadsızlıq ləğv etmək üçün axşam məktəbləri təşkil edildi. Hamının orta və ali ixtisas məktəblərinə daxil olma hüququ verildi. Məktəblərdə təlim-tərbiyə işində vahidlik prinsipi həyata keçirildi və s. Bütün bu ümumi cəhətləri ilə yanaşı xalq demokratiyası ölkələrində maarif sisteminin bəzi fərqli cəhətləri də mövcud olmuşdur. Məsələn, Polşada şagirdlər 7 sinifli əsas məktəbi bitirdəkdən sonra ya işə daxil olaraq sənət məktəblərində oxuyur, ya da 4 illik letseydə təhsil alırdılar.

Rumıniya xalq demokratik ölkəsində təhsil sistemi 4 illik ibtidai məktəbdən başlayırdı: onun üzərində 3 illik gimnaziyalar qurulur, bu 7 illik təhsil üzərində isə 2 illlik və ya 4 illik litsey qurulurdu. Litseyin sonuncu 2 ili gələcək ixtisasa görə ya humanitar, ya da real şöbələr kimi təşkil olunurdu. litseyi bitirinlər müvafiq ali məktəblərə daxil ola bilərdilər. Başqa bir misal. Bolqarıstanda ibtidai təhsil 8 il, orta təhsil isə 12 illik idi.

Çexoslavakiyada ibtidai təhsil 5 illik, 3 illik orta siniflər, 3 illik yuxarı siniflər mövcud idi və s.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1. Azərbaycanda tarixən mövcud olmuş məktəblər.
2. Müasir dövrdə məktəb tipləri.

## PEDAQOGİKA –MƏDƏNİYYƏTİN TƏRKİB HİSSƏLƏRİNDƏN BİRİDİR

Geniş mənada mədəniyyət bəşər təcrübəsini əhatə edir. Yəni, mədəniyyətə bəşəriyyətin yarandığı gündən indiyə qədər əldə etdiyi bütün maddi və mənəvi təcrübə - sənaye, kənd təsərrüfatı, xalq təsərrüfatının bütün sahələri, əxlaq, dil, din, incəsənət, elm, təhsil, hüquq və s. daxildir.

Mədəniyyət mürəkkəb ictimai hadisə olub insanlar tərəfindən yaradılmış sərvətlər və sərvətləri yaratmaq sahəsində göstərilən fəaliyyətdir.

Pedaqogika isə bəşər təcrübəsinin nəsillərə ötürülməsi haqqında elmdir. Yəni bəşəriyyətin əldə etdiyi maddi və mənəvi təcrübə - mədəniyyət - böyüyən nəslə məhz təlim və tərbiyə vasitəsi ilə ötürülür. Maddi və mənəvi təcrübənin son nailiyyətləri, yaranma tarixi, fəaliyyət üsullarının ötürülməsi pedaqoqika vasitəsi ilə həyata keçirilir. Deməli pedaqoqika insanların əldə etdiyi maddi və mənəvi mədəniyyətin böyüyən nəslə ötürülməsinin məqsədi, məzmunu, səmərəli yol vasitələri və s. məsələləri tədqiq edir. Bu isə insan cəmiyyətinin mövcudluğunun mühüm şərtlərindən biridir. Məlumdur ki, ictimai-iqtisadi quruluşundan asılı olmayaraq bütün cəmiyyətlərin mövcudluğu, yaşaması şərtlərindən biri də cəmiyyətin özünə zəmin, davamçılar, əvəzedicilər hazırlamasıdır. Yəni mövcud təcrübənin böyüyən nəslə ötürülməsi, öyrədiləmsi mövcud istehsalı, sənayeni idarə edəcək qüvvənin saxlanılması, istehsal və digər mənəvi mövcudluğun təmin edilməsi deməkdir. Bu isə yalnız geniş mənada tərbiyənin vəzifəsidir. Əbəs deyilki mədəniyyət haqqında antik təsəvvürlər yuxarıda əsaslandırdığımız müddəalarla səsləşir. Roma antik anlayışlarında «mədəniyyət» terminində «insan fəaliyyətinin həyatın bioloji formalarından" fərqini göstərmək səyi tam şəkildə görünür. Həqiqətən də həmin terminin ilk mahiyyəti - becərmə, emaletmə və qulluq etmə kimi tərcümə edilir. Bizim nəzərdən keçirdiyimiz aspektdən, yəni «mədəniyyət»in tərbiyə və təhsil, savad baxımından əsaslandırılması bu kontekstdə insan təbiyətini tamamlayan və bəzən onu formalaşdıran bir vasitə tək əhəmiyyəti daima qeyd olımur. Yunanıstanda «mədəniyyət» anlayışa «paydeyi» kimi yanaşma da elə bizim mövqeyimizi bir daha aydınlaşdırır. Bu termin bilavasitə tərbiyəyə, təlim, savad, təhsil, maariflənmə və mədəniyyəti nəzərdə tutur. Həmin termindən yalnız savadın, təhsilin tərbiyə ilə əlaqəsi ideyası deyil, tərbiyə ilə təlimin dərin kontaktı ideyası da ifadə edilir. Mütəmadi və daimiləşən vərdişlərin aşılanması və eləcədə onun incəsənətdə («texie» termini - yəni vərdişlər) ən yüksək pilləyə qalxması, müəyyən vərdişlərə yiyələnməklə «ustada» çevrilmə prosesi yunan mədəni aləminin üstün cəhətini əks etdirir.

Yunanlar unikal təhsil sistemi yaratmışdırlar. Bu sistem vasitəsi ilə müəyyən sahənin professionalı deyil, məhz müəyyən dəyərlər yönümü ilə insan şəxsiyyət kimi yetişdirilirdi. İnsana belə bir münasibət mədəniyyətin antik anlamının humanist əhəmiyyətindən irəli gəlirdi. Humanist mədəniyyətin əsasında mədəni prosesin məqsədi olan insan idealı durur. Əslində yunan paydeyasının əsas dəyərləri pedaqoji sahədən kənara çıxaraq mədəniyyət kontekstinə daxil olur.

Yəni böyüyən nəslin maddi və mənəvi mədəniyyətə yiyələnməsi vasitəsi ilə həyata hazırlanması bilavasitə mədəniyyətin yaşaması və inkişafı vasitəsidir. Məlumdur ki, bəşər təcrübəsi biliklər sistemini, münasibətlər sistemini, bacarıq və vərdişlər sistemini, yaradıcılıq təcrübəsini əhatə edir.

Biliklər sistemi maddi aləmin, obyektiv gerçəkliyin dərk edilməsini əhatə edir. Bu maddi mədəniyyətin dərk edilməsidir. Yəni maddi aləmin obyektiv qanun və qanunauyğunluqlarının mahiyyətini açdıqdan sonra ondan insanların həyatını, güzəranını yaxşılaşdırmaq üçün istifadə etməkdir. Maddi mədəniyyətin bu sahəsi, pedaqoqikanın təlim bölməsi vasitəsi ilə böyüyən nəslə, ümumiyyətlə insanlara çatdırılır. İnsanlar məhz təlim vasitəsi ilə özlərindən əvvəl məlum olan elmi məlumatlara yiyələnir və onların insanların həyatındakı yeri, rolu, əhəmiyyəti ilə tanış olurlar. Çox mürəkkəb tarixi və təbii şəraitdə Azərbaycan özünə məxsus orjinal mədəniyyət yaratmışdır. Əslində sovet dövrünün müsbət cəhətləindən biri xalqın savad, təlim, təhsilinin yüksək səviyəli olması və əhəmiyyətli təhsil sisteminin yaradılmasıdır ki, həmin təhsil sisteminin yetişdirdiyi ziyalılar ümumdünya standartlarına tam cavab verir. Münasibətlər sistemi insanların həyata, özünə, ailəyə, ictimai həyata, gözəlliyə və s. olan münasibətləri əhatə edir. Həmçinin hal-hazırki cəiyyətin müəyyən etdiyi əxlaqi-etik, hüquqi, siyasi-ictimai, estetik, fiziki münasibətləridə bura daxildir. Bəşər təcrübəsinin, mədəniyyətin bu sahəsi də pedaqoqikanın tərbiyə bölməsi vasitəsi ilə maddiləşir. Yəni mədəniyyətin bu tərkib hissələri sistemli və məqsədyönlü tərbiyə vasitəsi ilə insanlara aşılanır. Bu aşılanma prosesi, cəmiyyət üzvlərinin cəmiyyətin tələblərinə müvafiq, mənəvi tələblərə uyğun formalaşması, əsasən, sistemli təlim və tərbiyə müəssisələrində həyata keçirilir. Bu prosesdə tərbiyənin tarixən meydana çıxmış, uzun müddət təcrübələrdə bərkiyərək səmərəliliyi müəyyən və təsdiq edilmiş elmi pedaqoji üsul və vasitələri, prinsipləri əldə rəhbər tutulur. Bacarıq və vərdişlər sistemi mövcud fəaliyyət üsullarını əhatə edir. Mədəniyyətin bəşər təcrübəsinin bu aktual və həyat üçün zəruri olan sahəsi pedaqoqikanınn təhsil prosesi

vasitəsi ilə həyata keçirilir. Hal-hazırda mədəniyyətşünaslıqda mədəniyyəti savadlılıqla eyiləşdirən məktəblər də mövcuddur[1].

Bunlar erudisiyanı deyil insanın daxili aləminə «çökmüş» biliklər sisteminin məzmununu nəzərdə tutur ki, həmin keyfiyyətlər şəxsiyyəti mədəniləşdirir. Biz daxili ziyalılığı mədəni keyfiyyətlərin formalaşması ilə tərəzinin eyni gözünə qoymamalıyıq. Yəni təhsil və özünü təhsil vasitəsi ilə böyüyən nəsil insanlar yaşamaq və yaratmaq üçün mövcud zəruri fəaliyyət üsullarına yiyələnirlər. Daha doğrusu, insanlarda kənd təsərrüfatı, sənaye, xalq təsərrüfatı və s. idarə etmək, bu və ya digər sahədə fəaliyyət göstərmək üçün zəruri əmək bacarıq və vərdişləri formalaşdırılır. Fəaliyyət- insan mövcudluğunun ən fundamental xarakteristikası kimi, tarixin substansiyası və bütün bəşər dünyasının mühərriki təki qiymətləndirilərək maddi və mənəvi sistemin inkişaf amili sayılır. Akademik M.S.Kaqan insanı «homo sapiyens» (ağıllı insan) adlandırmır, onu «homo faber» (yaradıcı insan) kimi qiymətləndirməyi təklif edir.[2] Bəşəriyyətin inkişafı üçün mövcud təcrübəyə yiyələnərək, onunla kifayyətlənmək azdır. İnkişaf yeni yaradıcılıq, elmi kəşflər vasitəsi ilə həyata keçirilir. Bu isə bəşər təcrübəsinin - mədəniyyətin yaradıcılıq sahəsini əhatə edir.

Yaradıcılıq daima mədəniyyət anlayışının aparıcı istiqaməti kimi əsaslandırılmışdır. Bu sahədə antik, yeni dövr alim və tədqiqatçılarının, o cümlədən Stoloviçin, M.S.Kaqanın, Sokolovun və başqalarmm fıkri və elmi əsaslı müddəaları mövcuddur.[3] Məsələn, məşhur ingilis mədəniyyətşünası A.Toynbinin əsərlərində azad yaradıcılıq və cəmiyyətlə onun bağlılığı problemləri çox orijinal müddəalar və fıkirlərlə əsaslandırılır. Elmi kəşflər həyatın maddi və mənəvi tələbləri əsasında baş verir. Lakin bunun əsası, yaradıcılığa meyl didaktik idraka istinad edərək onun vasitəsi ilə yaradılır. Didaktika idrakı inkişaf etdirir, təfəkkür əməliyyatlarını gücləndirir, nitqlə məntiqi təfəkkürün əlaqəli inkişafını təmin edir, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir. Bu isə gələcək elmi fəaliyyətin əsasmı qoyur.

Beləliklə, mədəniyyət və pedaqoqika bir-biri ilə hərtərəfli bağlıdır. Pedaqoqikanın obyektini bəşər təcrübəsinin böyüyən nəsilə ötürülməsi, bəşəriyyətin əldə etdiyi maddi və mənəvi mədəniyyətin böyüyən nəsilə mənimsətmə təşkil edir.

Pedaqogika özü müstəqil obyekti, predmeti, tədqiqat üsulu olan bir elm kimi bəşər mədəniyyətinin, təcrübəsinin tərkib hissəsinə daxildir.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1.Mədəniyyətin mahiyyəti nələri əhatə edir?

2.Pedaqoji anlayışların mahiyyəti.

3.Pedaqoji anlayışlarla mədəniyyətşünaslıq anlayışlarının müqayisəsi.

---

[1] «Култyрология» Учебное пособие. Под. Ред. Г.В. Драча. Р.-Д. 1997, С.76-80.

[2] М.С. Каган «Культура и деятелность». М.,1976.

[3] Г.Столович. «Жизнь, творчество и искусство» М.2978.

# İNCƏSƏNƏT VƏ TƏRBİYƏ

Məlumdur ki, pedaqoqika bir sıra dəqiq elmlərə, ümumiyyətlə, isə bütün elm sahələri ilə qarşılıqlı əlaqədədir. Bu pedaqoqikanın obyektinin xüsusiyyətlərindən doğur. Belə ki, pedaqoqika bəşər təcrübəsinin, bütün elm sahələrinin nəaliyyətlərinin son ümumiləşdirilmiş nəticələrinin, fəaliyyət üsullarının, maddi və mənəvi, mədəniyyətin böyüyən nəslə ötürmək haqqında elmdir. Bu mənada incəsənət də mənəvi mədəniyyətin əsas tərkib hissələrindən biri olub böyüyən nəslə ötürülür. Bu estetik tərbiyə həmçinin digər fənlərin tədrisi vasitəsilə həyata keçirilir. Estetik tərbiyə böyüyən nəsildə, ümumiyyətlə insanlarda estetik zövqlər, baxışlar formalaşdırır, insanların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir. Estetik tərbiyənin əsas və əhəmiyyətli mənbələrindən biri incəsənət əsərləri, insanların həyat və məişətlərində, ictimai həyatda mövcud olan incəsənət elementləridir.

Bəşər yaranandan bəri ədiblər öz əsərlərində incəsənəti, gözəllik nümunələrini tərənnüm etmiş, insanlarda gözəlliyə münasibəti sənət əsərləri vasitəsilə yaratmağa çalışmışlar.

İnsanların formalaşmasında incəsənət əsərlərinin rolu haqqında fikirlər qədim tarixə malikdir. Qədim Şərq mədəniyyətinin nümunələrindən biri olan «Avesta»da sənətin cəmiyyətin həyatında, insanların tərbiyəsindəki əhəmiyyətli rolu haqqında fikirlər verilmişdir. Məsələn, «İşıq», «Zülmət», «Cənnət», «Cəhənnəm» anlayışları kainat gözəlliyi ilə yanaşı, həmçinin ijtimai – əxlaqi, davranış və hərəkətlərin gözəlliyi kimi də verilmişdir. «Avesta» ya görə həm fiziki, həm mənəvi kamillik, cismani və ruhi gözəllikləri şəxsiyyətin özündə qoruyub saxlamaq özü bir gözəllik sənətidir.

İncəsənət və tərbiyə, onların qarşılıqlı əlaqəsi, birinin digərini tamamlaması «Avesta»dan sonrakı abidələrdə də şərh olunmuşdur. İncəsənətin tərbiyəyə təsiri təkcə estetik baxımdan götürülməmişdür. Bu sahədə Platonun söylədiyi fikir maraqlıdır. Belə ki, bir tərəfdən o, insanların maddi təminatı baxımından təcrübi sənəti incəsənətdən üstün tutur, digər tərəfdən isə insanların mənəvi cəhətdən formalaşdırılmasında, tərbiyəsində zərif sənətlərin roluna böyük əhəmiyyət verir, onu yüksək qiymətləndirir, onu dövlət əhəmiyyətli məsələ sayır.

Orta əsrlərdə Azərbaycanda şöhrət tapmış «İxvan-əs-səfa» cəmiyyətinin filosofları incəsənət və onun növlərinin insan mənəviyyatına təsiri, tərbiyəsindəki rolu haqqında tüxtəlif fikirlər söyləmişlər. Bunlardan Əl –Kindi, İbn- Sina, İbn – Röşt və başqalarının incəsənətin tərbiyədə roluna dair indi də öz əhəmiyyətini itirməyən qiymətli fikirləri mövcüddur. Bu filosofların fikrincə incəsənət obrazlı təfəkkürdür. Onların fikrincə insanların tərbiyəsində təcrübi sənətlər əhəmiyyətli yer tutur. İnsanın iqtisadi həyatı nə qədər əhəmiyyətli rol oynasa da, onlarda müəyyən münasibətin formalaşmasında incəsənətin yerini verə bilməz. İncəsənət insanların ruhuna, əqlinə, əxlaqına incə, zərif yollarla təsir edir, insanların hərəkət və davranışlarını gözəlləşdirir, zəifin qəlbini möhkəmləndirir, zalımın qəlbini yumşaldır.

İnsanların estetik, mənəvi, əxlaqi görüşlərinə incəsənət əsərlərinin təsiri onların məzmununun zənginliyi və digər təsir imkanlarından asılıdır. Zəngin məzmuna, ideya saflığına malik incəsənət əsərləri nəinki insanlarda bədii zövq, incə hisslər yaradır, həmçinin insanların əqli inkişafına, idrakına, təbiəti dərk etməsinə də təsir edir. İdraki inkişaf formalaşma prosesi bir – birilə qarşılıqlı əlaqədədir. İnsanların əqli inkişafı, əxlaq tərbiyəsi və onlarda zəruri bacarıqların formalaşdırılması və təkminləşdirilməsinin əsasında idrak durur. İnsanlar xarici aləm gözəlliklərini də idrak vasitəsilə dərk edir. Belə ki, təbiət və cəmiyyət hadisələri, onların qanunauyğunluqları tam şəkildə, yəni həm də malik olduğu gözəlliklərlə birlikdə dərk olunur.

İnsanın əqli tərbiyəsi təbiət, cəmiyyət və insan təfəkkürünün obyektiv inkişaf və dəyişmə qanunauyğunluqlarını dərk etmə vasitəsilə baş verir. Əqli tərbiyə zehnin inçəliyi və çevikliyinə, real varlıq qanunauyğunluqlarına ustalıqla, seçiciliklə yanaşma tərzi yaradır, insanların təbiət qanunlarından istifadə edərək həm təbiətin özünü, həm də insan həyatını dəyişdirməyə imkan yaradır. Bu dəyişdirmədə təbiət qanunları ilə yanaşı gözəllik qanunları da iştirak edir. Belə ki, insan hər bir şeyi, gözəl - həm özünün, həm də başqalarının zövqünü oxşayacaq zəriflikdə, gözəllikdə yaratmağa çalışır. Bunu isə təbiət və cəmiyyətdəki gözəlliyi dərk edən, görən estetik zövqlü insanlar edə bilər. İnsanlarda estetik zövqün tərbiyəsi isə təbiət və cəmiyyətdəki gözəllikləri görməklə bərabər onu qiymətləndirmək, təhlil etmək və əməli işlərini bu istiqamətdə qura bilməklə bağlıdır. Bunun özü də idraki prosesdir, yəni insanın həyatı gözəllik qanunları əsasında dərk etməsi, gözəllik qanunları əsasında dəyişdirməsi prosesidir.

İnsanlar estetik ideallar uğrunda ancaq həyatın estetik qanunauyğunluqlarını, onun konkret təzahür formalarını, gözəllik və ülvilik, eybəcərlik, faciəlilik, komikliyini dərk etdikdən sonra mübarizə apara bilər, belə ideallar yaratmağa calışar. Bu estetik dərk etmə, anlatma və mübarizə meylləri isə ancaq sistemli və məqsədyönlü tərbiyə prosesində həyata keçirilir. Məhz tərbiyə vasitəsilə kortəbii estetik təsirlər sistemləşdirilir, səmərəli və faydalı istiqamətə yönəldilir.

İctimai şüurun digər formaları kimi incəsənətin də mənbəyi obyektiv gerçəklik, real varlıqdır. Çünki insan şüuru xarici aləmi əks etdirir, xarici aləm gözəlliyi olmasa, onun əksi, süräti də mövjud ola bilməz. Tərbiyə vasitəsilə insan şüurunda əks etdirilən, obrazı yaradılan gözəlliklər isə həyatda, insanın təcrübəsində yoxlanılır və tətbiq edilir. İnsanlar estetik tərbiyə prosesində real gerçəkliyin estetik xəssə və keyfiyyətlərini seçməyi, tərkib hissələrinə ayırmağı və onları sintez etməyi, varlığı özünün istədiyi kimi qurma yollarını öyrənirlər. Bu yolla insanlar aləmi daha dolğun, zəngin şəkildə estetik təfəkkürlə dərk edirlər.

Musiqi gözəl səslərin, təranələrin, təbiətdəki zərif səslərin ifadəsidir. Musiqi insanlarda yüksək əhval – ruhiyyə, şadlıq hissləri yaradır. Musiqi əsərlərini dinlərkən insanlara ətrafdakılar da gözəl görünür. Yaranmış şən əhval – ruhiyyə istər – istəməz insanı müsbət işlər görməyə, hərəkət və davranışlarına gözəllik elementləri daxil etməyə həvəsləndirir.

Rəsm, rəssamlıq isə həyatı rənglər, boyalar vasitəsilə əks etdirmə, tərənnüm etdirmədir. Təsviri sənət həyatın bütün sahələrini təsvir etmə imkanına malikdir. Bu zaman gözə görünən və ya görünməyən hadisələr, insanların fantaziya və xəyalları da təsvir olunur. Bu incəsənətin bütün növünə aiddir. İnsanın yaratdığı bədii obrazlar, rəsm, musiqi, heykəllər, bədii əsərlər vasitəsilə təsviri anların estetik zövqü ilə bağlıdır. İncəsənətin bütün növləri müəyyən mənada bir – biri ilə bağlıdır və biri digərinin inkişafına imkan yaradır. Məsələn, gözəl musiqi insanlarda gözəl təbii mənzərələr təsəvvürü yarada bilir və ya hər hansı gözəl tablo, təbiət mənzərəsinə baxan insan həmin gözəlliyi dərk edib, onun gözəlliyinin seyrinə dalan zaman istər – istəməz beynindən sevimli musiqi təranələri keçir. Həm də mənzərəyə uyğun musiqi duyulur. Rəssam təbii rənğlər vasitəsilə insanları ən gözəl musiqi səslərini eşitməyə, heykəltaraş yaratdığı heykəl vasitəsilə varlığın canlı hərəkət və dinamikasını göstərməyə nail ola bilər.

İncəsənət vasitəsilə nəinki sənətin müxtəlif sahələri, həmçinin onlarla ictimai şüurun müxtəlif formalarının daxili üzvü əlaqəsi, qarşılıqlı təsiri yaradılır. İncəsənət elm, fəlsəfə, siyasət və əxlaqla qarşılıqlı əlaqədə olduğu üçün bəşər təcrübəsini dərk etməkdə, mənimsəməkdə insanlara kömək edir. Elmlərə yiyələnmənin əhəmiyyətini dərk etməkdə, fəaliyyət üsullarına yiyələnmənin təbiəti və insanların həyatını gözəlləşdirmədəki rolunu anlamağa, öz fəaliyyətlərinə şüurlu, gözəllik qanunları əsasında yanaşma imkanı verir. Bu isə məhz şüurlu tərbiyə prosesidir. Deməli, elmi təfəkkür kimi bədii təfəkkür də təbiət və cəmiyyət hadisələrinin dərk edilməsində böyük imkanlara malikdir. Məsələn, poeziya və digər əsərlər vasitəsilə insanlar cəmiyyətə tarixən yanaşır, müxtəlif ictimai iqtisadi quruluşlarda mövcud olan ictimai iqtisadi qanunlarla tanış olur, ayrı – ayrı dövrlərdəki əxlaq normaları, ümumbəşəri müsbət əxlaqi keyfiyyətləri dərk edirlər. İnsanlara ziyan vuran, cəmiyyət üçün məqbul sayılmayan keyfiyyətlərin nəticəsi, onun insanın şəxsi həyatına vurduğu ziyanı əsərlər vasitəsilə görürlər. İnsanlar dərk edirlər ki, cəmiyyət onun zəruri hesab etdiyi əxlaqi keyfiyyətlərə malik olmayan, əksinə bu norma və davranış qaydalarının ziddinə hərəkət edənləri qəbul etmir, bu isə həmin şəxsin məhvinə, faciəsinə gətirib çıxarır. Satirik şerlər vasitəsilə cəmiyyətdə mövcüd olan əyrilikləri görür, onun səbəbini anlayır, bu isə onlarda həyat hadisələrinə düzgün münasibət formalaşmasına səbəb olur. Poeziyanın digər növləri insanlarda gözəlliyi dərk etməyə imkan yaradır, gözəlliyə əsaslanan poeziya fiziki əməyin, həmçinin əməyin bütün sahələrinin, hətta yaradıcı fəaliyyətin mənbəyinə çevrilir. A.S.Puşkin qeyd etmişdir ki, ilham insan qəlbinin canlı təəssüratları qəbul edə bilmək, məfhumlarla düşünə bilmək qabiliyyətidir. Təkcə poeziya üçün deyil, həndəsə üçün də ilham lazımdır. İlham üçün isə elm lazımdır. İnsanların elmi, mədəni səviyyəsi nə qədər yüksək olarsa, bir o qədər də müşahidə qabiliyyətinə, zəngin estetik duyğuya, güclü təxəyyülə malik olar.

Alimin elmdən aldığı estetik zövqün mahiyyətini həmin elmin daxili qanunauyğunluqlarını dərk etməsi təşkil edir. Fikrin gözəlliyindən zövq almaq üçün dərin biliyə, dərk etmə qabiliyyətinə malik olmaq lazımdır. İstər elm, istərsə də incəsənət qneseoloci cəhətdən eyni kökə bağlıdır. Bu özünü idrak prosesinin, təxəyyülünün, insan xəyalının varlıdan uzaqlaşaraq, özünü ehtiva etməsində göstərir. İnsanlar varlığı istər elmi, istərsə də bədii şəkildə mənimsəyərək hadisələrin məzmunu və mahiyyətinə daha dərindən nüfuz etməyə, sadə məlumatlardan daha mürəkkəb məlumatların mahiyyətini açmağa çalışırlar. Elm də, incəsənət də vahid olan maddi aləmi əks etdirir, ona görə də eyni inikas qanunlarına tabedir.

İnsanın emosional hisslərinin əsasında tək – tək əşya və ya hadisələr durur. Bu əşya və hadisələr də özlərinə məxsus xassə və keyfiyyətlərə, rənglərə, formalara və s. malik olurlar. Məhz bu fərdi – xüsusi keyfiyyətlər insanların təxəyyülü, xəyalı və əqlinə daha tez və dərin təsir göstərirlər. Müəyyən qruplara daxil olan əşyaların, hadisələrin nə qədər ümumi cəhətləri olsa da, onları bir – birindən fərqləndirən xüsusi keyfiyyətləri mövcüddur. Məhz bu keyfiyyətlər məzmunun daha dərindən dərk olunmasına imkan yaradır. Bədii obrazlar isə eyni qrupa məxsus olan fərdilərdən ümumiləşdirilmiş fərdiyə kesmək sayəsində baş verir. Bu fərqləndirmə onun xas olduğu bütün xüsusiyyətlərlə yanaşı, onu başqalarından fərqləndirən xarakterik xüsusiyyətləri də özündə əks etdirir. Bu isə bədii obrazın spesifik xüsusiyyətidir, yəni bədii obraz əks etdirdiyi varlığın ən fərdi, ən səciyyəvi cəhətlərini də ifadə edir. Bu isə insanların estetik hisslərinin,

bədii təxəyyül və dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynayır. Estetik tərbiyə insanın ahəngdar formalaşdırılması prosesinin tərkib hissələrindən biridir. Estetik tərbiyə prosesində estetik vasitələrlə(musiqi, təsviri sənət və s.) yanaşı estetik idrak, estetik həyəcan və s. estetik tələbat da əhəmiyyətli yer tutur. Həyatın estetik keyfiyyətlərinin çoxcəhətliliyi estetik idrakın, estetik həyəcan və tələbatın xarakterində özünü göstərir. İnsanın musiqini gözü ilə deyil,qulağı ilə dinləyib dərk edir, ondan zövq alır, rəsm tablosunu qulağı ilə deyil, gözü ilə görür, dərk edir, mənimsəyir və bu yolla da onu özünün dünyagörüşünə daxil edir. Hər insanın özünəməxsus estetik tələbatı onun dünyagörüşünə uyğun tələbatının ödənilməsi müvafiq estetik vasitələrin təlimindən asılıdır. İncəsənətin müxtəlif növləri üzrə tələbatların fəaliyyəti müəyyən təcrübi tələbat və zərurət əsasında inkişaf edib təkmilləşir, daha insani və təkmilləşmiş hiss üzvləri yaxşı müşahidəçi olur, daha çox və seçici görür, həyat gözəlliklərinin təzahür formalarının arxasında gizlənən daxili məzmunun estetik mənasını seçə və aydınlaşdıra bilir. İnsanın hiss üzvlərinin fizioloji və estetik mənada inkişafı və kamilliyi estetik mənimsəmə və bədii fəaliyyətin ən mühüm şərtidir. Məhz hər bir fərdin subyektiv hissi xüsusiyyəti, özünə məxsus mükəmməlliyi insanın həyata daha dərindən nüfuz etməsinə, gözəllik qanunları əsasında gözəlliyin yeni – yeni formalarının yaradılmasına kömək edir.

Estetik qiymətləndirmədə subyektiv cəhəti yalnız hiss üzvlərinin inkişaf dərəcəsi ilə məhdudlaşdırmaq düzğün olmasa da, bu mühüm amilin rolunu unutmaq olmaz. Estetik mənimsəmə, qavrama, dərk etmə, həyəcanlandırma, qiymətləndirmə prosesində hiss üzvləri qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Məsələn, rəsm əsərlərinin dərk edilməsində görmə duyğuları ilə yanaşı eşitmə duyğusu və insanın həyat təcrübəsi də fəal iştirak edir. İnsanın estetik cəhətdən ahəngdar inkişafı və tərbiyəsi həmçinin onun hiss üzvlərinin ahəngdar inkişafını və tərbiyəsini tələb edir.

Estetik hissin konkret bir sahəsinin inkişafı digər cəhətlərin inkişafına da təsir göstərir. Məsələn, musiqişünas, bəstəkar həmçinin təbiət gözəlliklərini, rəsm əsərlərini də dərk edir, sevir, ondan ilham alır. Bunu incəsənətin digər növlərinə də aid etmək olar. Estetik və bədii mənimsəmə zamanı insanın bütün hiss üzvləri iştirak edir, özlərinə görə mühüm rol oynayırlar. Müxtəlif hiss üzvlərinin estetik mənimsəməsində iştirak dərəcəsi bu hiss üzvlərinin inkişaf dərəcəsindən, idrak prosesinin xarakterindən xeyli asılıdır. Estetik qavramaya və estetik tərbiyə həmçinin insanların ictimai-iqtisadi vəziyyəti də təsir göstərir. Ehtiyac içində yaşayan insanlar ən gözəl təbiət hadisələrini, bədii lövhələri qavramaq, görmək, ondan həzz alma iqtidarında olmurlar. Ona görə də müxtəlif siniflərin, müxtəlif təbəqəli insanların estetik baxışları da müxtəlif olur.

Estetik tələblər, bədii və estetik yaradıcılığa münasibətdə insanların dünyagörüşü də əhəmiyyətli yer tutur. Dünyagörüş insanların ətraf aləm haqqındakı biliklər sistemini, insanların onları əhatə edən aləmə münasibətləri sistemini əhatə edir. Estetik yaradıcılıqda, təbiətə, məişətə, fəaliyyətə estetik yanaşmada dünyagörüş əhəmiyyətli yer tutur. Sənətkarın əsəri müəyyən mənada onun dünyaya baxışının nəticəsidir. Bədii təfəkkür varlığı özünəməxsus şəkildə əks etdirməklə yanaşı, həmçinin bu əks etdirmə prosesində sənətkarın əsərində onun münasibətlərini də üzə çıxarır. Deməli hər sənətkarın əsərində obyektiv həyat hadisələrinin təsviri ilə yanaşı, onun bilavasitə dünyagörüşü də əks olunur. Ona görə də həyatı düzgün başa düşən hər sənətkar öz əsərlərində təsvir etdiyi bədii ideyanı nə qədər güclü və zəngin verərsə, onun əsərinin insanlara bədii təsiri də o qədər düzgün və güclü olar.

Müxtəlif sənət əsərləri insanlara, onların əxlaqına müxtəlif şəkildə təsir göstərir. Ona görə də böyük sənətkarlar öz əsərlərində ictimai ideyaları, əxlaqi qayələri, bədii obrazlarla həyat hadisələrinin xarakterini tipikləşdirilmiş, fərdiləşdirilmiş bədii vasitələrlə açıb göstərməyə çalışmışlar və çalışırlar.

Qədim yaradıcılığın ən mühüm qayələrindən biri mənəvi gözəlliyin incəsənətdə təcəssümüdür. İnsanların yüksək mənəvi, estetik amillar ruhunda tərbiyəsinə sənət əsərlərində insanların nəcib mənəvi hərəkətlərinin bədii ümumiləşdirilmələr səviyyəsinə qaldırılması da əhəmiyyətli dərəcə də təsir göstərir. İncəsənətin həyatiliyi onun əxlaqa, insanların mənəviyyatına təsiri ilə müəyyən edilir.

İncəsənət insanların mənəviyyatına tərbiyələndirici təsir göstərməklə yanaşı, həmçinin onu estetik və ictimai mövqedən qiymətləndirir, onların fəaliyyət və davranışlarını bu gözəllik baxımından təqdir və ya tənqid edir. Gözəllik və mənəviyyat, etik və estetik anlayışları həyatla, incəsənətlə eynilik təşkil etmir. Gözəlliklə mənəviyyat anlayışları arasında həm kəmiyyət, həm də keyfiyyət fərqləri mövcuddur. Gözəllik daha geniş anlayış olub, mənəviyyatda mövcud olan gözəlliklərlə yanaşı təbiət və cəmiyyətdəki gözəllikləri də əhatə edir. Təbii gözəlliklər isə mənəvi keyfiyyətlərə malik deyildir. Ona görə də, gözəl olan hər şey mənəviyyata təsir edərək onu daha da zənginləşdirir; mənəviyyat inkişaf prosesində yeni xassə və keyfiyyətlər kəsb edir; mənəvilik təcrübi, həyati fəaliyyətdə gözəlliyə təsir edir, yeni gözəllik nümunələri yaradır. Bunu Azərbayjanın şifahi və yazılı ədəbiyyatında, folklorunda daha canlı şəkildə görmək olar.

Mənəviyyatın təcrübi fəaliyyət vasitəsilə gözəlliyə təsiri daha həyati əhəmiyyətə malikdir. F.Bekon (ingilis materialisti) əxlaq – iradə - istək və əmək fəaliyətinin məna və mahiyyətindən istifadə edərək mənəvi fəaliyyətin roluna xüsusi qiymət verirdi. Bekona görə, düşüncə insanın müəyyən qərara gəlməsinə

kömək edir. Hər iki fəaliyyət prosesində təxəyyül mühüm rol oynayır. Çünki təxəyyül hər iki sahə arasında vasitəçi və keçirici kimi çıxış edir, hər iki tərəfə xidmət edir. Təxəyyül qəbul etdiyi hissi obrazları düşünjəyə verirsə, əqil öz qərarını verməzdən əvvəl onları seçib tədqiq edir və bundan sonra yenidən təxəyyülə qaytarır. Cünki azadlıqdan əvvəl gələn təxəyyül özü məhz bu iradəni oyadır və bir sözlə həm düşüncə, həm iradə üçün xüsusi silah rolunu oynayır. Onun fikrincə insan fəaliyyəti əqil, emosional, mənəvi amillərin təsir göstərdiyi belə bir mənzərədən yaranır: duyğu - təxəyyül - əqil, təxəyyül - iradə - fəaliyyət.

Deməli təxəyyül, o cümlədən bədii təxəyyül əməli fəaliyyətin həyata keçirilməsində böyük əhəmiyyətə malikdir. Şillerə görə mənəvi borcun həyata keçirilməsində estetik amillər son dərəcə əhəmiyyətlidir. Mənəvi borcun həyata keçirilməsindən insan böyük həzz və zövq alır. Bu isə mənəviyyatın özünün incəliyi və gözəlliyindən doğur. Mənəvi gözəllik və incəlik isə insanın hissi təbiəti ilə əxlaqi vəzifələri arasındakı həmahənglikdən yaranır. Bu isə həmişə mövcud olmur. Belə hallarda insan borc naminə özünün hissi təbiətini qurban verir. Bu zaman incəliyin yerini ləyaqət tutur. Deməli, mənəvi hərəkət öz inkişafında daim yeni – yeni estetik hallar və keyfiyyətlər kəsb edərək, insanın estetik həyəcanının obyektinə cevrilə bilər. Buradan da belə çıxır ki, estetik həyacan mənəviliyin, əxlaqiliyin müəyyən dərəcəsindən, xassə və keyfiyyətindən döğur. Estetik həzz verə bilən hər mənəvi hərəkət isə öz təbiəti etibarilə əxlaqımız olmalıdır. Lakin müsbət əxlaqi hərəkət həmişə estetik həyəcan doğura bilmir. Məsələn, müasir fəhlənin fəaliyyəti estetik maraq doğurmur, bu maddi maraqdır.

Əxlaqi hərəkətlər o zaman estetik səviyyəyə qalxır ki, onlar qəhramanlıqla, rəşadətlə bağlı olsun. Heç nədən qorxmayan, hər bir müqavimətin, çətinliyin qarşısını ala bilən, yaradıcı insanların mənəvi hərəkətləri estetik zövq yaradır. Müasir incəsənətin ən mühüm vəzifələrindən biri əxlaqi və estetik cəhətlərin vəhdəti və dialektikasının bütün zənginliyi və dolğunluğunu bədii – fərdi obrazlarla açmaqdan ibarətdir. Bunun böyük ictimai əhəmiyyəti vardır.

İnsanların ideya – estetik, əxlaq tərbiyəsində incəsənətin bütün növləri – ədəbiyyat, musiqi, rəssamlıq, teatr, kino və s. kimi növləri böyük əhəmiyyət kəsb edir. Azərbaycan ədiblərinin, musiqişünaslarının, rəssamlarının yaratdığı əsərlər bu baxımdan xüsusilə əhəmiyyətli və dünya şöhrətlidir.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1.İncəsənətin əxlaqi görüşlərin təbliğində rolu.

2.İncəsənətin növləri və tərbiyə.

## TƏRBİYƏNİN MƏQSƏDİ VƏ TƏRKİB HİSSƏLƏRİ

İstənilən fəaliyyətdə, müəyyən mənada, müvəffəqiyyətin əsasını məqsəd aydınlığı təşkil edir. Aydın məqsəd hər bir işçiyə, istənilən sahədə fəaliyyət göstərənə işini səmərəli və düzgün təşkil etməyə imkan verir. Pedaqoji prosesdə də məqsəd aydınlığı böyük əhəmiyyət kəsb edir.

Bu məqsədlər isə cəmiyyətin şəxsiyyət formalaşdırılması işinə verdiyi tələblərə əsasən müəyyən edilir. Klassik və müasir pedaqoqlar şəxsiyyət formalaşdırılması prosesində məqsəd aydınlığına yüksək qiymət verirblər. Məsələn K. D Uşinski məqsəd aydınlığını pedaqoji prosesin birinci və əsas məsələsi hesab edirdi. Onun fikrincə tərbiyənin məqsədi ictimai və xalq mənafeyini üstün tutan, həqiqətə, doğruluğa, xeyrixahlıqa can atan, bütün insanlığın mənafeyini xalqının və özünün mənafeyi ilə birləşdirməyi bacaran həqiqi insan yetişdirməkdir. (K.D.Uşinski, seçilmiş pedaqoji əsərləri, Azərnəşr, 1953, s111)

Praqmatizm nümayəndələrindən biri, Amerika pedaqoqu D. Dyui iddia edirdi ki, eyni zamanda paralel şəkildə həm məqsəd, həm də tərbiyə prosesi mövcuddur. Onun fikrincə tərbiyə inkişafdır və o, heç bir xarici təsirə tabe deyildir. Bununla da o, tərbiyə prosesini elmilik, obyektivlik və məqsədyönlülükdən məhrum edirdi. O fərdi tərbiyəyə daha çox üstünlük verirdi.

D.Dyuinin davamçıları müasir proqmatistlər iddia edirdilər ki, mənlik iddiası ilə doğulmuş hər kəs xarici təsirə qarşı əks təsir göstərir, o özünü yaradıcılıqda təsdiq edir. Əksinə, xaricdən göstərilən tərbiyəvi təsirlər insanlardakı müstəqilliyi, qabiliyyəti boğur, onun üzə çıxmasını, inkişafını ləngidir.[4]

Məşhur Azərbaycan ədibi A. Bakıxanov hər şeydən əvvəl tərbiyənin məqsədini müəyyənləşdirməyə yüksək qiymət vermişdir. Onun fikrincə tərbiyənin məqsədi həqiqi insan yetişdirməkdir. O, əxlaq və əqli tərbiyəyə daha çox üstünlük verirdi. Tərbiyənin digər tərkib hassələrini də əxlaq tərbiyəsinin tərkib hissəsində (estetik, fiziki, əmək və s) verirdi.

O, əxlaq tərbiyəsinə nəzakətlilik, təvözarkarlıq, səmimilik, doğruçuluq, düzlük, diqqətlilik, düşünərək danışmaq və hərəkət etmək, sərbəstlik, özüntənqid, təmkinlilik, ehtiyatlılıq, əməksevərlik, və s kimi sifətləri aid edirdi.

Tərbiyənin məqsədi cəmiyyətin obyektiv inkişaf qanunları əsasında müəyyən edilir, məhsuldar qüvvələrin inkişafı ilə şərtlənir, onunla bərabər dəyişir.

İctimai iqtisadi quruluş dəyişdikcə tərbiyənin məqsədi də dəyişir. Ona görə müxtəlif ictimai iqtisadi quruluşlarda tərbiyə də müxtəlif məqsədləri yerinə yetirmişdir.

Müasir dövrdə inkişaf etmiş demokratik ölkələrdə tərbiyənin məqsədi hərtərəfli tnktşaf etmiş insanlar yetişdirməkdən ibarətdir. Hərtərəfli insan idealı müxtəlif dövrlərdə insanları düşündürmüş, bu isə öz əksini xalqların yaradıcılığında dövrün mütəfəkkirlərinin əsərlərində tapmışdır. Hərtərəffli inkişaf etmiş insan idealı müxtəlif xalqların həm yazılı, həm də şiffahi xalq ədəbiyyatında əks olunmuşdur. Xalq yaradıcılığında təsvir edilən bu qəhrəmanlar fiziki cəhətdən sağlam, gözəl, əxlaqı təmiz, mərd, qorxmaz, döyüşkən, xalqını və vətənini sevən şəxslər kimi verilmişdir, vəsf edilmişdir.

Zaman keçdikcə hərtərəfli inkişaf etmiş şəxsiyyət idealı reallaşmış, gündəlik tələbata çevrilmiş, zəruri həyatı keyfiyyətlər kimi formalaşdırılmağa başlanmışdır.

Hərtərəfli inkişaf etmiş şəxsiyyət tələbi müasir dövrdə cəmiyyətin pedaqoji proses qarşısında qoyduğu əsas tələbdir. Bu tələb uyğun olaraq tərbiyə, təlim təhsilin insan formalaşdırılması işinin məqsədləri müəyyən edilir. Azərbaycanda tərbiyənin məqsəd və vəzifələri Azərbaycan Respublikasının Təhsil Qanununun 9-cu maddəsində öz əksini tapmışdır: dərin və hərtərəfli biliyə, bacarığa, praktik hazırlığa, yüksək mədəniyyətə, məsuliyyət hissəsinə, mütərəqqi dünyagörüşə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmaq: soykökünə, Azərbaycan xalqının azadlıq və demokratiya ənənələrinə bağlı olan, xalqının milli, əxlaqi, humanist, mənəvi və mədəni dəyərlərinə dərindən yiyələnən, onu qoruyan və daim inkişaf etdirən, ailəsini, millətini, Vətənini sevən və daim ucaltmağa çalışan, ümumbəşəri dəyərlərə yiyələnən, insan hüquqları və azadlıqlarına hörmət edən, müstəqil və yaradıcı düşünən, biliyinə, yüksək əxlaqi və mənəvi keyfiyyətlərinə, demokratikliyinə görə dünyanın ən qabaqcıl ölkələrinin vətəndaşları səviyyəsində dura bilən sağlam yurddaşlar yetişdirmək və bununla yüksək sivilizasiyalı cəmiyyət qurmağa, azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyə qadir olan İnsan tərbiyə etməkdir. Bu deyilənlərə istinad edərək demək olar ki, Azərbaycan Respublikasında tərbiyənin məqsədi hərtərəfli inkişaf etmiş şəxsiyyətlər yetişdirməkdən ibarətdir.

Hərtərəfli inkişaf etmiş şəxsiyyət dedikdə yuksək intelektual səviyəyə malik, zəruri əxlaqi keyfiyyətlərə yiyələnmiş, istehsalın əsas sahələri haqqında müəyyən biliklərə və əmək vərdişlərinə malik, gözəlliyi sevməyi, qiymətləndirməyi bacaran, yaşadığı dövrün ictimai-siyasi hadisələrinə obyektiv qiymət

---

[4] Педагогика (С.Баранов, Т.В.Великов, В.А.Сластенинов). М.,1976.

verən, dövlət və şəxsi hüquqları haqqında elmi məlumata malik, onu müdafiə edə bilən mübariz insanlar nəzərdə tutulur.

Tərbiyənin bu məqsədinə müvafiq tərkib hissələri müəyyən edilir. Bunları aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Əqli təhsil və elmi dünyagörüş formalaşdırılması
2. Əxlaq tərbiyəsi
3. Əmək tərbiyəsi
4. Estetik tərbiyə
5. Fiziki tərbiyə
6. Hüquq tərbiyəsi
7. İdeya-siyasi tərbiyə
8. Ekoloji tərbiyə

Əqli təhsil və elmi dünyagörüş formalaşdırılması böyüyən nəslin, ümumiyyətlə insanların təbiət, cəmiyyət və insan təfəkkürünün obyektiv inkişaf qanunları haqqındakı elmi məlumatlara yiyələnməni əhatə edir. Bu prosesdə böyüyən nəsil sistemli təhsil müəssisələrində müxtəlif tədris fənləri vasitəsilə zəruri biliklərə yiyələndirilir və onlarda bu biliklərə müvafiq bacarıqlar, vərdişlər formalaşdırılır. Mənimsədilən həmin biliklər, elmi məlumatlar əsasında həyata baxış formalaşdırılır, dünyagörüş yaradılır. Beləki, elmlərin əsasına yiyələndikcə tərbiyə olunanlarda təbiət hadisələrinə, təbii möcüzələrin əsaslarına aid elmi münasibət yaranır, bu isə onlarda düzgün obyektiv dünyagörüş yaranmasına səbəb olur.

Böyüyən nəslin zəruri elmi biliklərə yiyələnməsi həm də ictimai-iqtisadi tələbdir. Bu tələb cəmiyyətin, ictimai-iqtisadi quruluşun pedaqoji proses qarşısında qoyduğu əsas vəzifədir. Ona görə də müxtəlif ictimai-iqtisadi quruluşlu cəmiyyətlərdə tərbiyə məqsədi də müxtəlif olmuşdur. Buna səbəb həm də məhsuldar qüvvələrin inkişaf səviyyəsi, elmi-texniki tərəqqinin vəziyyəti olmuşdur. Müasir yüksək elmi-texniki inkişaf səviyyəli dövlətlərdə təhsilin müəyyən dövrü məcburidir. Bu insanların, xüsusən də yeniyetmə və gənclərin yaşadığı cəmiyyətin əsas iqtisadi inkişaf səviyyəsinə cavab verə biləcək vəziyyətə hazır olması tələbindən irəli gəlir. Elmi məlumatlara yiyələnmə, intellektual inkişaf hər bir şəxsə həyatda, quruculuq işində fəal iştirak etmə, təbiət və cəmiyyət hadisələrinə obyektiv qiymət vermə, əməyini və həyatını düzgün qurma, öz yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmə və s. bu kimi imkanlar verir. İnsanlar həyat və fəaliyyətlərinin müxtəlif dövrlərində elmi məlumatlara yiyələnmə zəruriyyəti qarşısında qalırlar. Bu istehsalatın və xalq təsərrüfatının digər sahələrindəki elmi yeniliklərin tədbiqi ilə bağlı olur.

Əmək tərbiyəsi və politexnik təhsil böyüyən nəslin, ümumiyyətlə insanların əmək fəaliyyətinə həm nəzəri həm də təcrübi nöqteyi nəzərdən hazırlanmasını əhatə edir. Əmək tərbiyəsi əməyin elmi əsasları, onun elmi təşkili haqqında sistemli məlumatlar verir, zəruri əmək bacarıq və vərdişləri, əməyə, əmək adamlarına, öz əmək fəaliyyətinə münasibət formalaşdırır. Bu proses həm xüsusi dərslər, müxtəlif tip məşğələlər, həm də ayrı-ayrı fənlərin tədrisi vısitəsilə həyata keçirilir. Bu yolla insanlara onların yaşaması üçün əmək fəaliyyətinin birinci əsas şərt olduğu dərk etdirilir. Bu iş məktəbdənkanar tərbiyə müəssisələrində, mədəniyyət müəssisələri və digər tərbiyə müəssisələrində müxtəlif tipli çalışmalar, tədbirlər, dərnəklər vasitəsilə də həyata keçirilir. Mədəniyyət müəssisələrində müxtəlif texniki dərnəklərdə istehsalatdakı yeniliklər, texniki yeniliklərə aid elmi məlumatlar verilir., həm də yeni əmək bacarığı və vərdişi formalaşdırır. Azərbaycan mütəfəkkirlərinin əsərlərində əmək tərbiyəsinə, əməyin insanın formalaşmasında oynadığı rola yüksək qiymət verilmişdir. Bu Nizami Gəncəvi əsərlərində xüsusilə geniş verilmişdir. Nizaminin fəkrincə «cəhənnəmdə əməklə məşğul olmaq cənnətdəki əməksiz həyatdan yaxşıdır».

Politexnik təhsil böyüyən nəsli, təhsil alan şəxsləri istehsalın əsas prinsipləri ilə tanış edir, onlarda ən sadə əmək alətləri ilə rəftar etmə bacarığı formalaşdırır. Politexnik təhsil tərbiyə olunanlara şüurlu peşə seçməyə, zehni bilikləri ilə əməli fəaliyyətlərini əlaqələndirməyə, peşələrini istədiyi vaxt dəyişməyə, elmi-texniki yenilikləri işinə tətbiq etməyə imkan verir. Politexnik təhsil sistemli təhsil müəssisələrində ayrıca fənn şəklində tədris edilmir. O, müxtəlif fənlərin tədrisi prosesində həyata keçirilir. Politexnik təhsil peşə təhsili ilə də qarşılıqlı əlaqədədir.

Peşə təhsili xüsusi gimnaziya, seminariyalar, litseylər, texnikum və s. orta-ixtisas müəssisələrində istehsal və xalq təsərrüffatının müxtəlif sahələrində çalışa biləcək şəxslər formalaşdırır. Ali təhsil müəssisələrində isə yüksək ixtisaslı, ali hazırlıqlı, hərtərəfli inkişaf etmiş və müəyyən sahə üzrə formalaşmış yüksək ixtisaslı şəxslər hazırlanır.

Əxlaq tərbiyəsi böyüyən nəslə cəmiyyətdə mövcud olan əxlaq normaları, davranış qaydaları, onların mahiyyəti haqqında nəzəri məlumatlar vermək, müvafiq əxlaqi adətlər formalaşdırmaqdan ibarət uzun müddətli bir prosesdir. Əxlaq tərbiyəsi vasitəsilə böyüyən nəsil zəruri əxlaqi anlayışları mənimsəyir, əxlaqi keyfəyyətlərə yiyələnir, bəşəri və sosial birgəyaşayış normaları ilə tanış olur. Bu prosesdə onlarda

cəmiyyətə, insanlara, ailəyə, hər kəsin özü-özünə münasibəti formalaşdırılır. Əxlaq tərbiyəsi demək olar ki, insanın ömrünün sonuna qədər davam edir. İnsan həyatının müəyən dövründən sonra əxlaqi keyfiyyətlər formalaşdırılması işi məktəbdənkanar tərbiyə, mədəniyyət və digər müəssisələrdə icra edilir. Bu müəssisələrdə aparılan tərbiyə tədbirləri cəmiyyətin aktual tərbiyə problemlərinə həsr edilir.

Yəni ayrı-ayrı istehsal sahələrinin tələb etdiyi zəruri əxlaqı münasibətlərin təcrübi cəhətdən mahiyyəti açılır, insanlar arasındakı rəsmi iş, etik və s. münasibətlərin istehsala, kollektivin fəaliyyətinə təsiri izah edilir. Digər tərəfdən cəmiyyətdəki dəyişikliklərlə əlaqədar olan yeni münasibət, yeni vəziyyətdə işçilərin və digər şəxslərin riayət etməli olduqları qayda və normalar izah edilir. Məsələn, sahibkarlığa istinad edən cəmiyyətdə yeni istehsal – iş münasibətləri meydana çıxır. Bu isə insanlardan fəaliyyətə yeni münasibətlə yanaşmağı tələb edir. Belə ki, əvvəllər sosial yarışları qarşılıqlı yardım və köməyə əsaslanırdısa indiki istehsal rəqabətə istinad edir. Rəqabət isə hər bir işçi işini yaxşı, elmi əsaslarla, keyfiyyətli qurmağa, iş və kollektiv daxili normalara ciddi riayət etməyə məcbur edir. Əks halda işçi işsiz qala bilər. Bu yeni tələb təlim-tərbiyə müəssisələri ilə yanaşı mədəniyyət və incəsənət müəssisələrində də insanlara izah edilir, mənimsədilir.

Fiziki tərbiyə fiziki cəhətdən sağlam, bədəncə möhkəm, çevik, dözümlü, əmək qabiliyyətli şəxsiyyətlər yetişdirməyə xidmət edir. Fiziki tərbiyə vasitəsilə həmçinin insanlarda müsbət iradi keyffiyyətlər də təşəkkül tapır. Fiziki tərbiyə insanları Vətəni müdafiə etməyə hazırlayır. Bunun üçün təlim müəssisələri xüsusi proqram əsasında fəaliyyət göstərir. Fiziki tərbiyə həmçinin əqli inkişaf vasitəsidir. Belə ki, fiziki cəhətdə zəif və nöqsanlı insanların əqli inkişafında da çatışmamazlıq və ya nöqsanlar mövcud olur. Bu nöqteyi nəzərdən H. Zərdabi fiziki tərbiyəni hərtərəfli və harmonik şəxsiyyət formalaşdırmanın əsas şərtlərindən biri hesab edirdi. Onun fikrincə, fiziki tərbiyə əqli və əxlaq tərbiyəsinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Görkəmli fransız pedaqoqu P. F. Lesqaft da fiziki tərbiyəni yüksək qiymətləndirmiş, onu iradə və xarakterin formalaşmasında əxlaq tərbiyəsində əqli qabiliyyətləri, fikri fəallığın bədii zövqlərin yaranmasında, tərbiyəsində mühüm amil, vasitə hesab etmişdir.[5]

Estetik tərbiyə insanları gözəllik aləminə yaxınlaşdırır, estetik zövqlər yaradır, gözəlliyi görmə, qavrama, dərk edərək qiymətləndirmə bacarığı formalaşdırır, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir. Estetik tərbiyə insanlarda gözəl hisslər yaratmaqla onları həyata gözəllik ünsürləri daxil etməyə təhrik edir. Tərbiyənin digər tərkib hissələri kimi estetik tərbiyə də əxlaq, əqli, fiziki, əmək, hüquq və s. kimi keyfiyyətlərlə qarşılıqlı əlaqədədir.

Hüquq tərbiyəsi də tərbiyənin tərkib hissələrindən biridir. Hüquq tərbiyəsi vasitəsilə insanlar hüquqi biliklərə yiyələnir cəmiyyətdə mövcud olan hüquq normaları, onların mahiyyəti, hüquqi pozuntularının konkret nəticəsini öyrənirlər. İnsanlar cəmiyyətdə vətəndaşın hüquqları haqqında zəruri biliklərə yiyələnirlər. Hüquq tərbiyəsi vasitəsilə tərbiyə olunanlarda cəmiyyətdə mövcud huquq normalarına münasibət formalaşdırılır.

İdeya – siyasi tərbiyə də hərtərəfli şəxsiyyət formalaşdırılması işinin mühüm cəhətlərindən biridir. İdeya siyasi tərbiyə vasitəsilə ictimai-siyasi hadisələrə obyektiv yanaşma və qiymətləndirmə bacarığı formalaşdırılır.

Bu yolla yeniyetmə və gənclərdə düzgün münasibət, yüksək əhval ruhiyyə, mübarizlik, düzgün, obyektiv ictimai-siyasi mövqe tərbiyə olunur. İdeya siyasi tərbiyə təlim prosesində müxtəlif fənlərin tədrisi prosesində həmçinin sinifdən və məktəbdənkənar tədbirlər vasitəsilə aşılanır. İdeya siyasi tərbiyə işində mədəniyyət müəssisələri, ədəbiyyat və incəsənət, kütləvi informasiya vasitələri əhəmiyyətli yer tutur. Həmin vasitələrlə insanlar mövcud ictimai-siyasi hadisələrin mahiyyəti ilə tanış olur, siyasi cərəyanlar, partiyaların yaranma şəraiti, səbəbi, məqsədi, prinsipləri ilə tanış olurlar. Siyasi hadisələrlə kortəbii və şüurmuz qoşulma hallarını təhlil edərək, siyasi siyasi hadisələrin mahiyyəti haqqında müqayisələr apararaq, həm siyasi biliklərə yiyələnirlər, həm də bu hadisələri düzgün qiymətləndirə bilirlər. Bu isə onlarda fəal həyat mövqeyi, şüurlu ictimai-siyasi münasibət formalaşdırır.

Tərbiyənin tərkib hissələri bir-biri ilə qarşılıqlı əlaqədədir və bunlar eyni zamanda qarşılıqlı vəhdətdə həyata keçirilir, formalaşdırılır.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1. Tərbiyənin ictimai – iqtisadi inkişafdan asılılığı.
2. Tərbiyə məqsədlərinə tarixi yanaşma.
3. Müasir insanlara verilən tələblər.

[5] Педагоэика. Б., Азярняшр, 1964, с.386.

# ƏQLİ TƏHSİL VƏ ELMİ DÜNYAGÖRÜŞÜN FORMALAŞDIRILMASI

Şəxsiyyət formalaşdırmağın mühüm və əsas tərkib hissələrindən bir də əqli təhsil və bu əsasda elmi dünyagörüş formalaşdırılmasıdır. Əqli təhsil vasitəsilə insanlar təbii və ictimai hadisələrin baş vermə qanunauyğunluqlarını dərk edirlər. Onların beynində maddi aləmin, obyektiv gerçəkliyin elmi mənzərəsi yaradılır. Bu yolla insanlara təbiət, cəmiyyət və insan təfəkkürü haqqında zəruri biliklər verilir. Bu biliklər istehsal prosesi ilə əlaqələndirilir. Beləliklə də böyüyən nəsl dərk olunmuş obyektiv gerçəklik qanunlarından cəmiyyətin və şəxsiyyətin xeyrinə istifadə yollarını öyrənirlər. Əqli təhsil sistemli şəkildə də tədris müəssisələrində aparılır. Böyüyən nəsl müxtəlif fənlərin tədrisi prosesində müxtəlif təbiət hadisələrinin mahiyyətini öyrənir, öyrənilmiş biliklərə müvafiq bacarıq və vərdişlərə yiyələnirlər. Əqli təhsilin aşağıdakı vəzifələri mövcuddur:

- böyüyən nsli bilik, bacarıq və vərdişlərlə silahlandırmaq;
- əhsil alanların zehni bilikləri və intellektual səviyyələrini inkişaf etdirmək;
- zehni əmək mədəniyyəti formalaşdırmaq;
- əqli biliklərə müstəqil yiyələnmə bacarıqları formalaşdırmaq;
- böyüyən nəsldə, bütün təhsil alanlarda özüntəhsilə maraqlar yaratmaq;
- təhsil alanları istehsalın elmi əsasları ilə tanış etmək;
- elmi məlumatlara şüurlu münasibət formalaşdıraraq yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək;
- mənəvi zənginlik yaratmaqla, elmi dünyagörüş formalaşdırmaq.

Elmi məlumatlara yiyələnmiş hər bir adam quruculuq işində daha fəal iştirak edir, öz fəaliyyyətini elmi əsaslar üzərində qurmağa çalışır, yaradıcılıq göstərir. Bu həmçinin müasir mürəkkəb istehsal prosesinin, inkişaf etmiş sənayeyə əsaslanan cəmiyyətin öz vətəndaşlarına verdiyi tələblərdir. Yəni cəmiyyət əqli təhsil qarşısında mövcud sənayeni idarə edə biləcək, xalq təsərrüfatının müxtəlif sahələrində çalışa biləcək yüksək intellektual səviyyəyə malik şəxsiyyətlər yetişdirmək tələbi qoymuşdur.

Əqli təhsil mənəvi zənginlik yaratmaqla əxlaqi saflığın da əsasını qoyur. Biliklərə yiyələnmə prosesin də insanlar həm də nəcib əxlaqi keyfiyyətlərə yiyələnirlər. Bu prosesdə insanların özünə, öz gücünə inam yaranır, bu inam isə təşəbbüskarlıq və yaradıcılıq meyllərinin yaranmasına səbəb olur.

Əqli təhsil zehni qabiliyyətlərin, idrak proseslərinin, xüsusən də təfəkkürün inkişafına imkan yaradır. Daha doğrusu, əqli təhsil prosesi insanların psixi proseslərinin inkişaf etdirilməsinin əsas vasitəsidir. Biliklərə yiyələnmə birbaşa idrak prosesidir. Materialların mənimsədilməsi zamanı təhlil tərkib, müqayisə kimi təfəkkür əməliyyatlarında istifadə edilir ki, bu da idrakı inkişaf etdirir. Hər yeni öyrədilən materialın əvvəlki məlumatlarla əlaqələndirlməsi, anlayışlar yaradılması, təfəkkürlə yanaşı hafizəni də inkişaf etdirir. Material ixtiyari və davamlı diqqət əsasında öyrənilir. Diqqətin uzun müddət öyrənilən obyekt üzərində cəmləşdirilməsi onu həm də inkişaf etdirir, materialı mənimsəmə, dərk etmə, öyrənmə arzusu, meyli iradi gərginlik, özünü məcburetmə əsasında baş verir ki, bu da iradəni möhkəmləndirir və inkişaf etdirir. Mənimsənilmiş materialın şərhi, başqalarına çatdırılması nitqi inkişaf etdirir və s. Göründüyü kimi biliklərə yiyələnmə insanlarda psixi hadisələri, idrak proseslərini səmərəli şəkildə inkişaf etdirir.

Biliklərə yiyələnərkən böyüyən nəsil və ümumiyyətlə öyrənənlər təbiət, cəmiyyət və insan təfəkkürünün inkişaf qanunları haqqında düzgün elmi məlumatları mənimsəyirlər.

Təbii və ictimai hadisələrin baş vermə səbəblərini öyrənirlər. Bu isə onlarda elmi dünyagörüş formalaşdırmağın əsasını qoyur. Elmlərə yiyələnmiş insanlar nadanlıq və xurafatdan uzaq olur, təbiət və cəmiyyət hadisələrinə obyektiv, real münasibət bəsləyirlər. Elmi dünyagörüşə malik olan hər kəs onun ətrafında baş verən hadisələri təhlil edə bilir, siyasi-ictimai hadisələrə düzgün qiymət verirlər. Elmi dünyagörüş şəxsin tutduğu mövqe və vəziyyətdən asılı olmayaraq, mövcud cəmiyyətə, ətraf aləm hadisələrinə obyektiv elmi münasibətlər sistemidir. Bu münasibətlər insanların baxışları və əqidəsi şəklində təzahür edir. İnsanların ətraf aləm hadisələrinə ilk münasibətləri baxışları kimi çıxış edir. Bu baxışlar getdikcə insanların davranış və hərəkətlərində möhkəmlənərək əqidəyə çevrilir. Baxışların yaranması və təzahüründə intellektual səviyyə əhəmiyyətli yer tutur. Beləki, intellektual səviyyəsi yüksək olan insanlar ictimai-siyasi və təbiət hadisələrinə elmi nöqteyi-nəzərdən, elmi əsaslara istinad edərək yanaşır. Bu isə onlarda elmi baxışlar formalaşmasına səbəb olur.

Dünyagörüş biliklər əsasında yaranır, lakin bilik deyildir. Bu inanılmış biliklərin həyata keçirilməsidir.

Dünyagörüş elmi biliklərlə yanaşı özündə əqidə, baxış və davrınışı da birləşdirir. Elm, baxışlar, zəruri əxlaqi hərəkət və davranışlar vəhdət halında dünyagörüş yaradır. Vahid və hərtərəfli dünyagörüşə malik şəxslər isə bütün hadisələrə istər təbiət istərsə də cəmiyyət hadisələrinə eyni obyektiv mövqedən yanaşır.

Hadisələrə yanaşma tərzinə görə müxtəlif dünyagörüşlər mövcud olmuşdur. Mütərəqqi-mürtəce; materialist-idealist; metafizik-materialist və s.

Elmi dünyagörüşə malik insan fəaliyyətində elmi müddəaları rəhbər tutur, təbiət və cəmiyyət hadisələrini təhlil edərək obyektiv qiymətləndirir, hər hansı bir faydalı əməklə məşğul olur, işsizlik və fəaliyyətsizliyə qarşı çıxır, optimist və mübariz olur, öz üzərində müntəzəm çalışır, lazım gəldikdə özün tərbiyə və özüntəhsillə məşğul olur.

İnsanlarda elmi dünyagörüşün əsası hələ kiçik yaşlarından qoyulur. Bu sistemli təlim müəssisələrində ki, təlim prosesində təlim-tərbiyə prinsiplərinə riayət etməklə ayrı-ayrı fənlərin tədrisi prosesində həyata keçirilir. Təbii və dəqiq elmlərin tədrisi prosesində təbiətin sirləri açılır, humanitar fənlərin tədrisi prosesində isə cəmiyyətin inkişaf qanunlarını mahiyyəti dərk edilir və s. Materialların tədrisi prosesində əsası qoyulan elmi dünyagörüş sinfdənkanar tədbirlər vasitəsilə möhkəmləndirilir və inkişaf etdirilir.

Dünyagörüş formalaşdırılması ziddiyyətli prosesdir. Onun formalaşmasına müxtəlif alimlər insanların özlərinin malik olduğu hərəkət və davranışlar da təsir göstərir. Ona görə də dünyagörüş uzun müddətə formalaşır. Bu proses təlim müddəti bitdikdən sonra insanların fəaliyyəti zamanı da davam edir. Buna görə də insanlarda elmi dünyagörüşün formalaşdırılmasında mədəniyyət müəssisələri, KİV və fəaliyyət müəssisələrində aparılan təlim-tərbiyə işi tədbirləri əhmiyyətli rol oynayır.

Bu müəssisələrdə aparılan tərbiyəvi işlər cəmiyyətin tərbiyə proqramı şəxsiyyət formalaşdırılması işinə verilən tələblər əsasında qurulmalıdır.

Müstəqil iş üçün sual və tapşırıqlar.

1. Əqli təhsilin mahiyyəti.
2. Bilik və dünyagörüş.
3. Dünyagörüşün formalaşma mərhələləri.

# ƏXLAQ TƏRBİYƏSİ

Əxlaq tərbiyəsi hərtərəfli şəxsiyyət formalaşdırılması işinin mühüm tərkib hissələrindən biridir. İnsanda əxlaqi keyfiyyətlərin formalaşması və təkmilləşməsi həyatı boyunca ictimai–iqtisadi tələblərdən asılı olaraq, əmək və başqa insanlarla ünsiyyət prosesində ömrünün sonuna qədər davam edir. Bu prosesə həmçinin insanın özünün həyat movqeyi, cəmiyyətə münasibəti, hərəkət və rəftarları da təsir edir. Əxlaq tərbiyəsi tərbiyəcinin böyüyən nəsilə, tərbiyə olunanlara asılanacaq zəruri əxlaqi keyfiyyətlərin məqsədyönlü və mütəşəkkil aparılması, əxlaqi hisslərin münasibətlərin yaradılması, davranışların formalaşdırılması prosesini əhatə edir.

İnsanın əxlaqi keyfiyyətləri, onun daxili aləminin təzahürü kimi meydana çıxan davranışların formalaşması ömrünün sonuna kimi davam edir. İnsan əxlaqi keyfiyyətləri ilə birlikdə hazır şəkildə doğulmur. Onda formalaşan insanpərvərlik, düzlük, doğruçuluq, pislik, tənbəllik, əmək sevərlik kimi başqa keyfiyyətlər ona təsir edən kortəbii və şüurlu tərbiyəvi təsirlərin, cəmiyyətin göstərdiyi təsirin nəticəsi kimi meydana çıxır. İnsanların əxlaqi keyfiyyətləri təhlil edilərkən «əxlaqlı», «yüksək etikalı», «mədəni əxlaqlı», «əxlaqsız» kimi anlayışlardan istifadə edilir.

Əxlaq tərbiyəsi baza kimi «etikaya» istinad edir.

Əxlaq insanlar arasında yaranmış təcrübi etik qaydalar, normalar, yaxşı – pis, ədalətli – ədalətsiz, xeyir – şər və s. kimi normalar sistemi haqqında elmidir. Əxlaqı fəlsəfənin tərkib hissələrindən biri olan «Etika» tədqiq edir.

İctimai şüurun digər formaları kimi əxlaq da cəmiyyətin inkişafı ilə əlaqədər olaraq dəyişir. Hçəmçinin əxlaq əsrdən-əsrə, xalqdan–xalqa keçdikcə dəyişir, bəzən ziddiyyətli şəkil alır. Əxlaq tarixi və ictimai xarakter daşıyır. Belə ki, eyni tarixi dövrdə eyni əxlaqi keyfiyyət cəmiyyətin tələbindən asılı olaraq müxtəlif mövqedən çıxış edə, müxtəlif mənada işlədilə bilrər.

Əxlaq hər zaman mövcud ictimai münasibətlərdən asılı olub, bu münasibətləri müxtəlif şəkildə əks etdirir. Ona görə də hər bir cəmiyyətin özünün istehsal münasibətlərini əks etdirən əxlaq normaları, davranış qaydaları mövcüd olmuşdur və mövcuddur. Bu qaydalar insanlar arasındakı müxtəlif münasibətləri, əxlaqi qiymətləri özündə birləşdirir. Hər bir cəmiyyət üzvünün hərəkət və davranışları bu tələblər və qaydalara uyğun şəkildə qurulur. Məhz əxlaq tərbiyəsi vasitəsilə insanların şüuruna yeridilir ki, hər insan bu tələblər, normalar əsasında hərəkət etməyə məcburdur. Tərbiyə vasitəsilə cəmiyyətdəki əxlaq normaları insanların adətinə cevrilir, şüuruna yeridilir. Bu prosesdə müxtəlif tərbiyə müəssisələri müxtəlif şəkildə iştirak edir. Mədəniyyət müəssisələrində bu proses tək-tək nümunələr əsasında, həyati həqiqətlərlə müsbət və mənfi hərəkətlərin nətijələri müqayisəli şəkildə təhlil edilərək verilir. İnsanlar əxlaqi və qeyri əxlaqi hərəkətlərin nəticələrinin bilavasitə şahidi olurlar ki, bu da onlara daha şüurlu dərk etməyə və düzgün əxlaqi nəticə çıxarmağa imkan verir. Tərbiyənin bu şəkildə qurulması baş verə biləcək əxlaqi nöqsanları aradan qaldırır.

Əxlaq tərbiyəsi tərbiyəçinin rəhbərliyi ilə böyüyən nəsldə, ümumiyyətlə insanlarda cəmiyyətin müəyyən etdiyi əxlaq normaları və davranış qaydaları formalaşdırmaqla cəmiyyət üçün yaralı, öz hərəkət və münasibətlərini şüurlu sürətdə idarə edən şəxsiyyətlər formalaşdırma prosesidir. Onun məqsədi cəmiyyətin əxlaqi–ictimai tələblərinə javab verən insanlar, vətəndaşlar yetirməkdən ibarətdir. Əxlaq tərbiyəsi düzgün əxlaqi anlayışlar yaratmaq, bu anlayışlara müvafiq adətlər, rəftarlar formalaşdırmaq kimi vəzifələri yerinə yetirir. Əxlaqi anlayışlar aşılanacaq əxlaqi hərəkətlərin, qaydaların mənası, mahiyyəti haqqında biliklər, məlumatlardır. Hər kəs icra etdiyi hərəkətin mənasını düzgün dərk etməsə onun hərəkət və davranışları da şüurlu olmaz. Müşahidələr və aparılan tədqiqatlar göstərmişdir ki, əxlaqı nöqsana səbəb çox vaxt onun mahiyyəti haqqında düzgün məlumatın olmamasıdır. Ona görə də əxlaq tərbiyəvi tərbiyə olunanlarda əxlaqi biliklər, məlumatlar və bu biliklərə istinad edən əxlaqi şür formalaşdırmasından başlandıqda daha səmərəli nəticə verir. Şüurlu sürətdə dərk edilmiş əxlaq norma və qaydaları insanları hər zaman və hər yerdə şüurlu sürətdə hərəkət etməyə məcbur edir. Şüurlu qavranılmış əxlaq insan davranışının tənzimləyicisinə çevrilir. Formalaşmış düzgün əxlaqi istiqamətlər insana həm özünü həm də başqalarının hərəkətlərini, davranışını təhlil edərək obyektiv qiymət vermə imkanı yaradır. Düzgün əxlaqi münasibətlər insanlara müxtəlif situasiya və vəziyyətlərdə vicdanla, etik normalara uyğun şüurlu seçim imkanı verir.

Əxlaqi ideal əxlaqın şüurluluğunun xüsusi forması vacib tərkib hissəsi kimi təzahür edir.

İdeal hər kəsin arzu etdiyi əxlaqi keyfiyyətlərə malik insan obrazlarıdır. Daha doğrusu şəxsin özünün olmaq istədiyi insan nümunəsidir. Yəni hər adam idealında gördüyü müsbət əxlaqi keyfəyyətləri özündə də yaratmağa, formalaşdırmağa çılışır. Əxlaqi anlayışlar aşılanması tərbiyənin ilk mərhələsindən başlanır, müxtəlif fəaliyyət sahələrində davam etdirilir. Belə ki, sistemli təlim və tərbiyə müəssisələrində çəmiyyətdə mövcud ümumi əxlaq normaları və onlara riayət etmənin zərurliyi aşılanır, izah edilir. Müxtəlif fəaliyyət sahələrində isə həmin fəaliyyət üçün zəruri olan əxlaqi keyfiyyətlər, hərəkətlər haqqında

anlayışlar yaradılır. Məsələn istehsal əxlaqı, pedaqoqa verilən (həm orta həm də ali məktəb pedaqoqları) əxlaqi tələblər, tələbələrə verilən əxlaqi tələblər, diplomatiya əxlaqi, biznes əxlaqı, mədəni fəaliyyət əxlaqı və s. Bunlar isə müvafiq təhsil və fəaliyyət müəssisələrində köməkçi tərbiyəvi fəaliyyət vasitəsilə həyata keçirilir. Məsələn istehsalat əxlaqı istehsalat müəssisələrindəki mədəniyyət müəssisələrində keçirilən tərbiyə tədbirləri (əxlaqi söhbət, disput, ədəbi –bədii gecələr və s.) vasitəsilə çatdırılır və s.

Verilmiş əxlaqi anlayışların insanlarda adətə çevrilməsi də anlayışlar kimi zəruri və vacibdir. Əxlaqi adətlər yaradılmasa mənimsənilmiş, dərk edilmiş anlayışlar boş və əhəmiyyətsiz söhbətə çevrilər. Təlim tərbiyə müəssisələrində anlayışların adətlərə dəfələrlə, məcburən təkrar etdirilən təmrinlərlə çevrilir. Bu isə nəticə etibarilə anlayışların insanların şəxsi əxlaqi keyfəyyətinə, xarakterinə, rəftarına çevrilməsi deməkdir. İstehsal, əxlaqı, ümumiyyətlə fəaliyyətin tələb etdiyi əxlaqi adətlər isə insanların müstəqil şüurlu fəaliyyəti zamanı özünətərbiyənin köməyi ilə həyata keçirilir. Bu prosesdə tərbiyənin stimul və motivi də həll edici rol oynayır. Birinci halda insanlarda əxlaqın formalaşdırılması təlim–tərbiyə müəssisələrinin vəzifəsi olduğu halda II vəziyyətdə bu insanın şəxsən özünün məcburi həyati vəzifəsinə, borcuna çevrilir. Birinci halda tərbiyə olunanın hərəkət və davranışına təlim müəssisəsi və tərbiyəçi cavabdeh olduğu halda, II vəziyyətdə hər kəs özüdür. I halda əxlaqi nöqsanda, müəyyən mənada, tərbiyəçi də məsuliyyət daşıyırsa, II vəziyyətdə şəxsiyyət özü öz qeyri əxlaqi hərəkəti üçün məsuliyyət daşıyır.

**Əxlaq tərbiyəsinin məzmunu.**

Əxlaq tərbiyəsinin məzmununa ümumbəşəri dəyərlərlə yanaşı cəmiyyətdə mövcud olan birgə yaşayış qaydaları, yeni sosial və məişət münasibətləri də daxildir. Əxlaq ictimai şüur forması olduğuna görə onun məzmunu da cəmiyyətlə bərabər dəyişir, hər cəmiyyət özünün iqtisadi-ictimai tələblərinə uyğun əxlaq normaları, qaydaları müəyyən edir. Bu qaydalar bütün cəmiyyət üzvləri üçün zəruri-məcburi, hamı üçün məqbul hesab edilən qaydalardır. Bu norma və qaydaların əksi, ona zidd hərəkətlər isə cəmiyyət üçün qeyri-məqbul, hərəkətlər hesab olunub nə cəmiyyət, nə də ki, digər cəmiyyət üzvləri tərəfindən qəbul edilmir.

Əxlaq tərbiyəsinin məzmununa vətənpərvərlik, dostluq və yoldaşlıq, qarşılıqlı yardım, beynəlmiləlçilik, fəaliyyətə şüurlu münasibət, intizam, məsuliyyət, düzlük, doğruçuluq, sadəlik tövazökarlıq insanlara humanist münasibət, onu əhatə edən mühitə – təbiətə qayğılı münasibət və s. daxildir.

Vətənpərvərlik – öz doğma vətəninə, ölkəsinə, diyarına məhəbbət, onun düşmənlərinə qarşı barışmazlıq ifadə olunan əxlaqı keyfiyyətlərdir. Bu aparıcı əxlaqi keyfiyyət olub digər əxlaqi keyfiyyətlərin əsasını qoyur. Belə ki hər bir müsbət əxlaqi keyfiyyətin əsasını öz millətinə, vətəninə, xalqına, doğma, kiçik kəndinə məhəbbət təşkil edir. Bütün müsbət keyfiyyətləri insanlara, vətəninə olan müsbət münasibətlər stimullaşdırır. Vətənpərvərlik tarixi anlayışdır. Xalqın, insanların vətənpərliyinin əsasını onların yaşadığı, fəaliyyət göstərdiyi vətənə, onları qoruyan, müdafiə edən, maddi vəziyyətini yaxşılaşdırmağa, fəaliyyətinin mədəni səviyyəsini yüksəltməyə çalışan dövlətə, ictimai quruluşa məhəbbət, müsbət münasibət təşkil edir.

Vətənpərvərlik tərbiyəsi insanın yaşadığı mikro mühitdən, doğma ata yurdunu, kəndini, gücə və şəhərini sevməkdən başlayır. Bu məhəbbət böyük vətənə, onu qoruyan dövlətə yaradılacaq məhəbbətin əsasını təşkil edir.

Milli vətənpərvərlik tərbiyəsi sistemli təlim müəssisələrində təlim və dərsdənkənar tədbirlər vasitəsilə həyata keçirilir. Məsələn tarix dərslərindən xalqın keçdiyi şərəfli tarixi yolu, müharibələrdə qələbə və məğlubiyyətini, onların səbəblərini və s. öyrənərkən öyrənənlərdə doğma vətənlərinə məhəbbət, onun suverenliyi, müstəqilliyi uğrunda mübarizlik, düşmənlərinə qarşı nifrət, milli sayıqlıq hissləri tərbiyə olunur. Kimya, biologiya, coğrafiya dərslərində ölkənin malik olduğu təbii sərvətləri öyrənməklə onlarda milli iftixar hissi və s. tərbiyə olunur.

Sinifdənkənar və məktəbdənkənar tədbirlər isə dövrün aktual vətənpərvərlik məsələləri, problemlərinə həsr olunur.

Mədəniyyət müəssisələri və müxtəlif müəssisələr də əxlaq tərbiyəsinin digər tərkib hissələrinə nisbətən vətənpərvərlik tərbiyəsinə aid daha çox tədbirlər keçirilir, tərbiyə işləri aparılır. Çünki milli vətənpərvərlik insanların tərbiyə münasibətlərinin əsasını təşkil edir. Şüurlu fəaliyyət prosesində insanlar özlərinin maddi ehtiyacını ödəməklə yanaşı həmçinin yaşadığı ölkənin dövlətin də mənafeyini müdafiə etdiyini dərk edirlər. Məsələn açılan hər bir zavod hər sahibkara mənfəət gətirməklə yanaşı həm də, çoxlu sayda insanların işlə təmin olması, ölkənin iqtisadi potensialının yüksəlməsi deməkdir. Hər bir işçinin şüurlu fəaliyyəti həmin işçinin maddi təminatı ilə yanaşı əmək məhsuldarlığını artırır, bu isə ölkədə istehsalın inkişafına təkan verir. Bu münasibətlər isə mədəniyyət müəssisələrində və həmçinin müxtəlif iş yerlərində, fəaliyyət sahələrində aparılan mədəni–tərbiyəvi tədbirlər vasitəsilə, təlim xarakterli məşğələlər vasitəsilə yaradılır.

Vətənpərvərlik tərbiyəsinin əsaslı qolunu hərbi- vətənpərvərlik tərbiyəsi təşkil edir. Hərbi vətənpərvərlik tərbiyəsi vasitəsilə gənclər vətənin müdafiəsinə hər zaman hazır olma, onun yolunda ölümə belə getməyə hazırolma ruhunda tərbiyə olunurlar. Hərbi vətəpərvərlik tərbiyəsi orta məktəblərdə həm

xüsusi dərslərdə, həm də idman oyunlarında, bu məqsədlə keçirilən sinifdənkənar tədbirlər vasitəsilə həyata keçirilir. Bu iş həmçinin sistemli və xüsusi hazırlıq kimi hərbi – əsgəri xidmətlərlə də həyata keçirilir. Hərbi – əsgəri xidmət zamanı gənclər əməli zəruri döyüş bacarıq və qabiliyyətlərinə yiyələnirlər. Həm də onlara vətənin siyasi müdafiəsinə aid nəzəri məlumatlar verilir, müxtəlif tədbirlər və siyasi biliklər vasitəsilə vətənə məhəbbət formalaşdırılır.

Hərbi vətənpərvərlik tərbiyəsinə mədəniyyət müəssisələri, məktəbdən kənar uşaq tərbiyə müəssisələrində də xüsusi yer verilir. Məktəbdən kənar uşaq tərbiyə müəssisələrində müxtəlif hərbi – idman oyunları, yarışları vasitəsilə yeniyetmə və gənclərə həm əməli hərbi vərdişlər, hərbi strategiya, taktika öyrədilir, həm də onlarda bu oyunlar prosesində əzmkarlıq, prinsipallıq, siyasi sayıqlıq, dözümlülük, cəldlik, çeviklik kimi keyfiyyətlər yaradılır və tərbiyə olunur. Bu keyfiyyətlər isə vətənpərvərlik, vətənin müdafiəsi üçün zəruri və vacib əxlaqi keyfiyyətlərdir.

Hərbi vətənpərvərlik tərbiyəsi sahəsində mədəniyyət müəssisələrində də xüsusi işlər görülür, tədbirlər keçirilir, fəaliyyət göstərir. Belə ki, bu müəssisələrdə dövrü olaraq əhali arasında mülki müdafiə tədbirləri, dövrün aktual siyasi hadisələriinin təhlilinə həsr olunmuş müxtəlif tədbirlər (disput, müzakirələr, mühazirələr, vətən qəhramanları, milli qəhramanlarla görüş və s.) keçirilir. Bu tədbirlərin keçirilməsində məqsəd insanların – vətəndaşların malik olduğu hərbi bilikləri təkrar etdirmək, yeni silah növləri və ondan qorunma üsulları barədə anlayışlar yaratmaq, özünü və ailəsini kütləvi, və s. silahlardan müdafiənin yeni üsullarını öyrətməkdən ibarətdir. Belə tədbirlər vasitəsilə insanlar fövqaladə vəziyyətlərdə yerinə yetirməli işlər, səmərəli və ağıllı müdafiə tədbirləri ilə tanış olurlar. Bunlar isə onlarda milli sayıqlıq, ictimai mülkiyyətə şüurlu münasibət və s. bu kimi zəruri hərbi vətənpərvərliyə aid keyfiyyətləri daha da möhkəmləndirir.

Əməyə və əmək adamlarına şüurlu münasibət də əxlaq tərbiyəsində əsaslı yer tutur. Əmək tərbiyəsinin sosial–ictimai tərəfini insanların əmək fəaliyyətinin əsasını vətənin xeyrinə şüurla çalışması; əməyi birinci və əsaslı yaşayış vasitəsi kimi dərk etməsi; bütün əmək növlərinə məhəbbət və hörmət, şüurlu fəaliyyət növü seçmək və s. təşkil edir. Əvvəlcə evdə, sonra isə məktəbdə müxtəlif fəaliyyət növləri ilə məşqul olan hər bir insan belə bir qənaətə gəlməlidir ki, həyatda hamı hər hansı bir əmək fəaliyyəti ilə məşqul olmalı, xalq təsərrüfatının bu və ya digər sahəsində çalışmalıdır. Bu tələb hər bir insan üçün məcburi həyati tələbdir.

Əməyə şüurlu münasibət tərbiyəsi dedikdə hər kəsin öz əmək fəaliyyətinə vicdanla yanaşması, doğruculuğu, düzlüyü, işində yaradıcılığı nəzərdə tutulur.

İşinə vicdanla yanaşmaq həmçinin hər kəsdən fəaliyyət zamanı ciddi cəhd, dözümlülük, hövsələ tələb edir. Əməyə düzgün münasibətin ictimai – əxlaqi cəhətini düzgün peşə seçmə təşkil edir. Bu isə insanların əməyə şüurlu münasibəti ilə bağlıdır. Müasir xüsusi sahibkarlıq dövründə əməyə belə şüurlu münasibət, imkan, maraq və bacarıqdan asılı olaraq peşə seçmə xüsusilə vacibdir. Tərbiyə olunanların diqqəti özünün fiziki və intelektual səviyyəsinə yönəldilməli, hər kəs özünün malik olduğu fiziki və əqli imkanlarını obyektiv qiymətləndirməsi bacarmalıdır. Peşə seçməyə də məhz bu imkanlar baxımından yanaşılmalıdır. Hər kəs elə peşə seçməlidir ki, həmin peşə ilə həm özünə, həm də cəmiyyətə fayda verə bilsin. Çünki Sovetlər birliyi dövründə peşə seçmə nisbətən şablon və marağın nəzərə alınmaması şəklində həyata keçirdi.

Məsələn orta ümumtəhsil məktəblərini bitirən hər kəs mütləq ali məktəbə daxil olmalı idi. Bu münasibətə ictimai rəy çox güclü idi. Ona görə də orta məktəbi bitirən hər bir gənc mütləq ali məktəbə daxil olmağa çalışırdı. Burada ön planda ali məktəbə daxil olma gedirdi. Seçilmiş sahədə faydalı əmək isə arxa plana keçirdi. Bu isə istehsalatda durğunluq yaranmasına, əmək məhsuldarlığının aşağı düşməsinə səbəb olurdu.

Əxlaq tərbiyəsinin mühüm komponentlərindən biri də intizamlıdır. İntizam tərbiyəsi əxlaq tərbiyəsinin qiymətli, əhəmiyyətli və vacib keyfiyyətidir. Belə ki, intizam insanın bütün fəaliyyətinin ilk göstəricisidir. Ona görə də hələ tərbiyənin ilk mərhələsində onun səmərəli şəkildə formalaşmasına ciddi fikir verilir. İntizam yaşından asılı olmayaraq hər kəsin özünün–özünə rəhbərliyi, fəaliyyətinin şüurlu istiqamətidir.

Humanizm mühüm əxlaqi keyfiyyətdir. Bu, başqa insanlara, onların əməyi, fəaliyyəti, şəxsiyyətinə hörmət üzərində qurulur. Şəxsiyyətin hərtərəfli inkişafı şərtlərindən biri də humanistlikdir.

Humanizm dedikdə həm də başqa insanların xoşbəxtliyi uğrunda mübarizə, onların istedad, bacarıq və yaradıjclıq qabiliyyətlərinin üzə çıxarılması, inkişafı üçün şərait yaratmaq, insanlar arasında səmimi münasibətlər yaratmaq da başa düşülür. Humanist münasibətlər bütün insanlara ictimai mövqeyindən asılı olmayaraq bərabər hüquqlu şəxslər kimi baxmaq: insanların ehtiyaclarına diqqətli olub onlara kömək etmək: insanların qəlbinə dəyməmək – onlara qarşı diqqətli olmaq; başqalarını anlamaq, başa düşmək bacarığı və hövsələsi; zəifləri müdafiəyə hazır olmaq və s. daxildir. Bu münasibətlər insanların bütün həyat boyunca onlara aşılanmalıdır. Humanizmin əsasını başqalarına hörmət və qayğıkeşliklə yanaşmaq təşkil edir.

Başqalarına hörmətlə yanaşan insanlarda isə özündən razılıq, başqalarına yuxarıdan aşağı baxma münasibətləri olmur, onlar yüksək ünsiyyət mədəniyyətinə malik olurlar.

Başqalarını incitməmək, təhqir etməmək, onlar üçün arzu olunmaz vəziyyət yaratmamağa əsaslanan diqqətlilik insanlara əmək sevərlilik kimi yanaşma özü insanı yuxarıda qeyd edilən şəkildə hərəkət etməyə məcbur edir.

Dözümlülük və genişürəklilik insanlarda başqalarının zəif cəhətlərini, çətinliklərini başa düşərək onları bağışlamaq haqqında pis fikrə düşməmək münasibətləri formalaşdırılır. Bura həmçinin başqalarının çətinliklərini vaxtında görüb hiss edərək ona imkan dairəsndə kömək etmək, heç olmazsa dərdinə şərik olmaq da daxildir. Bu münasibətlər insanlarda kiçik yaşlarından formalaşdırılmalıdır, əks halda onlarda başqalarına, onları əhatə edən insanlara qarşı etinasızlıq və qəddarlıq yarana bilər.

Humanizmin mühüm tərkib hissələrindən biri də zəifləri müdafiə etməkdir. Bu uşaqlarda kiçik yaşlarından başlanır və əvvəlcə heyvanları, bitkiləri qoruma, göcalara, analara kömək formalarından başlayaraq getdigcə mürəkkəbləşən işlər şəklində aparılır.

Humanist münasibətlər tərbiyənin digər tərkib hissələri kimi sistemli təlim-tərbiyə müəssisələrində paralel şəkildə həmçinin təhsil müddəti bitdikdən sonra müxtəlif müəssisə və təşkilatlarda da aparılır. Yaşlı insanlar və gənclərlə tərbiyənin bu sahəsində işlər mədəniyyət müəssisələrində, pedaqoji gerçəkliyin digər sahələrində daha geniş şəkildə aparılır. İdarə və müəssisələrdə ayrı-ayrı tədbirlərin tərkibində verilir. Məsələn mədəniyyət və ya ayrı-ayrı fəaliyyət sahələrində başqa xalqlara, millətlərə zorakılıq (həmin dövrdə real şəkildə mövcud olan) aktlarına qarşı etiraz tədbirlərində, xəstələrə, qaçqın və köçkünlərə, valideyinsizlərə kimsəsiz qocalara kömək və yardım formalarında və digər şəkildə həyata keçirilir.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1. Əxlaqın sosial və ictimai mahiyyət anlayışları.
2. Mədəniyyət və incəsənət işçilərinin əxlaq tərbiyəsində rolu.
3. Şüurlu əxlaqi fəaliyyət.
4. Əxlaq tərbiyəsinin vasitələri.

## ESTETİK TƏRBİYƏ

Şəxsiyyətin hərtərəfli və harmonik inkişafında, onun yüksək bəşəri tələblərə cavab verəcək bir səviyyədə formalaşmasında tərbiyənin təkib hissəsindən biri olan estetik tərbiyə də böyük əhəmiyyət kəsb edir. İndi görək estetik tərbiyə nədir, onun mahiyyəti nədən ibarətdir.

«Estetika» qədim yunan «estanomay» sözündən olub hərfi mənası «hisslərlə qavramaq» deməkdir. Müasir dövrdə estetika maddi aləmin, obyektiv gerçəkliyin insan tərəfindən bədii surətdə qavranılmasının ümumi qanunauyğunluqları haqqında elmdir. Estetika gözəllik haqqında elmidir. Estetik tərbiyə isə pedaqoji məfhumdur. Estetika fəlsəfi məfhumdur, fəlsəfənin tərkib hissəsindən biridir.

Estetik tərbiyə isə tərbiyənin ayrılmaz tərkib hissəsindən biri olub, gənc nəsli gözəllik aləminə yaxınlaşdırır, insanlarda həqiqi gözəlliyi bütün təzahür formalarında aydın qavramaq, düzgün başa düşmək, sevmək və qiymətləndirmək bacarıqları tərbiyə edir. Estetik tərbiyə insanlarda gözəlliyə olan həssaslığı artırır, onları həyata gözəllik ünsürləri daxil etməyə təhrik edir, insanların mənəvi aləminə qüvvətli təsir göstərməklə onu daha da nəcibləşdirir. Ona görə də dahilərin bir çox əsərlərində və klassik pedaqoqların pedaqoji irslərində böyüyən nəslin, ümumiyyətlə insanların estetik tərbiyəsinə böyük əhəmiyyət verilmişdir.

Müasir dövrdə estetik tərbiyəyə yüksək qiymət verilir, onun şəxsiyyətin hərtərəfli formalaşmasında əhəmiyyətli rol oynadığı qeyd edilir, gənclərin gözəlliyi, bədii hisslərə dolğun və dərindən yiyələnməsinə, onların bədii yaradıcılığa cəlb olunmasına böyük əhəmiyyət verilir.

<u>Estetik tərbiyənin məqsədi və vəzifələri.</u>

Deməli estetik tərbiyə - insanda bədii hisslər, zövq, bədii mühakimənin təşəkkül tapıb möhkəmləndirilməsi və bu əsasda yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi prosesidir.

Bu prosesdə tərbiyə olunanlar gözəlliyin mahiyyətini dərk edir, ona qiymət verməyi öyrənir, gözəlliyin yaradılmasında, mühafizəsində iştirak etməyə hazırlanır, özlərinin estetik keyfiyətlərini inkişaf etdirir, müvafiq bilik və vərdişlərə yiyələnirlər.

İnsanda gözəlliyə münasibətində onun maddi təlabatı da mühüm rol oynayır. Təbiət və cəmiyyət hadisələri şəxsiyyətin təlabatını ödəyən zaman onlarda gözəl düyğu və hisələr baş qaldırır. Məsələn, müxtəlif vaxtlarda təbiət hadisələrinə münasibət də mənfi və müsbət olmuşdur. Cəmiyyət hadisələri də həmçinin fərddə müsbət və mənfi keyfiyyətlər doğura bilər. Bu həmin hadisələrin fərdin öz maddi və mənəvi tələbləri ilə bağlılığından asılı olur.

Təbiət və cəmiyyət qanunlarını öyrənmək, bu qanunlardan çıxış edərək təbiət və cəmiyyəti insan təlabatına uyğunlaşdırmaq məsələsi, gögzəllik qanunları əsasında yaratmaq prinsiplərinə uyğun şərh edilməlidir. Danışıqda və bəzi pedaqoji ədəbiyyatlarda «estetik tərbiyə» anlayışı bəzən «bədii tərbiyə» anlayışı ilə eyniləşdirilir. Əslində isə bunlar başqa anlayışlardır. Beləki, «bədii tərbiyə» dedikdə başlıca olaraq incəsənət əsərləri (ədəbiyyat, musiqi, rəsm) vasitəsilə verilən tərbiyə nəzərdə tutulur. Bədii tərbiyə-incəsənət əsərlərini başa düşmək və həmin əsərlərin təsiri ilə ruhən yaşamaq qabiliyyəti tərbiyə etməyi nəzərdə tutur.[6]

Estetik tərbiyə isə həm incəsənət əsərləri, həm də təbiətdə, həyatda, fikir və davranışda olan gözəllikləri qavramaq, başa düşmək, sevmək və qiymətləndirmək qabiliyyətinin, habelə bədii yaradıcılıq qabiliyyətlərinin tərbiyə etdirilməsini nəzərdə tutur. Deməli estetik tərbiyə daha geniş sahəni əhatə edir və bədii tərbiyə də onun tərkibinə daxildir.

Estetik tərbiyə qarşısında aşağıdakı vəzifələr durur:

1.Estetik tərbiyə estetik hissələr yaratmalı və inkişaf etdirməlidir. Bura estetik həvəs, estetik qavrama, duyma daxildir. İnsanların yaşadığı mühitdə olan bütün gözəl şeylər-təbiət mənzərələri, təsviri sənət əsərləri, incə musiqi, memarlıq abidələri, qiymətli əmək məhsulları və s. onu diqqətini cəlb etməli, həssaslığını artırmalı, bədii hisslərini təşəkkül və inkişaf etdirməlidir. Müəllim şagirdlərə gözəlliyi bütün təzahür formalarında qavramaqda gömək etməlidir.

2. Estetik tərbiyə insanlarda estetik baxışlar və mühakimələr yaratmalıdır. İnsanların gözəllikdən sadəcə həzz almaları ilə kifayətlənmək olmaz. Onlarda həmçinin gözəlliyi qiymətləndirmə bacarığıda yaradılmalıdır. Hər bir tərbiyə olunan gözəlliyi ayıra, dərk edə bilməli, təkcə <u>baxmaq</u> və <u>eşitmək</u> deyil, həm də görməyi və dinləməyi də bacarmalıdır. Ancaq belə halda uşaqlarda yeniyetmə və gənclərdə estetik baxış və mühakimə tərbiyə edilə, yaradıla bilər.

3. Estetik tərbiyə insanlarda estetik yaradıcılıq qabiliyyətini təşəkkül və inkişaf etdirməli, onlarda incəsənətin müvafiq sahələri üzrə bilik, bacarıq və vərdişlər yaratmalıdır. Estetik tərbiyə insanın incəsənət

---

[6] А.Рзаев, Б.Ахмедов «Педагогикадан мцщазиря конспектляри» Б. Маариф, 1983.

sahəsində yaradıcılıq göstərə bilməsinə, kollektiv və ya təklikdə şer və hekayə oxumaq, musiqi əsrlərini ifa etmək, rəqs etmək bacarığına yiyələnməsinə gömək etməlidir.

Yuxarıda sadalanan vəzifələr ayrı-ayrılıqda deyil, bir-birilə qarşılıqlı əlaqədə həyata keçirilir. Həmin vəzifələr nə qədər müvəffəqiyyətlə həyata keçirilsə, tərbiyə olunanlar bir o qədər saf və gözəl olar. Məişətdə, rəftar və davranışda zövqsüzlüyə, bayağı təsəvvürlərə qarşı mübarizə apararaq, ətraf aləmə gözəllik ünsürləri daxil etməyə çalışar.

Estetik tərbiyənin yuxarıda qeyd edilən vəzifələri bütün təhsil sistemində təlim-tərbiyə müəssisələrində, o cümlədən məktəbdənkənar tərbiyə müəssisələrinə, mədəniyyət müəssisələrində və ümumiyyətlə pedaqoji gerçəkliyin bütün sahələrində aparılan estetik tərbiyəyə aid edilir. Mədəniyyət müəssisələrində estetik tərbiyə imkanları daha genişdir. Teatr, kino, televiziya, sirk və s. bu kimi incəsənət müəssisələri estetik tərbiyə sahəsində daha geniş imkanlara malikdir. İncəsənətin bu növləri müxtəlif sahələri gözəllik ünsürlərini özələrində birləşdirmişlər.

Məsələn, teatrda tamaşalar zamanı bədii qiraət, pantomima, dekorasiya, musiqi ahənkdar şəkildə birləşmişdir. Bu isə tamaşının qavranılmasında özünə məxsus emosional, estetik hislər yaradır. Bu zaman aktyorlarla tamaşıçılar arasında yaranmış emosional əlaqələr estetik tərbiyənin səmərəliliyini daha da artırır, insanlarda estetik münasibətlər formalaşdırır. Tamaşaçı müəyyən mənada ruhən tamaşaya daxil olur, gedən hadisələrdə «iştirak edir» və ya onu öz həyatı ilə müqayisə edirlər.

Kino, televtziya müxtəlif yaşlı tərbiyə olunanlarda, insanlarda estetik münasibətlər formalaşdırılmasında daha əhəmiyyətli yer tutur. Bədii, tarixi, tədris filmlərinə baxış, onların sonra tərbiyəçi tərəfindən təhlili estetik imkanlarının açılması, insanların gündəlik həyatı ilə əlaqələndirməsi buna misaldır.

<u>Estetik tərbiyənin prinsipləri.</u>

İnsanların estetik tərbiyəsini günün tələbləri səviyyəsinə qaldırmaq üçün bir sıra prinsiplərə əməl etmək lazımdır. Bunları aşağıdakı şəkildə təsnif etmək olar.

1.Estetik tərbiyədə ideyalılıq təmin olunmalıdır. Estetik tərbiyə məqsədi ilə istifadə edilən material diqqətlə seçilməli, onların ideyaca yüksək, bədii cəhətcə dəyərli və zəngin olmasına xüsusi fikir verilməlidir. İnsanlar elə musiqi və təsviri incəsənət əsərləri ilə tanış edilməli, elə film və pyeslər nümayiş etdirilməlidir ki, bu əsərlər onlarda yüksək bədii zövq oyatmaqla bərabər nəcib əxlaqi keyfiyyət də tərbiyə etsin, insanların xoşbəxtliyi uğrunda mübarizə əzmini qüvvətləndirsin. Bu hər bir tərbiyəçinin diqqət mərkəzində durmalıdır.

Estetik tərbiyə prosesində kiçik uşaqlara məzmunu onlar üçün anlaşılmaz olan bədii əsərlər oxumaq, kino və teatrlara baxmaq, musiqi dinləmək olmaz. Çünki belə materiallar onlar üçün anlaşılmaz olur, bu isə bəzən müsbətdən çox mənfi təsir göstərir. Uşaqlar onlara mənaca aid olan əsərlərdən zövq ala bilər. Digər tərəfdən də, onlar böyüklər üçün olan əsərləri qavramağa hazırlanmalıdırlar. Ona görə də uşağı gözəllik aləminə daxil edən ayrı-ayrı tədbirlərdə tədriciliyə ciddi əməl olunmalıdır. Təqdim edilən incəsənət əsərləri, esietik tərbiyə vasitələri sadədən mürəkkəbə doğru aparılmalıdır.

2. Estetik tərbiyə işində sistematikliyə və ardıcıllığa əməl edilməlidir.

Məlumdur ki, sistematiklik və ardıcıllıq həm təlim , həm tərbiyə prinsipidir. Ona görə də bu prinsip həm estetik təlim həm də estetik tərbiyədə aktualdır. Etetik təlim zamanı öyrənənlərə estetik biliklər verilir, həm də bu biliklər bacarıq və vərdişlərə çevrilir. Bu isə asandan başlayaraq yavaş-yavaş, bir-birilə bağlı şəkildə biri digərinə istinad edilərək aşılanır. Bu estetik təlim, davamlı və sistemli çalışmalar vasitəsilə həyata keçirilir. Sistemli təlim müəssisələrində bu təlim məşqələləri dərslərdə aparılır. Məktəbdən kənar tərbiyə müəssisələri, mədəniyyət və digər müəssisələridə isə təlim tipli məşğələlər vasitəsilə (dərnəklər) həyata keçirilir. Məsələn, şəkil qalereyasında rəssamlıq dərnəkləri, mədəniyyət müəssisələrində rəqs, musiqi məşqələri və s. misal göstərmək olar.

Estetik münasibətlər həm təlim məşqələlərində, həm də məktəbdən müəssisələrdə anlayışlar yaratmaqdan başlayaraq tərdiçən estetik baxışlar və görüşlər yaratmağa doğru aparılır. Təlim müəssisələrində əsası qoyulan estetik baxışlar sonralar mədəniyyət müəssisələri və pedaqoji gerçəkliyin digər sahələrində estetik görüşlərə çevrilir. Estetik tərbiyə fasiləsiz şəkildə aparılır.

3. Estetik tərbiyə hərtərəfli aparılmalıdır.

Estetik tərbiyə insanlara hərtərəfli təsir etməlidir. Hər bir şəxs incəsənət, təbiət, həyat gözəlliklərini dərk etdikcə, onu özünün fəaliyyətində, rəftarında,geyimində əks etdirə bilməlidir. Estetik tərbiyə elə aparılmalıdır ki, tərbiyə olunanlar öz davranışına, insanlarla ünsiyyətinə gözəllik elementləri daxil edə bilsinlər. Tərbiyə işi elə qurulmalıdır ki, yaradılan estetik anlayışlar şüurlu dərk olunaraq şəxsi münasibətlərə çevrilsin. Mənimsənilən estetik biliklər həyati bacarıq və vərdişlərə çevrilməlidir. Əgər tərbiyə olunanda incəsənətin bu və ya digər sahəsinə aid güclü meyl və ya xüsusi istedad elementləri

varsa, onda tərbiyə olunanda həmin istiqamətdə daha səmərəli iş aparmalı, onun qabiliyyətinin inkişafı üçün geniş şərait yaradılmalıdır.

4. Tərbiyə olunanların yaş xüsusiyyətləri nəzərə alınmalıdır.

Tərbiyənin bütün sahələrində olduğu kimi estetik tərbiyədə də tərbiyə olunanların ümumi fiziki, psixoloji, intellektual inkişafına istinad edilməlidir. Bu prinsip istər təlim, istərsə də tərbiyənin bütün sahələrində istinad edilən əsas prinsipdir.

Bütün bu prinsiplərə riayət zamanı tərbiyə olunanın ahəngdar inkişafı diqqət mərkəzində olmalıdır. Həyata keçirilən bütün tərbiyəvi tədbirlər məhz bu məqsədə xidmət etməlidir.

İnsanların, böyüyən nəslin estetik tərbiyəsinin müvəffəqiyyəti, müəyən mənada, məktəblə ailənin əlbir işindən də asılıdır.Bu isə valideyn və müəllimlərin özlərinin estetik mədəniyyətinin yüksəldilməsini tələb edir.

Estetik tərbiyənin bu prinsipləri sistemli təlim tərbiyə müəssisələrində rəhbər tutulmaqla yanaşı, həm də məktəbdən kənar tərbiyə müəssisələrində, mədəniyyət müəssisələrində aparılan estetik tərbiyə işlərində də rəhbər tutulur. Ümumiyyətlə, bu prinsiplər estetik tərbiyə ilə məşğul olan bütün sahələrdə, o cümlədən pedaqoji gerçəkliyin bütün sahələrində də riayət edilən əsas və başlıca prisipdir.

<u>Estetik tərbiyənin bir çox vasitələri mövcuddur</u>. Bunların içərisində: a) insanların təbiətlə əlaqəsi; b) ictimai-sosial həyat; v) əmək fəaliyyəti mühüm yer tutur.

İnsanların gözəlliklə, təbiətlə əlaqəsi nəticəsində onlarda gözəl hisslər baş qaldırır, təbiətə vurğunluq əmələ gəlir. Bu işdə təbiətə ekskursiyalar, yaşıllaşdırma işində iştirak etmək və s. əhəmiyyətli yer tutur. Təbiət, onun gözəlliyi özü uşaq və yeniyetmələri gözəlliyi sevdirir.

Estetik tərbiyənin ikinci vaitəsi insanların sosial həyatıdır. Abadlaşdırılmış şəhər və kəndlər, onların gündən-günə gözəlləşdirilməsi, yaraşıqdı binalar tikilməsi və istirahət kuşələrinin salınması insanlar arasında gözəl, mehriban ünsiyyət yaradır, onları həyatı daha da gözəlləşdirməyə ruhlandırır, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə sövq edir.

Estetik tərbiyənin vasitələri içərisində əmək mühüm yer tutur. İnsan öz əməyinin nəticəsindən, cəmiyyətə verdiyi xeyrdən zövq alır.

<u>Estetik tərbiyə metodlarına</u>:

a) estetik bilgilərin verilməsində istifadə edilən təlim metodları;

b) estetik zövq və estetik baxışların tərbiyə edilməsində istifadə edilən tərbiyə metodları;

v) estetik yaradıcılığın özünə məxsus olan spesifik metodlar daxildir.

Birinci qrupa şifahi şərh, müsahibə, illustrasiya və demonstrasiya, izah və s.; ikinci qrupa söhbət, müzakirə, disput, ədəbi-bədii gecələr və s.; üçüncü qrupa isə estetik fəaliyyətin təşkili metodikası daxildir. Məsələn, rəssam olmaq istəyirsə şəkil çəkmə qaydaları, naturanı görə bilmək, fırçadan, qələmdən və s. istifadə öyrədilir. Rəqqasəyə rəqs elempentləri, musiqiyə uyğun hərəkət etmək qaydası öyrədilir. Ümumiyytlə estetik təlim və tərbiyə, əsasən iki formada təlim və dərsdənkənar proseslərdə həyata keçirilir, mədəniyyət və incəsənət müəssisələrində də estetik tərbiyə tədbirlərinə geniş yer verilir.

Tərbiyənin digər tərkib hissələri kimi estitik tərbiyədə də baza kimi təlim prosesi götürülür. Məktəblərdə tədris edilən dərslərin, demək olar ki, hamısında estetik tərbiyə imkanı vardır. Bir sıra fənlər isə bilavsitə estetik tərbiyə və təliminə (musiqi, rəsm, nəğmə və s.) xidmət edir.

Məsələn, ədəbiyyat dərslərində yeniyetmə və gənclər bədii əsərləri öyrənirlər. Bu zaman onlar əsər qəhramanlarını təhlil edirlər, ona münasibət bildirirlər: Bu isə onları həm də öz hərəkət və davranışlarına gözəllik əlamətləri daxil etməyə məcbur edir, onlarda gözəlliyə aid münasibətlər formalaşdırır.

Ədəbiyyat dərslərində yeniyetmə və gənclər zəngin ədəbi materiallar xalq, yaradıcılığı, poeziya ilə tanış olur, yaradıcı təxəyyülləri inkişaf etdirir.

Tarix dərslərində uşaqlar qəhrəman keçmişimizlə tanış olur, müxtəlif tarixi dövrlərdə xalqımızın düşdüyü çətinliklər, keçdiyi keşmə-keşli mübarizə yolları ilə tanış olur, azadlıq uğrunda vuruşan qəhramanlara rəğbət bəsləyirlər. Onlar istismardan uzaq olan yeni cəmiyyətin, qurulucularına minnətdarlıq hissi bəsləyirlər, bu isə estetik tərbiyəyə müsbət təsir göstərir.

Bədən tərbiyəsi dərslərində hərəkətlərin bədii şəkildə icrası, dərsin musiqi ilə müşayiət edilməsi, qamətin düzgün inkişafı kimi məsələlər estetik tərbiyə-nöqteyi nəzərindən çox faydalıdır. Təlim prosesində tərbiyə olunmuş bu estetik baxışlar, hissələr insanların müstəqil həyatı və fəaliyyəti prosesində daha da möhkəmlənir və inkişaf edir. Həmçinin bu hisslər, baxışlar və onlarda tərbiyə olunmuş, formalaşdırılmış estetik bacarıq və adətlər əsasında öz həyatlarını, iş yerlərini gözəllik qanunları əsasında qurmağa səy göstərirlər. Daha doğrusu səmərəli estetik tərbiyə estetik özünütərbiyəyə çevrilir.

Rəsm dərsləri estetik tərbiyədə daha geniş imkanlara malikdir. Bu dərslər vasitəsilə tərbiyə olunanlarda rəssamlıq və onun müxtəlif sahələrinə aid biliklər, anlayışlar yaradılır, zəruri bacarıqlar formalaşdırılır. Nəğmə dərsəlri də rəsm dərsləri kimi estetik tərbiyədə böyük əhəmiyyətə malikdir. Nəğmə dərslərində səs,

musiqi, onun ahəngi haqqında məlumatlar verilir, musiqini dinləmə, dərk etmə qabiliyyət və bacarıqları formalaşdırılır. İstər nəğmə istərsə də rəsm dərslərində məktəblilərin bu sahədə xüsusi qabiliyyətləri üzə çıxırılır və inkişaf etdirilir.

Estetik tərbiyəni yalnız təlim prsesi ilə məhdudlaşdırmaq olmaz. Dərsdə binovrəsi qoyulmuş estetik tərbiyə dərsdənkənar tədbirlər prosesində və məktəbdənkənar tərbiyə müəssisələrində davam etdirilir. Sinifdənkənar tədbirlər prosesində şagirdlərin təlim zamanı qazandıqları bilik, bacarıq və vərdişləri daha da inkişaf etdirilib təkmilləşdirilir.

Təlim prosesinə nisbətən sinifdənkənar tədbirlər məktəblilərin fərdi tələbatına, arzu və istəklərinə, maraq və meyllərinə uyğun şəkildə təşkil edilir.

Rəngarəng sinifdənkənar estetik tərbiyə işlərinə müxtəlif dərnəklər, kütləvi tədbirlər ekskursiyalar və s. daxildir.

Mədəniyyət müəssisələrində təşkil edilən estetik tərbiyə məşğələlərində də inçəsənətin müxtəlif sahələrinə aid bilik, bacarıq və vərdişlər formalaşdırılır. Bu məşqələlər təlim məşqələləri olduğu üçün təlimə verilən bütün pedaqoci tələblər onlara da verilir. Elmi pedaqoci yeniliklər təlimin bu sahəsinə də tətbiq edilir. Mədəniyyət müəssisələrində təşkil edilən bu tip məşğələlər də təlim və tərbiyə məşğələləri hesab edilir və şəxsiyyət formalaşdırılması məqsədlərinə xidmət edir.

Estetik tərbiyə işində bədii yaradıcılıq və ya incisənət dərnəkləri əhəmiyyətli yer tutur. Bura rəqs, dram, ədəbiyyat, xor, rəsm, bədii tərtibat, tikiş və s. dərnəklər daxildir. Uşaqlar və gənclər arasında geniş yayılmış incəsənət növlərindən biri də rəqsdir. Uşaq və yeniyetmələr bayram təntənələrində, müsamirə və şənliklərdə həvəslə rəqs edirlər. Uşaqlar, yeniyetmələr və gənclər rəqs zamanı əylənir, sevinir və fərəh hissi keçirirlər. Rəqs zamanı hər kəs öz bacarıq və istedadlarını səfərbərliyə alır, gördüklərini yadda saxlamağa çalışır, hərəkətləri üzərində düşünür. Bu isə onlarda həm də hafizə və təfəkkürü inkişaf etdirir. Məktəbdənkənar və mədəniyyət müəssələrində təşkil edilən rəqslər yaşauyğun təşkil edilir. Ona görə də dərnəklər eyni yaşlı, heç olmazsa yaşlarında az fərq olan insanları birləşdirir. Rəqs zamanı geyimlər də gözəl, milli və ya müasir olmalıdır.

Yeniyetmə və gənclərin estetik tərbiyəsində dram dərnəkləri də böyük əhəmiyyət kəsb edir. Dram dərnəyində aktyor kimi iştirak edən zaman iştirakçı özünü əsərdə göstərilən aləmdə hiss edir, rola girir, personajın hiss və görüşlərini yaşamağa çalışır. Bu proses insanlarda təxəyyül, fantaziya, yaradıcı qabiliyyətləri də inkişaf etdirir.

Hazırlanan tamaşa yeniyetmə və gənclərin, ümumiyyətlə tərbiyə olunanların yaş xüsusiyyətləri və səviyyələrinə uyğün olmalıdır. Sinifdənkənar və məktəbdənkənar tərbiyə işlərində incəsənət əsərlərinə daha arqtıq fikir verilməlidir.

Dərnək işlərinin müvəffəqiyyətinin təmin edilməsi iştirakçılar arasında vəzifə bölgüsünün düzgün aparılması və s. kimi şərtlərdən də asılıdır. Kütləvi tədbirlər də estetik tərbiyənin mühüm formalarından biridir. Bura incəsənətin ayrı-ayrı sahələrinə həsr olunmuş məruzə, mühərizə və söhbətlər, ədəbi-bədii gecələr, radio və televiziya verlişlərinin müzakirəsi, təbiətə və incəsənət muzeylərinə ekskursiyalar, teatr və kino tamaşalarına kollektiv gedişlər, mədəni əyləncələr, bədii albom, kütləvi oyunlar və s. daxildir. Təbiət, cəmiyyət və incəsənətdəki gözəllikləri müşahidə və dərketdirmək bu əsasda insanlarda estetik zövqü, mühakimə və baxışı formalaqşdırmaq nöqteyi-nəzərindən bütün bu tədbirlərin çox böyük əhəmiyyəti vardır. Misal üçün məlum olduğu kimi teatr və kino öz konkretliyi və bədii tərtibatı ilə, həmçinin musiqi və canlı söz vasitəsilə təsir edrək insana gözəllikləri dərk etməyi öyrədir, insanın bədii zövqünü və estetik mühakiməsini inkişaf etdirir.

İşin müvəffəqiyyəti əvvəlcədən hazırlıq aparılmasını tələb edir. Bu zaman tərbiyə olunanlara baxacaqları film və ya teatrın süjeti ideyası haqqında qısa məlumat verilir. Sonra isə baxılmış əsər müzakirə edilir, hər kəsin şəxsi fikri üzə çıxarılır.

Tərbiyə olunanların incəsənət muzeylərinə ekskursiyaları da əhəmiyyətli yer tutur. Bu ekskursiyalar zamanı şagirdlər və tələbələr incsənət nümayəndələri və onların növləri ilə rəssamın, heykəltarışan, memarın yaratdığı xarüqələr ilə tanış olurlar.

Təbiətə ekskursiyalar da tərbiyə olunanların estetik tərbiyəsində, doğma vətənimizin gözəlliklərini dərk edib, sevməkdə əhəmiyyətli yeri tutur. Təbiətin estetik gücü haqqında K. D.Uşinski «Bəs şəlalələr, bəs təbiət, şəhərin gözəl ətrafı, bəs ətirli çəmənliklər və dalğalı səhralar, bəs güllü-çiçəkli bahar və qızıla bənzər payız bizim tərbiyəçilimiz olmayıblarmı? Mən həyat təəssuratımın dərin etiqadı nəticəsində bilirəm ki, gənc ruhun tərəqqisində gözəl mənzərənin tərbiyəvi təsiri o qədər böyükdür ki, müəllimin təsiri ona rəqib ola bilməz».[7]

[7] К.Д.Ушински. Сочинения, 1952, с.52.

Ailədə və ictimai təşkilatlarda da estetik tərbiyəyə diqqət yetirmək də əhəmiyyətli yer tutur.

Estetik tərbiyə insan məişətinin hər bir sahəsinə daxil olmalıdır. Böyüyən nəslin zövqünü tərbiyə edib təkmilləşdirməkdə onu əhatə edən şəraiti böyük rol oynayır. Tərbiyə olunanı əhatə edən şərait özü də gözəl olmalıdır.

Y.A. Kominski qeyd edirdi ki, məktəbin özü gözləri cəlb edəcək xoş bir yerdə olmalıdır. Məktəbin foyesi və dəhlizləri məşhur şəxsiyyətlərin portretləri, tarixi hadisələrin təsviri, ornament nümunələri ilə bəzənmiş olmalıdır. Məktəbin xaricində isə kəzinti bağı olmalıdır ki, şagirdlər ağacların bitki və çiçəklərin mənzərəsindən zövq alsınlar.

Böyük pedaqoqun bu sözlərindəki həqiqət indi də öz əhəmiyyətini saxlayır. Bu tələb mədəniyyət müəssisələrinə, həmçinin məktəbdənkənar tərbiyə müəssisələrinə də aiddir.

Yeniyetmə və gəncin xarici görkəmi, özünün zəngin daxili aləminə və nəcib hərəkətlərinə uyğun gəlməlidir. Bu nöqteyi–nəzərdən geyim insanın estetik mədəniyyəti və zövqü haqqında müəyyən təsəvvür verə bilir.

Hər bir yeniyetmə və gənc təkcə danışıqda deyil, hər şeydə; danışığında, yerişində, rəftar və hərəkətlərində, başqalarına qaoşı münasibətində gözəl olmalıdır.

Uşaqların estetik tərbiyəsində bütün yaş dövrlərində ailə daha çox rol oynayır. Beləki, ailənin yaşlı üzvləri, valideyinlər gəzintilər zamanı təbiətdəki gözəllikləri onlara müşahidə etdirir, bu gözəllikləri onlara dərk etdirməyə çalışırlar. Ümumiyyətlə tərbiyənin digər tərkib hissələrində olduğu kimi estetik tərbiyədə də ailə mühum, əvəzedilməz əhəmiyyətə malikdir.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1. Estetik tərbiyə ilə bədii tərbiyənin müqayisəsi.
2. Estetik təlim və estetik tərbiyə.
3. Mədəniyyət müəssisələrində estetik təlim və estetik tərbiyə.

# FİZİKİ TƏRBİYƏ

Fiziki tərbiyə də başqa ictimai hadisələr kimi cəmiyyətin iqtisadi siyasi və mədəni inkişafı ilə əlaqədar olaraq dəyişir şəxsiyyətin hərtərəfli inkişafı və formalaşmasına xidmət edir.

Fiziki tərbiyə şəxsiyyətin sağlamlığının möhkəmləndirilməsi, fiziki cəhətdən düzgün inkişafının, çevikliliyinin, gümrahlığının təmin edilməsi və onlarda fiziki bacarıq tərbiyə edilməsi prosesidir. Bu isə fiziki mədəniyyətin müasir səviyyəsinə uyğun olmalı və fiziki kamilliyə gətirib çıxarmalıdır. Göründüyü kimi şəxsiyyətin hərtərəfliliyini sübüt edən dəlillərdən biri də şəxsiyyətin fiziki inkişafı, fiziki cəhətdən kamilliyə malik olmasıdır.

Fiziki tərbiyənin məqsədi sağlam, fiziki cəhətdən kamil, ictimai baxımdan fəal, gümrah şəxsiyyətlər yetişdirməkdən ibarətdir. Bu məqsədə uyğun olaraq fiziki tərbiyənin qarşısında aşağıdakı vəzifələr durur:

- böyüyən nəslin bədəncə sağlamlığının təmin edilməsi;
- fiziki sağlamlığa və inkişafa xidmət edən bacarıq və vərdişlər formalaşdırılması;
- fiziki inkişafa dair zəruri anlayışlar formalaşdırılması.

Fiziki inkişaf və fiziki tərbiyə kanar təsirlər nəticəsində orqanizmin morfoloji funksiyasının fiziki keyfiyyət və qabiliyyətlərinin dəyişməsi və formalaşması prosesidir.

Fiziki kamillik isə şəxsiyətin fəaliyyətə fiziki cəhətdən hazır olması deməkdir. Yəni şəxsiyyət fiziki mədəniyyətə maksimum yiyələnir və özünü fəaliyyətə fiziki cəhətdən günün tələbləri səviyyəsində hesab edir.

Demokratik fikirli pelaqoqlar idmanı şəxsiyyətin ahəngdar inkişafı üçün əsas şərt hesab etmişlər.

Fiziki tərbiyə həmçinin insanları əməyə və vətənin müdafiəsinə hazırlayır. Bu isə həm sistemli təlim müəssisələrində, məktəbdənkənar tərbiyə müəssisələrində, həm də mədəniyyət müəssisələri, idman kompleksləri, istehsal və digər müəssisələrdə həyata keçirilir. Belə müəssisələrdə aparılan fiziki tərbiyə işləri insanların həm əmək qabiliyyətlərini inkişaf etdirir,həm də onlarda yeni əmək bacarıq və vərdişlərinin yaranmasına imkan yaradır. Mədəniyət və digər müəssisələrdə aparılın fiziki tərbiyə məşğələləri və tədbirləri zamanı iştirakçıların fiziki sağlamlığı təmin edilir, fiziki mədəniyyət formalaşdırılır, onlarda estetik əxlaqi görüşlər daha da cilalanır, möhkəmlənir. İnsanlarda kollektivçilik münasibətləri möhkəmlənir. Məsələn, keçirilən idman yarışlarına hazırlıq mərhələlərində və yarışların keçirilməsi prosesində kollektivçilik münasibətləri daha da inkişaf edir. Qarşıya çıxan çətinliklərin aradan qaldırılması müvəffəqiyyətin təmin edilməsi üçün kollektivin tələblərinin yerinə yetirilməsi qarşılıqlı yardım, kömək, qarşılıqlı anlaşma kimi kollektivçilik münasibətlərini daha da inkişaf etdirib möhkəmləndirilir. Yarışlar və müxtəlif fiziki tədbirlər prosesində yaranmış vəziyyətdən asılı olaraq müstəqil seçim, vəziyyəti də meydana çıxır ki, bu da tərbiyə olunanlarda həm müstəqillik həm də məsuliyyət tərbiyə edir. Beləki, müstəqil hərəkət seçimi zamanı həm də bu icra ediləcək hərəkətin nəticəsi və onun ümumi işə təsiri də düşünülür. Bu vəziyyət özü həmçinin insanlarda qorxaqlığın qarşısını alır, onları cəsarətli edir.

Müxtəlif müəssisələrin funksiyasından asılı olaraq fiziki tərbiyənin təşkili formaları müxtəlifdir. Sistemli təlim-tərbiyə müəssisələrində fiziki tərbiyə xüsusi dərslərdə aparılır, yəni ibtidai siniflərdə – 1-ci sinifdən başlayaraq bütün təhsil müəssisələrində idman dərslərində uşaq, yeniyetmə və gənclərə həyat üçün zəruri olan idman bacarıq və vərdişləri formalaşdırılır, fiziki inkişaf üçün zəruri biliklər verilir. Həmin dərslərdə aşılanacaq bilik, bacarıq və vərdişlər təhsil nazirliyinin təsdiq etdiyi proqram əsasında aparılır. Bu dərslərdə təhsil vəzifələri həll edilməklə yanaşı orqanizmin funksional imkanlarının artırılması da nəzərdə tutulur. İdman dərsləri vasitəsilə ƏMH kompleksinin normativləri həyata keçirilir. Fiziki tərbiyə məşğələlərinə aşağıdakı tələblər verilir.

1. Bədən tərbiyəsi məşğələləri sağlamlaşdırıcı xarakter daşımalı, gigiyenik tələblərə cavab verməlidir.

2.Tərbiyə olunanların fiziki imkanları, hazırlığı öyrənilməli, fərdi xüsusiyyətlərinə istinad edilməlidir.

3.Məşğələlərdə idman hərəkələri, onların insanlarda formalaşdırılması tərbiyənin digər tərkib hissələri ilə əlaqəli şəkildə aparılmalıdır.

4.Gün rejiminin təşkili də insanların fiziki inkişafı, sağlamlığının təmini istiqamətində qurulmalıdır.

5.Bədən tərbiyəsi, məşğələləri, müəyyən idman bacarığı və ya vərdişi formalaşdırılması ilə nəticələnməlidir.

Sistemli təlim müəssisələrində idman dərslərində əsası qoyulmuş fiziki tərbiyə işi sinifdən və məktəbdənkanar tərbiyə işlərinədə davam etdirilir. Bunlara misal olaraq tədris müəssisələrinədə məşqlər, əməli gimnastikalar, böyük tənəffüzlərdə təşkil olunan oyunlar, idman əyləncələri və s. göstərmək olar. Sinifdənkanar idman məşğələləri idman dərslərinin davamı olub, ümumi fiziki hazırlığın artırılmasına, idmana aid marağın inkişaf etdirilməsinə xidmət edir. Bu bütün tədris müəssisələrində idman fəaliyyəti

əsasında qurulur. Bu işə idman müəllimləri, təlimatçılar pedaqoji rəhbərlik edir, fəal idmançıların, gənclərin gücündən istifadə edilir. Sinifdənkanar tədbirlərin təşkil edilməsində əsas məqsəd uşaq, yeniyetmə və gəncləri bədən tərbiyəsi və idman işlərinə cəlb etmək, bu sahədə bacarıq və vərdişlərini daha da möhkəmləndirmək, insanlarda təşkilatçılıq bacarığı formalaşdırmaqdan ibarətdir. Sinifdənkanar idman tədbirləri içərisində kütləvi idman yarışları, idman bayramları böyük əhəmiyyət kəsb edir. Bu yarışlar və bayramlar zamanı idman, bacarıq və vərdişləri nümayiş etdirilməklə yanaşı tərbiyənin digər tərkib hissələri insanların malik olduğu əqli və əxlaqi keyfiyyətləri də nümayiş etdirilir.

Müxtəlif tip yay istirahəti düşərgələrində təşkil edilən idman işləri də bədən tərbiyəsində əhəmiyyətli rol oynayır. Bu düşərgələrdə uşaq, yeniyetmə və gənclərin səhhəti, hərəki bacarıq və vərdişləri möhkəmləndirilir. Bu düşərgələrdə fiziki tərbiyənin bütün növləri və imkanlarından istifadə olunur: səhər gimnastikası, müxtəlif idman oyunları, ƏMH normalarının yerinə yetirilməsi və s.

Bədən tərbiyəsi işində mədəniyyət müəssisələri, idman komplekslərinin rolu xüsusidir. Bu müəssisələrdə idmanın bütün növləri üzrə müxtəlif yaşlı insanlar spartakiadalara, idman yarışlarına, olimpiadalara hazırlanırlar. Bu hazırlıq əsasən idmanın bir sahəsi üzrə aparılır. Yəni idmançı bir sahə üzrə yarışa, olimpiadaya, bayrama və s. hazırlanır, həm də bu prosesdə qarşıya qoyulan məqsədin müvəffəqiyyətini təmin edən digər idman təmrinləri də yerinə yetirilir. Bu terminlərdə idmanın bir neçə növünə aid mövcud bacarıq və vərdişlərdən formalaşdırılır. Beləliklə, bir neçə idman vərdişləri kompleks şəkildə də istifadə edilir, bu isə idmançını fiziki cəhətdən daha da kamilləşdirir, həmçinin onda əxlaqi saflığın əsasını qoyur. Yarışlar zamanı hər kəsin ictimai mənafeyi ilə şəxsi mənafeyi çuğlaşır. O, başa düşür ki, qalib gəlməklə həm öz şəxsi həm də aid olduğu ölkənin, millətin mənafeyini müdafiə edir. Qələbə zamanı ölkəsinin dövlət himninin səsləndirilməsi, bayrağının qaldırılması həm idmançıda həm də onu əhatə edənlərdə milli iftixar hissi yaradır, ideya-siyasi cəhətdən mətinləşdirir. İdman hazırlığı prosesində məsuliyyət hiss, iradə, dözümlülük, mətin olmaq, çətinliyə dözüm, özünü məcbur etmə kimi keyfiyyətlər də inkişaf edib, möhkəmlənir.

Mədəniyyət müəssisələri və idman komplekslərində sistemli təlim müəssisələrindən fərqli olaraq hər kəs yaşından, cinsindən, peşəsindən asılı olmayaraq, fiziki tərbiyə çalışmalarında iştirak edə bilərlər. Bu zaman iştirakçıların fiziki və digər imkanları nəzərə alınır, bədən tərbiyəsi və fiziki hazırlığa verilən gigiyenik-pedaqoji tələblərə riayət edilir. Bu müəssisələrdə həmçinin fiziki tərbiyə müəyyən mənada özüntərbiyə xarakteri alır. Hər kəs özündə istədiyi fiziki qabiliyyəti, bacarıq və vərdişi formalaşdırır. Ona görə də özüntərbiyə prinsipləri stimul və motivləri idman tapşırıqlarının yerinə yetirilməsində özünü göstərir.

Ümumiyyətlə mədəniyyət müəssisələri, idman kompleksləri, səhiyyə və digər müəssisələrdə idmana aid məşğələlər iki məqsədlə təşkil edilir:

1. Sağlamlığı bərpa və təmin edən məşğələlər.
2. Xüsusi məqsədli məşğələlər.

Bu məşğələlərin xüsusi məqsədi olduğu üçün ayrı – ayrı proqramlar əsasında aparılır. Belə tip məşğələlər orta ümumtəhsil məktəblərindəki dərslər və əlavə məşğələlərdən fərqli şəkildə aparılır, ona daha çox vaxt ayrılır. Amma təlim və tərbiyənin bütün qanunlarına tabe edilir.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1. Mədəniyyət müəssisələrindəki idman məşğələlərinin məqsədi.
2. Fiziki təlim və fiziki tərbiyə anlayışlarının müqayisəsi.
3. Müxtəlif tip müəssisələrdə idman məşğələləri.

## ƏMƏK TƏRBİYƏSİ

Hərtərəfli inkişaf etmiş şəxsiyyətə verilən əsas və mühüm tələblərdən biri də şəxsiyyətin əməyə qadir olması, istehsalın, xalq təsərrüfatının bu və ya digər sahəsində fəaliyyət göstərmək bacarığına, əməyə, əmək adamlarına müsbət münasibətlərə malik olmasıdır. Hər kəs, xüsusən həyata atılan yeniyetmə və gənclər, istehsalın bir sahəsində çalışmaq üçün zəruri əmək bacarığı və vərdişlərinə malik olmalıdır. Bu əmək bacarıq və vərdişlərinin həm ailədə, həm də sistemli təhsil müəssisələrində təlimin ilk günlərindən əsası qoyulur. Əmək, bacarıq və vərdişləri məhz əmək tərbiyəsi vasitəsilə həyata keçirilir. İnsanların əməyə hazır şəkildə formalaşdırılması birinci həyati zərurətdir. İnkişaf etmiş demokratik cəmiyyət tələb edir ki, böyüyən nəsl əmək əsasında tərbiyə alsın, hələ kiçik yaşlarından quruculuq və yaradıcılıq fəaliyyətində iştirak etsinlər. Quruculuq işində əmək fəaliyyətində iştirak etməklə onlarda zəruri əmək bacarıq və vərdişləri tərbiyə edilsin. Əmək tərbiyəsi həm də insan şəxsiyyətinin, insanlarda zəruri əxlaqi keyfiyyətlərin formalaşmasında böyük əhəmiyyətə malikdir. Əmək prosesi özü onda iştirak edənlərin şəxsiyyətinə təsir göstərir, onlarda iradə, dözümlülük, dostluq, yoldaşlıq, əməkdaşlıq, kollektivçilik, qarşılıqlı yardım kimi əxlaqi keyfiyyətlər formalaşdırır, tənbəllik, məsuliyyətsizlik, tüfeylilik və s. kimi əxlaqi nöqsanları aradan qaldırır.

Əmək tərbiyəsi sistemli və məqsədyönlü şəkildə təlim-tərbiyə müəssisələrində aparılır.

Əmək tərbiyəsi müəllim və tərbiyəçinin rəhbərliyi altında böyüyən nəsldə, ümumiyyətlə insanlarda həyat üçün zəruri olan əmək, bacarıq və vərdişlərin, əməyə, əmək adamlarına məhəbbət hissi formalaşdırılması prosesidir. Ona görə də əmək tərbiyəsi, əmək təlimi və əmək tərbiyəsi olmaqla iki hissəyə ayrılır.

Əmək təlimi xüsusi əmək dərslərində aparılır. Bu dərslərdə əmək fəaliyyətinin maddi istehsal prosesi haqqında zəruri elmi məlumatlar verlir, müvafiq bacarıq və vərdişlər formalaşdırlır.

Birinci sinifdən başlayaraq uşaqlar əmək dərslərində əməyə hazırlanırlar. Orta ümumtəhsil məktəblərində əmək təlimi xüsusi proqram əsasında aparılır. Bu proqram təhsil nazirliyində təsdiq edilir, respublikanın bütün məktəbləri üçün eyni və zəruri olub bütün siniflər üzrə əmək təliminin məzmununu əhatə edir. Kiçik siniflərdə əmək təlimi əsasən öyrədici xarakter daşıyırsa, yuxarı siniflərdə artıq yeniyetmə və gənclər məhsuldar əməkdə ihtirak edirlər. Beləki, IX-XI siniflərdə yeniyetmələr istehsalat təcrübələrində istehsalın müəyyən sahəsində məhsuldar əməkdə bilavasitə iştirak edir, məhsul istehsal edir, öz əməklərinin bəhrəsini görürlər. Orta məktəblərdə əməyə düzgün və şüurlu münasibət tərbiyə edilməsi imkanları genişdir. Buna uşaq və yeniyetmələrin təlim əməyi, əmək dərsləri ictimai-faydalı işlərdə iştirakı və s. aid etmək olar. Səmərəli təşkil olunması təlim prosesində tərbiyə olunanlar əməyə alışır, biliklərinin qiymətləndirilməsi ilə əməklərinin nəticəsini görür, əməyi sevir, kiçik yaşlarından ona hazırlanır. İstənilən şəraitdə əmək təlim işi ilə əlaqələndirilməlir; bu həm əməyi, həm də təlimin şüurluluğunu təmin edir. Kənd təsərrüfatına aid təcrübələr zamanı aqrotexniki üsullardan, üzvi və mədəni kübrələrdən vaxtında və yerində istifadə edilir, kənd təsərrüfatı maşınları işlədilir.

Bu zaman müəllim uşaq əməyinin elmiliyini, elmlə təcrübəni əlaqələndirməyi tərbiyə olunanların diqqət mərkəzinə gətirməlidir. Əmək tərbiyəsi müəyyən pedaqoji tələblər əsasında aparılır. Bunları aşağıdakı şəkildə təsnif etmək olar:

- Əmək fəaliyyətindən tərbiyə vasitəsi kimi istifadə edilməlidir. İstehsal fəaliyyətində (kiçik vəya böyük) iştirak elə şəkildə qurulmalıdır ki, bu prosesdə iştirak edən hər kəs əməyinin nəticəsini görərkən özünü cəmiyyət üçün faydalı şəxs hesab edə bilsin. Əməyinin nəticəsinin əhəmiyyətini dərk etsin, bununla fərəhlənsin. Qarşıya çıxan əmək çətinliklərindən qorxmasın, bu çətinliyi aradan qaldırmaq istiqamətlərini arasın.
- Əmək uşağın yaşına, gücünə uyğun qurulmalıdır. Bu tələb əmək proqramlarında öz əksini tapır. Əmək təlimi uşaqların fiziki, intellektual, psixoloji inkişaf səviyyəsinə uyğun qurulur. Əməyin bütün sahələrində, yəni təlimdənkanar ictimai-faydalı və digər tədbirlərdə bu tələb nəzərə alınmalıdır. Bu tələb həmçinin mədəniyyət müəssisələrində təşkil edilən əmək fəaliyyətlərində, texniki və yaradıcı, tikişçilik və s. dərnəklərin təşkilində də nəzərə alınır. Bu müəssisələrdə təşkil edilən yaradıcı əmək fəaliyyəti zehni əməklə fiziki əməyi birləşdirməli, iştirakçıların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməli, onlarda yeni əxlaqi keyfiyyətlər formalaşdırmalı, özünətəhsili stimullaşdırmalıdır.
- Əmək tərbiyəsi uşaq və gənclərin fiziki inkişafına təkan verməlidir. Əmək prosesində işlədilən alətlər, görülən işlər onların əzələlərini inkişaf etdirib, möhkəmləndirməlidir. İş şəraiti elə qurulmalıdır ki, bədəninin quruluşu, qaməti, mütənasibliyi, görmə qabiliyyəti və s. düzgün inkişaf etsin.
- Əmək təlimi və tərbiyəsində sistematiklik və ardıcıllığa xüsusi fikir verilməlidir. Uşaq və yeniyetmələrdə əmək adətləri formalaşdırmaq üçün onların hər gün əmək fəaliyyətində iştirak etməsini

təmin etmək lazımdır. Yaradılmış əmək adətləri isə böyüyən və inkişaf edən insanı əməyə psixoloji cəhətdən hazırlayır, onlarda ictimai fəallıq formalaşdırır.

- Əmək tərbiyəsi prosesində fərdi əməklə kollektiv əmək əlaqələndirilməlidir. Fərdi əmək tərbiyə olunanlarda müvafiq əmək vərdişləri, fərdi məsuliyyət formalaşdırır, iradəni inkişaf etdirib möhkəmləndirir. Kollektiv əməkdə isə bu cəhət kollektiv səylə birləşir, ictimai əhəmiyyət kəsb edir, daha səmərəli şəkil alır. Kollektiv əməkdə əsas cəhət onlan ibarətdir ki, ümumi əmək kollektiv üzvləri arasında bölüşdürülür, kollektiv üzvləri fəaliyyət baxımından bir-birindən asılı olur, kollektiv əməyin müvəffəqiyyətli nəticəsi hər fərdin əməyindən asılı olması hər fərdin məsuliyyətini birə-iki artırır, onlar daha diqqətli olmağa çalışırlar. Əgər fərdi əmək zamanı fərd yalnız öz işinin nəticəsi üçün məsuliyyət daşıyırsa, kollektiv əmək zamanı isə bütün kollektivin əməyi üçün məsuliyyət daşıyır.

- Əməyin müxtəlif növləri mövcuddur. Ailədə özünəxidmət əməyinin əsası qoyulur, məktəbəqədər tərbiyə müəssisələri və təhsil müəssisələrində davam etdirilir.

Həmçinin özünəxidmət əməyi bütün istehsal müəssisələri, fəaliyyətin bütün sahələrində mövcuddur və hər kəsdən tələb olunan zəruri fəaliyyət növlərindən biridir. Əməyin bu növünə gigiyenik qaydalar, şəxsi əşyaları, dərs və iş ləvazimatlarını təmiz və səliqəli saxlamaq və s. aiddir. Özünəxidmət əməyi ictimai-faydalı əməyin ilk mərhələsidir. Özünəxidmət əməyi şagirdin, tələbənin, işçinin bilavasitə özü, iş yeri, ailəsi, onu əhatə edən mikromühitlə bağlıdır. İctimai-faydalı əmək isə cəmiyyətin xeyrinə pulsuz əməkdir. Əməyin bu növü rayon, şəhər üzrə keçirilən kampaniya xarakterli fəaliyyət növüdür.

Nəticəsində maddi nemət əldə edilən fəaliyyət məhsuldar əmək adlanır. Bu fəaliyyətin ən geniş forması olub. Əvvəli ümumtəhsil məktəblərindən başlanır. Əmək dərslərində uşaq və gənclər müxtəlif məişət əşyaları (stol, stul və s. əmək alətləri) düzəldir, məktəbyani sahələrdə müxtəlif kənd təsərrüfatı məhsulları yetişdirir və s. məhsuldar əmək sahələrində çalışırlar.

Mədəniyyət müəssisələrində isə müxtəlif dərnəklərdə bu və ya digər əmək sahəsini öyrənməklə maddi məhsul istehsal edirlər. Məsələn texniki dərnəklərdə texniki sahədə yaradıcılıq işlərini tətbiq edərək, yeni texniki vəsait hazırlanır və sınaqdan keçirilir. Bu isə yeni texniki tərəqqilərinin əmək məhsuldarlığının artırmasının əsası və ya vasitəsi olur.

İslah əmək koloniyalarında müxtəlif növ əmək fəaliyyətlərindən xüsusi tərbiyə vasitəsi kimi istifadə edilir. Burada yeniyetmə və gənclərə həm müxtəlif peşələr öyrədilir, məhsul istehsal edilir, həm də bu prosesdə yeniyetmə və gəncdə digər əxlaqi keyfiyyət formalaşdırılır.

Əmək tərbiyəsinin məzmunu müxtəlif təlim-tərbiyə müəssisələri üçün müvafiq nazirliklər və baş idarələr tərəfindən müəyyən edilir. Məsələn, orta ümumtəhsil məktəblərində əmək tərbiyəsi məktəblərin tərbiyə edilməsinin nümunəvi məzmununda göstərilir. Bu proqramda I sinifdən başlayaraq XI sinifə qədər hər sinif üzrə (yəni ayrı-ayrı siniflər üzrə) əmək bacarıq və vərdişləri, mənimsədiləcək biliklərin konkret məzmunu verilmişdir.

Əmək tərbiyəsinin gənclərin peşə yönümü sahəsində də əhəmiyyətli rolu vardır. Peşə – xalq təsərrüfatının bu və ya digər konkret bir sahəsinə aid bilik, bacarıq və vərdişlərə yiyələnmədir, həmin sahədə fəaliyyətə qoşula bilmək üçün yiyələnmiş zəruri əmək keyfiyyətləridir. Peşə yönümü isə yeniyetmə və gənclərin peşə seçməsi üçün ali məktəb və ictimayyətin həyata keçirdiyi xüsusi tədbirlər sistemidir. Yeniyetmə və gənclərin peşə marağının öyrənilməsi, qabiliyyətlərin müəyyənləşdirilməsi, peşələrə aid məlumat, peşəyə aid bilik, bacarıq və vərdişlər, seçilmiş peşə üzrə işə düzəlmə, peşəyə uyğunlaşma, yenidənoriyentasiya və s. peşə yönümünün məzmununu təşkil edir.

Peşə maarifi, peşə məsləhəti, peşə təmayülü peşə yönümünün komponentləri hesab edilir. Peşə yönümü yeniyetmə və gənclərin peşə nöqteyi-nəzəridən öyrənilməsindən başlayaraq yenidən oriyentasiyasına qədər olan bütün işlər sistemini əhatə edir. Peşənin səhv seçilməsi, peşə üzrə yenidən iş aparılaraq qabiliyyətə uyğun peşə seçilməsi prosesi yenidənoriyentasiya adlanır.

Peşə ilə ixtisas məfhumu bir-birinə oxşar olsa da hər məffhumun öz mahiyyəti vardır. Peşə daha geniş anlayış olub, bir neçə ixtisası əhatə edir və s.

Məsələn, müəllimlik peşəsi fənlərin tədrisi üzrə bir neçə ixtisasları əhatə edir. Mühəndislik peşəsi fəaliyyət sahələrinə görə çoxlu ixtisasları əhatə edir.

Peşə seçilməsində əsas məsələ xalq təsərrüfatının müasir dövrdə tələblərini nəzərə almaqdır. Peşəyə istiqamətləndirmədə həm müasir sənayenin inkişafı, onun tələbləri, həm də ölkənin inkişaf prespektivləri, dövlətin və xalqın mənafeyi nəzərə alınmalıdır. Bu prosesdə həmin məsələlər yüksək vətəndaşlıq hissi əsasında həyata keçirilir.

Peşəyə istiqamətləndirmə işində həmçinin istehsal və qeyri-isehsal sahələrinin mahiyyətinin açılması, fəaliyyət növləri haqqında məlumat verilməsi də əhəmiyyətli yer tutur. Peşəyə istiqamətləndirmə orta ümumtəhsil məktəblərdə yuxarı siniflərdə aparılır.

Mədəniyyət müəssisələrində isə peşə yönümünün səmərəli aparılması işinə daha geniş imkan vardır. Bu müəssisələrdə nəzəri işlə əməli iş əlaqəli, əyani şəkildə aparılır. Beləki, yeniyetmə və gənclər asudə vaxtlarında öz marağına görə dərnəklərdə birləşir. Bu dərnəklər və digər işlər vasitəsilə gənclər həmin fəaliyyət prosesində bilavasitə məşğul olur, fəaliyyətin əsas məğzi ilə tanış olur. Seçdiyi və ya seçəcəyi peşənin sirlərini öyrənir və bu işlə öz imkanlarını, bu fəaliyyət növündə çalışa biləcəyini şüurlu surətdə dərk edir. Bu zaman artıq peşələr haqqındakı romantika reallaşır, yeniyetmə və gənclər həmin peşəyə şüurlu yanaşırlar.

**Müstəqil iş üçün sual və  tapşırıqlar:**

1.Əmək  tərbiyəsinin vəzifələri.

2.Müasir dövrdə əmək  tərbiyəsinə verilən tələblər.

3.Əməyin elmi əsasları haqqında.

# HÜQUQ TƏRBİYƏSİ

Hüquq tərbiyəsi şəxsiyyətin hərtərəfli inkişafı, formalaşması şərtlərindən biri hesab edilir. Digər tərəfdən mövcud qanunçuluğun möhkəmləndirilməsi özü kütlələrin hüquqi bilik və münasibətlərə yiyələnməsini tələb edir. İnsan yarandığı gündən müəyyən cəmiyyətin üzvü olur. Bu cəmiyyətdə cəmiyyətin digər üzvləri kimi onun həyatı müxtəlif cəhətlərdən tənzim olunur. Hüquqi qaydalar da insanın həyat və fəaliyyətini dövlət mövqeyi baxımından tənzim edir. Hüquq qaydaları mövcud inzibati dövlət orqanları tərəfindən müəyyən edilir. Bütün cəmiyyət üzvlərinin tutduğu mövqe və vəzifəsindən asılı olmayaraq həmin qanunlara riayət etməsi məcburidir. Deməli, dövlətin hər şəxs qarşısına qoyduğu məcburi tələblərdən biri hüquqi qanunlara riayət etməkdir. Bunun üçün isə hər bir vətəndaş icra etməli olduqları hüquq qaydaları, şəxsi hüquqi imtiyazları haqqında məlumata malik olmalıdır. Bu isə həm sistemli təlim və tərbiyə müəssislərində həm də digər mədəniyyət müəssisəlrində hüquq tərbiyəsi vasitəsilə aparılır. Hüquq tərbiyəsi tərbiyə olunanlarda hüquqi biliklər yaratmaq və bu məlumatlara uyğun zəruri münasibətlər formalaşdırılması prosesidir.

Hüquq tərbiyəsinin məzmununa:

- zəruri hüquqi biliklər aşılamaq;
- yüksək vətəndaşlıq hissi fformalaşdırmaq;
- mövcud qanunları və sosial birgə yaşayış qaydalarına hörmət hissi tərbiyə etmək;
- dövlət qanunçuluğunun hər hansı pozuntularına qarşı barışmazlıq;
- hüquq qaydalarının mühafizəsində fəal iştirak etməyə hazır olmaq və s. daxildir.

Bu yuxarıda qeyd edilən məsələlər hüquq tərbiyəsinin əsas istiqamətini təşkil etməli, tərbiyə ilə məşğul olan bütün müəssisələrdə hüquq tərbiyəsi həmin istiqamətdə aparılmalıdır. İndi isə hüquq tərbiyəsinə tərif verək.

Hüquq tərbiyəsi tərbiyəçinin rəhbərliyi və müxtəlif vasitələrin tətbiqi ilə insanlarda cəmiyyətdə mövcud olan hüquq normaları və qaydalarına müvafiq bilik, bacarıq, vərdişlər və bu qanunlara münasibət formalaşdırmaqdan ibarət pedaqoji prosesdir.

Bu vaxta qədər hüquq tərbiyəsi, əxlaq, ideya-siyasi və s. tərbiyənin tərkib hissələrində verilirdi. Son vaxtlar isə cəmiyyətin ümumi inkişafı və pedaqoji təcrübələrin nəticələrini nəzərə alaraq hüquq tərbiyəsinin ayrıca tərbiyə işi kimi verilməsi zərurəti meydana çıxdı.

İnsanlar daşıdıqları yerinə yetirməli olduqları məcburi hüquq və vəzifələri dərk etməlidirlər. Bu isə hələ kiçik yaşlarından hüquq tərbiyəsi vasitəsilə həyata keçirilir. Hüquq tərbiyəsi sistemli təlim-tərbiyə müəssisələrində daha mütəşəkkil və məqsədyönlü aparılır. O, hüquq təlimi və hüquq tərbiyəsi olmaqla iki yerə ayrılır. Hüquq təlimi həm xüsusi dərslərdə, həm də müxtəlif fənlərin tərkibində hüquqi biliklərə yiyələndirmədir. Bu biliklər insanların hüquqi münasibət, rəftar və davranışının bazasıdır.

Tədqiqatlar göstərir ki, hüquqi pozğuntularına çox zaman səbəb insanların qanunları bilməməsindən irəli gəlir. Ona görə də təlim prosesində hüquq normalarına dair sistemli və ardıcıl biliklər mənimsədilir. Bu biliklər onlarda həmçinin dövlət qanunları qraşısında məsuliyyət və cavabdehlik də formalaşdırır. Hüquq təlimi vasitəsilə hər bir vətəndaşa yaşadığı cəmiyyətin, daha konkret desək, dövlətin qanunları şüurlu surətdə dərk etdirilir, onlarda nəinki özlərinin bu qanunlara riayət etməyə, həmçinin onu pozanlara qarşı mübariz və barışmaz olma inamı yaradılır. Orta ümumtəhsil məktəblərinin birinci sinfindən başlayaraq uşaqlara həm müvafiq biliklər verilir, həm də ona münasibət formalaşdırılır. Bu xüsusi proqram əsasında aparılır. Digər təhsil müəssisələrində universitet, kollec, seminariya, orta ixtisas məktəbləri, hərbi məktəblər və s. də hüquqi biliklər xüsusi hüquq dərslərində aparılır. Bu dərslərdə hər kəsin öz şəxsi hüquq və vəzifələri istehsalat prosesində icra edilən qanunlar, beynəlxalq hüquq normalarının həyat və fəaliyyət üçün zəruri formaları haqqında biliklər mənimsədilir. İstehsalat müəssisələri, mədəniyyət və digər müəssisələrdə də ehtiyac yarandıqda yeni hüquqi məlumatlar verilir.

Hüquq təlimi hüquq tərbiyəsi ilə parallel aparıldıqda daha səmərəli nəticə verir. Müəllim və tərbiyəçi aşılanan hər bir hüquqi biliyin tərbiyə olunanın şəxsi keyfiyyətinə çevrilməsinə nail olmalıdır. Yəni aşılanmış hər bir hüquqi bilik insanların həyatında, mövqeyində fəal şəkildə təzahür etməlidir. Hüquqi düşüncə insanın fəal həyat mövqeyinə çevrilməlidir. Hüquq tərbiyəsi vasitəsilə insanlarda barışmazlıqla yanaşı mübarizlik, qanunsuzluğa qarşı çıxma, durğunluğa, inamsızlığa, qorxaqlığa, etinasızlığa, mütiliyə qarşı çıxma kimi hisslər də tərbiyə olunur.

Hüquq tərbiyəsi həmçinin insanların sosial, hüquqi fəallığını yüksəldir. İnsanların müxtəlif sosial vəziyyətdə hüquqları da müxtəlif olur. İnsan inkişaf edib böyüdükcə onun vəzifələri, həyat hadisələrinə münasibətidə dəyişir. Məsələn, kiçik yaşlarında insan qayğı içində bəslənir, sonra təlim vəzifələri icra edir, yeniyetmə və gənclik dövründə həm ailədə həm də ictimayətdə müxtəlif vəzifələr yerinə yetiri, ailə qurur, ata və ya analıq edir, rəsmi fəaliyyət göstərir və s.

Bu dövrələrin hər birində insanlar müxtəlif qanunlara riayət etməlidirlər ki, bu da tərbiyə prosesində onlara tədricən aşılanır.

Hüquq tərbiyəsində həm təlim, həm də tərbiyənin bütün prinsipləri fəaliyyət göstərir. Çünki bu prosesdə həm hüquqi gerçəkliklər dər edtdirilir, həm də ona münasibət formalaşdırılır.

Hüquq tərbiyəsində həmçinin həm təlim, həm də tərbiyə üsullarından istifadə edilir.

Qeyd etdik ki, hüquq tərbiyəsi sistemli və məqsədyönlü şəkildə təlim-tərbiyə müəssisələrində aparılır.

Bundan başqa hüquq tərbiyəsi sinifdən və məktəbdən kanar tərbiyə, mədəniyyət istehsalat, dövlət, səhiyyə müəssisələrində, idman kompleksləri və digər kollektivlərdə, birliklərdə aparılır. Sinifdənkanar tədbirlərdə və digər müəssisələrdə aparılan hüquq tərbiyəsi sistemli təhsil müəssisələrində aparılan hüquq tərbiyəsi işini davam etdirir və tamamlayır. İnsanlar kollektivdə formalaşır və onların yaradıcılıq qabiliyyətləri, həyata, insanlara münasibəti formalaşır, möhkəmləndirilir, inkişaf etdirilir. Məktəbdənkanar tədbirlərdə həm yeniyetmə gənclər, həm də yaşlı adamlar cinayətlərdən çəkindirilir, ictimai təhlükəli əməllərin qarşısı alınır. Bu zaman tərbiyə olunanlarda həm də hüquqi mədəniyyətin də formalaşdırılması vacibdir. Məktəbdənkanar tərbiyə müəssisələri mədəniyyət və digər müəssislərində aparılan tərbiyə işləri digər tərbiyə işi ilə əlaqəli kompleks şəklində aparılmalıdır. Əxlaq tərbiyəsi ilə hüquq tərbiyəsinin qarşılıqlı əlaqədə aparılmasının daha geniş tərbiyəvi imkanları mövcuddur. Beləki, istər əxlaq, istərsə də hüquq cəmiyyətin müəyyən etdiyi normalardır. Hər ikisi ictimai şüur formasıdır. Əlaqəli formalaşdırma prosesində insanlar dərk edirlər ki, hüquq normalarını inzibati dövlət orqanları yaradır və həmin orqanlar da onu müdafiə edir. Əxlaq isə insanların uzun illər boyu yaratdıqları xeyr, şər, ədalətli-ədalətsiz və s. münasibətlər sistemidir. Onu insanlar yaratmış, ictimai rəy də qoruyur. Lakin bunlar bir-birilə əlaqədardır, biri digərini mövcudluğunu təmin edir, biri, gicərini qoruyur.

Məktəbdənkanar və mədəniyyət müəssisələrində hüquq tərbiyəsinin aşağıdakı üsulları və formaları mövcuddur;

A) Şifahi, sözlü;

B) Təcrübi;

C) Əyani.

Şifahi formaya mühazirə, məruzə, oxucu konfransları, disputlar, görüşlər, tematik gecələr və s. aiddir.

Təcrübi formaya ekskursiyalar, milisin gənc dostları klubları, hüquqa dair kitab sərgiləri, müharibə və əmək qəhrəmanlarının şəxsi əşyaları və s. daxildir.

Hüquqi tədbirlər prosesində hüquq tərbiyəsi üzrə işin formaları müvəqqəti və daimi olmaqla iki yerə bölünür. Müvəqqəti fəaliyyət göstərən formalara mühazirələr, söhbətlər, məruzələr, görüşlər, sual-cavab və tematik gecələr, şifahi jurnallar, disput və olimpiadalar, bədii və sənədli filmlərə baxış, məhkəmə iclaslarında iştirak və s. daxildir.

Daimi fəaliyyət göstərən formalara isə «Xalq universitetləri», «hüquq fakültələri» və ya lektoriyaları, «Gənc hüquqşünas», «16 yaşlılar klubu», «Qılınc və qalxan», «Polisin gənc dostları», «Gənc ləpirçilər guşəsi» daxildir.

Mühazirə və söhəbətlər zamanı dövlət və hüquq haqqında nəzəriyyələr, hüquq normalarının və qanunlarının demokratik prinsipləri izah olunur. Mühazirə və söhbətlər kütləleri hüquqi cəhətdən maarifləndirir, hüquqi şüur və mədəniyyəti yüksəldir, hüquq pozğunluqlarının profilaktikasına şərait yaradır.

Tematik və sual-cavab gecələri müəyyən hüquqi bir problemə həsr olunur. Tematik gecələr «Sənin vətəndaşlıq borcun», «Cəmiyyətdə hüquq və əxlaq», «Qanun və yeniyetmə», «Hüquqi borc», «Hüquqi barışmazlıq» və s. mövzularına həsr edilə bilər.

Sual-cavab gecələrində iştirakçılar hüquq normaları və qaydaları, ayrı-ayrı cəmiyyətdə hökm sürən qanunçuluq, vətəndaşların hüquqi azadlıqları, ailə və nikah məsələləri ilə əlaqədar onları maraqlandıran suallara cavab alırlar.

Görüşlər insanlarda hüquqi mühafizəyə maraq oyadır, onları hüquq işçiləri ilə yaxınlaşdırır, inzibati işçilərə qarşı olan qorxu xofunu aradan qaldırır; hüquq işçiləri bu görüşlər zamanı hər müəssisənin rejimi, prinsipləri, intizamları ilə tanış olur, lazımi məsləhətlər verirlər.

Şifahi jurnallar – 4-6 səhifədən ibarət xüsusiburaxılışdır, onun hər nömrəsi bir adla çıxır, hər səhifə mövzuya uyğun yarımbaşlıqlara bölünür. Şifahi jurnallar tərbiyəçi və təlimatçının rəhbərliyi altında inzibati orqan işçilərinin müəssisə fəallarının, əmək və müharibə veteranlarının köməyilə hazırlanır və təbliğ edilir.

Məhkəmə iclasına baxış həddi-buluğa çatmış yeniyetmələrlə gənclərlə, əvvəlcədən xalq hakimi ilə razılaşdırılaraq aparılır, il boyu 2-3 məhkəmə prosesində iştirak edilə bilinər. İclasdan sonra hakim və ya tərbiyəçi hadisənin baş vermə səbəbi, qanun və cəza haqqında əlavə dəqiqləşdirici məlumatlar verirlər.

Hüquq bilikləri olimpiadaları yeniyetmə və gənclərin hüquqi bilik səviyyələrini aşkara çıxarmaq, onlarda hüququ qorumağa maraq yaratmaq məqsədi nə xidmət edir. Həmin olimpiadalar müsabiqə şəklində aparılır. Hüquq tərbiyəsi üzrə daimi iş forması kimi «Polisin gənc dostları» dərnəyini göstərmək olar.

«Polisin gənc dostları» (PGC) dəstələri yeniyetmələrin cinayət xarakterli əməllərinin qarşısını almaqda, onların qanun keşiyində durmalarında, qanunun pozulması hallarına qarşı çıxmaqda əhəmiyyətli yer tutan vasitədir. Bu dəstə əsasən yeniyetmə, gənc və nisbətən yaşlı işçilərdən ibarət olur, onların işinə polislər nəzarət edir.

16 yaşlılar klubu – 16 yaşına, yəni vətəndaşlıq hüququna çatmış yeniyetmələri əhatə edir. Klub əsasən aşağıdakı bölmələr üzrə fəaliyyət göstərir:

1. Yeniyetmələri əməyə, ali məktəb həyatına hazırlayan bölmə.
2. Yeniyetmələri əsgəri xidmətə hazırlayan bölmə.
3. Yeniyetmələri ailə həyatına hazırlayan bölmə.

Bu klub mədəniyyət müəssisələrində, evlər idarəsində, polis şöbələrində təşkil edilir.

Bu bölmələrdə fəaliyyət göstərən yeniyetmələr öz hüquq və vəzifələrini dərk edir, düzgün peşə seçir, ailə, vətən, valideyn qarşısında vəzifəsini başa düşür.

Gənc hüquqşünaslar klubu həm orta ümumtəhsil məktəblərində, həm xalq məhkəmələri nəzdində, mədəniyyət müəssisələrində təşkil edilir. Klubda məşğələləri xalq hakimləri aparırlar. Gənc hüquqşünaslar klubu hüquqşünaslarla prokurorluq, xalq məhkəməsi, daxili işlər şöbəsinin əməkdaşları və alimlərlə görüşlər təşkil edir, «Gənc hüquqşünas», «Qılınc və qalxan», «Qanun keşiyində», «Qanun naminə», «Nümunəvi davranış uğrunda» və s. adla divar qəzeti buraxır, bədii əsərlərin müzakirəsini keçirir, səhnəciklər hazırlayır, orta məktəbin bütün siniflərində bilavasitə onların hüquq tərbiyəsinə, məktəbdə, küçədə, ictimai yerlərdə, ailədə nümunəvi davranışa xidmət edən söhbətlər aparırlar.

Yeniyetmə və gənclərin hüquq tərbiyəsində həmçinin teatr, kino, kütləvi informasiya vasitələrinin də əhəmiyyətli rolu mövcuddur.

**Hüquq tərbiyəsinə pedaqoji rəhbərlik.** İstər məktəbdə, istərsə də məktəbdənkanar tərbiyə müəssisələrində hüquq tərbiyəsinə rəhbərlik kompleks şəkildə həyata keçirilir. Məktəb direktoru təlim-tərbiyə üzrə direktor müavini, sinifdənxaric və məktəbdənkanar tədbirlər üzrə təşkilatçı, sinif rəhbərləri, ayrı-ayrı müəllimlər, təşkilatçı cəmiyyətdə məsul şəxslər, mədəniyyət müəssisələrində dərnək rəhbərləri, metodistlər, yeniyetmələrlə iş üzrə polis işçiləri, hüquq tərbiyəsi ilə məşğul olan bütün şəxslər həmin iş üzrə pedaqoji rəhbər hesab oluna bilərlər. Məsələn, məktəbdə şagird təşkilatı komitəsi inzibati orqan işçiləri ilə birlikdə hərəkətin gənc inspektoru dəstəsinin fəaliyyətinə rəhbərlik edir.

Tərbiyə işləri üzrə təşkilatçı bütün sinifdənkanar və məktəbdənxaric işlərə rəhbərlik edir.

Məktəbdəki bütün təlim-tərbiyə işləri kimi hüquq tərbiyəsinə də əsasən məktəb direktoru rəhbərlik edir. Direktor pedaqoji kollektivin bilavasitə rəhbəri, təlim-tərbiyə işinin təşkilatçısıdır.

Direktor məktəbdə təşkil edilmiş bütün dəstə və klubların işinə rəhbərlik edir, onların komandir və başçılarının hesabatını dinləyir, keçirəcəkləri tədbirlərə razılıq verir.

Məktəbdən kənar tərbiyə müəssisələri, mədəniyyət müəssisələrində aparılan hüquq tərbiyəsi işi tərbiyəçi və ya dərnək rəhbərindən pedaqoji ustalıq tələb edir. Bu sahədə iş zamanı dərnək rəhbəri, təlimatçı, müxtəlif hüquqi tədbirlərin təşkili zamanı iştirakçıların marağı, yaş xüsusiyyətləri, intellektual və sosial səviyyəsini, dünyagörüşü və s. nəzərə almalıdır. O, bu zaman tərbiyə olunanın bütün imkanlarından səmərəli şəkildə istifadə etməyi bacarmalıdır.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1. Məktəb daxili hüquq tədbirləri.
2. Mədəniyyət və incəsənət müəssisələrində aparılan hüquqi işlər və tədbirlər.
3. Mədəniyyət və incəsənət işçisinin hüquqi tərbiyəsində rolu.

## TƏRBİYƏ PROSESİNİN MAHİYYƏTİ

Cəmiyyətin qarşıya qoyduğu şəxsiyyət modelinə uyğun olaraq böyüməkdə olan nəslin formalaşdırılmasına mütəşəkkil, məqsədyönlü rəhbərlik tərbiyə prosesi adlanır. Bu tərbiyəyə verilən ümumi tərifdir. Konkret olaraq isə tərbiyə olunanda həyata düzgün münasibət formalaşdırmaq, çəmiyyətin müəyyən etdiyi əxlaq normaları və davranış qaydalarına yiyələndirmə işi tərbiyə adlanır.

Bu prosesdə böyüyən nəsl cəmiyyət üçün faydalı, yüksək mənəvi potensiala malik, əməyə meylli və əmək qabiliyyətli ideyaca mətin, estetik görüşlərə malik və fiziki cəhətdən sağlam insanlar formalaşdırılır.

Ümumiyyətlə, tərbiyə vasitəsilə şəxsiyyət sosiallaşır, həyata, cəmiyyətə maksimum ictimai-fayda verəcəyi sahəyə hazırlanır, sistemli tərbiyə vasitəsilə formalaşan insan həyatda müstəqil şəkildə özünü təmin edə bilir. Tərbiyə prosesi ictimai münasibətlər təcrübəsi əsasında böyüyən insanların fəaliyyətinin düzgün istiqamətləri müəyyənləşdirilir. Beləliklə də tərbiyə olunanlarda əməyə, biliklərə, təlimə, ümumiyyətlə fəaliyyətə çoxcəhətli münasibət yaranır. Bu isə obyektiv ictimai münasibətlərin şəxsi münasibətlərə çevrilməsi, insanların ictimai münasibətlərin şüurlu dərk etməsi deməkdir. Obyektiv ictimai münasibətlərin şüurlu dərk olunması nəticəsində obyektiv tələb, insanın şəxsi tələblərinə, tərbiyə motivlərinə, tərbiyənin hərəkətverici qüvvələrinə çevrilir. Deməli, tərbiyə insanlarda konkret münasibətlər formalaşdırır. Münasibət kateqoriyası isə bir sıra ictimai elmlər tərəfindən tədqiq edilir. Məsələn, fəlsəfi kateqoriya kimi münasibət subyektin obyektlə əlaqəsinin dialektikasını ifadə edir. Etik kateqoriya kimi münasibətlər adamlar arasında əxlaqi etik əlaqələr halında - xeyir, şər, ədalətlilik mövqeli qiymətlər kimi göstərir. Psixoloji kateqoriya kimi münasibətlər şəxsiyyətin ən ümumi mövqeyitək izah olunur.

Pedaqoqika isə münasibətlərin bu ümumi mövqeyini müxtəlif fəaliyyət formalarında adamların qarşılıqlı əlaqələrində təzahürü kimi nəzərdən keçirir.

Şəxsiyət formalaşmasında əhəmiyyətli yeri mənəvi münasibətlər tutur, bu münasibətlər insan həyat və fəaliyyətinin müxtəlif sahələrinə nüfuz edir, onun şəxsi simasına, adamlarla əlaqəsinə, onun özünü qiymətləndirməsinə təsir göstərir.

Həmçinin tərbiyə prosesi özünütərbiyənin meydana çıxmasına səbəb olur, özünütərbiyə isə ona görə şəxsiyyətin formalaşmasına böyük təsir göstərir ki, tərbiyə olunan şəxsin özü tərbiyə funksiyasının daşıyıcısı olur. O tərbiyə prosesi səmərəli hesab edilir ki, nəticə etibarilə özünətərbiyəyə çevrilsin, tərbiyə məqsədləri insanların şəxsi məqsədləri kimi həyata keçirsin.

Hər bir proses özündə müəyyən nəticənin əldə edilməsi üçün qanunauyğun və məqsədyönlü fəaliyyətləri birləşdirir. Tərbiyə prosesinin əsas nəticəsi isə hərtərfli inkişaf etmiş, cəmiyyətin tələbləri ilə uyğunlaşan insanlar formalaşdırmaqdan ibarətdir. Bu isə ikitərəfli fəal prosesdir. Burada tərbiyəçinin fəallığı üstünlük təşkil edir. Belə ki, tərbiyə işinin məzmunu mahiyyəti, üsulları, vasitələri, formalarını və s. tərbiyəçi müəyyən edir, tərbiyə olunanın fəaliyyətini düzgün istiqamətə yönəldir, onların diqqətini cəmiyyətdə zəruri olan tərbiyə problemlərinə cəlb edir. Şəxsiyyətirn formalaşdırılması prosesi isə bir sıra xüsusiyyətlərə malikdir.

Əvvəla şəxsiyyət bütövlükdə, bir tamlıq kimi formalaşır. İnsanın müxtəlif xarakterli keyfiyyətlri bir-birilə qarşılıqlı əlaqədədir, biri digərinin mövcudluğunu təmin edir, biri-digərinin meydana çıxmasına, yeni keyfiyyətlər formalaşdırılmasına səbəb olur. Bu qarşılıqlı vəhdətdə olan keyfiyyətlər isə fəaliyyət prosesində insanın xarakter əlamətləri kimi təzahür edir. Tərbiyə olunanın yaşından, inkişaf səviyyəsindən asılı olaraq onun məzmunu da dəyişir, yeni keyfiyyətlər alır. Bu isə öz əksini müvafiq tərbiyə, təlim, incəsənət və mədəniyyət, mədəni-fəaliyyət müəssisələrinin tərbiyə proqramlarında tapır. Ona görə də mədəni fəaliyyət müəssisələrinin tərbiyə proqramları təhsil müəssisələrinin tərbiyə proqramlarından fərqlənir. Belə ki, bu müəssisələrdə insanlar maraqlarına görə birləşən və əsasən, sistemli təhsil almış şəxslərdir. Bu şəxsləri isə artıq dövrün aktual tərbiyə problemləri maraqlandırır birləşdirir.

Tərbiyə işi və onun komponentləri arasında əlaqə o dərəcədə möhkəmdir ki, tərbiyə komponentlərinin birində baş verən dəyişiklik mütləq başqalarına da təsir edir. Belə ki, bu sistemdə hər bir tərbiyə komponenti şəxsiyyət formalaşdaırılması işinin digərləri ilə əlaqədə olan zəruri həlqəsini, tərəfini, mərhələsini təşkil edir. Ona görə də baş verən hər dəyişiklik digərlərinə də təsir edir.

Tərbiyəyə hərtərəfli və kompleks yanaşma prinsipi tərbiyələndirmə fəaliyyətində də belə hərtərəfli təsir edən pedaqoji sistemin, pedaqoji yanaşmanın yaradılmasını tələb edir. Bu tərbiyə sistemi şəxsiyyətin əqli, fiziki, əxlaqi, estetik, ideya siyasi, hüququ və s. cəhətlərdən formalaşmasının kompleks şəkildə aparılmasını özündə birləşdirməlidir. Bu sistem həmçinin insanları əhatə edən mühitə, ətrafdakılara ictimai, sosial münasibət formalaşdarılmalıdır.

Tərbiyə prosesi göründüyü kimi təbiət etibarilə hərtərəflidir. Bu isə tərbiyə təsirlərinin müxtəlif və çoxcəhətliliyindən irəli gəlir. Belə ki, tərbiyə prosesində tərbiyəçi ilə yanaşı ətrafdakıların mütamadi,

çoxcəhətli təsirləri mövçud olur. Bu təsirlər insanın ömrünün axırına qədər davam edir. İnsana hamı, hər şey valideyn, tərbiyəçi, təbiət - çanlı və çansız təbiət - istehsalat, istehsal münasibətləri, onu əhatə edən mikro mühit və s. təsir edir. Bu müxtəlif forma və məzmunlu tərbiyə təsirləri insan anadan olandan ömrünün sonuna qədər zddiyyətli və uzun müddətdə davam edir. Tərbiyənin təsiri insanlarda müxtəlif şəkildə olur və təzahür edir. Buna səbəb tərbiyə təsirlərinin müxtəlifliyi ilə bərabər həm də tərbiyə olunanların özləri müxtəlifliyidir. Tərbiyəçilər müxtəlif fərdi-psixoloji xüsusiyyətlərə, inkişafa malik insanlara tərbiyəvi təsir göstərirlər. Bu tərbiyəvi təsirləri, tələbləri hər kəs öz fərdi münasibətləri, inkişaf səviyyələri baxımından qəbul edir. Ona görə də eyni tərbiyəvi təsir eyni yaşlı insanlarda müxtəlif şəkildə təzahür edir.

Təlim və tərbiyə şəxsiyyət formalaşdırılması prosesinin dialektik vəhdət təşkil edən iki qütbüdür. Həm tərbiyə həm də təlim şəxsiyyətin həyata hazırlanmasına xidmət edir. Lakin, bunlar xüsusi predmetə və anlayışlara malik ayrı-ayrı pedaqoji proseslərdir. Məsələn, təlim böyüyən nəsldə bilik, bacarıq, vərdiş formalaşdırmaqla obyektiv aləm hadisələrini dərk etdirir. Tərbiyə prosesində isə əqidə, rəftar, adətlər yaratmaqla cəmiyyətin müəyyən etdiyi əxlaq normaları, davranış qaydaları mənimsədilir ki, bunun nəticəsində də insanlar da onu əhatə edən hər şeyə münasibət formalaşır. Təlimin bilik, bacarıq, vərdiş kimi anlayışları mövcuddur. Tərbtyənin əqidə, rəftar, adət kimi anlayışları vardır. Bu anlayışlar mexanizm etibarilə uyğun və oxşardırlar. Bilik-təbiət və cəmiyyətin obyektiv inkişaf qanunları haqqında insanların şüurunda möhkəmləndirilmiş elmi məlumatlardır.

Əqidə-əxlaq qaydaları, normaları sistemi və buna riayət etmənin zəruriliyi haqqında insanların həm şüurunda həm də fəaliyyətində möhkəmləndirilmiş məlumatlar sistemidir. Bacarıqlar biliklərin tətbiq edilə bilmnməsidir. Rəftar mənimsənilmiş əxlaq normalarını icra etməkdir. Vərdiş avtomatlaşmış bacarıqdır. Adət avtomatlaşdırılmış rəftardır.

Bunlar arasında fərq ondan ibarətdir ki, bilik , bacarıq və vərdişlər maddi aləmin dərk edilməsi ilə , rəftar, adət və əqidə anlayışları isə həyata münasibətlər formalaşdırmaqla bağlıdır.

Bəzən, vərdiş və adət anlayışını qarışdırırlar. Bunların fərqli cəhəti ondan ibarətdir ki, adətlər həmişə adamı adət olunmuş fəaliyyətə təhrik edir, həmin iş görülməyəndə adam özünü narahat hiss edir. Vərdişlər icra edilmədikdə isə heç bir narahatlıq yaranmır.

Öyrənmə qanınlarını təlim nəzəriyyəsi, tərbiyə qanunlarını tərbiyəşünaslıq uzə çıxarır. Tərbiyə ilə təlimin tədqiqat metodları da müxtəlifdir.

## 2. Tərbiyə prosesinin dialektikası və spesifikliyi

Pedaqoji proses o, cümlədən tərbiyə prosesi dialektik bir prosesdir. A.S.Makarenkoya görə pedaqokika ən dialektik elmdir. Onun fikrincə pedaqoji prosesdə dialektikanın bütün qanunları fəaliyyət göstərir. Bu özünü tərbiyə prosesində də göstərir. Belə ki, tərbiyə prosesində tərbiyəyə bütün təsirlər, amillər qarşılıqlı əlaqə və ziddiyyətdə təsir edir.

Konkret olaraq demək olar ki, tərbiyə prosesi tərbiyə olunanların xalqın maddi və mənəvi sərvətlərinin mənimsəməsinə nə qədər çox gömək göstərərsə, o qədər də tərbiyə məqsədinə uyğun gəlir, müasir sosial tələblərə cavab verir.

Böyüməkdə olan insan şəxsiyyətinin formalaşdırılması tərbiyə prosesinin məqsədidir və burada insanın özünün psixi xüsusiyyətləri, şəxsiyyətin xassələri, onun səy, tələb və imkanları, ən incə asılılığı və şərtlənməsi özünü göstərir. Tərbiyə olunanın bu fərdi xüsusiyyətləri müəyyən mənada, tərbiyə məqsədinin həyata kecirilmə müvəffəqiyyətini müəyyən edir. Bunu nəzərə almayan pedaqoq-tərbiyəci müvəffəqiyyətə nail ola bilməz.

Digər tərəfdən tərbiyə prosesində həm də pedaqoji təsirlərin qarşılıqlı surətdə əlaqələndirilməsi zəruridir. Çünki onlar da böyüməkdə olan insanın şəxsiyyət kimi formalaşmasına öz təsirini göstərib. Tərbiyə olunanı əhatə edən mühit (şəhər, kənd), onun mikromühiti (ailə, dostları), kommunikasiyanın kütləvi vasitələri, insanın mümkün olan həm müsbət həm də mənfi təcrübəsi, bütün bu coxçəhətli əlaqələr, tərbiyə prosesini, onun sosial, psixoloji və pedaqoji amilləri ilə birlikdə qarşılıqlı surətdə qovuşdurur, birləşdirir.

Tərbiyə prosesinin ozü mahiyyətcə dialektik ziddiyyətli inkişafda, dəyişmədə olan mütəhərrik bir prosesdir. O, sosial tələblər əsasında inkişaf edir; tərbiyə olunanların yaş xüsusiyyətlərinə uyğun olaraq dəyişir; onların müxtəlif həyat situasiyalarda müxtəlifləşir. Bu şərtlərdən asılı olaraq tərbiyənin təsir gücü də müxtəlif olur.

Tərbiyə prosesi heç də həmişə rəvan cərəyan etmir, onun özünə məxsus sıçrayışları, ucalma və enmələri olur. Tərbiyə proseinin ziddiyyətlərində, onun inkişafının hərəkətverici qüvəsi olan daxili və xarici ziddiyyətləri bir-birindən ayırmaq lazımdır. Xarici ziddiyyətlər müvəqqətidir, o tərbiyə proseini həm ləngidə, həm də sürətləndirə bilər. Daxili ziddiyyət isə daimidir. Belə ki, tərbiyə olunanın həll edəcəyi

artan sosial əhəmiyyətli vəzifələrələ, bu vəzifələri həll etməkdə onun əməl və hərəkətlərini məhdudlaşdıran imkanlar arasındakı ziddiyyət tərbiyə prosesinin daxili ziddiyyətidir, onun hərəkətverici qüvəsidir. Müəyyən mərhələdə bu ziddəyətlər aradan qaldırılsa da bütün tərbiyə prosesi müddətində tamamilə yox olmur.Lakin şəxsiyyət qarşısında həll edilməli yeni mürəkkəb vəzifələr qoyulmazsa onun inkişafı dayanar.

Tərbiyə prosesinin digər daxili ziddiyyəti insanların daxili meyyləri ilə xarici təsirlər arasındakı ziddiyətlərdir. S.L.Rubenşteyn bu məsələyə xüsusi diqqət verərək yazırdı ki, «uşağın hərəkətinin bu daxili məzmununa diqqət yetirilməzsə, pedaqoqun fəaliyyəti ümidsiz formalizmə düçar olar.

Xarici ziddiyyətlər tərbiyə prosesi üçün böyük çətinliklər törədir. Belə ki, tərbiyə prosesində müvəffəqiyyətsizlik çox vaxt tərbiyə tələbləri ilə xarici tələblərin (ailə, valideyn, ətraf mühit və s. ) düz gəlməməsi nəticəsində baş verir.

Mütəşəkkil tərbiyə təsiri ilə uşaq və yeniyetmənin həyat şəraitinin kortəbii təsirləri arasındakı ziddiyyət də tərbiyə proseini mürəkkəbləşdirir. Bu ziddiyyətlər tərbiyə proseinin şəxsiyyətə kortəbii amillərə nisbətən daha güclü təsiri vasitəsilə aradan qaldırıla bilər. Tərbiyə müəssisələri daxilində ayrı-ayrı tərbiyəçi və tərbiyə ilə məşğul olan digər şəxslərin verdiyi tələblərin müxləlifliyi də tərbiyə proseinə mənfi təsir göstərir.

Çox vaxt ziddiyətlər uşaq tərəfindən mənfi təcrübənin qazanılması gedişində yaranır və bunun də nəticəsində o, tərbiyə proseinin iştirakçıları ilə daim münaqişəyə girir.

Xarici ziddiyyətin bu və ya digər növləri ciddi diqqət tələb edir.

## 3.Tərbiyənin qanunauyğunluqları.

Cəmiyyətdə mövcud olan tərbiyə prosesinin öz qanunauyğunluqları var. Bu məsələyə görə müasir pedaqoqlar arasında ciddi mübahisə mövcuddur. Bir qrup pedaqoqlar tərbiyənin obyektiv qannularını inkar edir, tərbiyəyə insanın daxili qüvvələrinin fərdi inkişafı nəticəsində, xüsusi tərbiyə təsiri olmayan imkanların özünün ifadəsi prosesi kimi baxırlar. Onlara görə tərbiyə ancaq bu inkişafa şərait yaratmağa xidmət edir.

Bir qrup pedaqoqlar isə tərbiyəni insanın sosial həyat varlığının qanunauyğunluqları və ictimai şəxsiyyət kimi, onun psixoloji xüsusiyyətləri ilə şərtlənən bir proses kimi nəzərdən keçirir. Professor B.Əhmədov tərbiyə qanunlarını aşağıdakı şəkildə qruplaşdırmış və təhlil etmişdir:

1. Həyatın bütün sahələrində, o cümlədən tərbiyə prosesində fəaliyyət göstərən qanunlar;
2. Pedaqoji prosesin bütün sahələri, o cümlədən, tərbiyədə fəaliyyət göstərən qanunlar;
3.Psixoloji və fizioloji qanunlar;
4.Tərbiyənin spesifik qanunları.

Birinci qrup qanunlara dialektik materializmin qanunları aiddir. Belə ki, bu qanunlar bütün həyat hadisələrinə tətbiq edildiyi kimi pedaqoji prosein bütün sahələrinə də, o cümlədən, təröiyə proseisnə də tətbiq edilir.

Dialektikanın əksliklərin vəhdəti və mübarizəsi qanunu tərbiyə prosesinin, tərbiyəçi və tərbiyə olunanın inkişafını, bu inkişafın mənbə və səbəbini açıb göstərməyə tətbiq edilir. Kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanunu inkişafın xarakterini və formasını, inkarı inkar qanunu isə inkişafın istiqamətini, tendensiyasını əks etdirir.

Pedaqoji prosesin qanunları, yəni pedaqoji prosesin ümumi məqsədinin ictimai münasibətlər tərəfindən müəyyən edilməsi qanunu tərbiyənin də konkret məqsədini müəyyən edir. Tərbiyə olunan şəxsiyyətin modulunu layihələndirməyə və bu prosesdə tərbiyənin rolunu müəyyən etməyə imkan verir. Müəyyən edilmiş məqsədə uyğun məzmun seçilməsinə və məzmununun konkretləşdirilməsinə kömək edir.

Üçüncü qrup qanunlar təlim prosesində olduğu kimi tərbiyə prosesində də psixo-fizeoloji və bioloji qannulara istinad etməyi nəzərdə tutur. Belə ki, insan inkişaf etdikcə psixoloji-fizioloji cəhətdən dəyişir, onunla əlaqədar olaraq, onun marağı, meyli və fəaliyyəti də dəyişir. Bu prosçes tərbiyə işində nəzərə alınmalıdır. Fiziologiyanın ali əsəb sistemi haqqındakı qanunları, müddəaları tərbiyə işində nəzərə alınmalıdır.

Yuxarıda deyilən qanunların heç biri tərbiyə üçün spesifik deyildir.

Tərbiyəşünaslıqda tərbiyənin spesifik qanundarı üzərndə, demək olar ki, hələ mübahisə gedir. «Fəaliyyətdə tərbiyə qanunu» pedaqoq-alimlərin əksəriyyəti tərəfindən qəbul edilmiş qanundur. Bu qanuna görə «Tərbiyəçi tərbiyə olunana aşalamaq istədiyi keyfiyyətlərin tələb etdiyi şəraitə (fəaliyyətə) onu nə qədər çox cəlb edərsə, həmin keyfiyyətlərin formalaşması bir o qədər müvəffəqiyyətli olar».

Professsor Bəşir Əhmədov iki cəhətə görə bu qanunu dəqiq hesab etmir: a) bu qanun həm də təlimi əhatə etdiyinə görə spesifik sayıla bilməz; b) bu qanun daha mühüm bir qanunun konkret şəraitdə təzahür formasıdır,yəni törəmədir. O tərbiyənin aşağıdakı spesifik qanunlarını müəyyən etmişdir:

1. Sözlə fəaliyyət arasındakı əlaqəni əks etdirən qanun;
2. Planlı təsirlə kortəbii təsir arasındakı əlaqəni əks etdirən qanun.
3. Hörmətlə tələbkarlıq arasındakı əlaqəni əks etdirən qanun.
4. Müsbət keyfiyyətlərlə mənfi keyfiyyətlər arasındakı əlaqəni əks etdirən qanun.
5. Fərdlə kollektiv arasındakı əlaqəni əks etdirən qanun.

İndi bu qanunların mahiyyətinə nəzər salaq.

1. Tərbiyəçi tərbiyə olunanın rasional və emosional aləminə nə qədər birgə təsir göstərərsə və həmin təsiri tərbiyə olunanı müvafiq fəaliyyətə cəlb etməklə nə qədər çox möhkəmləndirərsə, nəticə də bir o qədər səmərəli olar.

2. Planlı təsirlə (müəllimin təsiri) kortəbii təsir (mühitin təsiri) bir-birini nə qədər çoz tamamlayarsa tərbiyə olunanın formalaşması bir o qədər sürətlənmiş olar.

3. Tərbiyəçi şəxsə olan hörmət və tələbkarlığı özünə olan hörmət və tələökarlığı ilə nə qədər çox uzlaşdırsa, şəxs onun tələblərini bir o qədər yaxşı qəbul edər və yerinə yetirər.

4. Tərbiyəçi tərbiyə olunanların müsbət keyfiyyətlərini nə qədər çox inkişaf etdirərsə, mənfi keyfiyyətlərin inkişafını bir o qədər ləngitmiş olar.

5. Fərdin hərəkətləri kollektiv tərəfindən nə qədər çox təqdir olunarsa, həmin hərəkət bir o qədər dərin intişar tapar, pislənərsə ləngiyər: kolektivin fərdə olan münasibəti nə qədər parçalanarsa, nəticə bir o qədər zəifləyər.

Bəzən tərbiyəçi tərbiyə olunandan çox tələb edir, özünə isə tələbkar yanaşmır. Tələbəyə deyir: dərsə gecikmə, amma özü zəngdən beş dəqiqə sonra sinifə daxil olur. Belə halda tələbə müəllimi eşitmir, onun tələbinə əməl etmir. Deməli, müəllim özünə qarşı da çox tələbkarlıq göstərməlidir. Bu, üçüncü qanunun tələbi olub, müəllimlə tələbənin münasibətini müəyyən edir.

Müəllim şagirdə, tələbəyə verdiyi tələblərə, ümumiyyətlə, bütün tələblərə özü nə qədər riayət edərsə, bir o qədər tərbiyə tələbləri səmərəli şəkildə həyata keçirilər.

Bütün ictimai elmlər qanunu, o cümlədən də tərbiyə qanunları-təbiət qanunlarından fərqli olaraq, -tendensiyaları ümumi istiqamətdə ifadə edir. Ona görə də bu qanunlarda konkret şəraitdə müəyyən müstəsnalıqlar, təsadüflər özünü göstərə bilər.

Tərbiyənin bu qanunları həmçinin mədəniyyət və incəsənət müəssisələrindəki tərbiyələndirmə fəaliyyətində də hökm sürən əsas qanunlardır. Bu müəssisələrdə aparılan tərbiyə tədbirlərində həmin qanunlar əsas götürülür. Çünki bu cəmiyyətin tələblərindən doğan tərbiyə qanunlarıdır. Mədənityyət müəssisələrində istər eyni yaş qruplarında aparılan tərbiyə işləri, istərsə də müxtəlif yaş səviyyəli insanlarda aparılan tərbiyə işləri mövcud tərbiyə qanunları əsasında aparılır. Asudə vaxtın səmərəli təsirinə xidmət edən bütün tələblər cəmiyyətin əxlaq, ümumiyyətlə, tərbiyə tələbləri baxımından aparılır. Ona görə də tədbirlər ümumpedaqoji tələblərə əsasında təşkil edilir və aparılır.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1. Tərbiyənin elmi əsasları.
2. Tərbiyənin ümumi qanunlarının mahiyyəti.
3. Tərbiyə qanunlarının mədəniyyət və həmçinin digər müəssisələrdə aparılan tərbiyə işlərində yeri.

## TƏRBİYƏ PRİNSİPLƏRİ

İstənilən fəaliyyətdə rəhbər tutulan qayda və qanunlar sistemi prinsip adlanır.

Tərbiyə prinsipləri isə tərbiyənin bütün qanunauyğunluqlarını özündə əks etdirən, şəxsiyyət formalaşdırılması işinin daha da səmərəli və məqsədyönlü təşkilinə istiqamət verən, rəhbərlik edən qaydalar sistemidir. Bu prinsiplər ayrı-ayrı tərbiyəçilər tərəfindən uydurulmur, müəyyən edilmir, tərbiyənin obyektiv qanunları, cəmiyyətin pedaqoji proses qarşısında qoyduğu şəxsiyyət formalaşdırması məqsədinin tələbləri və vəzifələri əsasında müəyyən edilir..

Son dövrdə nəşr edilmiş pedaqogika dərsliklərinin əksəriyyətində tərbiyə prinsipləri ümumi və xüsusi olmaqla iki qrupa bölünür. Ümumi prinsiplər həm təlim, həm tərbiyə, ümumimyyətlə, bütün pedaqoji prosesdə rəhbər tutulan prinsiplərdir.

Bura tərbiyənin həyatla, quruculuq işi ilə əlaqələndirilməsi, sistematiklik və ardıcıllıq, şüurluluq və fəallıq, yaşa uyğunluq və fərdi yanaşma prinsipləri daxildir. Bu prinsiplərin tətbiqi zamanı hər sahənin spesifik xüsusiyyətləri nəzərə alınır. Məsələn, təlim prosesinin əsas məqsədi maddi aləm qanunauyğunluqlarını dərk etdirməkdir. Ona görə də ümumi prinsiplər bu məqsədin həyata keçirilməsinə xidmət edir. Tərbiyənin məqsədi insanlarda çoxcəhətli münasibət formalaşdırmaq olduğundan ümumi prinsiplər tərbiyə prosesində məhz bu məqsədin müvəffəqiyyətlə həyata keçirilməsinə xidmət edir. Ümumiyyətlə tərbiyə prinsiplərini aşağıdakı şəkildə təsnif etmək olar:

1. Tərbiyənin həyatla quruculuq işi ilə əlaqələndirilməsi.
2. Yaşauyğunluq.
3. Fərdi yanaşma.
4. Sistematiklik və ardıcıllıq.
5. Şüurluluq və fəallıq.
6. Nikbinlik.
7. Hörmət və tələbkarlıq.
8. Kollektivdə tərbiyə.
9. Tələblərdə vahidlik.

Birinci beş prinsip ümumi prinsiplərdir. Bu ümumi prinsiplərin tətbiqi zamanı tərbiyəçi tərbiyələndirmə zamanı istinad edəcəyi, nəzərə alacağı məsələləri daha aydın şəkildə dərk etməlidir.

Tərbiyənin həyatla quruculuq işi ilə əlaqələndirilməsi prinsipi bütün dövr və zamanlar üçün aktual olan bir prinsipdir. Belə ki, hər bir tərbiyə işi mövcud ictimai tələblərə cavab verməsə cəmiyyət onu qəbul etməz və o səmərəsiz, yararsız bir işə çevrilər. Hər bir tərbiyəçiyə yaşadığı ictimai-iqtisadi mühitin tələb etdiyi insan modeli, cəmiyyətdə yaşayacaq fəaliyyət göstərəcək şəxs üçün zəruri olan əxlaqi keyfəyyətlər aydın olmalıdır. Ona görə də bu prinsip əsas və aktual prinsip hesab edilir. Tərbiyəçi bütün tərbiyə fəaliyyətini tərbiyə olunanların gündəlik həyatı və fəaliyyəti ilə bağlamalıdır. Bu işə kiçik yaşlarından başlanır. Məsələn, məktəbdə şagird fəaliyyəti əsasən təlimdir. Məhz təlim prosesində onlara intizamlılıq (dərsə gecikməmək, müəllimin izahı zamanı diqqətli olmaq, yoldaşlarını dinləmək və s.), çalışqanlıq (yaxşı oxumaq, inşa yazmaq, məsələ və misalları özü həll etmək, təcrübələr qoymaq, öyrədilən praktiki işləri icra etmək və s.), dözümlülük (görülən işi axıra çatdırmağa özünü məcbur etmək, məsələ və misalları düzgün həll etmə yolları axtarmaq və s.), yoldaşlarına hörmət etmə, müraciət etmə qaydaları və məqamları və s. kimi keyfəyyətlər aşılanır. Bu keyfəyyətlər isə gələcək şəxsin həyat və fəaliyyətini nizama salan əsas şərtlərdir.

Tərbiyənin quruculuq işi ilə əlaqələndirilməsi təlim prosesində materialın məzmunu, onun həyatdakı rolunun izahı vasitəsi ilə də aparılır.

Məktəbədənkanar tərbiyə müəssisələri, mədəniyyət müəssisələri və istehsalat müəssisələrində aparılan tərbiyə işləri də böyük əhəmiyyət kəsb edir. Bura yeniyetmə və gənclərnin ictimai hadisələrə cəlb edilməsi kütləvi hadisələr və tədbirlər də iştirakı və s. daxildir.

Yaşauyğunluq prinsipi.

Tərbiyə olunanlarla aparılan hər bir tərbiyəvi işlərdə onların yaşlarının, fiziki və psixoloji inkişaflarının xüsusiyyətləri nəzərə alınmalıdır. Hər yaşda insanların inkişaf səviyyəsinə uyğun maraq dairəsi, qavrama qabiliyyətləri, təbiət və cəmiyyət hadisələrinə müxtəlif münasibətləri mövcud olur. Tərbiyə ilə məşğul olan hər kəs tərbiyələndirmə fəaliyyətində mütləq bu xüsusiyyətləri nəzərə almalıdır. Əks halda heç bir nəaliyyət əldə edə bilməz. Məsələn, kiçik yaşlı uşaqların hərəkətləri mütəhərrik olur, bir yerdə uzun müddət çətin dayanırlar. Bu isə onların orqanizmlərinin inkişaf sürətinin, böyümə prosesinin xüsusiyyətindən irəli gəlir. Həmçinin bu yaşda uşaqların diqqətləri və maraqları da davamsız, qısamüddətli olur. Bilik dairələri, əxlaq normaları və qaydaları haqqında məlumatları məhdud olur, ona görə də kiçik yaşlarında əxlaqi adətlər formalaşdırmağa xidmət edən təmrinlər, əxlaqi hərəkətlərin mahiyyətinin açılmasına, əxlaqi anlayışlar yaradılmasına xidmət edən əxlaqi söhbətlərə üstünlük verilir.

Yeniyetmə və gənclər artıq müəyyən intellektual hazırlığa zəruri əxlaqi adətlərə, fiziki kamilliyə, əxlaqi anlayışlara malik olduqları üçün onlarla problem xarakterli işlər aparılır. Həmçinin mədəniyyət müəssisələrində aparılan tərbiyəvi tədbirlər də dövrün aktual problemlərinə həsr edilir.

Bu müəssisələrdə müxtəlif yaşlı uşaq, yeniyetmə, gənc və yaşlıların asudə vaxtlarının səmərəli təşkili üzrə işlər aparılır, ona görə də aparılan hər bir tərbiyə tədbirləri marağa görə birləşmiş müxtəlif yaşlı kollektivlərin yaş, bilik, maraq, görüş dairələr baxımından aparılır. Uşaq və yeniyetmələrlə aparılan işlər sırf öyrədici, alışdırıcı və s. xarakteri daşıyırsa, gənclər və yaşlılarla aparılan işlər, tədbirlər dövrün aktual problemlərinin müzakirə və həlli istiqamətində aparılır. Cəmiyyətdə baş verən, yaranan neqativ hallar və bunların yeniyetmə və gənclərə, ümumiyyətlə insanların həyat tərzinə təsiri kimi məsələlər, belə neqativ halların aradan qaldırılması yollarına aid aparılan işlər buna misal ola bilər.

Həm təlim-tərbiyə müəssisələri, həm mədəniyyət, həm də digər dövlət müəssisələrində həyata keçirilən rəğbətləndirmə və cəza tədbirlərində də yaşa uyğunluq nəzərə alınır. Ona görə də müxtəlif müəssisələrdə (sistemli təlim, mədəniyyət, istehsalat, dövlət və s.) tərbiyə işləri, tədbirləri həmin idarələrin aid olduğu nazirliklər və ya baş idarələr tərəfindən hazırlanmış və ya təsdiq edilmiş tərbiyə proqramaları əsasında aparılır.

Fərdi yanaşma prinsipi.

Cəmiyyətdə, hətta bir ailədə eyni xarakterli iki insan tapmaq qeyri mümkündür. Belə ki, eyni şəraitdə, eyni valideynlərin təsiri və tərbiyəsi altında böyüyən uşaqlar eyni yaş səviyyəsində özlərini müxtəlif şəkildə aparırlar. Ayrı-ayrı fərdi xüsusiyyətlərə malik uşaqlar eyni ailədə müxtəlif fiziki inkişafa, əsəb sisteminə malik olurlar. Onların xarici aləm hadisələrinə münasibəti, qavrama qabiliyyətidə müxtəlif olur. Məsələn, ailədə ilk uşaq, tutaq ki, 7 yaşında sərbəst danışır, riyazi təfəkkürü inkişaf etmiş olur, fəaldır, fiziki cəhətdən sağlamdırsa, ikinci uşaq da həmin yaşda sərbəst və məntiqi danışır, riyazi təfəkkürü zəifdir və yaxud da fiziki cəhətdən daha yaxşı inkişaf etmişdir, ətrafdakılara qarşı aqressivdir və s.

Cəmiyyəti təşkil edən insanlar da məhz bir-birindən bu fərdi xüsusiyyətlərinə görə fərqlənirlər. Tərbiyə prosesində fərdi yanaşma insanların malik olduğu fərdi xüsusiyyətlərdən istifadə edərək onları ümumi məqsədə tabe etməyi nəzərdə tutur. Yəni tərbiyə prosesində eyni yaşlı tərbiyə olunanların fiziki, emosional, intellektual xüsusiyyətlərinin nəzərə alınması və onlardan tərbiyə məqsədilə istifadə edilməsi fərdi yanaşma adlanır. Əgər yaşauyğunluq prinsipi ayrı-ayrı yaş dövrlərində aparılacaq tərbiyə işlərinin məzmununu, aşılanacaq əxlaqi keyfəyyətləri, formalaşdırılacaq adətləri müuəyyən edirsə, fərdi yanaşma həmin yaş dövründə tərbiyə olunanların fərdi xüsusiyyətlərinə istinad etməyi irəli sürür.

Fərdi yanaşma eyni səviyyəli tərbiyə olunanların fərdi xüsusiyyətlərindən istifadə edərək onları ümumi tələbə tabe edir. Bu tərbiyə məqsədlərinin müvəffəqiyyətlə həyata keçirilməsinin əsas və mühüm şərtlərindən biridir. Fərdi yanaşma tərbiyə olunanın bütün daxili aləmini, marağını, əsəb sisteminin quruluşu və inkişafı ilə bərabər onların yaşadığı mühitin, təsir edən digər amillərin də təhlil edilib öyrənilməsini tələb edir. Tərbiyəçi tərbiyə etdiyi insana (uşaq, yeniyetmə, gənc, yaşlı adam) onunla bərabər kimlərin necə təsiri səviyyəsini bilməsi onun tərbiyə fəaliyyətinin səmərililiyini daha da artırır. Çünki bu ona tərbiyə fəaliyyətini düzgün qurma imkanı verir. Fərdi yanaşmadan tərbiyənin bütün mərhələlərində istifadə edilməlidir. Hər kəsin fərdi xüsusiyyətlərindən istifadə edərək onu cəmiyyət üçün fəal şəxsiyyətlər kimi formalaşdırma mümkündür.

Bu prinsipdən mədəniyyət və incəsənət müəssisələrində təşkil edilən tədbirlərdə, aparılan təlim və tərbiyə xarakterli işlərdə də istifadə edilməlidir. Məsələn tərbiyə probleminə həsr edilmiş disputlar zamanı elmi dünyagörüşə malik, hadisələri obyektiv şəkildə təhlil edərək münasibət bildirən şəxs aparıcı kimi seçilməlidir. Bu həm disputun səmərəli aparılması, səviyəssini artırır, həm də həmin şəxsin yaradıcılıq və digər qabiliyyətlərinin daha da inkişafına imkan yaradar.

Sistematiklik və ardıcıllıq prinsipi.

Mövcud pedaqogika dərsliklərinin əksəriyyətində sistematiklik və ardıcıllıq təlim prinsipi kimi verilmişdir. Lakin professor N. M. Kazımov, professor B. A. Əhmədov, V. A. Slastenin[8] və bir sıra başqa pedaqoqlar sistematiklik və ardıcıllıq prinsipini tərbiyə prinsipi kimi də qəbul etmişlər. M.Kazımov və B. Əhmədov bunu tərbiyənin ümumi prinsiplərinə aid etmişlər.

Qeyd etdik ki, tərbiyə cəmiyyətin qarşıya qoyduğu məqsədlərə müvafiq şəxsiyyət formalaşdırılması prosesidir. Bu isə məqsədyönlü, ardıcıl sistem şəklində aparılan təsirlər vasitəsilə həyata keçirilir. Sisitematiklik və ardıcıllıq tərbiyənin ilk mərhələlərindən başlayaraq həyata keçirilir. Yəni aşılanacaq əxlaqi keyfiyyətlər, formalaşdıralacaq adətlər zəncirvari sistem halında əvvəlcədən birləşmiş şəkildə həyata

---

[8] Казымов Н. Щяшимов Я. «Педагоэика» Бакы, Маариф, 1996 Ящмядов Б. Рзайев А. «Педагоэикадан мщщазиря конспектляри» Бакы, Маариф, 1983 «Педагогика» Москва, Просвещение, 1981.

keçirilir. Əxlaqi anlayış yaradılmadan onun tələb etdiyi adətlər çətin formalaşdırılar və yaxud da zəruri ilk əxlaqi adətlər formalaşdırılmadan digər əxlaqi keyfiyyətlər formalaşdırıla bilməz.

Məsələn, müsahibini axıra qədər dinləmək adəti olmadan onun fikri haqqında düzgün nəticə çıxarmaq olmaz. İntizam formalaşdırmadan nə təlim nə də tərbiyə müvəffəqiyyət qazana bilməz. Tərbiyə elə bir uzun müddətli prosesdir ki, burada müxtəlif insanlar və vasitələr iştirak edir. Bu tərbiyəvi təsirlər elə sistemləşdirilməlidir ki, ümumi şəxsiyyət formalaşdırılması məqsədinə xidmət etsin. Bu sistemli təlim-tərbiyə müəssisələrində olduğu kimi mədəniyyət və digər müəssisələrdə də aparılan tərbiyə işlərində zəruri olan bir prinsipdir.

<u>Şüurluluq və fəallıq prinsipi.</u>

Şüurluluq və fəallıq prinsipi də tərbiyənin ümumi prinsipidir. Bu prinsip həm təlim həm də tərbiyə prosesində rəhbər tutulan prinsipdir. Tərbiyə prosesində şüurluluq və fəallıq verilən tərbiyə tələblərinə şüurlu münasibətdə və ictimai fəaliyyətdə fəallıq göstərmədə özünü biruzə verir.

Tərbiyəçi ilə tərbiyə olunan arasında yaranan ziddiyyətə çox zaman səbəb tərbiyə olunanın tərbiyə tələbinə şüurlu yanaşmaması, onu dərk etməməsidir. Ona görə də hər bir əxlaqi anlayışın şüurlu sürətdə mənimsənilməsi, ona şüurlu münasibət bəsləyərək öz mənəviyyatı, daxili aləmi vasitəsilə transformasiya edilməsi tərbiyə işində mühüm və zəruri amildir, tərbiyə müvəffəqiyyətini təmin edən əsas şərtdir. Şüurlu surətdə dərk edilən əxlaqi anlayış icra edilməklə fəallıq kəsb edir. Ona görə də hər bir müəllim və tərbiyəçi əxlaqi anlayışlarının adətlərə, fəallıq mövqeyinə çevrilməsinə çalışmalıdır.

Tərbiyə tələblərinin şüurlu dərk edilməsi ilə yanaşı həmin tələblərə müvafiq hərəkət etməyə hər kəsin özünü məcbur etməsi də tərbiyə işində zəruridir. Özünütərbiyə tələblərinə uyğun şəkildə fəaliyyətə məcbur etmə insanlarda fəallıq formalaşdırır. Tərbiyədə şüurluq və fəallığı istiqamətləndirməyə mədəniyyət müəssisələrində də imkan vardır. Çünki mədəniyyət müəssisələrində marağa görə kamil, cəmiyyətə, həyata, əxlaqa konkret və şəxsi münasibətdə olan, şəxsi ideyaya malik insanlar birləşirlər. Ona görə də təşkil edilən tərbiyə tədbirlərinə daha şüurlu münasibət olur, tərbiyə problemlərinin həllində onlar daha çox fəallıq göstərirlər.

Hətta sistemli tərbiyə müəssisələrində mənimsənilmiş əxlaqi anlayışa yenidən nəzər salır, onu öz şüur süzgəcindən yenidən keçirirlər.

<u>Nikbinlik prinsipi.</u>

Bu humanist prinsip olub insana, onun müsbət istiqamətdə dəyişə bilməsinə inam yaradır. Nikbinlik prinsipinin mahiyyətinə görə heç bir yaxşı cəhəti olmayan, dəyişməz düzəlməz insan yoxdur. İnsanların müsbət keyfiyatlərinə istinad edərək tərbiyə vasitəsilə onun mənfi cəhətlərini aradan qaldırmaq mümkündür. Bütün insanların hamısında həm müsbət, həm də mənfi əlamətlər mövcuddur. Lakin bir qrup insanlarda mənfi əlamətlər nisbətən üstünlük təşkil edir, tərbiyəçinin tərbiyəvi təsirlərini qəbul etmir və ya çətin qəbul edir. Tərbiyə olunanların müsbət və mənfi keyfiyyətlərini üzə çıxarmaq tərbiyəçidən böyük ustalıq tələb edir. Ancaq bu prosesdən sonra, yəni tərbiyə olunanın mənfi cəhəti və həm də onu yaradan səbəb məlum olunandan sonra tərbiyəçi işini səmərəli qura bilər. Tərbiyəçi tərbiyə etdiklərinin gələcəyinə, özünün tərbiyə işinin nəticəsinə inanmalıdır.

Nöqsanların aradan qaldırılmasına inamla prinsipiallıq və səbrlə yanaşılmalı, tələsğənlik edilməməlidir. Bu sistemli təlim-təprbiyə müəssisələrində, yenidən tərbiyə müəssisələrində, mədəniyyət və incəsənət müəssisələrində aparılan tərbiyə işlərində rəhbər tutulan prinsipdir. Mənfi keyfiyyətlər tərbiyə prosesində aradan qaldırılmazsa bir tərəfdən bu insanın xarakterində möhkəmlənər, digər tərəfdən də başqa zəruri əxlaqi keyfiyyətlərin formalaşdırılması işində əngələ çevrilə bilər.

<u>Hörmət və tələbkarlıq prinsipi.</u>

Bu prinsipə görə tərbiyəçi tərbiyə fəaliyyətində tərbiyə olunanın şəxsiyyətinə mümkün qədər çox hörmət etməli və tərbiyə tələblərinin yerinə yetirilməsindəç eyni dərəcədə tələbkar olmalıdır. Ciddi tələbkarlıq və qarşılıqlı hörmətə əsaslanan tərbiyə fəaliyyəti səmərəli nəticə verir. Tərbiyəçi tərbiyə olunana qayğı, hörmət, valideyn məhəbbətilə yanaşmalıdır. Tərbiyə olunanlar bu qayğını, hörməti hiss etməlidir. Bu hörmət arxasında hər kəs ona verilən tərbiyə tələblərini yerinə yetirməli olduğunu, onun vacibliyini dərk etməlidir. O, bilməlidir ki, verilən əxlaqi tələbin yerinə yetirilməməsi onu hörmətdən salar, nüfuzuna xələl gətirər. Həmçinin tərbiyəçi tərbiyə olunanlardan da öz şəxsiyyətinə hörmətlə yanaşmağı tələb etməlidir. Öz şəxsiyyətinə hörmət edə bilməyən şəxsin başqasına hörməti qorxaqlıq və ya ləyaqətsizlik kimi meydana çıxar. Bu isə tərbiyə işinin müvəffəqiyyətsizliyinə səbəb olar. Tərbiyə tələblərinin mahiyyəti tərbiyə olunanlara aydın olmalıdır. Tələblər elə tonda verilməlidir ki, icraçıda onun yerinə yetirilməsinə heç bir şübhə qalmasın. Tələblərin icrasında fasilələrə, ləngimələrə yol verilməməlidir.

Mədəniyyət müəssislərində bu tələb xüsusi ustalıq və həssaslıqla həyata keçirilməlidir. Çünki, bəzən tərbiyəçi ilə tərbiyə olunan həmyaş, həmkar olurlar. Tərbiyə tələblərinin verilməsi və onun icrası müəyyən mənada tərbiyə olunanın şəxsiyyətinə hörmətlə birləşməlidir. Bu müəssisələrdə tərbiyə olunanın

şəxsiyyətinə ifrat hörmət bəzən onda mənəm-mənəmlik, özündən razılıq və başqalarına qarşı etinasızlıq yaradır. Bu situasiyanın aradan qaldırılması tərbiyəçidən ustalıq tələb edir. Tərbiyəçi incə pedaqoji takt seçərək, onu təhqir etmədən səhvini başa salmalıdır. Ümumiyyətlə tərbiyə ilə məşğul olan bütün müəssisələrdə verilən tələblər məkana, şəraitə tərbiyə auditoriyasına uyğun şəkildə verilməlidir.

Kollektivdə və kollektiv vasitəsilə tərbiyə prinsipi.

Hər adam cəmiyyətdə müxtəlif xarakterli insanlar əhatəsində yaşayır, fəaliyyət göstərir. Onun fəaliyyəti müəyyən kollektiv daxilində mövcud olur. Ona görə də hələ kiçik yaşlarından insanlarda kollektivçilik ruhu, kollektiv üzvləri ilə normal ünsiyyət adətləri formalaşdırmaq cəmiyyətin vacib tələblərindən biridir. Ümumiyyətlə yaşından asılı olmayaraq kollektivdə kanardan insan yoxdur, ona görə də kollektivin özündən tərbiyə vasitəsi kimi istifadə edilir. Kollektiv tərbiyə zamanı tərbiyə olunana parallel təsir göstərilir. Uşaq, yeniyetmə, gənclərə tərbiyəçi həm bir başa həm də kollektiv vasitəsilə təsir edir. Deməli şəxsə, insana həm tərbiyəçi, həm də eyni zamanda kollektiv təsir edir. Kollektivdə hər bir tərbiyə olunan özünün mövqeyini müəyyən edir, özünü təsdiq edir. Kollektiv məqsədlərinin həyata keçirilməsi prosesində tərbiyə olunanların müsbət və mənfi keyfiyyətləri üzə çıxarılır, nöqsanların aradan qaldırılması yolları müəyyən edilir, kollektiv təsir vasitələrə onların ictimai fəallığı artırılır. Kollektiv tərəfindən tələblər elə verilməlidir ki, bu ictimai mənafe ilə şəxsi mənafeyi birləşdirsin. Yəni tərbiyə olunan kollektivin verdiyi tərbiyə tələblərini öz şəxsi tələbi kimi qəbul etsin. Bu zaman kollektivlə birgə fəaliyyət vəziyyəti yaranır. Bu vəziyyətdə kollektiv üzvləri eyni işi icra etmə tələblərinə tabe olurlar ki, bu da onlar arasında məsuliyyət, qarşılıqlı yardım, kömək, intizamlılıq kimi münasibətlər yaradır və möhkəmləndirir. Digər tərəfdən kollektiv tərəfindən təqdir olunan əxlaqi hərəkətlər digərlərinə də nümunə olur, digər kollektiv üzvləri də təriflənmək üçün kollektivin başqa ihlərini, tələblərini nümunəvi şəkildə yerinə yetirməyə çalışırlar.

Ümumiyyətlə kollektiv şəxsiyyətlə cəmiyyət arasında körpü rolunu oynayır. Cəmiyyət öz tələblərini kollektivə, kollektiv isə öz üzvlərinə verir və bu tələblərin yerinə yetirilməsinə nəzarət edir. Əksinə ayrı-ayrı insanların kollektiv üzvlərinin tələbləri əvvəl kollektivə sonra isə kollektiv vasitəsilə cəmiyyətə ötürülür. Hər hansı bir əxlaqi problem əvvəl kollektiv daxilində təcrübəbədən çıxır, sonra isə cəmiyyətin digər kollektivlərinə verilir. Bu həmçinin insanların sosial tələblərinə də aiddir. Belə ki, insanların tək-tək sosial problemləri, tələbləri ayrı-ayrı kollektivlər vasitəsilə cəmiyyətə ötürülür. Müxtəlif kollektivlər tərəfindən irəli sürülmüş bu problemlər, tələblər işə təhlil-tərkib edilir, ümumiləşdirilir və cəmiyyətin probleminə çevrilir. Kollektiv daxilində hərbir tərbiyə olunan kollektiv tələblərini icra edə-edə mütəşəkkiliyə, intizamlılığa, icraçılığa, yaradıcılığa, fəallığa və s. bu kimi müsbət əxlaqi keyfiyyətlərə yiyələnirlər. Məhz kolektiv vasitəsilə insanlar ictimai təcrübəyə qoşulur, öz fəaliyyətini cəmiyyətin fəaliyyəti ilə əlaqələndirir, özünü cəmiyyət üçün yararlı şəxs hesab edir. Tələblərdə vahidlik prinsipi.

Tərbiyə prosesində zəruri əxlaqi keyfiyyətlərin və adətlərin formalaşmasında bu prinsip əhəmiyyətli yer tutur. Bu prinsip tərbiyənin ilk mərhələlərində daha böyük əhəmiyyət kəsb edir. Beləki, uşaqlara həm müəllim, həm valideyn, həm dostları, ümumiyyətlə onun tərbiyəsi ilə məşğul olan bütün insanlaa eyni tərbiyəvi tələblər verməlidir. Verilən tərbiyə tələblərindəki ziddiyyət uşaqlarda zəruri əxlaqi keyfiyyətlər və adətlər formalaşdırılmasında ziddiyyət və çaşğınlıq yaradır, bu isə tərbiyə işinə mənfi təsir göstərir.

Tərbiyə olunanlara vahid tələb verilməklə yanaşı onun icrasına da eyni səviyyədə tələbkarlıqla nəzarət edilməlidir. Tələblərdə vahidlik, xüsusən təlim və tərbiyə müəssisələrində, gözlənilməlidir.

Belə ki, məktəb direktorundan başlamış xadiməyə qədər hamı şagirdlərə eyni tələblə yanaşmalıdır. Bu həmçinin ali təhsil müəssisələrinə də aiddir.

Müstəqil iş üçün sual və tapşırıqlar:

1. Prinsiplərin mahiyyəti.
2. Mədəniyyət və incəsənət müəssisələrində rəhbər tutulan prinsiplər.
3. Prinsiplərə verilən tələblər.

## TƏRBİYYƏNİN ÜSULLARI

Mütərəqqi fikirli pedaqoqlara görə insan mürəkkəb məxluq olub, onun tərbiyəsi müxtəlif psixoloji amillərin qarşılıqlı təsiri nəticəsində yaranır və formalaşır. Tərbiyəvi anlayışlar iradə, adət və hiislər əxlaqın təşəkkülündə eyni dərəcədə əhəmiyyətli yer tutur. İnsanın müəyyən tərbiyə tələblərinə uyğun surətdə hərəkət etməsi üçün onun həmin tələblər haqqında düzgün təsəvvürü və anlajışları olmalıdır.

Çox zaman insanların düzgün olmajan hərəkət və davranışlarına səbəb onların tərbiyə norma və qaydaları haqqında düzgün məlumata malik olmamasıdır. Əxlaq normaları və davranış qaydaları aid səhv və dolaşıq fikirlər düzgün olmayan hərəkətin baş verməsinə səbəb olur. Hələ kiçik yaşlarında uşaqdan düzgün davranış tələb etməzdən əvvəl, düzgün və səhv hərəkətin nədən ibarət olduğunu başa salmaq lazımdır.

Əxlaq normaları haqqında biliklər, xüsusən, həjat təcrübəsi az olan uşaq və yeniyetmələr üçün zəruridir. Həmin biliklərə yiyələndikcə tədricən uşaqda inam yaranır o, inanır ki, həqiqətən bu cür hərəkət etmək düzgündür və lazımdır. Nəticədə necə hərəkət etmək haqqında onda müəyyən anlayışlar yaranır bu anlayışlara uyğun hərəkət etməyə inam formalaşır. Bu isə insanlarda formalaşacaq əşidənin, inamın başlanğıcı olur. Formalaşmış əqidə isə hərəkətlərə rəhbərlik edir, ona istiqamət verir. Tərbiyəçinin rolu nə qədər əhəmiyyətli yer tutsa da əqidənin təşəkkülü anlayışlardan başlanır.

Əqidənin gücü ondadır ki, insanda müəyyən əxlaqi tələb haqqında inam yaranmışsa, artıq ona həmin tələbə uyğun hərəkət etməyi xatırlatmaq və ya ona nəzarət etmək tələb olunmur. Uşaq, yeniyetmə və böyük həmin əxlaqi tələbə əməl etməyi özünə borc bilir və heç bir nəzarət, təşəkkür gözləmədən onu icra edir. Məsələn, tramvayda və başqa minik vasitələrində yer vermək, tələb olunan yerdə başqalarına kömək etmək, zibili zibil yeşiyinə atmaq, küçədə ağacları sındırmamaq, yaşıllığı tapdalamamaq, ictimai yerlərdə bərkdən danışmamaq, rəftarlarında nəzakətli olmaq və s. Görgəmli tarixi şəxslərin fəaliyyətində onların möhkəm, yenilməz əqidələrinin əsas hərəkətverici qüvvə olduğuna aid çoxlu misal kətirmək olar. Əqidə yuxarı yaşlarda təşəkkül tapsa da onun əsası kiçik yaşlarından başlanır. Yuxarıda yazılanlar tərbiyənin bir cəhətvdir, əvvələn hər bir tərbiyə anlayışı əqidə şəklinə düşmür, xüsusən uşaq və yeniyetməlik dövrüvdə dərk etdirilən hər bir əxlaqi anlayışın tezliklə tərbiyə olunanın hərəkətlərinə rəhbərlik edən əqidəyə çevriləcəyini yəqin etmək olmaz. İkincisi bir çox hallarda insan iradəsinin zəifliyi üzündən yaxşı niyyətini icra edə, yerinə yetirə bilmir; yaxşı arzular arzu olaraq qalır. Beləliklə əxlaqi biliklə əxlaqi davranış arasında ayrılıq əmələ kəlir. Belə nöqsan həm uşaqlarda, həm də yaşlı adamlarda olur.

Uşağın tərbiyəsinin formalaşması, anlayışların rəftar və adətlərə çevrilməsi üçün möhkəm iradəyə malik olması mühüm şərtlərdən biridir. Davranış qaydaları, normaları naqqında biliklə yanaşı tərbiyəçi bu biliklərin, anlayışların onların hərəkət və adətlərinə keçməsinə, çevrilməsinə nail olmalıdır. Bu işdə isə iradə əhəmijjətli yer tutur. Deməli tərbiyələndirmədə düzgün anlayışla möhkəm iradə ejni dərəcəli əhəmijjət kəsb edir.

Tərbiyənin formalaşmasında iradi gərginliklə ifadə olunan şüurlu hərəkətlərlə yanaşı, adətlər də böyük yer tutur. Bir çox mədəni davranışlar - qadına, uşağa qocaya, əlilə hörmət etmək, biri-birilə salamlamaq, mədəni ifadələr işlətmək, rejimlə yaşamaq, qoyulmuş qaydalara əməl etmək, işləyəndən sonra iş yerini səliqəyə salmaq, səliqəli və təmiz qeyinmək, məişətdə təmizkarlıq və s. məhz adətlər əsasında ifadə olunur. Ümumiyyətlə insanların həyat və fəaliyyətində adətlər çox böyük əhəmiyyətə malikdir. Adətlər insanın diqqət və iradəsini gərginlikdən müəyyən dərəcədə azad edir, hərəkətlər avtomatiq icra olunur.

Adətlər insanın diqqət və iradəsini gərginlikdən müəyyən dərəcədə azad edir. Çünki adət olunan hərəkətin ifası hər insanda gərginlik tələb etmir. O, avtomatik icra olunur. Adət edilmiş hərəkəti icra etməmək özü çətin olur (məsələn yeməkdən əvvəl əlin yuyulması və s.), insanda narahatlıq yaradır.

Müasir pedaqogikada tərbiyənin aşağıdakı üsulları mövcuddur:

1. İnandırma.
2. Alışdırma.
3. Rəğbətləndirmə və cəzalandırma.
4. Müəllimin - tərbiyəçinin şəxsi nümunəsi.

### 1. İnandırma üsulu

İnandırma üsulu, düzgün tərbiyə tələblərinin nədən ibarət olmasını izah etmək və onların icrasının zərurliyinə tərbiyə olunanları inandırmaq, bu haqda onda əqidə yaratmaq üçün istifadə edilən yol və vasitələrə deyilir. İnsanın möhkəm əqidəyə müxtəlif şəraitdə yiyələnirlər. Məktəbdə bu iş təlim, həmçinin sinifdən və məktəbdənkənar tədbirlər prosesində aparılır. Təlim prosesində bu iş müxtəlif fənlərin tədrisi zamanı həyata keçirilir. Məktəbdənkanar tədbirlər prosesində isə inandırma əxlaqi söhbətlər fərdi söhbətlər fərdi söhbətlər, tərbiyə məsələlərinə dair məruzə və mühazirələr, disputlar və bədii əsərlərin müzakirəsi vasitəsilə keçirilir. Mədəniyyət və incəsənət müəssisələrində isə əxlaq normalarının doğruluğuna, onun

həyatın tələblərindən irəli gəlməsinə inam təlim tipli məşğələlərdə, müxtəlif xarakterli dərnəklərdə, yaradıcılıq birliklərində yaradılır, tərbiyə olunur. Təlim tipli məşğələlər və dərnəklərdə materialların məzmunu tərbiyə tələblərinə, cəmiyyətin tərbiyə ideyalarına uyğun şəkildə tərtib edilir. Məzmun özü mövcud tərbiyə tələblərinə, əxlaq normalarına uyğun hərəkət etməyin vacibliyini tətbiq edir. İnandırma üsulunun əxlaqi söhbətlər formasından tərbiyə ilə məşğul olan bütün adamlar, tərbiyəçilər müəllimlər, gənclər təşkilatı, işçiləri və başqaları geniş istifadə edirlər.

Əxlaqi söhbətlərin mahiyyəti ondan ibarətdir ki, pedaqoq müəyyən əxlaqi məsələni canlı söhbət şəklində şərh edir, müəyyən ardıcılıqla tərbiyə edilənlər qarşısında əxlaq məsələlərinə dair müvafiq suallar qoyur, onların bu məsələ haqqındakı fikirlərini aşkara çıxarır, dürüstləşdirir və dəqiqləşdirir, həmin məsələnin mahiyyəti haqqında düzgün anlayış yaradlır. Müəllim təlim prosesində təlim materialları ilə əlaqədar olaraq müəyyən əxlaqi söhbətlər aparır, amma söhbətlər dərsin bir hissəsi kimi çıxış edir. Əxlaqi söhbətlər həm də dərsdən kənar vaxt aparılardı. Əxlaqi söhbətlər siniflə, bir qrup şagirdlə və bir qrup adamlarla aparıla bilər. Mövzu əxlaq normaları və qaydalarından şagirdlər üçn qaydalardan və müxtəlif tərbiyə problemlərindən götürülə bilər. Hər sinifin və ayrı-ayrı adamlar qrupunun öz yaşına uyğun əxlaqi söhbət keçirilir. Hər bir tərbiyəçi sinif rəhbəri, sinif müəllimi və tərbiyəilə məşğul olan digər şəxslər söhbətləri əvvəlcədən planlaşdırılmalıdır. Əxlaqi söhbətləri aşağı siniflərdə sinif müəllimi, yuxarı siniflərdə isə sinif rəhbəri, məktəbdənkanar tərbiyə müəssisələrində isə tərbiyəçi və təlimatçılar aparmalıdırlar.

Nümunə əxlaqi söhbətlərdə əhəmiyyətli yer tutur. Söhbət aparılan qrupun və ya kollektivin həyatından gətirilən müsbət və mənfi faktların təhlili də əxlaqi söhbətin daha canlı təsir bağışlayır. Mənfi faktları təhlil edərkən qrupun və ya kollektivin şüurlu surətdə pisliyin mahiyyətinin dərk etməsinə, həmin pis hərəkəti tənqid etməsinə nail olmaq lazımdır.

Əxlaqi söhbətlər tərbiyəçi və ya müəllimin giriş sözləri ilə başlanır, o söhbətin mövzusu və məqsədini şərh edir, sonra mövzu ətrafında tərbiyə olunanların məlumatlarını üzə çıxarır, alınan cavabları təhlil edərək müəyyən nəticəyə gəlir.

Tərbiyə olunanları söhbət vaxtı fəallaşdırılması, onların şəxsi münasibətlərinin üzə çıxarılması tərbiyə işinin səmərəliyini dana da artırır. Əxlaqi söhbətlər həmçinin mədəniyyət müəssisələrində də aparılır. Bu zaman əxlaqi söhbətlərin mövzusunu insanların iş fəaliyyəti, yerinə yetirəcəkləri rəsmi - iş münasibətləri, fəaliyyətin tələb etdiyi yoldaşlıq, dostluq, qarşılıqlı yardım münasibətləri təşkil edir. Bu həm ayrıca tədbir şəklində və yaxud da böyük tədbirin bir hissəsi kimi aparıla bilər.

Tərbiyə işində əxlaqi söhbətlərlə bərabər fərdi əöhbətlər də əhəmiyyətli yer tutur. Bu tək-tək şəxslərlə aparılan əxlaqi söhbətlərdi.

Fərdi söhbətlər, adətən tərbiyə olunan tərəfindən müəyyən əxlaq norması pözulduqda, onun hərəkətlərində xoşa gəlməz hallar müşahidə edildikdə aparılır. Burada məqsəd tərbiyə olunanı pis hərəkəti ətrafında düşündürməkdən və əxlaqi nöqsanın baş vermə səbəbini, şəraitini üzə çıxarar, onları aradan qaldırmaqdan ibarətdir.

Fərdi söhbət danlağa çevrilməməlidir. Danlaq cəza tədbiridir, fərdi söhbət tərbiyə olunana pis hərəkətlərini başa salmaq üsuludur. Fərdi söhbət aşağıdakı şəkildə aparılmalıdır.

Fərdi söhbət can sıxıcı, uzun - uzadı aparılmamalıdr.

Fərdi söhbət tərbiyəçi və müəllimdən ustalıq tələb edir.

Bir çox halda pis hərəkətin tərbiyə olunanın özünün izah etməsi tələbindən başlanması müsbət nəticə verir. Bu tərbiyə olunanın fərdi-psixoloji xüsusiyyətlərindən asılıdır.

Məruzə və mühazirələr əxlaqi söhbətdən fərqli olaraq daha keniş şəkildə və sistemli şərh yolu ilə keçirilir. Bu ən çox yuxarı sinif şagirdləri və geniş zəhmətkeş kütlələrlə aparılır.

Əxlaqi mövzuda məruzə və mühazirələrdən həm məktəblərdə həm də mədəniyyət və məktəbdənkənar tərbiyə müəssisələrində keniş istifadə olunur.

Məruzə və mühazirələrin mövzusunun materialları böyük şəxsiyyətlərin həyat və fəaliyyətindən, cəmiyyət adamlarının gündəlik həyatından, ədəbiyyatından alınır, dövrün aktual tərbiyə problemlərinə həsr edilir. Mədəniyyət müəssisələrivdə məruzə və münarizələr əxlaq, vətənpərvərlik və s. ideya-sijasi tərbiyəyə xidmət edir. Bu müəsisələrdə aparılan məruzələr ayrı-ayrı siyasi partiyaların mübarizəsi, dövlətin və xalqın həyatında tutduğu mövqeyə vətən uğrunda gedən mübarizələrə həsr edilir.

Məruzələri bir çox hallarda tərbiyə olunanların özünə də tapşırmaq olar. Bu zaman müəllim və tərbiyəçi ona rəhbərlik etməlidir.

Məruzə və münarizədən sonra aydın olmayan məsələlər barədə suallar verilməsinə imkan yaratmaq lazımdır. Bəzən tərbiyəçinin izahatına, ümumləşdirici çıxışına ehtiyac da yarana bilər.

Disputlar müəyyən əxlaqi məsələlər naqqında adamlar arasında rəy mübadiləsi keçirməkdir. Belə mübahisələr şəklində aparılan disputlar tərbiyə olunanların əxlaqi görüş və davranışarına daha qüvvətli təsir

köstərir. Disputlar yanlış və düzgün əxlaqi anlayıpşarı müqayisə edərək araşdırmağa imkan verir. Bu zaman hər kəsə öz nöqteyi nəzərəni müdafiə etmək imkanı verilır.

Disputlarda əsasən yuxarı sinif şagirdləri, yəni yeniyetmə və kənclərlə aparılır. həmçinin disputları kənclər və yaşlı nəsillə də aparıla bilər. Əvvəlcə mövzu seçilir. "Xoşbəxtlik nədir", "həqiqi və yalnış dostluq", "Qızlar və oğlanlar arasında dostluq", "Qəhrəmanlıq nədir və dinc quruculuq illərində bu necə ifadə olunur", "Əsl insan olmaq üçün nə etmək lazımdır?" və s. mövzularda disputlar keçirmək olar. Disputların mövzusu əsasən, problem və aktual məsələlərə həsr edilir.

Disputu həm ümumi məktəb üzrə həm də sinif daxilində, məktəbdən kənar tərbiyə müəssisələrində aparmaq olar. Disputlar həmçinin mədəniyyət müəssisələrində ən çox istifadə edilən tərbiyə vasitəsidir. O, xüsusi hazırlıq tələb edir. Belə ki, bir neçə gün əvvəlcədən mövzu elan edilir, keçirilmə vaxtı haqqında məlumat verilir. Keçirildiyi zaman aparıcı əvvəlcə mövzu haqqında məlumat verir, sonra isə iştirakçılara söz verilir. Disput prosesində hərə öz mövqeyini müdafiə edir, bəzən fikirlər kəskinləşir, zidiyyətli mövqelər yaranır. Belə zidiyyətli şəraitdən qorxmaq lazım deyil, məhz həmin zidiyyət prosesində həqiqət meydana çıxır. Disputun keçirilməsi zamanı aktual suallar qoyulmalı, əxlaqi kefiyyətin yeni-yeni cəhətləri meydana çıxarılmalıdır. Disputu təşkil edən tərbiyəçi hər tərəfli hazırlığa, geniş və elmi dünyagörüşə, müşahidəçilik qabiliyyətinə, məntiqi mühakimə qabiliyyətinə malik olmalıdır. Əks halda keçirilən disputun səmərəli nəticəsi olmaz. Təşkilatçı, aparıcı ziddiyətli vəziyyətdə obyektiv nəticə çıxarmağı, hadisələrə düzgün istiqamət verməyi bacarmalıdır.

Bədii əsər müzakirəsi. İnandırma üsulunun mühüm vasitələrindən biri də bədii əsər müzakirəsidir. Bədii əsər müzakirəsi zamanı əsərdəki müsbət və ya mənfi qəhrəmanlardan müsbət və mənfi əxlaq nümunələri kimi istifadə edilir, dövrün ictimai siyasi hadisələri, adamlar arasında ictimai münasibətlər təhlil edilir. Bədii kitab müzakirəsinin əsas müsbət cəhəti ondan ibarətdir ki, burada müzakirə olunan əxlaq normaları mücərrəd şəkildə deyil, ədəbi surətlərin nümunəsində ifadə olunur.

Kitab müzakirəsi disputlardan fərqlənir. Disput əxlaqi mövzular üzrə keçirilir, bədii əsərin müzakirəsində isə bir ədəbi qəhrəmanın hərəkətləri təhlil olunur.

Kitab müzakirəsinin keçirilmə qaydası da təxminən disput kimidir.

**2. Alışdırma üsulu**

Əxlaqi hərəkəti dəfələrlə təkrar etdirməyə alışdırma üsulu deyilir.

Alışdırma üsulu adətlər, intizam tərbiyyəsi və iradənin inkişafında xüsusi əhəmiyyətə malikdir.

Bu üsul həmçinin intizam tərbiyəsində tətbiq edilir; Çünki adət halına düşmüş hərəkətlər intizamlı olmaqda böyük rol oynayır. Başqa tərbiyəvi kefiyətlər tərbiyəsində də alışdırma üsulu əhəmiyyətli rol oynayır və geniş tətbiq olunur. Məsələn, vətənpərvərlik tərbiyəsində alışdırma üsulu uşağı müntəzəm olaraq vətənin xeyrinə çalışdırmaq kimi ifadə olunur.

Mərdlik tərbiyəsində bu üsul dönə-dönə uşağın mərdlik köstərmək şəraitinə salmaqla həyata keçirilir. Belə əxlaqi hərəkətlərin təkrarı sayəsində tərbiyə olunanda əxlaqi adətlər əmələ gəlir və bu hərəkətlər onda gündəlik təlabat şəklinə düşür.

Alışdırma üsulu tərbiyə olunanın düzgün olmajan hərəkətini dayandırmağı və bu hərəkətin əksi olan düzgün əxlaqi hərəkəti əməli olaraq ona təkrar etdirməyi tələb edir.

Alışdırma üsulunun aşağıdakı vasitələri vardır:

1. Rejim
2. Əmək prosesi.
3. Oyun və idman

Rejim. İnsanın davranışını və həyat tərzini nizama salan, məcburi qaydalar sistemidir. Məsələn, məktəbdə -şagirdin sinifdə, koridorda, paltar asılan yerdə, həyətdə və s. yerlərdə; teatrda foyedə, salonda, paltar asılan yerdə, özünü aparmaq naqqında xüsusi rejimlər vardır. Kitaxanada kitab alıb qaytarmanın, oxu zalında işləmənin özünə məxsus rejimi olur. Ailələrin də öz rejimləri mövcuddur.

Səmərəli davranışı adət şəklinə salmaq üçün rejim çox əlverişli vasitədir. Çünki rejim uzun müddət üçün müəyyən edilir və tələb olunan qaydaların hər gün, hər dəfə icra edilməsini nəzərdə tutur. Qaydaların belə sabitliyi isə insanda adətlərin yaranmasına səbəb olur. Orta məktəblərdə bu qaydaların bir çoxu şagirdlər üçün "Qaydalar"da öz əksini tapmışdır. Bu qaydalar şagirdlərin təhsilə, əməyə, mətəb əmlakına münasibətini, müəllimlərlə, yaşlılarla, yoldaşları ilə rəftar etməsi qaydalarını, evdə velideyininə münasibətini müəyyən edir və s. Qaydalara olan tələblər ümumi şəkildə varildiyindən bu, nisbətən, şagirdləri əxlaqi hərəkətlərə alışdırmağa imkan vermir. Həmin qaydalar hər məktəbin, ayrı-ayrı təhsil müəsisələrinin şəraitinə uyğun olaraq xırdalanıb verilməlidir. Rejimin tərbiyələndirici tələbləri həmçinin bütün təhsil müəssisələrində həmin müəssisənin öz spesfikasına uyğun olaraq müəyyən edilməlidir. Rejim qaydaları rəsmiləşdirilməmişdən əvvəl həmin müəssisədəki təşkilat və birliklərdə müzakirə edilməli, kollektivin rəyi öyrənilməlidir. Belə halda rejim tələblərini hamı əvvəlcədən mənimsəyir, onun tələblərini

könüllü surətdə qəbul edir, bu isə gələcəkdə qəbul edilmiş qaydalara tabe olmaq məcburiyyəti yaradır. Rejim tərtibində aşağıdakıları nəzərə almaq vacibdir:

1) rejimin tələbləri məqsədəuyğun olmalı və onun zəruriliyinə hamı inanmalıdır;
2) rejim tez-tez dəyişməməli, müəyyən dövr üçün sabit olmalıdır.

Bu mərhələdən sonra əsas məsələ qəbul edilmiş rejimin tələblərinin hamı tərəfindən icra edilməsinə nail olmaqdır. Rejim qaydalarının icrasına aşağıdakı tələbkarlıqla yanaşılmalıdır:

- qaydalar icraçıların gücünə müvafiq olmalıdır;
- qaydaların icrasında axıra qədər tələbkar və ardıcıllıq gözlənilməlidir;
- heç bir qayda pozuntusu (ən xırda pozuntu belə) nəzərdən yayınmamalıdır;
- qaydaların yerinə yetirilməsində vahid tələbkarlıq olmalıdır və s.

Rejimin icrasına nəzarətə kollektiv üzvlərinin cəlb edilməsi də səmərəli nəticə verir.

Əmək insanların sosial baxımdan saflaşdırılmasında əhəmiyyətli yer tutur. Qədim xalqların ədəbiyyatında, demokratik fikirli mütəfəkkir, filosof, şair və yazıçıların əsərlərində əməyə insanı saflaşdırma vasitəsi kimi baxılmışdır.

Dahi N.Gəncəvi ağır zəhmətlə məşğul olan qocanın dili ilə: "Onun üçün öyrətdim, əlimi bu sənətə,

Bir gün sənə əl açıb, düşməyim xəcalətə" deməklə əməyin insana şəxsi sərbəstlik verdiyini və müsbət əxlaqlı etdiyini göstərir.

Görkəmli fransız pedaqoqu J.J.Russo və İsveçrə pedaqoqu Pestalotsi uşaq və yeniyetmələrin əmək əsasında tərbiyə olmasını tərbiyədə əsas vasitə kimi müdafiə etmişlər.

Russo əməyi hər bir insanın həyatının labüd əsas şərti hesab edərək köstərirdi ki, uşaq əməkdə iştirak etməklə nəinki faydalı əmək vərdişləri kəsb edir, həm də onda əmək adamlarına hörmət hissi aşılanır, o, müstəqil yaşamağa alışır, əxlaqca pozucu təsir köstərən tənbəllikdən azad olur. XIX əsrin rus inqilabçı demokratları N.D.Dobrolyubov və N.Q.Çernışevski uşaqların ahəngdar inkişaf etməsi üçün onlara əmək tərbiyəsi verilməsini zəruri hesab edirdilər.

Dahi rus yazıçısı L.N.Tolstoy əməyin əxlaqa təsirindən bəhs edərək yazır: " İnsanı əxlaqsızlıqdan əmək qədər heç bir şey qorumur. İnsan əməksiz öz insani ləyaqətini mühafizə edə bilməz. Jaxşı tərbiyənin birinci şərti odur ki, uşaq bütün istafadə etdiyi şeylərin köydən hazır düşmədiyini, başqa adamların əməyinin məhsulu olduğunu bilsin,

Böyük rus pedaqoqu K.D.Uşinski "Əməyin psixi və tərbiyəvi Əhəmiyyəti" adlı əsərivdə insanın mə'nəviyyatına əxlaqi cəhətdən təşəkkülünə əməyin dərin surətdə təsirini təhlil edərək, bunu tamamilə qanunauyğun bir pedaqoji hadisə hesab edirdi. O, yazırdı: "Şəxsi əməksiz insan irəliyə doğru hərəkət edə bilməz, bir yerdə dayana bilməz: o geri getməlidir" (Seçilmiş pedaqoji əsərləri, Azərnəşr, B.1959, s. 57). Deyilənlərdən belə mə'lum olur ki,ta qədim zamanlardan, müxtəlif ictimai quruluşlu formasiyalarda insan əməyininə onun əxlaqi keyfiyyətlərinin saflaşması işinə əhəmiyyətli yer vermişdilər.

Əmək öz-özlüyündə deyil, öz təşkili ilə tərbiyələndirici tə'sir bağışlayır. Əmək prosesində əsl tərbiyə edici cəhət uşaq, yeniyetmə, kənc və yaşlıların girişdiyi qarşılıqlı münasibətlər və əlaqələrdir. Ona görə də fərdi əməklə kollektiv əməyin şəxsiyyətə təsirində də böyük fərq vardır. Kollektiv əməkdə insanlar geridə qalmış yoldaşlarına kömək edir, səhlənkarlıq və tənbəllik edənləri isə yoldaşcasına tənbeh və tənqid edir. Bu isə onlar arasında qarşılıqlı olur, düzgün münasibət yaranmasına səbəb olur. Əməyin kollektiv təşkilinin bir əhəmiyyəti də insanların kollektivçilik ruhunda tərbiyələndirilməsi üçün şərait yaratmasıdır. Bu zaman həm də onlarda təşkilatçılıq qabiliyyətləri də inkişaf etdirilir.

Kollektiv əmək sosial münasibətlərin formalaşmasında da böyük **ƏHƏMIYYƏT** kəsb edir.

Əməkdə iştirak edən şəxsdə əmək məhsuluna qayğılı münasibət də tərbiyə olunur.

Əmək prosesində iştirak etməklə insan həm də çətinliklərlə mübarizəyə alışırılar.

<u>Oyun və idman.</u> Fiziki tərbiyə vasitəsi olub, uşaq və yeniyetmələrin bütün fəaliyyətinə təsir köstərir, onları faydalı əxlaqi hərəkətlərə alışdırır. Oyunun uşağı psixoloji cəhətdən həyata, əməyə hazırlaması haqqında hələ Q. Plexanov, A.M.Qorki, E.F.lesqaft və başqaları qiymətli fikirlər irəli sürmüşlər. A.S.Makarenko yaxşı oyunla əmək arasında oxşar cəhətləri xüsusən qeyd edərək, bu oxşarlığın hər ikisini uşaqda məqsədə çatmaq üçün əməli səy və düşüncə oyatmasında, qabiliyyət və yaradıcılıq sevinci doğurmasında və nəhayət, uşaqda məsuliyyət yaratmasında görürdü. "Gələcək xadimin tərbiyəsi, hər şeydən əvvəl, oyun prosesivdə yaranır" - deyən Makarenko qeyd edirdi ki, oyunu elə təşkil etmək lazımdır ki, o oyun kimi qalsın, amma onda gələcək işçinin, vətəndaşın kefiyyətləri tərbiyə olunsun.

İradənin inkişafı və möhkəmləndirməsində oyun və idman xüsusi əhəmiyyətə malikdir. Oyunda iştirak edən tərəflər qələbə uğrunda mübarizə aparırlar ki, bu da onlarda məqsəd ardıcıllığının təmin edilməsi deməkdir. İdman və oyunda mövcud olan möhkəm qaydalar insanlarda intizam tərbiyə edir. Kollektiv şəkilində aparılan oyunlar kollektiv üzvləri arasında müxtəlif əlaqə və münasibətlər yaradır, bu isə onlarda

kollektivçilik tərbiyəsinə təkan verir. Nəhayət oyun və idman uşaqlarda təşkilatçılıq bacarıqlarını inkişaf etdirir.

**3. Cəzalandırma və rəğbətləvdirmə**

Rəğbətləndirmə tərbijə olunanın hərəkətlərinə müsbət cəzalandırma isə mənfi qiymət vermək deməkdir. Tərbiyə olunanın hərəkətlərinə müsbət qiymət vermək təqdir edilən hərəkətləri möhkəmləndirir, mənfi qiymət isə qeyri məğbul hesab edilən hərəkətləri aradan qaldırmağa təhrik edir.

Tərbiyə olunan yaxşı hərəkəti üçün tərifləndikdə bundan həzz alır, həmin hissi bir daha yaşamaq üçün o yeni-yeni yaxşı hərəkətlər etməyə çalışır. Pis hərəkət nəticəsində cəza alan şəxs kədərlənir, iztirab çəkir. İztirab hissi ilə pis hərəkət arasında assosisativ əlaqə yaranır. Bir dava həmin hissi yaşamamaq üçün mənfi hərəkətdən daşınmağa çalışır. Bu cəzalandırma və rəğbətləndirmənin əxlaqa təsirinin mexanizmidir.

Digər tərəfdən hər bir şəxs öz hərəkət və davranışını kollektiv tərəfindən necə qiymətləndirilməsinə də diqqətli münasibət bəsləyir. Az yaşlı uşaqların bu qiymətləndirməyə ehtiyacı daha çoxdur (çünki həjat təcrübələri azdır).

Yeniyetməlik dövründə məlum olduğu kimi, müstəqilliyə daha çox can atılır. Onlar zahirən özlərini müstəqil, heç kəsin qiymətinə əhəmiyyət vermədiklərini köstərsələr də əhatə edənlərin onların hərəkətlərinə verdiklərini qiymətlərə kəskin reaksiya verirlər, daxilən həyacan keçirirlər. Onlar tərifə daha çox can atır, cəzadan çəkinir və qaçırlar. İnsanın hərəkətinə verilən qiymət onu öz hərəkəti üzərində düşünməyə məcbur edir ki, nəticədə hər adam əxlaqi kefiyətlər haqqında düşünür, onun mahiyyətini dərk etməyə çalışır. Bu isə onlarda şüuru inkişaf etdirir.

Rəğbətləndirmə və cəza tək-tək adamlarla yanaşı büqün kollektivə də təsir edir. Rəğbətləndirmə və cəza tərbiyə üsulu kimi təkcə təhsil müəssisələrində deyil bütün müəssisələrdə və ailədə də tətbiq edilir. Fiziki cəza bütün sahə və müəssisələrdə qanunla qadağan edilmişdir. Hər müəssisənin spesifikasına uyğun rəğbətləndirmə və cəza tədbirləri mövcuddur. Bu tədbirlər rəsmi şəkildə uyğun baş idarələr və nazirliklər tərəfindən müəyyən edilir.

Azərbaycan təhsil müəssisələri üçün TƏHSİL nazirliyi tərəfindən aşağıdakı rəğbətləndirmə növləri müəyyən edilmişdir:

1 – Təriflәmә - bu ən yüngül rəğbətləndirmə növü olub, bütün məktəb işçiləri tərəfindən tətbiq edilir. Həmçinin bütün müəssisələrdə.

2 - Təşəkkür - daha yüksək rəğbətləndirmə növü olub yazılı və şifavi şəkildə sinif rəhbəri və məktəb direktoru tərəfindən kollektiv qarşısında elan edilir.

3 - Mükafatlandırma - təşəkkürü şeylə ifadə etməkdir. Bunu müəllim, sinif rəhbəri, məktəb rəhbərləri edə bilərlər. Bu zaman şagirdlər dərs ləvazimatı, bədii kitab, kino və ya teatra bilet, ekskursiyaya vəsiqə və s. mükafatlandırılırlar.

4 - Tərifnamə - dərs ilinin sonunda əla əxlaqa və təlim müvəffəqiyyətinə malik olan şakirdlərə pedaqoji şuranın qərarı ilə verilir. Bu da təntənəli şəraitdə həyata keçirilir.

Aşağıdakı cəza tədbirləri mövcuddur.

I - Danlaq - ən yünkül cəzadır. Şagird pis hərəkəti üçün ya təklikdə ya da yoldapşarı arasında tənqid edilir.

II - Ayaq üstə saxlamaq - şagirdin pis hərəkətini dərhal dayandırmaq məqsədi güdür.

III - Sinif qarşısında töhmət etmək danlağın rəsmi formasıdır. Şagirdin pis hərəkəti qısa şəkildə sinif qarşısında izah edilir və ona töhmət elan edilir.

IV - Dərsdən kənar etmək - şagirdi intizamsız hərəkətindən kənar etmək məqsədini güdür.

V - Dərsdən sonra saxlamaq - icra olunmamış tapşırığı, icra etmək məqsədi güdür. Buna təbii nəticə üsulu ilə cəzalandırma da deyilir.

VI - Şagirdi pedaqoji şuraja çağırmaq qüvvətli cəza tədbiridir.

VII - Əxlaq qiymətini aşağı salmaq şagird üçün şiddətli cəzadır.

VIII - Əmrlə töhmət - ancaq məktəb direktorunun əmrilə verilə bilər.

IX - Paralel snifə köçürmə - şagirdi pis təsir edən şəraitdən uzaqlaşdırma deməkdir.

X - Başqa məktəbə köçürmə - şagirddə yeni kollektivə daxil olma nəticəsində dönüş yaratmaqdır.

XI - Məktəbdən xaric etmək son cəza tədbiri kimi tətbiq edilir. Bu cəza xuliqanlıqla məşğul olan, müəllim heyətini təıir edən, müntəzəm surətdə heç bir sərəncamı yerinə yetirməyən, məktəb rejimini pozan, əmlakını dağıdan və oğurlayan şagirdə tətbiq edilir.

Bu rəğbətləndirmə və cəza tədbirləri orta ixtisas və ali məktəblərdə də tətbiq olunur. hər idarə, müəssisə, fabrik və digər sahələrini də müvafiq rəğbətləndirmə və cəzalandırma tədbirləri mövcuddur. Bu rəğbətləndirmə və cəzalandırma zamanı istehsalın spesifik xüsusiyyətləri də nəzərə alınır.

Nümunə – əyani tərbiyə üsulu olub tərbiyə olunanlara güclü təsir vasitəsidir. Tərbiyəçi və müəllimin verdiyi tərbiyə tələbənin daşıyıcısı olması zəruri pedaqoji tələbdir. Hər bir tərbiyəçi verdiyi tərbiyə tələbinə

birinci özü riayət etməlidir. Əgər tərbiyəçi bərkdən danışmağın ədəbiszlik olduğunu tərbiyə olunanlara izah edib, özü bərkdən, heç kəsə aman vermədən danışırsa onun verdiyi tərbiyə boş söz olaraq qalır. Əgər müəllim səliqəli və təmiz geyim tələb edib, özü zövqsüz və səliqəsiz geyinirsə onun tələbi yerinə yetirilməyəcək. Çünki uşaqlara, tərbiyə olunanlara onun dediyi sözdən əməl və hərəkətləri daha çox təsir edir.

Müstəqil iş üçün sual və tapşırıqlar:

1. Tərbiyə üsullarının elmi əsasları.
2. **2.** Tərbiyə üsullarının mədəniyyət, incəsənət müəssisələrində tətbiqi sahələri

## TƏRBİYƏ İLƏ ÖZÜNÜTƏRBİYƏ PROSESİNİN QARŞILIQLI ƏLAQƏSİ VƏ DİALEKTİKASI

Şəxsiyyətin formalaşması müxtəlif amillərin ziddyyətli təsiri əsasında baş verir. Bura həmçinin xarici və daxili təsisirlər, onlar arasında olan dialektik ziddiyyət və onların vəhdəti daxildir. İnsanların mənəviyyatı, əxlaqı, müxtəlif münasibətləri və digər keyfiyyətləri bu təsirlər əsasında baş verir və formalaşır. Xarici ziddiyyətlər dedikdə pedoqoji və ətraf aləmin tərbiyə olunma göstərdikləri müxtəlif təsirlər başa düşülür. Müxtəlif tərbiyə təsirləri xüsusən də pedaqoji təsirlər o zaman səmərəli nəticə verir ki, o tərbiyə olunanların daxili aləminə təsir etsin, onların mənəvi dünyasını hərəkətə gətirsin. Bu daxili hərəkətəgəlmə özünütərbiyə meyllərinin yaranmasına səbəb olur. Ziddiyyətlər zamanı insan özünə, hərəkət və davranışlarına nəzər salmağa, təhlil etməyə məcbur olur. Obyektiv təhlil etmə isə müsbət və mənfi keyfiyyətlərin müəyyən edilməisnə imkan yaradır, insan öz mövqeyini düzgün müəyyən edir, mənfi keyfiyyətlərini aradan qaldırmaq arzusuna düşür. Bu arzu tərbiyənin özünütərbiyəyə meyllər, səylər yaradır, tərbiyə hər bir tərbiyə olunanı lazımi qaydada hərəkət edib-etmədiyi üzərində düşünməyə məcbur etməlidir. Bu təhrik etmə, düşündürmə və nəzarət insanın özünü yenidən tərbiyəsinə istiqamət verir. Özünü dərk etmə, özünü görmə özüntərbiyənin ilk pilləsidir. Özünü dərk edən, mənfi keyfiyyətlərini görən və bu mənfi keyfiyyətlərin aradan qaldırılması işi hər kəsdən iradi səy, güc tələb edir. Yəni özünü yenidən tərbiyə etmək istədikdə insan lazım olan zəruri hərəkətləri ijra etməyə özünü məjbur edir. Çünki insanların malik olduqları hərəkət və davranışlar yeni qaydada hərəkət etməyə mane olur, fəaliyyəti məhdudlaşdırır. Bu isə onun arzusu ilə davranışında, marağı ilə fəaliyyətində ziddiyyət yaranmasına səbəb olur.

Özünütərbiyə sistemli təlim müəssisələrində düz istiqamətdə, yəni cəmiyyətin tələbləri istiqamətində aparılır. Belə ki, hər şagird və ya tələbə kənar tərbiyə təsirləri ilə yaranmış adət və münasibətlərin düzgün olmadığını, həm jəmiyyət, həm də özü üçün yararsız olduğunu dərk edir və bu adətlərin dəyişdirilməsi üçün şüurlu səy göstərir. Bu prosesə müəllim və tərbiyəçi rəhbərlik edir, ona istiqamət verir.

İstehsal prosesində isə artıq bu özünütərbiyə motivləri dəyişir. Bu dəyişmə isə müxtəlif istiqamətdə gedə bilər. Belə özünütərbiyə prosesində mühit əsas rol oynayır. Belə ki, fəaliyyətə başlayan şəxs malik olduğu bilikləri yeni fəaliyyət üsulları ilə tətbiq etməyə səy göstərir. Onun fəaliyyətinə isə müəssisədə müxtəlif münasibətlər yaranır. Bura həm rəsmi iş münasibətləri, həm də qeyri rəsim münasibətlər aiddir. Belə münasibələr həm obyektiv, həm də subyektiv xarakter daşıyır. Tətbiq edilən ideya, fəaliyyət üsulu müəssisənin mənafeyinə uyğun olmadıqda o qəbul edilmir. Ümumi işin xeyrinə olduqda isə qəbul edilir. Bu «qəbul edilməmə», obyektiv səbəb fərddə müxtəlif münasibət yaradır. Bu münasibət hər kəsə özünə və özünün malik olduqlarına yenidən nəzər salmağa məcbur edir. Fərd dərk edir ki, özündə yeni keyfiyyətlər formalaşdırmalıdır. Bu tələb obyektiv olub müəyyən mənada onun həyatını müəyyən edir. Yəni özüntərbiyə obyektiv, real həyati təlabata çevirilir. O, yenidən tərbiyə vasitələri araşdırır və özündə yeni keyfiyyəelər formalaşdırmağın zəruriliyini dərk edir. Bəzən isə ona qeyri-obyektiv, subyektiv səbəbələr mane olur. Bu vəziyyət də şəxsiyyətdə, onun rəftar və davranışında yeni keyfiyyətlər yaradılmasına səbəb olur.

Özünütərbiyə məktəb illərindən başlanır. Belə ki, aparılan bütün tərbiyə işi özünütərbiyə tələbləri yaratmalıdır. Hər şagird verilən əxlaqi tələbi özünün hərəkət və davranışlarında formalaşmağa çalışmalıdır. Bu formalaşdırma səyi, fəaliyyəti müəyyən mənada özüntərbiyədir.

Özünütərbiyə, göründüyü kimi, insanların daxili səyləri ilə bağlıdır. Bu daxili səylər isə xarici təsirlərin məzmunu ilə şərtlənir.

Daxili səy həm də insanların psixi in ilə bağlıdır. İnsan öz psixi inkişafına nəzarət etdikdən sonra özünütərbiyə başlayır. Ona görə də insanların şüurlu surətd özün tərbiyəsi yetkinlik, insanın özünüdrk etməsi dövründən başlanır. Özünüdərketmə dövründə tələbat özünütərbiyə motivinə çevrilir. Ancaq həyat, yaşamaq üçün zəruri olan tələbatlar özünütərbiyə motivinə çevrilə bilər. Bu tələblər insanların yaşadığı və fəaliyyət göstərdiyi maddi həyatdan doğan tələbatlardır. Məhz bu tələbatlar əsasında insanlar yeni keyfiyyətlər formalaşdırır. Artıq şəxsiyyət özü-özündə yeni əxlaqi keyfiyyətlər formalaşdırmağa səy göstərir. Bu isə özünütərbiyəni tərbiyədən fərqləndirən əsas və başlıca şərtdir.

Özünütərbiyə formalaşdırılacaq əxlaqi keyfiyyətin tələb etdiyi yeni keyfiyyətlərlə-şəxsin malik olduğu adət və rəftarlara, imkanlara uyğun gəldikdə daha asanlıqla baş verir.

Özünütərbiyə anlayışı geniş mənada özünütəhsil anlayışını da əhatə edir. Dar mənada isə özüntərbiyə jəmiyyətin və fəaliyyətin tələbi əsasında insanın özündə yeni mənəvi keyfiyyətlərin formalaşdırılması və ya hər hansı əxlaqi keyfiyyətlərin adət və rəftarından çıxarması prosesidir.

Özüntərbiyənin özünüdərketmə, özünüməcburetmə, özününəzarət,özünü ələalma kimi anlayışları mövcuddur.

## 2. Özüntərbiyəyə rəhbərlik

Özünütərbiyə rüşeymləri tərbiyənin ilk məhələlərindən başlanır. Yeni verilən tərbiyə tələbləri şüurlu surətdə mənimsənildikcə, uşağın özü tərəfindən transformasiya edildikcə, özünü dərketmə, özünü məcbur etmə meylləri də başlanır. Bu prosesə məhz müəllim rəhbərlik etməlidir. Müəllim tərbiyə tələbləri verdikcə uşaq şəxsiyyətinə, onun gücünə də müraciət etməlidir. Yəni tərbiyəçi və müəllim tərbiyə tələbləri ilə tərbiyə olunanın fəaliyyətinə elə istiqamət verməlidir ki, onlarda müstəqillik, təşəbbüskarlıq, yaradıcılıq fəallıq yaransın. Bu təsirlər həmçinin tərbiyə olunanda öz üzərində səylə işləmə arzusu və ona daxili tələbat da yaratmalıdır. Bu isə tərbiyəçinin tərbiyələndirmə fəaliyyətinin əsasını təşkil edir.

Mədəniyyət müəssisələrində isə bu iş daha böyük ustalıq, pedaqoji bajarıq və takt tələb edir. Belə ki, mədəniyyət müəssisələrində marağa görə təşkil edilən müxtəlif yaş qruplarında bu işin aparılma səviyyəisi də müxtəlif olur. Yaşlılardan ibarət qruplarda bu iş daha mükərəkkəb olur. Belə ki, dövrün aktual ictimai-siyasi problemləri insanların əxlaqına müxtəlif şəkildə təsir göstərir.

İnsanlarda düzgün münasibət formalaşdırmaq, problemli situasiyaları düzgün dərk etdirmək, rəhbərdən xüsusi biliklər, pedaqoji ustalıq tələb edir. Təşkilatçı, tərbiyəçi mövjud şəraiti obyektiv şəkildə təhlil etməli, şəxsi özünə nəzər salmağa, özü-özünün hərəkət və fəaliyyətini təhlil etməyə məcbur etməlidir. Şəxsiyyət özünü təhlil edərək öz nöqsanlarını dərk etməli və ya özünü doğru bildiyi, amma cəmiyyət və ətraf mühit tərəfindən qəbul edilməyən şərh, davranış və ya hərəkətlərini görməli, başa düşməlidir. Anjaq bundan sonra şəxsdə özünü tərbiyə etmə arzusu və meyli yarana bilər. Özünü tərbiyə bütün dövrlərdə mövjud olmuşdur. Xüsusən inqilablar və yenidənqurma dövrlərində buna böyük ehtiyaj yaranmışdır. Belə ki, köhnə ijtimai münasibətlər əsasında formalaşmış şəxs yeni cəmiyyətin tələblərinə çətin alışır, onda çaşqınlıq yaranır, yeni tələbləri qəbul edə bilmir. Mədəniyyət müəssisələrinin tərbiyəvi fəaliyfəti belə vəziyyətlə daha çox aktuallıq vəsv edir. Mədəniyyət müəssisələrində aparılan tədbirlər vasitəsilə yeni əxlaqi tələblər, ictimai münasibətlərin mahiyyəti təhlil edilməli, onun daxili mənzərəsi insanların qarşısında açılmalı və insanlara dərk etdirilməlidir. Yeni münasibətlərin qəbul edilərək insanların mənimsənilməsinə düzgün istiqamət verilməlidir. Hər bir yeni ictimai münasibətlər isə yeni əxlaqi keyfiyyətlər yaradır və cəmiyyət üzvlərindən bu keyfiyyəti mənimsəməyi, ona uyğun hərəkət etməyi tələb edir. Odur ki, özünütərbiyə də ictimai xarakter daşıyır, onun məzmunu cəmiyyətin dəyişməsilə bərabər gedir. İşgüzar, kamil və hərtərəfli şəxs isə mühit və onun yeni tələbləri ilə ayaqlaşmağa, özündə zəruri keyfiyyətlər formalaşdırmağa, lazım olmayanları aradan qaldırmağa çalışır. İctimai həyat hadisələrində fəal iştirak etməyə, ona bu və ya digər şəkildə təsir göstərməyə çalışır. Bu isə, əsasən, insanın özünün həyata olan münasibətini başa düşdükdən, dərk etdikdən sonra başlanır. Həyatın insana verdiyi tələbləri, şəxs özü-özünə verməyə başlayır.

Özüntərbiyə tələbatının əmələ gəlməsində subyektiv səbəblər, amillər də mühüm rol oynayır. Subyektiv şərtlər dedikdə formalaşmış adətlər, rəftarlar, əxlaqi anlayışlar, ümumi inkişaf səviyyəsi, iradi keyfiyyətlər, maraq, meyl və s. başa düşülür. Bu keyfiyyətlər insanların fərdi keyfiyyətlərində təzahür edir.

Özüntərbiyə stimulları maddi və mənəvi olmaqla iki yerə bölünür. Maddi stimullar əmək fəaliyyəti və iqtisadi tələbləri ilə bağlı olan stimullardır. Bu stimullar özünütərbiyədə əsas rol oynayır.

Mənəvi stimullara isə insanların mənəviyyata olan tələblərindən doğan stimullar daxildir. Mənəvi stimullar da insanların həyatdakı mövqeyindən doğur, maddi təminatla bağlı olur.

**Müstəqil iş üçün sual və tapşırıqlar.**

1. Özüntərbiyə stimulları hansılardır?
2. Mühit özüntərbiyəyə necə təsir edir?
3. Mədəniyyət müəssisələrində hansı özüniərbiyə imkanları vardır.

## DİDAKTİKA

Didaktika pedaqoqikanın bir sahəsi olub təhsil nəzəriyyəsini tədqiq edir. Təhsil tərbiyə və inkişafı həyata keçirən, reallaşdıran, öyrədən və öyrənən, müəllim və şagird, müəllim və tələbə, təlimatçı usta və şağird birliyinin məqsədyönlü, qarşılıqlı fəaliyyəti prosesində biliklərə müvafiq bacarıq və vərdişlərə yiyələnmə prosesidir. Təhsil həmçinin təkcə sistemili təlim müəssisələrində müəllimin rəhbərliyi altında biliklərə yiyələnməni deyil, həm də özünətəhsili əhatə edir. Bura insanların bütün həyatı boyü müxtəlif mənbələrdən yeni məlumatlar mənimsəməsi, yeni elmi biliklərə yiyələnməsi daxildir. Təhsil geniş mənada tərbiyənin insanların həyata hazırlanması proesesinin tərkib hissələrindən biridir.

Didaktikanın predmeti təhsil prosesidir. Didaktikada müəllimin, (öyrədənin) rəhbərliyi altında baş verən mənimsəmə prosesinin mahiyyəti, bu prosesin qanunauyğunluqları, vasitələri, prinsipləri, üsulları və s. tədqiq edilir. Həmçinin müxtəlif tip təhsil müəssisələrində təhsilin təşkili formaları, təlimin səmərəliyini artırmağın yol və vasitələri və s. araşdırılır. Didaktika ayrı – ayrı fənlərin tədrisinin spesifik xüsusiyyətlərini tədqiq edən xüsusi metodikaları da əhatə edir.

Didaktikanın vəzifələri böyüyən nəslin təhsilinin məzmununu müəyyən etmək, onları bilik, bacarıq və vərdişlərə yiyələndirmənin ən səmərəli yol və vasitələrini araşdırmaqdan ibarətdir. Ona görə də didaktika həmişə təhsil və təlim nəzəriyyəsi kimi götürülmüşdür, qəbul edilmişdir. Qeyd etmək lazımdır ki, təhsil prosesində böyüyən nəsl həm də tərbiyə olunur. Yəni təlim materiallarının məzmunu, təhsilin quruluşu, vasitələri, pedaqoji tələblər elmlərə yiyələndirməklə, mənimsətməklə tərbiyə edirlər. Bu nöqteyi-nəzərdən bir qrup alimlər didaktikanın predmetinə təhsil və təlimlə bərabər tərbiyəni də daxil etmişlər.

Ümumi pedaqoqika kimi didaktika da cəmiyyətin inkişafı ilə bağlı olaraq inkişaf etmiş, dəyişmişdir. Tarixən didaktika da jəmiyyətin pedaqoji proses qarşısında qoyduğu şəxsiyyət modelinə uyğun insanlar, vətəndaşlar formalaşdırılması məqsədinə xidmət etmişdir. Müasir didaktika ümumi pedaqoqikanın məzmunu, məqsədi, səmərəli inkişafı yolları, elmi metodiki tədqiqatına, yeniliklərinə istinad edir. Təhsil nəzəriyyəsi kimi didaktikanın mahiyyətini daha dərindən dərk etmək üçün onun tarixi inkişafına nəzər salmaq lazımdır. Tarixi inkişaf prosesində insanların təcrübəsinin əmək prosesində mübadiləsi, tətbiqi tələbi meydana ğəldikdə bu tələb həm də yığılmış bəşər təcrübəsinin, fəaliyyət üsullarının, elmi məlumatların böyüyən nəslə öyrədilməsinə, mənimsədilməsinə ehtiyac yaratdı. Mədəni və iqtisadi inkişafın hərəkətverici qüvvələrindən biri olan bu mənimsəmə, öyrətmə prosesi bəşər cəmiyyətinin ilk mərhələlərində ləng qedirdi. Elmin inkişafı, yeni fəaliyyət üsullarının yaranması, ticarət, sənətkarlığın inkişafı və bu yığılmış təcrübənin qorunub saxlanılması, inkişaf etdirilməsi tələbi onun böyüyən nəslə ötürülməsi tələbini meydana çıxardı. Bu tələb əsasında da öyrətmə və təhsil nəzəriyyəsi yaranmağa başladı.

XVII əsrdə ilk dəfə olaraq Çex alimi Yan Amos Komenski (1561-1626) özünün "Böyük Didaktika" əsərində didaktikanın elmi əsasını vermişdir. İlk dəfə olaraq o didaktikanı "hər şeyi hamıya öyrətmək elmi" kimi təhlil etmiş, öyrətmənin prinsip və üsullarını şərh etmişdir. Özünün pedaqoji tədqiqatlarında o, ingilis filosofu Frensiz Bekonun fəlsəfi görüşlərinə istinad etmişdir. Onun didaktik görüşləri təbiətə varlik prinsipi üzərində qurulmuşdur, çünki o insanı da təbiətin bir hissəsi hesab etmişdir.

Komenskiyə görə didaktikanın əsas vəzifəsi öyrətmə prosesində şeylərin mahiyyəti elə ardıcılıqla açılmalıdır ki, o həmişə müvəffəqiyyətlə nəticələnsin. Onun fikirincə didaktikanın məqsədi şagirdlərin dərk etmə qabiliyyətini öyrənəcək mənimsəməni ona uyğun şəkildə qurmaqdan ibarətdir. O, sensualizmə əsaslanaraq mənimsəmənin prosessual, əşyavi duyğulara əsaslanan uzun müddətli proses olduğunu aşkar etmişdir.

Komenski həmçinin mənimsəmənin səmərəliyini təmin edən bir sıra dərslik tərtib etmiş, təlim müvəffəqiyyətini təmin edən üsullar irəli sürmüşdür. Onun didaktik nəzəriyyəsinin əhəmiyyətli jəhəti bir də ondan ibarətdir ki, o, pedaqoqika tarixində ilk dəfə olaraq mənimsəmənin iki tərəfli olmasını açmışdır: obyektiv (didaktikanın qanunauyğunluqları), subyektiv (bu qanunauyğunluqların tətbiqi). Bununla da o didaktika nəzəriyyəsi və mənimsəmə nəzəriyyəsinin əsasını qoymuşdur.

Fransız maarifçilərindən J.J.Russo da öz dövründə didaktika haqqında mütərəqqi fikirlər irəli sürmüşdür. O, öz dövründə mövcud olan, quru, həyatdan ayrı düşərək onun tələbləri ilə ayaqlaşmayan təhsil sistemini tənqid edərək yeni mənimsəmə təlim konsepsiyası irəli sürmüşdür. Bu konsepsiyaya görə mənimsəmə, öyrətmə prosesində uşağın tələbləri və imkanları nəzərə alınmalı və ona istinad edilməlidir. Uşaqlara onların gələcək həyatı üçün zəruri və lazım olan biliklər öyrədilməlidir. Onun fikrincə ancaq belə halda uşağın əqli inkişafı baş verə bilər. Elmləri tədris etməzdən əvvəl onu uşaqlara sevdirmək, ona qarşı maraq yaratmaq lazımdır. Didaktika haqqında Y.Pestalotsi, A.Disterven, A.Rodişşev, V.Belinski, K.Uşinski, L.Tolstoy və başqaları. mütərəqqi və qiymətli fikirlər söyləmiş və bu fikirlərin didaktikanın inkişafında əhəmiyyətli rolu olmuşdur.

**Didaktikanın quruluşu və əsas kateqoriyaları.**

Didaktikanın tədqiq etdiyi əsas və mürəkkəb məsələlərdən biri təlim prosesidir. Beləki, məhz təlim prosesində bəşər təcrübəsi özünün müxtəlifliyi ilə birlikdə bilik bacarıq və vərdişə çevrilməsinin obyektiv və subyektiv qarşılıqlı inkişafı baş verir. Bu prosesdə insanlar əqli, əxlaqi, ideya baxımından formalaşır. Öyrənənlərin təşəbbüskarlığı inkişaf etdirilərək obyektiv şəklə salınır, konkret xarakter əlamətlərinə çevrilir. Təlim prosesində bilik bacarıq və vərdişlərə yiyələndirməyə maddi aləmin dərk etdirilməsi və bu əsasda elmi dünyagörüşlər formalaşdırılması zəminində qurulan öyrədən və öyrənən (müəllim-şagird, müəllim - tələbə, usta - şagird və s.) fəaliyyəti qarşılıqlı əlaqədə və sıx fəaliyyət göstərir, biri digərini tamamlayır. Didaktika özündə aşağıdakı komponentləri birləşdirən təhsillə şərtlənir: təlimin məzmunu (öyrədiləcək biliklərin məzmununu və sistemi), öyrədənin fəaliyyəti, öyrənənin fəaliyyəti, öyrənmə və öyrətmənin maddi vasitələri.

Didaktikada təhsil məqsədlərinin tam həyata keçirilməsinin aşağıdakı mərhələlərə bölmək olar:

1.Təhsilin mövcud şəraitdəki vəziyyətini – cəmiyyətin təhsil tələblərini, elmin inkişaf səviyyəsini, metodiki rəhbərliyin səviyyəsi və s. – öyrənmək;

2. Təhsil məqsədlərini dərslik, proqram, təlim üsulları və vasitələrində əks etdirmək.

3. Təhsil məqsədlərinin bilavasitə öyrətmə ilə məşqul olan pedaqoq və digər öyrədənlərin fəaliyyəti vasitəsilə həyata keçirmək.

4. Təhsil və təlim məqsədlərini öyrənənlərə şüurlu sürətdə dərk etdirmək və onların özlərini könüllü, müstəqil öyrənməyyə cəlb etmək, özüntəhsil arzu və meyyləri yaratmaq. Biliklərə maksimum səviyyədə yiyələndirmə, öyrənənlərin əqli inkişaf səviyyəsini yüksəltmək üçün bu komponentlərin qarşılıqlı əlaqəsini təmin etmək didaktikanın əsas problemlərindən biridir.

**Didaktikanın qanunauyğunluqları.**

Biliklərə yiyələndirmə mürəkkəb, hər bir öyrətmənin xüsusi metodları olan çətin bir prosesidir. Ona görə də ümumi pedoqoji prosesdən, pedaqoji tələblərdən çıxış edərək öyrətmə qanunauyğunluqlarının müəyyən edilməsi böyük əhəmiyyət kəsb edir.

Fəlsəfi qanunlar təbiət, cəmiyyət və insan təfəkkürünün daxili inkişaf qanunauyğunluqlarını əks etdirir. Pedaqoji qanunlarda şəxsiyyət formalaşdırılması, onun əqli, əxlaqi, fiziki və s. cəhətləri özündə birləşdirən inkişaf qanunları əsas götürülür. Yəni pedaqoji qanunlar formalaşdırmanın daxili mahiyyətini, sosiollaşmasını özündə əks etdirir.

Didaktika öyrətmə prosesi kimi, ümumi pedaqoji qanunauyğunluqlara istinad edən xüsusi öyrətmə qanunlarına malikdir. Rus alimləri L.V.Zankov «şagirdlərin ümumi inkişafı öyrətmə üsulları, qaydaları ilə şərtlənir»[9] qanununu,S.Q. Şapovalenko «Şagirdlərin inkişafı təlimin xarakteri və onun tələb etdiyi şərtlər əsasında baş verir»[10] kimi didaktik qanunları əsas götürmüşlər. Onlar bu didaktik qanunları müəyyən edərkən K.D.Uşinskinin «əql nə qədər çox faktiki biliklərə yiyələnərsə, bir o qədər onları yaxşı dərk edər, yenidən işləyər, bununla da o, inkişaf etmiş və guclü olar» müddəasına əsaslanmışlar.

Uşinskinin pedaqoji və psixoloji təhlilinə istinad edən L.V.Zankov və S.Q.Şapovalenkonun yuxarıdakı müddəaları dərketmənin inkişafının ümumi qanunu kimi qəbul edilib.

Didaktikanın qanunauyğunluqları özündə aşağıdakıları birləşdirir:

1. Təlim prosesinin müxtəlif elementləri arasındakı qarşılıqlı keyfiyyət əlaqəsini üzə çıxarmaq məqsədilə təhlillər aparmaq. Bu təlim prosesinin qanunauyğun dərk olunmasının ilk emprik səviyyəsidir. Bu yolla təlimdə öyrənənlərin fəallığı qanunu müəyyən edilmişdir.

2. Öyrənilən hadisə və onun daxili əsaslı struktur əlaqələrinin açılması, qanunu. Bu onu ifadə edir ki, yeni anlayış formalaşdırılması öyrənənlər üçün vacib, təxirə salınmaz olduqda baş verir. Yəni yeni faktın öyrənilməsi ehtiyacı yaradıldıqdan sonra öyrənmə səmərəli nəticə verir, elmin əsas anlayışları və qanunları öyrənənlərin dərk etmə səviyyəsini nəzərə almaqla səmərəli mənimsədilir.

3. Öyrənilmişlərin təcrübədə yoxlanılması qanunu. Bu da əsas və həlledici qanun olub öyrənmənin səmərəliyini təmin edir. Pedaqoji prosesdə bəzən qanunla onun şəraiti və şərtləri arasında uyğunsuzluq yaranır. Ümumiyyətlə isə didaktik qanunlar həmişə həmin prosesin baş verdiyi şəraitlə qarşılıqlı əlaqədədir. Pedaqoji qanunauyğunluqlar şəraitdən asılı olaraq gah həyata keçirilmiş prinsip kimi, gah da ənənəvi qaydaların həyata keçirilməsi kimi çıxış edir. Məhz şəraitlə qanunun qarşılıqlı əlaqəsi insanlara təbiət və cəmiyyət qanunlarından öz məqsədləri üçün istifadə etmə imkanı verir. Bu qanun elmi pedaqoqikada çoxdan istifadə edilir. Qabağcıl və təcrübəli müəllimlər öyrətmə prosesində öyrənənləri bilik, bacarıq və vərdişlərə daha səmərəli şəkildə yiyələndirmək üçün qanunla onun şərtləri arasındakı

[9] Л.В.Занков «Дидактика и жизнь» М.1968.

[10] С.Г.Шаповаленко, «Методика преподавания химии в средней школе», М.,1963,с.646

əlaqənin təzahürü üçün geniş imkan yaratmağa çalışır. Yəni öyrənilən hadisə və fakt həmin sahənin daxili struktur mahiyyəti, əsas anlayışları ilə əlaqələndirilir. Didaktika – öyrətmə prosesi əsasən ilk əlamətinə görə xarakterizə olunur: bir tərəfdən öyrətmə prosesində məqsədyönlülük, ciddi ardıcılıq gözlənilir, digər tərəfdən isə öyrənmələrə yaradıcı fəallıq, axtarıcılıq, müstəqil fəaliyyət göstərmək üçün imkan yaradılır. Bu isə didaktikanın dialektikliyidir. Dialektikanın dialektikasının göstəriciləri isə öyrənənlərin əqli inkişafı, biliklərini dərinləşdirmək və genişləndirmək səyləri, formalaşan elmi dünya görüş təşkil edir.

Yuxarıda deyilənlərdən belə gənaətə gəlmək olar ki, didaktika uşaqların – öyrənənlərin şüurlu fəaliyyətinə istinad edən sistemli şəkildə biliklərə yiyələnmə, bu əsasda bacarıq və vərdişlər formalaşdırılmasından ibarət olan təhsil prosesini öyrənir. Onun predmetini öyrətmə prosesi, onun qanunları, mənimsəmə prosesində didaktik qanunauyğunluqların mahiyyətinin açılması bu qanunların həyata keçirilməsi şərtlərinin tədqiqi təşkil edir. Müasir didaktika sübüt etmişdir ki, təlimin səmərəliyi təkcə yiyələnmiş bilik, bacarıq və vərdişlərin həcmi ilə deyil həmçinin materialların mahiyyətinin dərk edilməsi; qanun və qanunauyğunluqların şüurlu sürətdə mənimsənilməsi səviyyəsi ilə də ölçülür. Didaktika tədrislə bu əlaqənin qarşılıqlı təsiri şərtlərini, mahiyyətini açır. Biliksizlikdən bilikliyə, bacarıqsızlıqdan şüurlu sürətdə biliklərin tətbiqinə istinad edən bacarıqlılığa çevrilməsi yollarını, səmərəli vasitələrini tədqiq edir.

Təlimin qanunauyğunluqlarını tədqiq edən didaktika müxtəlif tədris fənləri üzə çıxarır. Belə ümumi qanunauyğunluqlardan biri tədris etmə ilə öyrənmə arasındakı əlaqədədir. Öyrədənin, müəllimin rəhbərliyi altında hər hansı elmi məlumatın mənimsənilməsi prosesində elmi məlumat, öyrənilən məsələ şüurlu sürətdə dərk edilir, onun əsas və köməkci əlamətləri və xüsusiyyətləri haqqında təsəvvür yaradılır, həmin hadisə və ya faktın digər hadisə və faktlarla qarşılıqlı əlaqələri üzə çıxarılır, təcrübi əhəmiyyəti dərk etdirilir, tətbiqi yolları öyrədilir, uyğun məlumatların gələcəkdə öyrədilməsi üçün baza, zəmin yaradılır.

Öyrətmə qanunauyğunluqlarını tədqiq edərək didaktika yaş və uşaq psixologiyasının inkişaf haqqındakı elmi müddəalarına istinad edir, öyrətmədə psixi proseslərin inkişafı qanunauyğunluqlarından istifadə edir. Bu nöqteyi nəzərdən didaktika üçün pedaqoji psixologiya əhəmiyyətli rol oynayır. Pedaqoji psixologiya uşaqların təlim və tərbiyə prosesində inkişafı qanunauyğunluqlarını açır, bu prosesdə uşaq şəxsiyyətinin formalaşmasına verilən psixoloji tələblərin mahiyyətini uşaqların inkişafı qanunları əsasında izah etsin.

Didaktikanın tədqiq etdiyi ümumi qanunauyğunluqlar bütün fənlərin tədrisinin xüsusi cəhətlərini əhatə etmir. Bu spesifik xüsusiyyət və cəhətləri xüsusi metodikalar tədqiq edərək üzə çıxarır. Deməli xüsusi didaktikalar didaktikanın ümumi müddəalarına istinad edərək ayrı-ayrı fənlərin tədrisinin spesifik xüsusiyyətlərini üzə çıxarır. Digər tərəfdən xüsusi didaktikalar həmdə ümumi didaktikanın konkret tətbiqi sahəsi kimi çıxış edir, onun zənginləşməsinə, inkişafına səbəb olur. Belə ki, xüsusi didaktikalarda baş vermiş hər hansı yenilik ümumiləşdirilərək ümumi didaktikaya ötürülür və burada isə yeni didaktik qanun kimi tədqiq edilir. Ümumi didaktik qanunlar öyrətmə mövcud olan bütün sahələrdə tətbiq edilir. Sistemli təlim müəssisələrində olduğu kimi digər müəssisələrdə də öyrətmə xarakterli işlərdə didaktikanın qanunları tətbiq edilir. Məsələn mədəniyyət müəssisələrində müxtəlif tip dərnəklərdə, istehsal prosesində usta – şagird münasibətlərində, islah əmək koloniyalarındakı təlim xarakterli işləri, yeni tamaşaların hazırlanması, istehsal prosesinə yeniliklərin tətbiqi və s. bu qəbilədən olan işlərdir. Didaktika nəzəriyəsi istehsalın tələbi, yeni ictimai iqtisadi tələblər əsasında dəyişir, inkişaf edir.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1. Didaktikanın mahiyyətini izah et.
2. Didaktik kateqoriyaları təhlil et.
3. Gələcək fəaliyyət sahədə didaktik məşğələləri təhlil et.

# TƏHSİLİN MƏZMUNU

Müxtəlif dövrlərdə, müxtəlif pedaqoqika dərsliklərində təhsilə müxtəlif yanaşmalar olub, müxtəlif təriflər verilib. Mövcud pedaqoqika dərsliklərini və təhsilə olan münasibətləri təhlil etdikdən sonra N.M.Kazımovun təhsilə münasibətini aktual hesab edirik və onun təhsilə verdiyi tərifi əsas götürürük.

Xalq təsərrüfatının tərkib hissəsi kimi, müvafiq tədris müəssisələrində müəyyən müddətdə öyrənilən, tərbiyə və inkişaf imkanına malik olan, təlimin həm zəruri şərti; həm də nəticəsi olan biliklər, bacarıq və vərdişlər sistemi təhsildir.

Lakin, bu tərifdə təhsil xalq təsərrüfatının tərkib hissəsi hesab edildiyi halda təkcə tədris müəssələrində bilik, bacarıq və vərdişlərə yiyələnmə sistemi kimi verilib. Halbuki, istehsal müəssələrinin özündə, mədəniyyət müəssələrində də və digər qeyri təhsil müəssələrində də bilik, bajarıq və vərdişlərə yiyələnmə mövcuddur. Məsələn peşə təhsili xüsusi təhsil müəssələri ilə yanaşı mədəniyyət müəssələrində, elmi – tədqiqat müəssələrində də verilir və s.

Təhsil onun məzmunu, formaları, məqsədi cəmiyyətin iqtisadi - ictimai inkişafı ilə bağlı olaraq inkişaf edir və dəyişir, o cəmiyyətin, əsasən iqtisadi tələbləri ilə müəyyən edilir.

Pedaqoqika tarixində təhsil haqqında iki səhv nəzəriyyə mövcud olmuşdur: maddi və formal təhsil nəzəriyyələri.

Formal təhsil nəzəriyyəçilərinin fikrincə təhsil böyüyən nəslin, təhsil ananların anjaq zehni qabiliyyətlərini inkişaf etdirməlidir. Onların fikrinjə zehni cəhətdən yüksək inkişaf etmiş hər bir şəxs öz zehni məlumat və qabiliyyətlərindən həyatda müstəqil şəkildə lazım olan yerdə istifadə edə bilərlər. Formal təhsil nəzəriyyəsi texniki inkişafda əsaslanan istehsalın tələblərini ödəmədiyi üçün onun əleyhinə olaraq maddi təhsil nəzəriyyəsi meydana çıxdı. Maddi təhsil nəzəriyyəçiləri isə iddia edirdilər ki, böyüyən nəslə, uşaqlara ancaq onların gələcək fəaliyyət sahəsinin tələb etdiyi elmi məlumatlar öyrədilməlidir. Digər elmi məlumatlar, bacarıq və vərdişləri isə hər kəs özü lazım olduqda mənimsəyə bilərlər. Onlar böyüyən nəslin hər tərəfli inkişafında zehni qabiliyyətlərin inkişaf etdirilməsini nəzərə almır, onu ikinçi dərəcəli iş, insanların öz şəxsi işi hesab edirdilər. Lakin materialist nəzəriyyəyə istinad edən müasir təhsil nəzəriyyəsi ayrılıqda həm maddi, həm də formal nəzəriyyəni inkar edir. Çünki müasir inkişaf səviyyəsi, ictimai iqtisadi quruluş böyüyən nəslin hərtərəfli inkişafını tələb edir. Yəni böyüyən nəslin həm zehni qabiliyyətləri inkişaf etdirilməli, həm də onlarda maddi istehsalla bağlı bilik, bacarıq və vərdişlər formalaşdırılmalıdır. Ona görə də təhsil ümumi, politexnik və peşə təhsilləri olmaqla üc hissəyə ayrılır. Təhsilin bu tərkib hissələri bir birilə qarşılıqlı əlaqədə olub biri digərinin mövcudluğu ücün zəmin, əsas rolunu oynayır.

<u>Ümumi təhsil</u>

Ümumi təhsil böyüyən nəslin seçəcəyi peşədən asılı olmayaraq həyatın bütün sahələri üçün zəruri olan biliklərə yiyələndirir və onlarda fəaliyyət üçün əsas olan bacarıq və vərdişlər formalaşdırır. Öyrədiləcək elmi biliklər elmlərin son nəaliyyətlərini əhatə edir. Ümumi təhsilin tərkibinə daxil olan fənlər üç əsas qrupa ayrılır: təbii, humanitar, əmək və fiziki inkişaf fənləri:

Təbii fənlərin tərkibinə riyaziyyat, fizika, kimya, biologiya və s. daxildir.

Bu fənlər vasitəsilə təbiət hadisələrinin obyektiv inkişaf qanunauyğunluqları və onlardan insanların xeyrinə istifadə yolları haqqında elmi məlumatlar verilir. Bu təbii və riyazi biliklərin öyrədilməsi vasitəsilə böyüyən nəslin təfəkkürü, ümumiyyətlə idrakı inkişaf etdirilir. Bu təbii elmlərin tədrisi prosesində həmçinin hər bir öyrənilən elmi məlumata aid zəruri bacarıq və vərdişlər formalaşdırılır.

Humanitar fənlərin tədrisi vasitəsi ilə isə böyüyən nəsl cəmiyyətin obyektiv inkişaf qanunlarını, insanların sosial təbiətini öyrənib dərk edir. Humanitar fənlərə tarix, ədəbiyyat, cöğrafiya, ana dilləri, xarici dil, və s. daxildir. Bu fənlərin hər biri uşaqlara cəmiyyət hadisələrinin konkret bir sahəsi haqqında elmi məlumat verir. Məsələn tarix dərslərində hər kəs həm öz xalqının, həm də başqa xalqların tarixi kesmişini, dil dərslərində dilin tərkib hissələri, qrammatik qada –qanunları və s. mənimsəyir. Ədəbiyyat, musiqi, təsviri sənət dərsləri uşaqların estetik hiss və zövqlərini formalaşdırır, onlara ğözəllik qanunlarını dərk etdirir, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir.

Bədən tərbiyəsi, əmək təlimi və bu kimi dərslər böyüyən nəslin sağlamlığını möhkəmləndirir, onları əməyə hazırlayır, əmək üçün zəruri olan bacarıq və vərdişlər formalaşdırır, gəncləri vətənin müdafiəsinə hazırlayır. Təhsilin bütün səviyyələrin də (peşə təhsili, ali təhsil və s.) təhsil alanların fiziki və əmək hazırlığı diqqət mərkəzində olur, təhsil məqsədlikdn asılı olaraq onlar müxtəlif səviyyələrdə, formalarda aparılır. Məsələn əmək təhsili ali təhsil müəssisələrində istehsalat təcrübələri formasında aparılır. Burada artıq gənclər seçdiyi peşə üzrə birbaşa əməyə, müstəqil fəaliyyətə hazırlanırlar. Ümumi təhsil ibtidai, natamam orta, orta olmaqla üc hissəyə ayrılır.

İbtidai təhsil orta məktəblərin I – IV siniflərini əhatə edir, təbii və ictimai hadisələr haqqında elementar elmi məlumatlar verir, ətraf aləmlə tanış edir, hesablama – toplama, çıxma, vurma, bölmə, oxu və yazı bacarıq və vərdişləri formalaşdırır.

Natamam orta təhsil orta məktəblərin V - IX siniflərini əhatə edir. Bu dövrdə uşaq və yeniyetmələr təbiət və cəmiyyət elmlərinin əsas anlayışlarını mənimsəyir, zəruri bacarıq və vərdişlərə yiyələndirilir, elmi dünyagörüş elementləri formalaşdırılır, marağa və bacarığa görə peşə seçməyə hazırlanırlar.Bu dövrdə həmçinin uşaq və yeniyetmələrdə əxlaqi keyfiyyətlər də formalaşdırılır. Ümumi orta təhsil intelektual səviyyənin əvvəlkilərə nisbətən yüksək pilləsidir.

Bu orta məktəblərin X-XI siniflərini əhatə edir. Bu səviyyədə yeniyetmə və gənclər həyat üçün zəruri olan bilikləri daha dərindən öyrənir, onların mövcud bacarıq və vərdişləri daha da inkişaf etdirilib möhkəmləndirilir, elmi dünyağörüş formalaşdırılır, mövcud ictimai – siyasi hadisələrə, istehsala şüurlu münasibət yaradılır, müstəqil peşə seçmə təşəbbüsləri üzə çıxarılır. Ümumi orta təhsil həm orta məktəblərdə həm də əlahiddə məktəblərdə ( lal –kar, kor, əqli cəhətdən zəif inkişaf etmiş uşaqlar üçün məktəblər), litseylər, qimnaziyalar, seminariyalar və müxtəlif tipli peşə məktəblərində də verilir. Ümumtəhsil aşağıdakı vəzifələri yerinə yetirir: böyüyən nəsl təbiət, cəmiyyət və insan təfəkkürünə aid elmi məlumatlarla silahlandırılır; idrakı prosesləri, yaradıcılıq qabiliyyətləri inkişaf etdirilir; onlarda elmi dünyagörüşün əsasları formalaşdırılır; jəmiyyətin tələb etdiyi əxlaq normaları, davranış qaydalarına yiyələndirilir; estetik zövqləri, hissləri inkişaf etdiriləcək estetik görüşlər sistemi yaradılır; hüquqi biliklərə yiyələndirilir və müvafiq münasibət formalaşdırılır; ictimai – siyasi fəallıq tərbiyə edilir.

Politexnik təhsil

Politexnik yunan «politexnikum» sözündən götürülüb çoxpeşəlilik deməkdir. Politexnik təhsil orta ümumi təhsil məktəblərində təhsil alanları ayrı – ayrı fənlərin tədrisi vasitəsilə istehsal və sənayenin elmi əsasları və prinsipləri ilə tanış edir, onlarda əmək alətləri ilə rəftar etmə bacarıq və vərdişi formalaşdırır. Göründüyü kimi politexnik təhsil xüsusi dərs kimi aparılmır. İstehsalın müxtəlif sahələrinə aid biliklər müxtəlif dərslərdə elmi məlumatlara yiyələnmə prosesində verilir. Məsələn orta məktəbdə kimya dərsində aliminum elementinin kimyavi və fiziki xassələrini öyrənməklə yanaşı onun sənaye, xalq təsərrüfatında tətbiqi sahələrini də öyrənirlər. Onlar aliminum kimyavi elementindən məişətdə və digər sahələrdə istifadə olunmasının elmi əsaslarını mənimsəyirlər. Həmçinin aliminumun alınmasını, müxtəlif istehsalı prosesini də öyrənirlər ki bu da istehsalın elmi əsasları haqqında məlumatlar verir. Politexnik təhsil biliklərin şüurlu mənimsənilməsini təmin edir, zehni əməklə fiziki əməyi əlaqələndirir, əmək məhsuldarlığının artırılmasına imkan yaradır, peşə seçməyə düzgün istiqamət verir.

Politexnik təhsil təhsilin bütün digər səviyyələrində də mövcuddur. Yəni ali təhsil müəssisələri, orta ixtisas məktəbləri, peşə məktəbləri və s. digər təhsil müəssisələrində də politexnik hazırlıq həyata kecirilir. Məsələn peşə məktəblərində yiyələniləjək peşəyə uyğun sahələr, onun əsasları və prinsipləri haqqında təlimat verilir, texniki fənlərin tədrisi zamanı həm birbaşa həmin sahə həm də digər istehsal sahələrinin də tətbiqi yolları öyrədilir. Bunu ali məktəblərdə tədris edilən fənlərə də aid etmək olar.

Peşə təhsili.

Peşə təhsili sənaye və xalq təsərüfatının konkret bir sahəsinə aid bilik, baxcarıq və vərdişlər formalaşdırmaqla böyüyən nəsli həyata hazırlayır. Müasir dövrdə respublikamızda peşə təhsili xüsusi qimnaziyalar, seminariyalar, litseylər, peşə məktəbləri və s. müəsisələrdə həyata keçirilir. Peşə təhsili həmçinin mədəniyyət müəssisələri və diğər istehsal və qeyri – istehsal müəssisələrində açılan xüsusi kurslar vasitəsilə də verilir.

Peşə təhsili seçilmiş peşə və ixtisasın elmi əsaslarını mənimsədir, əlaqəli sahələr haqqında elmi təlimatlar verir, digər elmi, istehsal sahələri ilə əlaqələndirilir. Peşə təhsilinin əsası orta məktəblərdə qoyulur. Yeniyetmə və gənçlərin malik olduğu bilik, bacarıq, vərdişlər peşə təhsilinin maddi bazasını təşkil edir. Bu məktəblərdə tədris prosesində peşənin nəzəri və təjrübi məsələlərinin tədrisinə daha qeniş yer verili. Peşə məktəblərində həmçinin yeniyetmə və qənclərn ümumi – elmi, əxlaq, siyasi inkişafını təmin edən fənlərin tədrisinə də xüsusi yer verilir.

Təhsilin bu tərkib hissələri bir–birilə qarşılıqlı əlaqədədir, biri - diğərinin mövcudluğunu, inkişafını təmin edir. Bunlar səxsiyyət formalaşdırılması işinin əlaqəli qütbələridir.

Təhsilin bütün səviyyələrində tədrisin məqsədi, vəzifələri, məzmunu öz əksini tədris planı, proqramları, dərsliklərdə tapır.

Tədris planı ayrı – ayrı məktəblərdə (orta, peşə, ali, xüsusi məktəblər) öyrədilən fənlərin sayı, həçmi, ardıcılığı, həmçinin siniflər, kurslar üzrə verilən rüblük, smestlik, illik saatların miqdarını müəyyən edən rəsmi dövlət sənədidir. Onu dövlət müəyyən edir, təsdiqləyir. Tədris müəssələrinin onu dəyişdirməyə

icazəsi yoxdur. Onu təhsil nazirliyi təstiq edir və yerinə yetirilməsi məcburidir. Hər təhsil müəssəsinin məqsədinə uyğun olaraq tədris planı tərtib edilir. Tədris planı təhsil müdətinə görə qurulur və burada xüsusi kurslar, dərsdən kənar təlim məşğələləri də əhatə olunur.

Tədris proqramları hər fənn üzrə asılanacaq bilik, bacarıq və vərdişlərin məzmununu, həcmi, təcrübə, müxtəlif tip məşqələləri (müxtəlif siniflər və kurslar üzrə) əhatə edir. Proqramlarda konkret olaraq hər mövzuya verilən saat, həmin mövzu üzrə aparılan təcrübi işə verilən vaxt, müstəqil işlərə verilən saatların miqdarı göstərilir. Proqramda həmçinin mövzular üzrə mənimsədiləcək elmi məlumatlar, onların sistemi də verilir. Proqram tərtibində hər bir elmin sistematiklik və ardıcılığı gözlənilir. Tədris edilən mövzular elə ardıcılıqlı düzülür ki həm həmin elmi sahəsi haqqında sistemli anlayışlar yaradılır, həm də elmin sistemi və ardıcılığı pozulmur. Hər bir fənnin tədrisində elmin sistemi qorunur, hər yeni tədris edilən mövzu özündən əvvəl öyrədilmiş mövzunu mökəmləndirir və onu tamamlayır, sonrakı mövzulara zəmin hazırlayır.

Müasir dövrdə proqramların tərtibində sistematikliklə bərabər konsentriklik də nəzərə alınır. Yəni aşağı siniflərdə öyrədilən materiallar yuxarı siniflərdə daha dərindən və qeniş öyrədilir. Orta məktəblərdə proqram üç konsentrə bölünür – I - IV, V – IX, X – XI - siniflər üzrə. Proqramın bu konsentrik prinsipləri ali məktəb, həmçinin digər məktəblərin proqramlarında da tətbiq edilir.

Proqramın belə konsentrik düzülüşü təhsil alanların anlaq səviyyəsi, psixi-fizioloji və intelektual inkişaf səviyyəsi ilə əlaqədardır. Məsələn tədrisin ilk mərhələsində uşaqların psixi imkanları elmi anlayışları olduğu kimi dərk etmə imkanlarına malik deyildir. Ona görə də təbiət və cəmiyyət hadisələri haqqında elementar məlumatlar verilir. Orta məktəblərin yuxarı siniflərini əhatə edən son mərhələdə isə yeniyetmə və gənclərin həm psixi həm də intellektual inkişaf səviyyələri elmi qanunauyğunluqları mənimsəmə imkanında olduğu üçün onlara daha mürəkkəb elmi həqiqətlər haqqında məlumatlar verilir. Bunu təhsilin müxtəlif mərhələləri, səviyyələrində də göstərmək olar.

Proqram materiallarının məzmunu ideyaca sağlam, dövrün tələblərinə uyğun olmalıdır. Məzmun özü təhsil ananları cəmiyyətin tələblərinə uyğun tərbiyə etməli, onlarda zəruri əxlaqi keyfiyyətləri formalaşdırmalı, elmi dünyagörüşün əsasını qoymalıdır. Proqram tərtibində elmin sistemi, ardıcıllığı nəzərə alınmalıdır, elmin əsas anlayışları və müddəaları verilməlidir, müəllimlərə aydın göstərişlər verilməlidir, mübahisəli məsələlər proqrama daxil edilməməlidir, məzmun metodoloji cəhətdən sağlam və elmi olmalıdır. Dərsliklər müvafiq fənlər üzrə proqramlar əsasında nəzəri və təcrübi bilikləri özündə birləşdirir. Dərslikdə verilən biliklər aşılanacaq bacarıq və vərdişlər öyrənənlərin yaş səviyyələrinə uyğun verilir.

Dərsliklər üzərində iş öyrənənlərin (şagird, tələbə) bilikləri möhkəm mənimsəməsinə, psixoloji proseslərinin inkişafı və tərbiyəsinə, müstəqil işləmə bacarıqlarının formalaşmasına imkan yaradır. Dərslik sırf proqram əsasında tərtib edilir, proqram materiallarının mənimsənilməsinə xidmət edir. Dərslikdə verilən materialların məzmunu, elmi materialların şərhi ideya – siyasi, əxlaqi cəhətdən düzgün, cəmiyyətin tələblərinə uyğun qurulmalıdır. Dərsliklərdən başqa proqram materiallarının ətraflı və dərindən mənimsənilməsinə xidmət edən dərs vəsaitləri də mövcuddur. Bura çalışmalar toplusu, lüğətlər, müh-təxabatlar, plastinkalar, xəritələr, maqnitafon yazıları, diafilmlər, təris filmləri və s. daxildir. Dərsliyin tərtibinə aşağıdakı tələblər verilir: dərslik mövcud proqram əsasında tərtib edilməlidir; elmi materiallar sistemi, ardıcıl verilməlidir; materialların məzmunu ideyaca sağlam olmalıdır; mətnin izahına kömək edən əlavə vəsaitlər (şəkil, sxem və s.) verilməlidir; səhiyyə tələblərinə cavab verməlidir;

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1. Təhsilin mahiyyətini təhlil et.
2. Təhsilin tərkib hissələri.
3. Mədəniyyət və incəsənət müəssisələrində peşə kursları.

## TƏLİM PROSESİ

Təlimə ayrı-ayrı pedaqogika dərsliklərində müxtəlif tərif verilmişdir. Məsələn bir dərslikdə təlim müəllimin rəhbərliyi və müvafiq vasitələrin köməyi ilə şagirdin həyatı, dərk etməsi prosesi kimi təhlil olunmuşdur. Digərində təlim müəllim fəaliyyəti ilə şagird fəaliyyətini həm də ümumi bir məqsədə – şagirdəlri bilik, bacarıq və vərdişlərlə silahlandırmaq, onları inkişaf etdirib tərbiyələndirmək məqsədinə doğru yönəlmiş olan bu fəaliyyətlərin mürəkkəb bir vəhdəti kimi verilmişdir. Bir başqasında təlim müəllimin rəhbərliyi ilə şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsi prosesi kimi verilmişdir və s.

Bütün bunların hamısında ümumi bir cəhət – şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsi cəhəti mövcuddur. Deməli, təlim şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsi prosesidir. Mövcud dərsliklərin əksəriyyəti orta ümumtəhsil məktəbləri üçün tərtib olunduğundan verilən misalların hamısı şagirdlərin üzərində, orta məktəb materialları əsasında qurulmuşdu. Bu bütün öyrənmə imkanı, tələbi olan proseslərin hamısı üçün ümumi bazadır, əsasdır.

Bildiyimiz kimi digər tərəfdən təlim obyektiv aləmin dərk etdirilməsidir. Dərk etdirmə və dərk etmə sistemli şəkildə təlim müəssisələrində aparılmaqla yanaşı təlimdənkanar müəssisələrdə də – mədəniyyət müəssisləri, ailə, uşaq evləri, yenidən tərbiyə müəssisələri, istehsalat müəssisləri və s. də aparılır. Bu baxımdan təlimə ümumiyyətlə insanların həyatı dərk etməsi, zəruri bilik, bacarıq və vərdişlərə yiyələnməsi prosesi kimi də baxmaq olar. Bilik, təbiət, cəmiyyət, insan təfəkkürü haqqında qaydalar, qanunlar, qanunauyğynlyqlar haqqındakı faktlar, məlumatlar sistemidir. Bu faktlar və qanunauyğunluqlar ayrı-ayrı elmlərin tərkibində birləşdirilib sistemə salınmışdır. Müxtəlif elm sahələrinin son nəaliyyətləri isə tədris fənləri vasitəsilə böyüyən nəslə mənimsədilir. Bu fənlər vasitəsilə böyüyən nəsl təbiət və cəmiyyətin inkişaf qanunlarını dərk edirlər. Dərk edilmiş elmi məlumatlara uyğun olaraq fəaliyyət üsullarına yiyələnirlər. Elmi məlumatlara yiyələnmə prosesi öyrənənin həmçinin təfəkkürünü inkişaf etdirir, intellektual səviyyəsini yüksəldir, beləliklə də elmi dünyagörüşün əsası qoyulur. Bu isə öz növbəsində insanlara təbiət və cəmiyyət hadisələrinə obyektiv münasibət bəsləmə imkanı verir.

Bəzən biliklə elm məfhumu qarışdırılır və ya eyniləşdirilir. Bilik bir frdə məxsusdur. Yəni bəşəriyyətin əldə etmiş olduğu son elmi nəaliyyətlərin müəyyən hissəsinin tək – tək fərdlər tərəfindən mənimsənilməsidir. İnsanların biliklərə yiyələnməsi həm ümumi, həm də xüsusi olmaqla iki istiqamətdə aparılır. Beləki ümumtəhsil məktəblərində mövcud həyatın tələb etdiyi elmi məlumatlar mənimsədilir. Bu təlimalar insanların həyatda yaşaması, fəaliyyət göstərməsi, həm özünün həm də cəmiyyətin tələblərini təmin edən biliklərdir, elmi məlumatlara yiyələnmədir. Xüsusi biliklər isə peşəyə yiyələnməni əhatə edir. Yəni xalq təsərrüfatı, sənayenin bu və ya digər sahəsinə aid orta və ali səviyyədə biliklərə yiyələnmədir. Bu isə xüsusi təhsil və ali təhsil müəssisələrindəki təlim işini əhatə edir. Orta ixtisas təhsili verən peşə məktəblərində (seminariya, kollec və s.) seçilmiş peşəyə aid sənaye və istehsalın tələb etdiyi səviyyədə elmi biliklərə yiyələndirilir. Ali təhsil müəssisələrində isə seçilmiş peşə üzrə daha dərin, hərtərəfli biliklər formalaşdırılır. Elm isə bütün bəşəriyyətə mənsubdur. O, təbiət, cəmiyyət və insan təfəkkürünə aid bütün obyektiv inkişaf qanunauyğunluqlarını əhatə edir. Daha doğrusu elm bəşəriyyətin yarandığı gündən kəşf etdiyi, insanların gündəlik həyatda işlətdiyi və işlətmədiyi bütün elmi məlumatları əhatə edir.

Biliklərə yiyələnmə insanların bütün fəaliyyəti prosesində gedir. Beləki, qeyd etdik ki, elmlərin son nəaliyyətləri böyüyən nəslə mənimsədilir, tədris fənlərinə daxil edilir. Elmi yeniliklər isə istehsal prosesində yaranır, istehsala tətbiq edilir. Məsələn, hər hansı bir zavodda (maşınqayırma, metallurgiya və s.) meydana çıxmış səmərələşdirici elmi yenilik əmək məhsuldarlığının inkişafına xidmət edir, ona görə də o, digər sahələrə də tətbiq edilir. Bunun tətbiq edilməsi isə elmi-nəzəri cəhətdən əsaslandırılır və tətbiq üçün cəmiyyətə verilir. Bu yenilik digər sahələrə tətbiq edilməzdən əvvəl həmin istehsal sahələrində çalışan şəxslər tərəfindən öyrənilir, mənimsənilir, dərk edilir. Yaxud da ki, pedaqoji prosesə aid hər hansı bir yenilik əvvəlcə pedaqoji prosesdə təsdiq olunur, onun səmərəliliyi pedaqoji prosesdə təsdiq edildikdən sonra elmə daxil edilir. Bu təsdiqləmə prosesi özü və təsdiqlənmiş elmi yeniliyi yenidən geniş mənada tətbiqpedaqoji proses işçilərini öyrənməyə məcbur edir. Bu öyrənmə ikitərəfli olur. Beləki, müəllim həm digər elm sahələrindən yenilikləri, həm də pedaqoji fəaliyyətindəki yenilikləri öyrənməlidir. Bunu ictimai həyatın bütün sahələrinə aid etmək olar. Bu öyrənmə isə təkmilləşdirmə və ixtisas artırma, yeni ixtisasa yiyələnmə kurslarında, mədəniyyət müəssisələrində istehsal prosesinin özündə təşkil edilmiş seriya mülahizələr, seminarlarda həyata keçirilir. Deməli bilik, yaşından asılı olmayaraq bütün insanların elmi məlumatlara, qayda, qanun, qanunauyğunluqlara yiyələnməsi prosesidir.

Bacarıq biliklərin tətbiq edilməsidir. Bacarıqlar sistemli təlim müəssisələrində formalaşdırılır. Beləki, hər bir şagirdə öyrəndiyi elmi faktı tətbiq etmə bacarığı formalaşdırılır. Məsələn, bədii əsəri oxuyub, nəql və ya təhlil etmə şagirdə şifahi nitq bacarığı, inşa yazmaq isə yazılı nitq bacarığı tərbiyə edir. Bacarıqlar öz məzmununa görə təlim və əmək olmaqla iki qrupa ayrılır: inşa yazı, məsələ və misal həll etmə, çertyoj

çəkmək, diaqramlar düzəltmək, fizikaya, kimyaya aid təcrübələr aparmaq təlim bacarığına aiddir. Bitki becərmək, ağaclar üzərində iş aparmaq (peyvənd, çoxaltmaq və s.), heyvanlara qulluq etmək, dülgərlik, xarratlıq emalatxanalarında işləmək, biçmək, tikmək və s. əmək bacarıqlarına aiddir.

Orta ümumtəhsil məktəblərində yaradılan bu bacarıqlar böyüyən nəslin ümumiyyətlə həyata hazırlanması məqsədinə xidmət edir. Beləki, bacarıqlar öyrənilən biliklərin həyati əhəmiyyətinin dərk edilməsinə, biliklərin şüurlu və səmərəli mənimsənilməsinə imkan yaradır.

Təlim bacarıqları həm də əmək bacarıqlarının şüurlu və səmərəliyini təmin edir. Həmçinin yaradılmış bacarıqlar gənclərə şüurlu peşə seçməkdə kömək edir. Beləki, bu proses yeniyetmə və gəncə özünün həm dərk etmə qabiliyyətini həm də əmək qabiliyyətinin mənzərəsini yaradır, bu isə hər kəsə peşə seçməyə şüurlu yanaşma imkanı verir. Seçilmiş sahələr, ixtisaslar üzrə isə artıq xüsusi biliklər verilir. Bu biliklərə uyğun ixtisas bacarıqları isə gənclərin həmin sahədə hələ orta məktəbdə malik olduğu bacarıqlar əsasında yaradılır. Məsələn, incəsənət sahəsində ixtisaslaşma zamanı hələ orta məktəbdən gənclərdə formalaşdırılmış ifadəli oxu, avazla şer demək, musiqi dinləmək, musiqi alətlərində ifa etmək, dram əsərlərini səhnələşdirmə, çəkmə, yonma, ağac və metal üzərində işləmə və s. bacarıqlarına istinad edilir. Artıq formalaşmış olan bu bacarıqlar həm sistemli təlimin müxtəlif mərhələlərində, həm də fəaliyyət prosesində yeni bacarıqların yaranmasına səbəb olur.  Təlimin müvəffəqiyyətində bilik və bacarıqlar kimi vərdişlər də əhəmiyyətli yer tutur.

Vərdişlər bacarıqların dəfələrlə təkrarı nəticəsində avtomatlaşmış formasıdır. Bacarıqların icrası zamanı insan düşünə-düşünə, iradi cəhətdən gərginliklə işləyir. Vərdişlər zamanı isə eyni hərəkət, iş dəfələrlə təkrar etdirildiyindən beyin qabığında yaranmış müvəqqəti rabitələr əsasında avtomatlaşır. Ona görə də həmin fəaliyyət düşüncə və diqqətin gərgin nəzarəti olmadan icra edilir. Məsələn, vurma cədvəli əzbərlənərkən eyni ədədin müxtəlif sayda toplusunu dərk etmə müəyyən dərəcədə çətinliklə aparılır. Lakin həmin cədvəl dəfələrlə əzbərləndikdən və məsələ, misal həllinə tətbiq edildikdən sonra vərdişə çevrilir, (tək) rəqəmlərin vurulması insanlar üçün avtomatlaşmış vərdiş olur. Belə misalı fəaliyyətin bütün sahələrinə aid etmək olar. Vərdişlər mövcud bacarıqlar əsasında yaradılır, hər bir elmi məlumat əvvəlcə bacarığa sonra vərdişə çevrilir. Lakin bütün bacarıqlar hamısı vərdişə çevrilmir. Məsələn, məsələ həll etmə, inşa yazma, biçmə və s. kimi bacarıqlar nə qədər çox təkrar edilsə də vərdişə çevrilmir, çünki, hər məsələnin öz həlli yolları, məqsədi və s. vardır. Biçmə hər zaman ölçüdə aparılır. Şer demə onun məzmunundan asılı olaraq dəyişir. Şəkil çəkmə məqsəddən asılı olaraq müxtəlifləşir və s.

Vərdişlər də təlim və əmək olmaqla iki yerə ayrılır: sürətli oxu və yazı, şiffahi hesablama və s. təlim, tikmək, toxumaq, ölçmək və s. əmək vərdişlərinə aiddir. Vərdişlərin istər təlim fəaliyyəti və istərsə də əmək fəaliyyətində böyük əhəmiyyəti vardır. Beləki, vərdişlər: fəaliyyətin düzgün və sürətli icrasını təmin edir; vaxta qənaət edir: fəaliyyət prosesində şüuru gərginlikdən azad edir; diqqətin eyni zamanda başqa sahələr üzərinə yönəldilməsinə imkan yaradır.

Təlim və əmək vərdişləri həm təlim, həm də fəaliyyətin səmərəliliyini artırır, onların müvəffəqiyyətli davamı və inkişafına kömək edir. Hər bir vərdiş bacarıqlar əsasında əmələ gəldiyi kimi həm də yeni bacarıqlar yaranmasına səbəb olur. Məsələn, sürətli oxu vərdişi olmadan kitab üzərində müstəqil çalışma bacarığı; ağacı mişarlama, rəndələmə, hamarlama və s. vərdişləri olmadan ağac üzərində nə dülgərlik nə də oyma bəzək işləri aparma bacarığı və s. yaratmaq olmaz.

Göründüyü kimi bilik, bacarıq və vərdişlər bir-birilə sıx əlaqədədir, biri digərinin mövcudluğu və inkişafını təimn edir. İstər təlim fəaliyyəti istərsə də insanların digər istehsal fəaliyyətlərində elmi bilikləri mənimsəmə və bunlara müvafiq bacarıq və vərdişlərə yiyələnmə həyati əhəmiyyət kəsb edir.

Təlim prosesinin elmi əsasları.

Təlim elmi cəhətdən obyektiv aləmin insan şüurunda fəal, canlı əks etdirən idrak nəzəriyyəsinə istinad edir. İnsandan asılı olmayaraq onu əhatə edən hadisələr, faktlar, əşyalar obyektiv aləmdir. Həmin fakt və hadisələr onların arasındakı əlaqələr, münasibətlər, qanunlar idrak prosesi vasitəsilə şüurda əks olunur. İdrak obyektiv olanın insanın subyektiv şəkildə dərk etməsi, şüurunda əksini yaratmasıdır. Dərk etmə isə həqiqətə doğru irəliləmə prosesidir, biliksizlikdən bilikliliyə doğru irəlləmədir. Bu həm də təlim prosesinin mahiyyətini təşkil edir. Təlim prosesində yeni-yeni, getdikcə mürəkkəbləşən biliklərə yiyələnilir, yeni elmi faktlar «kəşf» edilir. Öyrənmə prosesində təlim zamanı öyrənən az dərin dərk etmədən bilikləri daha dərin, dolğun, yüksək səviyyədə dərk etməyə doğru gedir. Bu dərk etmə prosesi özü də dərk edilən obyektiv aləm kimi ziddiyətli və mürəkkəbdir. İdrakın dialektikliyi və mürəkkəbliyi onun daxili ziddiyətində özünü göstərir. Obyektiv aləm hadisələrinin, əşya və faktları öz daxili inkişafı vəziyyətində, inkişafda olduğu kimi canlı şəkildə dərk edilməsi, elə həmin hadisələrin, faktların, əşya və proseslərin əksiklərin vəhdəti kimi dərk edilməsidir. Təbiətin dərk edilməsi ziddiyyətli inkişafda baş verir, ziddiyyətli proseslərin qavranılması, ziddiyyətlərin aradan qaldırılması kimi həyata keçirilir. Maddi aləmin, ziddiyyətli obyektiv aləm qanunauyğunluqlarının dərk edilməsindən ibarət olan təlim prosesi də ziddiyyətdə, inkişafda, dəyişmədə

olan bir prosesdir. Öyrədən mənimsətməyə çalışdığı hər bir elmi həqiqəti sadə yolla, hazır şəkildə deyil elmi idraka əsaslanan axtarışlar kimi aydınlaşdırılmalıdır, öyrənmə prosesində idrak intuisiya və təxəyyülə, mühakiməyə, mücərrədləşdirməyə, induksiya, deduksiya, mühakiməyə istinad edir. Psixofizioloji və pedaqoji tədqiqatlar əsasında sübut edilmişdir ki, şagirdin, ümuiyyətlə öyrənənin malik olduğu təcrübə və biliklərlə, yəni onların malik olduqları intellektual imkanla həll edəcəkləri idrakı iş, aydınlaşdıracaqları elmi faktlar arasındakı ziddiyyət idrak ziddiyyətlərini təşkil edir. Bu prosesdə şagird, tələbə axtarış aparır, zehni və iradi qüvvələrini səfərbər edərək mövcud problemi həll etməyə çalışır.

Təlimin əsas hərəkətverici qüvvəsini daim artan və mürəkkəbləşən tələblərlə öyrənənin imkanları arasındakı ziddiyyət təşkil edir. Bu ziddiyyətlər isə özünü  keçmiş bilik səviyyəsi ilə yeni biliyin mənimsənilməsində məlum biliklərdən istifadə bacarığında, təlimə münasibətdə, öyrənməyə təlabatda və s. göstərir. Ziddiyyətlər bütün tədris prosesində mövcud olduğu üçün təlimin hərəkətverici qüvvəsi hesab edilir. Hər dəfə yeni biliklər öyrənmə tələbi, dərk etmə motivləri getdikcə mürəkkəbləşən təlim tələbləri və bu təlim tələbləri ilə əvvəlcə öyrənilmiş məlum biliklər ziddiyyət təşkil edir ki, bu ziddiyyət nəticəsində də biliksizlikdən biliyə doğru inkişaf prosesi baş verir. Təlimin bu ziddiyyətliliyi yaşından və yerindən asılı olmayaraq öyrənmə motivləri, tələbləri olan bütün sahələrdə mövcuddur. Beləki, mədəniyyət müəssisələrində aparılan təlim xarakterli öyrədici məşğələlər, xüsüsi təlim kursları, təkmilləşdirmə və ixtisasartırma kurslarında bu ziddiyyət özünü daha aydın biruzə verir. Məsələn, məlumdur ki, hər bir elmi yenilik ilk növbədə istehsalalata tətbiq olunur. Bu tətbiq etmə xüsusitəlim məşğələlərində, ixtisasartırma və s. kurslar və ya məşğələlərdə aparılır. Bu zaman köhnə istehsal sisteminin elmi əsaslarına yiyələnmiş işçinin (mühəndis, usta, fəhlə) məlum bilikləri və təcrübəsi ilə yeni məlumat arasında yeni ziddiyət yaranır. Bu ziddiyyəti aradan qaldırmaq üçün işçi ona məlum biliklər arasından yeni ilə bağlı olanı seçir, yeni məlumatlarla əlaqələndirir, yenini tətbiq etmə, səmərəli şəkildə istehsalla əlaqələndirmə sahəsini tapır. Bu zaman biliklərə yiyələnmə motivi daha real və şüurlu olur, çünki, müəyyən mənada bundan işçinin həyatı asılı olur, deməli hərəkət verici ziddiyyət əsasında biliksizlikdən biliyə keçmə kimi dərin, mürəkkəb və incə bir proses baş verir.

İdrak nəzəriyyəsi vasitəsilə dərk etmənin strukturu aşkar edilir, onun kompanentləri arasındakı qanunauyğun əlaqələr təlim prosesində, dərk etmədə bu əlaqələrin əhəmiyyəti müəyyən edilir. Hələ kiçik yaşlarından məktəblilər ümumiləşdirilmiş bilikləri qavraya bilir, ümumiləşdirilmələr vasitəsilə həm biliklərə yiyələnir, həm də ümumi inkişaf üçün qısa və səmərəli yol seçir. Lakin hər zaman canlı, əyani, konkret hadisələr mücərrəd təfəkkürü zənginləşdirir. Bu isə ümumi inkişaf üçün xüsusi əhəmiyyətə malikdir.

İdraki fəaliyyət idraka daxil olan çoxsaylı, müxtəlif məzmunlu, materiallarsız, canlı obrazlı təsəvvürsüz mümkün deyildir.

Təlim idrakında induksiya və deduksiyanın vasitəsiz və vasitəli yollarından istifadə edilir.

Təlimin, dərk etmənin  ən səmərəli vasitələrindən biri onun təcrübə ilə əlaqələndirilməsidir. Bu təlim işində xüsusi metodolooji prinsipdir. Beləki, təlim insanların geniş ictimai təcrübəsindən təcrid edilə bilməz. Məhz təlim prosesində insanlar dərk edirlər ki, hər bir idrakın son məqsədi təbii əşya və hadisələri dərk edərək ona yiyələnmədir. Təlimin ictimai və şəxsi təcrübəyə əsaslanması onu maraqlı və səmərəli edir. Təcrübə biliklərin tətbiq edilməsi ilə daha çox bağlıdır. Bu prosesdə həm bacarıqlar təsbit edilir, həm biliklər möhkəmlənir, biliklərin doğruluğu yoxlanılır, həm də elmin fəaliyyət üsulları mənimsənilir.

Təlim öyrətmək, inkişaf etdirmək və tərbiyələndirmək vəzifələrini yerinə yetirir.

Müasir dövrdə təlimə verilən tələblər və yanaşmalar çoxcəhətlidir.

Çünki hazırki dövrdə təlim nəzəriyyəsi və təcrübəsi müxtəlif şəraitdə inkişaf edir. Elm və texnikanın yüksək inkişaf etdiyi indiki vəziyyət məktəb üçün elmi materiallar üzərində düşünməyə məcbur edir. Elmi inkişafla yanaşı insan özü, onun istehsalata münasibəti, əxlaqi-etik görüşləri də dəyişmişdir. Müasir uşaqlar da öz yaş səviyyələrinə görə əvvəlki eyni yaşlı uşaqlara nisbətən yüksək şəkildə inkişaf etmişdir. Ona görə də təhsil alanların yaş və fərdi xüsusiyyətlərinə, inkişaf tempinə uyğun olan, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən, ümumi inkişafını daha səmərəli şəkildə təmin edən yanaşmalar meydana çıxmağa başladı. Belə yanaşmalardan biri də proqramlaşdırılmış  təlim idi.

Proqramlaşdırılmış təlim ideyası kibernetikanın inkişafı ilə meydana gəlmişdir. Bu təlimi ilk dəfə Amerika psixoloq və pedaqoqları S.Pressi, B.Skinner, D. Evans, N. Krauder hazırlamışlar. Proqramlaşdırılmış təlimin əsasını materialın məzmununun lüzumsuz şeylərdən təmizlənməsi təşkil edir.

Öyrədilən materialın məzmunu hissələrə ayrılır, hər hissənin icrası üzrə öyrənən (şagird və ya tələbə, işçi) xüsusi tapşırıq alır, yerinə yetirilən tapşırıq möhkəmləndirilir, sonra digər hissə yerinə yetirilir, səhvə yol verildikdə yeni izahat verilir və səhv edilən hissə yenidən yerinə yetirilir. Bu addım-addım irəlləmədə öyrədən üçün xarici, öyrənən üçün isə daxili əks əlaqə yaranır.

Proqramlaşdırılmış təlim tədris maierialının nizamlanmış şəkildə etibarlı öyrənmə vasitəsi, öyrənənin müstəqil öyrənmə fəaliyyətidir. Bu prosesdə bütün təlim vasitələri, dərsliklər, cihazlar, texniki vasitələr öyrədən və öyrənənin

köməkçisi rolunu oynayırlar,köməkçi kimi çıxış edirlər. Təlimin bu növündə əsas məqsəd az vaxt ərzində daha çox material mənimsətməkdən ibarətdir. Proqramlaşdırılmış təlim zamanı proqramlar əvvəlcədən tərtib edilir, həmin proqramda aralıq və son nəticələr və nəticələrə gəlmə prosesi ardıcıl şəkildə verilir.

Proqramlaşdırılmış təlimin ənənəvi təlimdən üstünlüyü ondan ibarətdir ki, öyrədiləcək məlumatın bütün ayrılmış hissələri öyrənənlərin hər birinin idrakı fəaliyyəti ilə əlaqələndirilir, tədris materiallarının hafizədə möhkəmləndirilməsinə artıq xüsusi vaxt ayrılmır. İdraki fəaliyyət elə sistemlə qurulur ki, materialın möhkəmləndirilməsi öyrənmə prosesində həyata keçirilir. Lakin bu təlim müsbət keyfiyyətlərlə yanaşı bir çox nöqsanlara da malikdir. Beləki, proqramlaşdırılmış təlim öyrənənlərin bacarıq və vərdişlərini inkişaf etdirib, təkmilləşdirdiyi halda nəzəri məlumatların hərtərəfli və əhatəli şəkildə mənimsənilməsini təmin etmir, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmir, təşəbbüskarlığa imkan yaratmır, fəaliyyəti dar, proqram çərçivəsində saxlayır.

Müasir pedaqogikada alqoritmləşdirilmiş təlim də xüsusi əhəmiyyətə malikdir. Alqoritm müəyyən tipə aid idraki və əməli vəzifələrin məntiqi ardıcıllıqla yerinə yetirilməsidir. Alqoritm prosesində bir və ya silsilə məsələlərin həlli ən sadə addımlarla icra edilir və hökmən düzgün nəticəyə gətirilir. Təlim alqoritmi öyrənənin məntiqi fəaliyyətinin məntiqi quruluşunu üzə çıxarır, məntiqi düşünməyə istiqamət verir, təfəkkürə, düşünməyə takan verir. Məsələn, müxtəlif mərhələlərdə riyaziyyatda çoxlu alqoritmlərdən istifadə edilir. Dilin öyrənilməsi, təhlili və tədqiqi alqoritmlə aparılır. Alqoritmli təlim ən çox mədəniyyət müəssisələrində, dərnək təlimi məşğələlərində, yaradıcılıq birliklərində, xüsusi təkmilləşdirmə və ixtisasartırma kurslarında tətbiq edilir.

Lakin təlim prosesində bütün materialları alqoritmləşdirmək mümkün deyildir və buna imkan da yoxdur. Təlimdə alqoritmləşdirmə, müəyyən mənada qiymətli yanaşmadır. Bu zaman öyrənən özlərinin zehni və əməli fəaliyyətlərini ifadə etmə vasitələri ilə silahlandırılırlar,onlar özlərinin bilik və fəaliyyətlərini tətbiq etməklə təsdiq edirlər

Problemli təlim də pedaqoji tərəqqinin tərkib hissələrindən biridir. Bu təlimin inkişaf etmiş nəaliyyəti hesab olunur. Ənənəvi təlimə görə öyrədilən material öyrənənlərə hazır şəkildə, onların idrakına heç bir tapşırıq vermədən, daha doğrusu öyrənənlər heç idraki bir çətinliyə salınmadan verilirdi. Bu isə müasir təlim qarşısında qoyulmuş vəzifələrin, ümumi inkişafın tələblərinə cavab vermirdi. Problemli təlimin pmahiyyəti ondan ibarətdir ki, öyrədiləcək hər hansı elmi məlumat öyrənənlər qarşısında həll edilməli problem şəklində qoyulmalı, öyrənənlərin (şagird, tələbə, kursant, dərnək üzvü və s.)həmin problemlərin həllinə cəlb edilməli, qoşulmalıdır. Bu zaman öyrənənlərdə yeni materiallarla bablı olan əvvəlki məlum həqiqətlər üzə çıxarılaraq yeni ilə əlaqələndirilir, məlum olmayan həqiqəti üzə çıxarmaq üçün araşdırmalar aparılır. Öyrənilən yeni bilik öyrədənin rəhbərliyi ilə elə tədqiqatçılıq araşdırıcılıqla aparılır ki, yeni öyrənənlərin «kəşfi» kimi meydana çıxır. Problemli təlim prosesində öyrənənlərin idraki fəallığı artır, məntiqi təfəkkürü inkişaf edir, tədqiqatçılıq və yaradıcılıq qabiliyyətləri inkişaf edir, hadisələrə yanaşma tərzi elmi şəkil alır, problemi görmək, dərk etmək, həlli yollarını axtarma bacarığı formalaşır, müstəqil işləmə bacarığı tərbiyə olunur.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1.Təlimin mahiyyəti.

2.Mədəniyyət müəssisələrində mövcud olan təlim məşqələlərinə verilən tələblər.

3.Mədəniyyət və incəsənət müəssisələrindəki təlim məşqələlərinin spesifik xüsusiyyətləri.

# TƏLİM PRİNSİPLƏRİ

Ümumiyyətlə prinsip insanların hər hansı istənilən fəaliyyət prosesində istinad etdiyi, rəhbər tutduğu qaydalar sistemidir. Təlim prinsipləri öyrədənin (müəllim, təlimatçı, usta və s.) öyrətmə prosesində, biliklərə yiyələnmə prosesində əsaslandığı qaydalar, qanunlar sistemidir. Təlim prinsipləri təlimin bütün mərhələlərində, öyrətmənin yerindən, yaşından asılı olmayaraq bütün mərhələlərində ən ümumi cəhətlərini əhatə edir. Təlimin məqsədlərinin səmərəli şəkildə yerinə yetirilməsinə xidmət edən təlim prinsipləri təlim məqsədlərindən asılı olaraq dəyişir.

Öyrətmə təcrübəsi, müəllim və öyrətmə ilə məşqul olan digər şəxslərin təcrübəsi, ümumiləşdirilmiş qənaətləri və s. təlim prinsiplərinin mənbəyidir. Bura həmçinin klassik pedaqoqların təlim haqqındakı nəzəri fikirləri də daxildir. Pedaqoqika tarixində təlim prinsipləri müxtəlif mənbələrə istinad edilərək müəyyən edilmişdir. Məsələn Y.A.Komenski təlim prinsiplərini təbiətəvarilik əsasında müəyyən etmişdir.

Təlim prinsipləri haqqındakı mövcud nəzəri və təcrübi fikirləri ümumiləşdirərək aşağıdakı şəkildə təsnif etmək olar:

1.Təlimin həyatla, quruculuq işi ilə əlaqələndirilməsi.
2.Təlimin mövcud əxlaq normalarına uyğun tərbiyələndirməsi.
3.Müvafiqlik.
4.Fərdi yanaşma.
5.Əyanilik.
6.Şüurluluq və fəallılıq.
7.Sistematiklik və ardıcıllıq.
8.Biliklərin möhkəmləndirilməsi.

**Təlimin həyatla quruculuq işi ilə əlaqələndirilməsi.**

Bu prinsip bütün formasiyalar və dövrlər üçün aktual olan əsas prinsipdir. Çünki bu, bilavasitə cəmiyyətin pedoqoji proses qarşısında qoyduğu məqsəddən, formalaşdırmalı şəxsiyyət modelindan çıxış edir. Yəni təlim işi bilavasitə həyatın tələbləri ilə əlaqələndirilməli, həyatla bağlanılmalıdır. Orta ümumtəhsil məktəblərində tədris edilən hər bir elmin həyati əhəmiyyəti şüurlu sürətdə dərk etdirilməlidir.

Mədəniyyət müəssisələri və digər (ixtisas artırma, təkmilləşdirmə və s.) müəssisələrdə tədris edilən elmlər isə bilavasitə həyatın tələblərindən irəli gəldiyi üçün qürücülüqla, həyatla bağlı olur. Digər tərəfdən mədəniyyət və incəsənət müəssisələrində aparılan tədbirlər, dərnəklərdəki yaradıcılıq işləri, ümumiyyətlə bütün yaradıcılıq fəaliyyəti cəmiyyətin aktual problemləri əsasında tədris edilir və bilavasitə quruculuq işləri ilə əlaqələndirilir.

**Təlimin tərbiyələndirməsi.**

Bu prinsip pedaqoji qanunauyğunluqlardan biridir. Beləki öyrənənlər təlim prosesində biliklərə yiyələnməklə yanaşı həm də tərbiyə olunurlar. Təlim materiallarının məzmunu elə qurulur, tərtib edilir ki, o, həm də mövcud əxlaq normaları baxımından tərbiyə edir. Təlim öz məzmunu ilə yanaşı təşkili formaları, səmərəli üsul və vasitələri ilə öyrənənlərin əxlaqına, dünyagörüşünə, onlarda psixi proseslərin inkişafına təsir göstərir. Yəni təlim prosesi tərbiyələndirmə vasitəsinə çevrilir.

Demokratik təlim sistemində təlim ilk növbədə öz məzmunu ilə tərbiyələndirir. Beləki dəqiq elmlərə aid fənlərin tədrisi zamanı təbiət hadisələri obyektiv qanunlar əsasında aparılır. Təbii hadisələr arasındakı əlaqələr obyektiv inkişaf qanunauyğunluqlar əsasında izah edilir. Dərk olunmuş obyektiv qanunauyğunluqlar isə materialist dünyagörüşün əsasını qoyur, hər kəsə təbiət və cəmiyyət hadisələrinə obyektiv və şüurlu yanaşma imkanı verir.

Humanitar fənlərin tədrisi vasitəsilə isə böyüyən nəsldə müxtəlif əxlaqi keyfiyyətlər formalaşdırılır. Məsələn tarix dərslərində uşaq, yeniyetmə və gənclər tarixi keçmişi ilə tanış olur, yadellilərə və ölkənin müstəqilliyi uğrunda vuruşaraq canından keçən qəhramanlarla, şəhidlərlə və onların döyüş yolu ilə tanış olur. Bu isə tərbiyə olunanlarda milli vətənpərvərlik tərbiyə edir.

Coğrafiya dərslərində ölkənin təbii coğrafi şəraiti, iqlimi, təbii gözəllikləri, sərvətləri ilə tanışlıq onlarda milli qürur və iftixar hissi tərbiyə edir.

Mədəniyyət müəssisələrində aparılan təlim işlərinin məzmunu da insanlarda zəruri əxlaqi keyfiyyətlərin formalaşdırılmasına imkan verməlidir. Hər bir mədəniyyət və incəsənət işçisi öz işinin məzmunu ilə tərbiyə etməlidir. Daha doğrusu hər bir yaradıcı əsər öz məzmunu ilə insanlarda cəmiyyətin vacib saydığı əxlaqi keyfiyyətləri aşılamalıdır. Məsələn, rəssamın rəsm əsərləri insanlarda gözəllik duyğuları yaratmalı, gözəlliyi sevdirməli, onlarda gözəlliyi qorumaq, qayğısına qalmaq hissləri, ətraf mühiti daha da gözəlləşdirmə meyl və təşəbbüsləri yaratmalıdır.

**Müvafiqlik və ya gücəuyğunluq prinsipi.**

Bu prinsip təlimi öyrənənlərin inkişaf səviyyəsinə – psixoloji, fizioloji və intellektual – uyğun şəkildə qurmağı tələb edir. İnsanların inkişaf səviyyələri qarşılıqlı əlaqə və vəhdətdə gedir. Yəni yaş artdıqca uşaqlar həm fiziki cəhətdən inkişaf edirdə, həm psixoloji prosesləri, ona görə anlama səviyyə artır. Digər tərəfdən təlim prosesində getdikcə mürəkkəbləşən biliklərə yiyələnirlər, yəni intellektual imkanları da artır tədris ediləcək elmi məlumatlar, və vasitələri müəyyən edilir.

Gücə müvafiqlik həmçinin asılanacaq bacarıq və vərdişlərdə də nəzərə alınır. Bu təlimin səmərəliyini təmin edən mühüm prinsiplərdən biridir.

Təlim materiallarının seçilməsi ilə bərabər səmərəli mənimsədilməsin təmin edən üsullar, onların məzmunu da mürəkkəbləşir. Müxtəlif yaş səviyyələrində mənimsəməyə münasibət, maraq da müxtəlifdir. Əgər orta ümum təhsil məktəblərində mənimsəmə, biliklərə yiyələnmə, yiyələnmiş biliklərə müvafiq bajarıqlara, vərdişlərə yiyələnmə məcburidirsə sonrakı mərhələdə bu könüllü xarakter alır. Beləki peşə seçmə insanların müstəqil şəkildə biliklərə yiyələnməsi, yaradıcılıq işləri, təkmilləşmə prosesləri buna misal ola bilər. Bu mədəniyyət müəssisələrində mövcud olan marağa görə təlim işlərinə də aiddir. Mədəniyyət müəssisələrində təşkil edilən müxtəlif növ məşğələlərdə mənimsəmə səviyyəsini yüksəltmək üçün öyrənənlərin gücünə müvafiq, intellektual tələblərinə və səviyyəsinə uyğun maraqlı təlim materialları və səmərəli təlim üsulları seçilməlidir. Bu üsullar öyrənənlərin yaş səviyyələrinə uyğun olaraq onların inkişafını düzgün istiqamətləndirməli onu öz arxasınca aparmalıdır. Öyrənənlərin marağlandığı təlim məşğələlərini daha səmərəli, inkişaf etdiriji, qurmaq təlim materialının məzmununa, həmçinin öyrənənlərin intelektual səviyyəsinə müvafiq üsullar seçilməsindən də çox asılıdır. Müvafiqlik prinsipi müxtəlif yaş səviyyələrində aşağıdakı qaydalarda ifadə olunmuşdur: məlumdan məchula: asandan çətinə; sadədən mürəkkəbə; ümumidən xüsusiyyə.

**Fərdi yanaşma.**

Təlim prosesində gücəmüvafiqliklə bərabər fərdi yanaşma da böyük əhəmiyyət kəsb edir. Mənimsəmə səviyyəsini yüksəltmək ayrı-ayrı yaş dövrlərində - siniflər, kurslar, dərnəklər və sairdə-öyrənənlərin, təlim alanların ümumi inkişaf və yaş xüsusiyyətləri ilə yanaşı fərdi xüsusiyyətlərini də nəzərə almağı tələb edir. Eyni yaş dövründə insanların ümumi cəhətləri ilə yanaşı fərdi – xüsusi cəhətləri də mövcuddir. Belə ki, eyni yaşlı insanlar müxtəlif fiziki inkişaf, psixi xüsusiyyətlərə malikdir.

Təlim prosesində məhz fərdi xüsusiyyətlər nəzərə alınmalı, hər kəsə bu fərdi imkanlara uyğun olaraq yanaşılmalıdır. Məsələn eyni sinifdə oxuyan eyni yaşlı uşaqlardan bəzilərinin görmə hafizəsi, birinin nəzəri hafizəsi və s. qüvvətlidir; birinin təfəkkürü güclüdür, tez düşünür, nətijə çıxarır, digəri nisbətən ləng fikirləşir; biri problemdən qorxur, digəri həll etməyə problem axtarır və s. Təlim prosesində bu xüsusiyyətlər nəzərə alınmazsa təlim müvəffəqiyyətinə də nail oluna bilinməz.

Bu cəhətlərin nəzərə alınmasında əsas məqsəd zəif cəhətləri aradan qaldırmaq, qüvvətli tərəfləri daha da inkişaf etdirərək təlim səviyyəsini yüksəltməkdən ibarətdir. Fərdi yanaşma müxtəlif səviyyəli öyrənənlərin hamısı üçün zəruridir. İnsan inkişaf edib dəyişdikjə ondakı fərdi xüsusiyyətlər də, onların səviyyəsi də dəyişir.

Fərdi yanaşma prinsipindən mədəniyyət müəssisələri, istehsal müəssisələri, incəsənət və digər müəssisələrdə təşkil edilən təlim məşğələlərində də istifadə edilir. Məsələn, müxtəlif yaşlılar üçün təşkil edilmiş rəqs dərnəkləri, musiqi dərsləri, xarici dil dərnəkləri, biçmə-tikmə və s. kimi məşğələləri gostərmək olar. Bu dərnəklər müxtəlif yaş və intellektual səviyyəli insanlar üçün təşkil edilir. Bunlar sırf təlim işləridir. Ona görə də həmin məşğələlərdə təlimin digər prinsipləri kimi yaşauyğunluluq prinsipi də tətbiq edilir.

**Əyanilik prinsipi.**

Bu prinsip dərk etməni real əyşa və ya hadisələr, faktlar üzərində qurmağa deyilir.

Məşhur çex pedoqoqu Y.A.Komenski əyaniliyə yüksək qiymət verərək onu müəllimlər üçün «qızıl qayda» adlandırılmışdır. Qeyd etmişdir ki, mənimsəmə prosesində nə qədər çox hiss üzvləri iştirak edərsə qavrama bir o qədər səmərəli olar.

Mənimsənilən materialın konkret əşya və hadisələr üzərində qurulması, onun haqqındakı məlumatı dəqiqləşdirir, daha da aydın və dürüst dərk etmə imkanı yaradır. Əşya haqqında (məlum olmayan) şifahi sözlə məlumat əvəzinə özünün təqdim olunması mənimsəmədə eyni zaman da bir neçə hiss üzvünün iştirakını təmin etdiyi üçün, əşya aydın mənimsənilməklə yanaşı uzun müddət yadda qalır, hafizədə özünə daha möhkəm yer edir. Bu həmçinin materialın şüurlu mənimsənilməsinə də imkan yaradır. Hər kəsə öyrəndiyini görmə, toxunma, üzərində iş aparma imkanı verilir.

Əyanilik təlimin bütün sahələrində,bütün mərhələlərində aktualdır. Bu əsasən əşya və ya hadisə haqqında ilk tanışlıq zamanı müsbət nəticə verir. Təhsil müəssisələrində bu əvvəlcədən düşünülmüş xüsusi sistem əsasında aparılır.

Mədəniyyət və incəsənət müəssisələrində aparılan təlim tipli məşğələlərdə də bu xüsusilə nəzərə alınmalıdır. Məsələn musiqi, dərnəklərində musiqi alətini tutma, ifanın xüsusi elementləri müəllim

tərəfindən göstərilməklə yanaşı xüsusi şəkillər vasitəsilə də çatdırılmalıdır. Rəqs dərnəklərində rəqsin özünü, ifa tərzlərini əks etdirən şəkil və plakatlardan istifadə edilməlidir.

Yallılar və gənclər üçün texniki və digər yaradıcılıq dərnəklərində isə vəziyyət başqadır. Beləki, bu dərnəklərdə irəli sürülən hər bir «yeni» mütləq köhnənin üzərində onun yenidən təhlili və tərkibi üzərində qurulur. Burada da əyani şeylərlə yanaşı onun şəkli, sxemi, maketi üzərində də işləmək olar.

Deməli əyanilik təlimin bütün səviyyələrində biliyin asan mənimsənilməsini, əşya və hadisələr haqqında düzgün təsəvvürlər yaranmasını, nitq və təfəkkür inkişafını, biliklərin uzun müddət hafizədə qalmasını, dərsin maraqlılığını öyrənənlərin fəallığını və s. təmin edir. Bu prinsip öyrənənlərin yaş, intelektual, ümumiyyətlə inkişaf səviyyələrinə uyğun şəkildə tətbiq edilməlidir.

**Şüurluluq və fəallıq prinsipləri.**

Yeni materialı dəlil və sübutlarla, isbatlarla öyrənməyə fəal surətdə bilik əldə etmə, biliklərini tətbiq etməyə şüurluluq və fəallıq deyilir. Bu prinsipi pedaqoqika tarixində inqilabi bir prinsip adlandırmaq olar. Beləki, uzun müddət mənimsəmədə doqmatik prinsip hökm sürmüşdür. Şüurluluq və fəallıq prinsipi də məhz bu prinsipə qarşı qoyulmuşdur. Şüurluluq prinsipi əsasında öyrənənlərin təfəkkürünə tez-tez tələblər verilir, onlar düşünərək məntiqi nəticələr çıxarılmağa məcbur edilirlər. Bu isə onlara öyrəndikləri bilikləri istənilən zaman sübut edə bilmə imkanı verir. Materialın mənimsənilməsi zamanı öyrənənlərin təhlillərə, müqayisələrə, səbəb və nəticə əlaqələrinin araşdırılmasına cəlb edilməsi onların mənimsəməyə şüurlu münasibətilə yanaşı fəallığını da artırır. Təlim prosesində, ümumiyyətlə öyrənmə prosesində şüurluluq və fəallığı təmin etmək üçün öyrəniləçək hər material qarşıya problem şəklində qoyulmalı və öyrənənlər onun həllinə cəlb edilməlidir. Bu zaman öyrənənlər yeninin bütün mümkün əlaqələrini axtarır, müqayisələr edir yeni–yeni əqli nəticələr çıxarmağa çalışırlar.

Mədəniyyət müəssisələrindəki təlim işlərində də öyrətmə məhz bu prinsip əsasında aparılır. Marağa görə təşkil edilmiş dərnəklərdə bu xüsusilə qabarıq şəkildə üzə çıxır. Çünki bu dərnəklər özləri problemlilik, axtarıcılıq tələbləri əsasında qurulmuşdur. Burada şüurluluq fəallıqla müstəqillik axtarıcılıqla daha qabarıq şəkildə birləşir. Deməli təlimdə şüurluluq və fəallıq həm də təlimin müxtəlif səviyyə və formalarında öyrənənlərin həmdə müstəqilliyini inkişaf etdirir, onlarda hadisə və faktlara sərbəst yanaşma bacarığı formalaşdırır. Bu cür mənimsənilmiş biliklər inamlı olur, hafizədə möhkəm qalır, düzgün dünyagörüşün əsasını qoyur.

Şüurlu sürətdə mənimsənilmiş bilikləri istənilən zaman, lazım gəldikdə tətbiq etmək də asan olur. Bu isə əvvəlcə müxtəlif təlim çalışmalarında həyata keçirilir, öyrənmənin müxtəlif səviyyələrində genişləndirilir. Buna isə mədəniyyət müəssisələrində marağa görə məşğələlərdə daha geniş imkan vardır. Beləki hər hansı yaradıcılıq işində (dərnəklərdə) yeni, məhz əvvəlki, insanların təlim prosesində mənimsədikləri bilikləri üzərində qurulur. Daha doğrusu təlim prosesində biliklər tətbiq edilərək onun yeni cəhətləri axtarılır, araşdırılır.

Şüurlu mənimsənilmiş biliklər həmçinin öyrənənlərin nitqini inkişaf və tərbiyə edir. Hər kəs öyrəndiyi məlumatı şifahi və ya yazılı şəkildə şərh etmək üçün söz axtarır, cümlə qurur, fikrini məntiqi və ardıcıl şəkildə tfadə etməyə çalışır. Bu isə öyrənənlərin nitqini və məntiqi təfəkkürünü inkişaf etdirir.

Şüurluluq həmçinin öyrənənlərin nəzəri və əməli, fəallığının da artırılması deməkdir. Biliklərin şüurlu mənimsənilməsi nəzəri öyrənənlərin nəzəri səviyyəsini artırır, onların biliklərini tətbiq edə bilməsi, müxtəlif şəkildə sınaqdan keçirməsi, hər kəsin öz həyat və fəaliyyətində ondan istifadə etməsi isə əməli fəallığını təmin edir. Bu prinsip təlimin müvəffəqiyyətini təmin edən əsas prinsiplərdən biridir.

**Sistematiklik və ardıcıllıq.**

Bu prinsip elmlərin əsaslarına yiyələnən zaman elmin sistemini mühafizə etmək, bilik, bacarıq və vərdişləri aşılayarkən müəyyən ardıcılığa riayət etmədir. Bu prinsipə riayət etmədən sistemli elmlərə yiyələnmə də mümkün deyil. Elmlərin özlərinin sistemi də bunu tələb edir. Müxtəlif sniflərdə tədris edilən fən aid olduğu, ifadə etdiyi elmin sistemi əsasında qurulur. Həmçinin proqramlar, dərs yükü, da məhz elmin sistemi əsasında qurulur. Digər tərəfdən təbiət və cəmiyyət hadisələri bir–birilə qarşılıqlı əlaqədə olduğu kimi onları əks etdirən elmlər də bir-birilə qarşılıqlı əlaqədədir. Bu bir-birilə əlaqədar elmlər də müəyyən sistem əsasında öyrədilməlidir. Mənimsənilmiş biliklər də müəyyən sistemlə bacarıq və vərdişlərə çevrilməlidir.

**Biliklərin möhkəmləndirilməsi.**

Təlimin müvəffəqiyyətini təmin edən əsas və mühüm prinsiplərdən biri də biliklərin möhkəmləndirilməsidir. Y.A.Komenski biliyin möhkəmləndirilməsi qayğısına qalmayan müəllimin işini xəlbirlə su daşımağa bənzədirdi. Hər bir sonrakı bilik özündən əvvəlkinin davamı olmaqla ona əsaslanır, ona görə də hafizədə möhkəmləndirilməyən biliyin heç bir əhəmiyyəti olmur, onun öyrənilməsinə sərf olmuş zaman da hədər gedir.

Uşinski biliklərin möhkəmləndirilməsi qayğısına qalmayan müəllimin işini yükünü arabaya pis bağlamış arabaçının işi ilə müqayisə edir, ona bənzəyir.

Birliklərin şüurlu, problemli situasiya şəraitində mənimsənilməsi onların hayizədə uzun müddət qalmasına imkan yaradır.

Öyrənilmiş məlumatların tətbiqi də biliklərin möhkəmləndirilməsi şərtlərindən biridir. Hər bir müəllim, təlimatçı, dərnək rəhbəri öyrətdiyi məlumatların yadda qalması qaydasına qalmalı, bunun üçün bütün vasitələrdən istifadə etməlidir. Belə səmərəli vasitələrdən biri təkrarlardır. Öyrənilmiş material dəfələrlə təkrar etdirildikcə hafizədə özünə daha möhkəm yer edir. Təkrarlar rüblük və illik olmaqla üç yerə ayrılır. Cari təkrarlar hər dərsdə müəyyən biliklərin yada salınmasıdır.

Rüblük və illik təkrarlar hər rübün və dərs illiyin sonunda aparılan yoxlama təkrarlarıdır. Problemi təlim zamanı yeni öyrənilənin məlum əlaqələri təkrar müsahibələr vasitəsilə üzə çıxarılır. Burada təkrar müsahibələr müəyyən mənada, yaradıcı müsahibə kimi çıxış edir.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1. Təlim prinsiplərinin mahiyyətini təhlil edin.
2. Mədəniyyət müəssisələrində təlim prinsiplərinin tətbiqi.
3. Təlim prinsipləri haqqında nəzəriyyələr.

## TƏLİM ÜSULLARI

Məqsədə müvəffəqiyyətlə nail olmağın əsas və başlıca şərti fəaliyyət üsullarının düzgün seçilməsidir. Fəaliyyətin bütün sahələrinin müvəffəqiyyəti məhz bundan asılıdır. Bu təlim fəaliyyətinə də aiddir. Beləki öyrətmə, bilik, bacarıq və vərdişlərə səmərəli şəkildə yiyələndirmə əlverişli, səmərəli təlim üsulu seçməkdən çox asılıdır. Öyrənənlər də, ümumiyyətlə insanlarda biliksizlikdən biliyə doğru irəlliləmə obyektiv aləm hadisələri haqqında dərin elmi məlumatlara yiyələnmə, yaradıcılıq qabiliyyətlərinin inkişafı, müstəqil işləmə bacarığı, başqaları ilə birgə çalışma qabiliyyətləri məhz düzgün seçilmiş təlim üsulları vasitəsilə həyata keçirilir.

Təlim üsulları təlim məqsədlərini həyata keçirmək və təlim fəaliyyətini səmərəli təşkil etmək üçün öyrədənlərin istifadə etdikləri yollardır. Müxtəlif dövrlərdə alimlər təlim üsullarını müxtəlif şəkildə təsnif etmişlər. Pedaqoqlar bu təsnifatda müxtəlif mənbələrə istinad etmişlər. Məsələn M.Muradxanov XX əsrin 60-cı illərində təlim üsullarını bilik mənbələrinə görə aşağıdakı şəkildə təsnif etmişdir:

1. Şifahi və müsahibə, metodları.
2. İllüstrasiyə və demonstrasiya, metodları.
3. Labalator məşğələləri, praktik məşğələlər və çalışmalar.
4. Kitab üzərində iş.

80-cı illərdə B. Əhmədov təlim üsullarını istifadə olunan vasitələr baxımından təsnif etmişdir: sözlü, əyani, təcrübi metodlar olmaqla üç qrupa ayırmışdır.

90-cı illərdə N.Kazımov təlim üsullarını təlim mərhələlərinə görə müəyyənləşdirmişdir və təlim üsullarını aşağıdakı şəkildə qruplaşdırmışdır.

1.Yeni tədris materiallarının, əsasən, qavranılmasına xidmət edən üsullar.
2.Bilik, bacarıq və vərdişlərin, əsasən, formalaşmasına xidmət edən üsullar.
3.Bilik, bacarıq və vərdişlərin, əsasən, tətbiqinə xidmət edən üsullar.
4.Təlimdə müvəffəqiyyətə nəzarət edən üsullar.

Rus və digər ölkələrin pedaqoqları da təlim üsullarını müxtəlif konsepsiyalardan təsnif etmişlər. Bu dərslikdə işə təlim üsulları tətbiqi sahəsi baxımından təsnif edilir. Yəni təlim üsullarının sırf təlim müəssisələrində deyil, müəyyən mənada, pedaqoji gerçəklikdə tətbiqi baxımından təsnif ediləcək. Təlim – tərbiyə müəssisələrində tətbiq edilən təlim üsullarının müxtəlif qeyri-təhsil müəssisələrindəki təlim xarakterli işlərdə, fəaliyyət sahələrində tətbiqi baxımından yanaşılacaq. Bu fəaliyyət sahələrinə mədəniyyət müəssisələrindəki təlim öyrətmə dərnəklərini, islah –əmək koloniyalarındakı dərnək tipli təlim işlərini, istehsal müəssisələrindəki ustanın-şagirdi təlimi etməsi öyrətməsi və s. bu kimi məşğələlərdə istifadə edilən təlim üsulları və tərzləri təhlil ediləcək. Bu məşğələlərdə təlimin bütün üsulları tətbiq edilir. Həmin üsullar məşğələnin məzmunundan və məqsədindən asılı olaraq üsul və ya tərz kimi çıxış edir. Tərz əsas öyrətmə üsulunda göməkçi kimi çıxış edən xırda epizodik yollardır. Məqsəddən asılı olaraq bunlar rollarını dəyişdirirlər. Məsələn mühazirə metodunda əyani vəsaitlərdən istifadə əyanilik tərzi kimi çıxış edir. İllistrasiya, demonstrasiya, əşya dərsləri zamanı isə əyanilik üsul, izah ilə tərz kimi çıxış edir. Təlim üsullarının təsnifi və qruplaşmasında biz üsulları təlimin məqsədi, simvol və motivləri, şüurluluğu, problemliliyi, nəzarət və özünə nəzarətə əsaslanması baxımından götürəcəyik. Bu nöqteyi-nəzərdən təlim üsullarını aşağıdakı şəkildə təsnif etmək olar: Yeni biliyin öyrədilməsinə xidmət edən sözlü üsullar; Yeni biliyin öyrədilməsi prosesində mustəqil fəaliyyət elementləri üstünlük təşkil edən və bilik, bacarıq, vərdişlərin yaradılmasına xidmət edən üsullar (ekskursiyalar, labarator məşğələlər, kitab üzərində müstəqil iş, oyunlar, məsələlər və s.); Müstəqil işlər; Problemli təlim, proqramlaşdırma üsulları; Nəzarət və özünənəzarət metodları.

**Yeni biliyin öyrədilməsinə xidmət edən sözlü metodlar.**

Bu metodlar ənənəvi pedaqoqikada şərh üsulları kimi, gedir. Lakin burada şərhin bütün növləri deyil, ancaq yeni biliyin öyrədilməsində daha çox rolu olan metodlardan bəhs ediləcəkdir: izah, nəql, mühazirə, müsahibə.

İzah təlimin ən geniş yayılmış usuludur. Bu öyrəniləcək yeni materialı şifahi söz vasitəsilə dəlillərlə isbat etməkdir. İzah vasitəsilə öyrənənlər yeni fakt və ya hadisənin, elmi təlimatın səbəb və nəticə əlaqələrini dərk edir, mənimsəyir. Bu zaman həm də yeni dərk olunan material əvvəl dərk olunmuşlarla əlaqələndirilir, beləliklə də yeni öyrənilən məlum biliklər sisteminə daxil edilir. Məlum biliklərə istinad edilərək öyrənilənin yeni cəhətləri aşkar edilir. Bu əlaqə mədəniyyət müəssisələrindəki texniki-yaradıcılıq dərnəklərində daha qabarıq nəzərə çarpır. Problemli izah vasitəsilə «kəşf» edilmiş elmi məlumatları insanlar daha yaxşı dərk edirlər. Belə dərk olunmuş elmi məlumatlar onların malına çevrilir. Öyrətmə zamanı, daha döğrusu izah zamanı müxtəlif vasitələrdən də istifadə etmək olar. Yəni öyrədən öz fikirini daha aydın izah etmək üçün müxtəlif əyani vasitələrdən, illüstrativ və demonstrativ vasitələrdən istifadə

edə bilər. İzah zamanı həmçinin öyrətmənin səmərəliyini təmin edən induktiv və dediktiv təlim formalarından da istifadə edilir. İndiktiv və dediktiv izah formalarından istifadə təlimin məqsədindən asılıdır. İzah üsulundan dəqiq elmlərin mənimsədilməsində daha geniş istifadə edilir. Humanitar elmlərin öyrədilməsi prosesində hadisə və faktlar arasında səbəb – nəticə əlaqələrinin üzə çıxarılması zamanı da izahdan geniş istifadə edilir.

Nəql yeni materialın təsvirə əsaslanaraq öyrədilməsi üsuludur. Nəql vasitəsilə yeni material sistemli və ardıcıl şəkildə təsvir edilir. Nəql müsahibə və izahla əlaqəli şəkildə də aparılır. Nəql şərhin nisbətən asan forması olub, öyrənənləri az idraki çətinliyə salır. Nəqldən öyrətmənin bütün dövrlərində bütün siniflərdə, təlim mərhələlərində istifadə edilir.

Nəqlə təlim metodu kimi bir sıra pedaqoji tələbələr verilir: nəql edmi cəhətdən əsaslandırılmış hadisə və faktlara istinad etməlidir; məntiqi cəhətdən düzgün qurulmalıdır; irəli sürülən məsələnin doğruluğunu sübüt edən misallarla təmin edilməlidir; düzgün planlaşdırmalı, aydın şərh edilməlidir; əsas məsələlər xüsusilə nəzərə çatdırılmalıdır; sadə, aydın dildə şərh olunmalıdır; nəql ifadəli və emosional aparılmalıdır, nəqlin səmərəlliyi öyrədənin ona diqqətli və hərtərəfli hazırlığını tələb edir.

Mühazirə şərhin nəqlə və izaha nisbətən geniş və uzunmüddətli növü olub özünün ciddiliyi, prinsipial cəhətdən vacib məsələlərə həsr olunması ilə xarakterizə edilir. Beləki mühazirə öyrənənlərin başqa mənbələrdən mənimsədikləri məlumat və faktların ümumiləşdirərək dəqiqləşdirilməsinə həsr edilir. Mühazirə məktəb, ali məktəb və təlimdən kənar müəssisələrdə olmaqla müxtəlif növlərə ayrılır. Bu mühazirə növləri içərisində orta məktəb mühazirəsi konkret məsələnin geniş şərhinə həsr olunması ilə fərqlənir. Mühazirənin bu növünün müddəti də öz qısalığına görə digərlərindən fərqlənir. Orta təhsil mühazirəsi digər mühazirə növlərinə nisbətən qısa müddət, 20-30 dəqiqə ərzində aparılır. İzah və nəqlə nisbətən mühazirə gərgin diqqət tələb etdiyinə görə onu dinləmək izah və nəqlə nisbətən çətindir. Ona görə də mühazirədən ancaq 10-11-ci siniflərdə məcburi tələblər, ehtiyac olduqda istifadə edirlər. Ali məktəb mühazirəsinə nisbətən orta məktəb mühazirəsi aramla, asta-asta aparılır ki, lazımlı hissələri şagirdlər yaza bilsinlər.

Mühazirə ali məktəblərdə ən çox istifadə edilən təlim üsuludur.Bu mühazirələr daha geniş məsələlərin yığcam şərhinə həsr olunur. Buna səbəb ali məktəb tələbələrinin yüksək intellektual inkişafı və müstəqil işləmə qabiliyyətləridir. Şərh edilən məsələ yığcam şəkildə izah edilir, tələbələrə nəzəri istiqamət verilir, məsələ ətrafında daha geniş və ətraflı işləmə isə tələbələrin özlərinə tapşırılır. Ali məktəb mühazirəsi 80-dəqiqə ərzində aparılır. Mühazirə zamanı şərh edilən məsələlərin əsas mahiyyəti tələbələrə qeyd etdirilir və ya da mühazirənin məzmunu qısa tezislər şəklində yazdırıla bilər.

Mədəniyyət müəssisələrində aparılan mühazirələr dövrün aktual problemlərinə həsr edilir. Bu mühazirənin ən uzunmüddətli aparılan formasıdır. Bu tip mühazirələr müxtəlif yaş qrupları ilə aparıla bilər. Yaşlılarla mühazirələr müxtəlif elm və ya texnika sahəsindəki yeniliklərə həsr edilir. Bu tip mühazirələr yeni elmi kəşflərlə yanaşı qabaqcıl təcrüələrin tətbiqinə də həsr edilir.

Müsahibə.

Müsahibə təlimin bütün mərhələlərində istifadə edilən sual-cavab üsuludur.Təlim prosesində müsahibənin aşağıdakı növlərini göstərmək olar:

1.Yeni materialın mənimsənilməsi prosesində.

2.Biliklərin möhkəmləndirilməsinə xidmət edən müsahibə.

3.Biliklərin yoxlanılması və qiymətləndirilməsinə xidmət edən müsahibə.

4.Təkrarlama müsahibəsi.

Yeni materialın öyrədilməsi prosesində müsahibədən o zaman istifadə olunur ki, öyrədilən material haqqında öyrənilənlər müəyyən məlumata malik olsunlar. Müsahibənin bu növündən ən çox problemli izah zamanı istifadə edilir. Beləki, müəllim uşaqlara məlum olan materialları sual-cavabla üzə çıxardıqdan sonra onu evrestik müsahibə ilə yeni «problemə» bağlayır, məntiqi ardıcılıqla, düşündürüjc suallar vasitəsilə onları problemin açılışına qoşur. Evrestik müsahibə düşündürücü, araşdırıcı müsahibədir. Bu zaman öyrənənlər idraki fəallıq gösətərir, sualın cavabını şüurlu sürətdə axtarırlar. Sualların qoyuluşundaki məntiqi ardıcılıq isə onların araşdırmasına, idraki fəaliyyətinə istiqamət verir. Bununla da mənimsəmədə müsahibənin rolu artır, öyrənmə şüurluluq və fəallıq şəraitində keçir. Müsahibə müxtəlif əşya və ya hadisələr üzərində də aparıla bilər. Yeni materialın öyrədilməsi prosesində müsahibə həm indiktiv həm də dediktiv yolla aparıla bilər.

İnduktiv yolla müsahibə zamanı müəllim, təlimatçı, usta və digər öyrətmə ilə məşğul olan şəxs öyrənənləri onlara məlum olan hadisə, fakt və qanunlara istinad edərək yeni qənaət, nəticə çıxarmağa gətirir.

Dediktiv müsahibə zamanı isə məlum həqiqətlər, elmi nəticələr ayrı-ayrı hallar və vəziyyətlərdə tətbiq edilir, tərkib hissələrinə ayrılır. Materialın induktiv və ya dediktiv izahı özü bilavasitə müsahibədə əks olunur.

Müsahibə təlimin mürəkkəb metodu olub onun səmərəli keçirilməsinə aşağıdakı tələblər verilir: müsahibədə məntiqi ardıcılıq gözlənilməlidir; qoyulan suallar təfəkkürü inkişaf etdirməlidir; suallar aydın şəkildə qoyulmalıdır.

Həmçinin suallara verilən cavablara da müəyyən tələblər verilir. Beləki, cavab aydın və məntiqi olmalı, cavab verənin münasibətini əks etdirməli, təfəkkürün məhsulu olduğunu sübüt etməlidir.

Biliklərin möhkəmləndirilməsinə xidmət edən müsahibələr də təlimdə böyük əhəmiyyət kəsb edir. Bu tip müsahibə, əsasən, yeni material öyrədildikdən sonra, yeni öyrədilmişi daha da möhkəmləndirməyə xidmət edir. Bu müsahibə bilavasitə müəllimin izahından, yeni materiala aid çalışmalar icrasından və ya sonrakı dərsdə ev tapşırıqlarının yoxlanılmasından sonra aparılır.

Möhkəmləndirmə ilə bərabər qiymətləndirmə və yoxlama müsahibəsi də aparıla bilər. İstənilən sual-cavaba öyrənənin bilik və mənimsəmə səviyyəsini müəyyən etmək olar. Yoxlama məqsədilə aparılan müsahibə də suallar aydın qurulmalı, düşündürücü olmalı, qeyri-müəyyən cavab üçün imkan verən, alternativ suallar verilməməlidir. Suallar dəqiq, qısa, məntiqi ardıcılıqla qurulmalıdır.

Müsahibə üsulu təlimin bütün mərhələlərində, bütün təlim tipli məşğələlərin hamısında geniş şəkildə tətbiq olunur. Bura həmçinin mədəniyyət müəssisələrindəki təlim işləri, öyrədici rejissor işləri, ritorik xarakterli öyrədici tətbirlərin təşkili və s. daxildir. Belə tip məşğələlərdə çox vaxt müsahibə diskusiyalar şəklində aparılır. Diskusiyalar ən çox ali təhsil müəssisələri, mədəniyyət və incəsənət müəssisələrindəki təlim işlərində təşkil edilir. Diskusiyalar zamanı iştirakçılar (tələbə, şagird, tədqiqatçı və s.) öz fikirini əsaslandırılmış dəlil və sübutlarla isbat etməyi öyrətmək lazımdır. Bu uşaq və yeniyetmələrin, eləcə də böyüklərin əqli inkişafını sistemə salır, onların fikrini cilalayır, onlarda məntiqi inkişaf etdirir.

<u>Ekskursiyalar</u> müstəqillik elementləri üstünlük təşkil edən metodlardan biridir. Ekskursiya təlim prosesinə həm təlim üsulu həm də təlimin təşkilat forması kimi daxil olmuşdur. Ekskursiyalar zamanı öyrənənlər həm yeni məlumatlar əldə edir, yeni biliklərə yiyələnirlər, həm də öyrəndiklərini təkrar edir, hafizədə möhkəmləndirir, öyrəndiklərinin əməli əhəmiyyəti, biliklərin tətbiqi ilə bilavasitə tanış olurlar. Ekskursiyalar zamanı izah və şərhin digər növlərindən də istifadə edilir. Orta ümumtəhsil məktəblərində, orta ixtisas məktəbləri, peşə məktəblərində ekskursiyalar tədris planı və proqramı əsasında xüsusi dərslər kimi aparılır. Bunlar tədris işinin mühüm tərkib hissəsi hesab olunur. Mədəniyyət müəssisələrində ekskursiyalar, əsasən marağa görə təşkil edilən məşğələlərdə təşkil edilir. Məsələn mü\əyyən texniki,elmi işin istehsalda qoyuluşu vəziyyətini öyrənmək məqsədilə, həmçinin məşğələdə əldə edilmiş yeniliyin istehsalda tətbiqi və onun əhəmiyyətini öyrənmək məqsədilə ekskursiyalar təşkil edilə bilər.

<u>Labarator məşğələlər və praktikumlar</u> da tədqiqatçılıq metodlarından biri olub, yeninin axtarıcılığı mənimsəməsində mühüm əhəmiyyətə malikdir. Praktikum və labarator məşğələlərdən həmçinin biliklərin möhkəmləndirilməsi məqsədilə də istifadə edilir. Bu məşğələlərin xüsusi əhəmiyyəti ondan ibarətdir ki müxtəlif təbii, kimyəvi, texniki hadisələr üzərində uzun müddət müşahidə apara və müstəqil nəticə çıxara bilirlər. Məsələn, bitkilərin becərilməsi üzərində iş, kimyəvi reaksiyalarla yeni element və maddələrin alınması və s.

Mədəniyyət müəssisələrində labarator məşğələləri və praktikumlar marağa görə təşkil edilir və sırf yaradıcılıq məqsədi daşıyır. Bu məşğələlərdə yeni bitki növü üzərində iş, yeni texniki yaradıcılıq və s. işlər aparılır.

<u>Kitab və müxtəlif mənbələr</u> üzərində iş həm biliklərə müstəqil yiyələnmə, həm də möhkəmləndirmə metodu kimi məlumdur. Bu üsulla təhsilin müxtəlif mərhələlərində, həmçinin təlim xarakterli bütün fəaliyyət sahələrində geniş istifadə edilir. Təlimin ilk mərhələlərində kitab üzərində işdən sinifdə və evdə istifadə edilir. Sinifdə öyrətmə, evdə təkrarlama və möhkəmlətmə vasitəsi kimi tətbiq edilir. Təlimin sonrakı mərhələlərində isə kitabdan müstəqil iş vasitəsi kimi istifadə edilməyə başlanılır. Kitab və ilk mənbələr üzərində iş hər kəsdən müəyyən bacarıq və vərdişlərə malik olmağı tələb edir. Bu bacarıq və vərdişlərə müxtəlif yaddaşlardan istifadə, sitatlara istinad etmə şərtlərini bilmə, cədvəllərdən istifadə, elmi-texniki ədəbiyyat oxuma, müxtəlif işarə və atlaslardan istifadə və s. daxildir.

Kitab və ilk mənbələr üzərində iş insanlara bütün həyatı boyunca, fəaliyyəti prosesində lazım olan vacib və əhəmiyyətli bir üsuldur. Ona görə də təlimin ilk günlərindən başlayaraq şagird və tələbələrdə kitab üzərində müstəqil iş bacarıq və vərdişləri formalaşdırılmalıdır. Kitab üzərində iş bacarığın formalaşdırılmasının insanların gələcək fəaliyyətində böyük əhəmiyyəti vardır. Beləki, bu təhsilin bütün mərhələlərində elmi məlumatları daha ətraflı və dəqiq mənimsəmə üçün, xüsusi məqsədli müstəqil iş, axtarıcılıq işi və onun səmərəliliyini təmin edən mühüm şərtlərindən biridir. Kitab üzərində iş qaydalarına aşağıdakılar aid edilə bilər: öyrədənin izahı ilə kitabda verilənin əlaqələndirilməsi, öyrənilmişlərin təkrarı,

yarımçıq öyrənilmiş materialın tamamlanması, çətin və anlaşılmayan ifadə və sözlərin aydınlaşdırılması (lüğət üzərində iş), materialın planlaşdırılması, plan üzrə materialın seçilməsi, oxunun şifahi şərhlə ifadəsi.

Kitab üzərində iş, müəyyən mənada , insanların fəaliyyətinin müvəffəqiyyətinin əsasını təşkil edir. Beləki, kitabdan səmərəli istifadə qaydalarını bilən hər kəs həyatda, müstəqil fəaliyyətdə müxtəlif mənbələrdən (kitab, maşınlar və yeni avadanlığı işlətmək və ya tətbiq etmək üçün verilmiş təlimatlar, arxiv materialı, kəşf edilmiş yeniliklər və s.) istifadə edə bilirlrər. Məsələ, istehsalatda qabağcıl olmaq dövrün iqtisadi tələblərindən geri qalmamaq elmi-texniki tərəqqini, yenilikləri izləməyi tələb edir. Bu isə sahibkardan və ya istehsalatçıdan mövcud dövrü mətbuatı, elmi-texniki materialları oxuyub dərk etməyi tələb edir. Və yaxud mədəniyyət müəssisələrində təşkil edilmiş dərnəklər özü o zaman səmərəli nəticə verir ki, iştirakçıların hamısı mənbələrdən səmərəli istifadə edə bilsinlər.

Ona görə də hələ təlimin ilk mərhələlərindən başlayaraq uşaqlarda kitab üzərində işləmə bacarığı formalaşdırılmalıdır. Bəzən elə şagird olur ki, onun hafizəsi həddindən artıq iti olur, o, müəllimin izahını bütünlüklə mənimsəyir və yadda saxlayır. Ona görə də o, kitab oxumur, kitabdan istifadə etmir. Bu cəhət müəllimin nəzərindən qaçmamalı, həmin şagirdə kitab üzərində işləmək üçün əlavə tapşırıqlar verməlidir. Əks halda həmin şagirddə nəinki kitab üzərində iş bacarığı formalaşmır, həmçinin onda oxu vərdişinin səviyyəsi aşağı düşər.

Kitab üzərində ilk olaraq mətni düzgün başa düşmək, qavramaq, mətn əsasında qeydlər aparmaq bacarığı öyrədilməlidir. Bura həmçinin mətnin planını tutmaq, tezislərlə konspektləşdirə bilmək də daxildir.

Təlimdə oyun üsulundan, əsasən, məktəbəqədər təlimdə geniş istifadə edilir. Oyun vasitəsilə uşaqlara təbiət və cəmiyyət hadisələri haqqında konkret, təcrübi məlumatlar verilir. Didaktik oyunların nisbətən mürəkkəb formalarından ibtidai siniflərdə istifadə edilir. Oyun izah edilən məsələ ətrafında üşündürürməklə yanaşı, uşaqların diqqətini nəinki yayınmağa qoymur, hətta onları inkişaf etdirir. Oyunlarla təlim həmçinin materialın şüurlu mənimsənilməsinə onu həyatla əlaqələndirilməsinə imkan yaradır, uşaqlarda müstəqillik, fəallıq, yaradıcılıq tərbiyə edir. K.D. Uşinski oyuna insanların mənəvi formalaşma, əqli, iradi inkişafı vasitəsi kimi baxırdır. Onun fikrincə oyun uşaqlarda müstəqillik, iradə, diqqət, yaradıcılıq, müxtəlif qabiliyyətlər inkişaf etdirməklə yanaşı onların müəyyən mənada gədəcək taleyini həll edir:

Təlimdə oyun mənimsəməsi yüngülləşdirir, maraqlı edir və uzun müddət yaddaşda qalmasına səbəb olur. Müasir dövrdə dünya didaktikasında oyunla təlimə xüsusi əhəmiyyət verilir. Oyun həmçinin insanların asudə vaxtlarının səmərəli təşkili, fiziki inkişaf və sağlamlığın təmini vasitəsi kimi də əhəmiyyətli yer tutur. Mədəniyyət müəssisələrində müxtəlif dərnəklərdə süjetlər qurulması, dramlaşdırma, texniki yarışlar, idman yarışları oyunla təlimə misal ola bilər.

Məsələn dil dərnəklərində danışıq dilini mənimsəmə məqsədi ilə dialoq xarakterli süjetli oyunların təşkili zamanı sözlərin öyrənilməsi, tələffüzü şüurlu şəkildə, həyatda olduğu kimi aparılır. Belə halda öyrənilən material şüurlu mənimsənilməklə yanaşı daha möhkəm yadda qalır. Çünki oyun vasitəsi ilə yadda saxlama şəraiti, ona təsir edən amillər daha səmərəli təşkil edilir (adamların tələffüz tərzi, cestləri, ifadə tərzləri, hətta buraxdıqları səhvləri).

Texniki yarış xarakterli oyunlarda dərnəklər üzvü həm işini bilavasitə tətbiq edir, səhvlərini görür, yeniliyin əhəmiyyətini dərk edir.

Beləliklə oyunla təlim işi öyrətmənin və öyrənmənin bütün mərhələlərində səmərəli təlim üsulu kimi çıxış edir. Onun müvəffəqiyyəti isə öyrədənin pedaqoji ustalığı və bacarığından çox asılıdır.

Biliklər, bacarıq və vərdişlər formalaşdırılması və möhkəmləndirilməsi metodlarından biri də çalışmalar və məsələlərdir.

Çalışmalar müxtəlif olub, təlim materialının məzmunundan asılıdır. Məsələn riyaziyyat üçün məsələ və misal həlli, dil dərsləri üçün qrammatik və üslub cəhətdən düzgün yazı çalışmaları; kimya və fizika fənləri üzrə məsələ və misal həlli, labarator çalışmalar və s. spesifik çalışmalar hesab edilir. Çalışmalar vasitəsilə biliklərin şüurluluğu, tətbiqi təmin edilir, öyrənilmiş materiallar hafizədə daha da möhkəmləndirilir. Çalışmaların müvəffəqiyyətli icrasına verilən əsas tələbələr şüurluluq və ardıcılılıqdır. Çalışmanı icra edən hər kəsə bu prosesdəki təlim məqsədi, çalışmanın şərti və onun həlli ardıcılığı aydın olmalıdır. Təlim materialın məzmunundan asılı olaraq çalışmaların məzmunu da getdikcə mürəkkəbləşdirilməlidir. Hər dəfə yeni öyrənilmiş materiala aid verilən çalışmalarda yaradıjılıq və müstəqillik elementləri olmalı, öyrənənə yenini ona məlum biliklər sisteminə daxil etmə şəraiti və imkan yaradılmalıdır. Çalışmaların rəngarəngliyi və müxtəlifliyi də böyük əhəmiyyət kəsb edir. Bu çalışmaları maraqlı edir və təlimdə yeknəsəkliyi aradan qaldırır. Eyni çalışmanın müxtəlif variantlarda həlli də təlimi maraqlı və şüurlu edir. Çalışmaların tərtibi və seçilməsində sistematiklik də əhəmiyyətli yer tutur. Beləki çalışmaların getdikcə çətinlik dərəcəsi artırılması, idraki fəallıq gücləndirilməsidir.

Müstəqillik insanların heç kəsin, heç bir kənar şəxsin təsir və müdaxiləsi olmadan, mövcud situasiyaya üyğun fəaliyyət üsulu seçərək sərbəst hərəkət etmə xassəsidir, keyfiyyətidir. Təlim prosesində müstəqilliyin inkişafı, öyrənənlərin müstəqilliyə alışdırılması təlimin mənimsəmə səviyyəsini artırmaqla yanaşı insanların həyata şüurlu yaradıcı kimi hazırlanmasını da təmin edir. Müstəqil şəxs həyatda qarşısına çıxan problemi həll etdikdə çaşmır, özünü itirmir, düşündüyü vəziyyətdən çıxmaq üçün, mövcud problemi həll etmək üçün yollar axtarır. Böyüyən nəsldə müstəqillik tərbiyə edilməsi daha da çox aktuallıq tələb edir. Beləki müasir elmi-texniki tərəqqi insanlardan müstəqillik, yeniliklərin fəaliyyətlərinə tətbiqində sərbəstlik və yaradıjılıq tələb edir.Bu isə müasir fasiləsiz təhsil sistemi təmin edir. Məhz təhsil vasitəsilə hər bir yeniyetmə və gənclər təcrubi və psixoloji cəhətdən daima öyrənməyə, yeni biliklərə yiyələnmə meylinə, öyrəndiklərini fəaliyyətləri tətbiq edə bilməyə hazırlanırlar. Bu cəhət həmçinin təhsilin həyatiliyini təmin edən əsas şərtlərdən biridir.

Təlimin problemləşdirilməsi də müasir dövrün aktual təlim üsullarından biridir. Təlimin problemləşdirilməsi öyrətmə prosesində problemlilik şəraiti yarammağı əhatə edir. Öyrətmənin səmərəliyi öyrənənlərin yüksək fəallığı, faktları müstəqil analiz, ümumiləşdirmə, nətijələr çıxarma şəraitində daha yüksək səviyyədə keçir. Yəni yeni material öyrədənlərin nə qədər yüksək idraki fəallığı, tədqiqatcılığı, təhlil tərkib aparmaları əsasında aparılarsa mənimsəmə bir o qədər yüksək səviyyədə keçər. Bu işə problemli suallar sistemi, şüurlu sual və tapşırıqların icrası şəraitinin yaradılması vasitəsilə həyata keçirilə bilər. Belə yolla mənimsəmə prosesində öyrənənlərin fəallığı üstünlük təşkil edir. Bu zaman öyrədən problemli suallar əsasında öyrənənləri tədqiqatçılığa, problemi müstəqil həll etməyə çəlb edir. Öyrədən(müəllim, təlimatçı, dərnək rəhbəri və s.) düşündürücü suallar vasitəsilə öyrənənləri problemi açmağa doğru aparır, onlara "bələdçilik" edir. Belə vəziyyətdə mənimsəmə prosesində (müəllimin) öyrədənin izahına az ehtiyac qalır. Materiala aid müstəqil məsələ və misalların, tapşırıq və sualların həlli zamanı öyrədənin izahına ehtiyac yaranır. Belə mənimsəmə üsulu evristik mənimsətmə üsulları adlanır. Problemli evristik yolla mənimsəmə zamanı öyrədən öyrənənlərin fəal iştirakı ilə yenini "kəşf" etdirir. Yeni öyrədənin həll edilməli məsələyə aid ümumiləşdirmələr vasitəsilə fəallaşdırdığı məlum faktlar əsasında üzə çıxarılır. Öyrənənlərə məlum faktlar məntiqi, evristik suallar vasitəsilə elə məharətlə fəallaşdırılır ki, öyrənənlər özləri bu məlum faktları yeni ilə, " problemlə" əlaqələndirərək onun mahiyyətini aça bilirlər. Bu proses həmçinin, müəyyən mənada, tədqiqatçılıq prosesidir. Belə mənimsəmə prosesində öyrənənlər hələ kiçik yaşlarından tədqiqatçılığa alışırlar.

Öyrənənlərdə qarşıya çıxan problemləri, tapşırıqları müstəqil həll etmə bacarığı formalaşdırılır. Deməli həm idraki fəallıq təmin edilir, həm də həyat üçün zəruri olan bacarıq və vərdişlər formalaşdırılır. Bu isə müasir dövrdə təlimə verilən ən aktual tələblərdən biridir.

Problemli tədqiqatcılıq təlimin son mərhələlərində problemli proqramlaşdırma ilə paralel aparılır. Daha doğrusu problemli – proqramlaşdırma da təlimin digər problemli üsulları kimi idraki fəallığı və müstəqilliyi təmin edən təlim üsullarından biridir. Proqramlaşdırılmış təlimi müasir pedaqoq, psixoloq və qibernetiklər təşkil etmişlər. Təlimin bu növü öyrənənlərin xüsusən də şagirdlərin şüurlu fəaliyyətinin səmərəliyini artırır. Proqramlaşdırılmış təlimin xüsusiyyəti ondan ibarətdir ki, öyrənənlər xüsusi təşkil edilmiş proqramlar və texniki vasitələrdən istifadə edərək yenini özü tapa bilir. Ona görə də ona yeni bilik və bacarıqlara müstəqil yiyələnmə vasitəsi kimi baxılır.

Proqramlaşdırılmış təlimə özüntəhsil vasitəsi, proqramlaşdırma vəsaitlərinə isə özü öyrədən, müstəqil öyrənmə vasitəsi kimi baxmaq olar. Təlim üsulu kimi proqramlaşdırmaya təlimin, öyrətmənin müstəqil tipi kimi çıxış etmir, tapşırıqların sistemli proqramlaşdırılması yollarını əhatə edir.

Problemli –proqramlaşdırma üsulu təlimdə problemliyin hesaba alınması, məlum biliklərə istinad edilməsi, öyrənənlərin yaradıjılığının təmin edilməsi və s. üzərində qurulur. Mədəniyyət ve qeyri təhsil müəssisələrində proqramlaşdırma əsas təlim üsulu kimi tətbiq edilir. Çünki bu müəssisələrdə həll ediləcək təlim işi, əksər hallarda, problem kimi qarşıya çıxır onun həlli müəyyən proqramlaşdırmalar əsasında aparılır. Bu üsula mənimsəmə səviyyəsi problemin müstəqil həll etmə imkanları və situasiyasından asılı olur. Problemli proqramlaşdırma metodunun tətbiqi prosesində təlimin digər metodlarından istifadə edilir. Proqramlaşdırma aşağıdakı şəkildə tətbiq edilir. Beləki, hərbir məsələ, tapşırıq işin müəyyən mərhələsini təşkil edir. Hər bir mərhələ də sual , cavab, tapşırıq və s. şəkildə öyrənilən materialın müəyyən hissəsini təşkil edir. Bu mərhələlər suallara hazır cavab şəklində və yaxud da düzgün cavabı yoxlama şəklində tərtib edilir.

Təlim üsulları bir biri ilə qarşılıqlı əlaqədədir. Beləki, təlimin, öyrədiləcək materialın məzmunundan asılı olaraq təlim üsulları tərzi formasında çıxış edir. Yəni bir materialın öyrədilməsi prosesində yalnız bir təlim üsullarından istifadə edilmir. Bir üsul aparıcı, həlledici rol oynayır, digərləri isə təlim məqsədinin muvəffəqiyyətlə icrasına kömək edən tərzlər kimi çıxış edir.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1. Mədəniyyət müəssisələrində tətbiq edilən təlim üsullarına aid misallar gətirin.
2. Təlim üsullarını hər kəs öz ixtisası əsasında izah etsin.
3. Təlim üsullarına verilən müasir tələblər.

## TƏRBİYƏ İLƏ ÖZÜNTƏRBİYƏ PROSESESİNİN DİALEKTİKASI

Şəxsiyyətin formalaşması müxtəlif amillərin ziddiyyətli təsiri əsasında baş verir. Bura, həmçinin xarici və daxili təsirlər, onlar arasında olan dialektik vəhdət və ziddiyyət daxildir. İnsanların mənəviyyəti, əxlaqı və digər keyfiyyətləri bu təsirlər əsasında formalaşır, baş verir. Xarici ziddiyyətlər dedikdə pedaqoji təsirlər nəticəsində baş verən ziddiyyətlər başa düşülür. Pedaqoji təsirlər o zamansəmərəli nəticə verir ki, o tərbiyə olunanların daxili aləminə təsir etsin, mənəviyyətini hərəkətə gətirsin. Meyilləri gətirməsi deməkdir, tərbiyənin tərbiyə olunanı özünə nəzər salmaga, malik oldugu adətləri təhlil etməyə məcbur etsin deməkdir. Tərbiyə hər bir tərbiyə olunanı lazimi qaydada hərəkət edib etmədiyini üzərində düşünməyə məsbur etməlidir. Bu təhrik etmə, düşündürmə və nəzarət özüntərbiyənin əsasını təşkil edir. Özünü dərk etmə, özünü başa düşmə özüntərbiyənin ilk əsas pilləsidir.Özünü dərk edən insanın özünü yenidən tərbiyə etməsi ondan həm də iradi güc tələb edir. Yəni insan lazım olan zəruri 2 hərəkətləri icra etməyi öyrənməyə məcbur etməlidir.Çünki insanın malik olduğu hərəkət və davranışlar yeni qaydada hərəkət etməyə mane olur, fəaliyyəti məhtudlaşdırır. Bu isə insanın hərəkət və davranışlarında ziddiyyətlərin meydana gəlməsinə səbəbəb olur.

Bu daxili hərəkətə gəlmə isə özüntərbiyyənin, özüntərbiyə meyillərinin əsasını yaradır. İnsan özünü, hərəkət və davranışlarına nəzər salır, təhlil edir. Müsbət və mənfi keyfiyyətlərini dərk edir. Mənfi keyfiyyətlərini aradan qaldırmaq arzusu yaranır. Özündə müsbət keyfiyyətlər olmasını istəyir. Bu isə tərbiyənin özüntərbiyə metodudur.

Özünütərbiyə sistemli təlim müəssəsilərində düz istiqamətdə, yeni cəmiyyətin tələbləri istiqamətində aparılır. Belə ki hər şagird və ya tələbə kənar tərbiyə təsirləri ilə yaranmış adət və münasibətlərin düzgün olmadığını, həm cəmiyyət həm də özü üçün yararsız olduğunu dərk edir və bu adətlərin dəyişdirilməsi üçün şüurlu səy göstərir. İstehsal prosesində isə artıq bu özüntərbiyə motivləri dəyişir. Bu dəyişmə isə həm neqativ həm də pozitiv istiqamətdə gedə bilər. Belə özüntərbiyə prosesində mühit əsas rol oynayır. Beləki fəaliyyətə başlayan şəxs malik olduğu bilikləri yeni fəaliyyət üsulları ilə tətbiq etməyə səy göstərir. Onun fəaliyyətinə isə müəssədə müxtəlif münasibətlər yaranır. Bura həm rəsmi iş münasibətləri həm də qeyri rəsmi münasibətlər aiddir. Belə münasibətlər həm obyektiv həm də subyektiv xarakter daşıyır. Tətbiq edilən ideya, fəaliyyat üsulu müəssəsinin mənafeyinə uyğun olmadıqda o qəbul edilmir, ümumi işin xeyrinə olduqda isə qəbul edilir. Bu « qəbul edilməmə » obyektiv səbəbfərddə müxtəlif münasibət yaradır. Bu münasibət hər kəsə özünə və özünün malik olduqlarına yenidən nəzər salmağa məcbur edir. Fərd dərk edir ki, özündə yeni keyfiyyətlər formalaşdırılmalıdır. Bu tələb obyektiv olub ımüəyyən mənada onun həyatını müəyyən edir. Bəzən isə ona qeyri obyektiv, subyektiv səbəblər mane olur. Bu vəziyyət də şəxsiyyətdə, onun rəftar və davranışında yeni keyfiyyətlər yaradılmasına səbəb olur.

Özüntərbiyə məktəb illərindən başlanır. Beləki aparılan bütün tərbiyə işi özüntərbiyə tələbləri yaratmalıdır. Hər şagird verilən əxlaqi tələbi özünün hərəkət və davranışlarında formalaşdırmağa çalışmalıdır. Bu formalaşdırma səyi, fəaliyyəti özüntərbiyədir. Özüntərbiyə, göründüyü kimi, insanların daxili səyləri ilə bağlıdır. Bu daxili səylər isə xariji təsirlərin məzmunu ilə şərtlənir. Daxili səy həmdə insanların risixi inkisi ilə vaglıdır. İnsan öz pisixi inkişafına nəzarət etdikdən sonra özüntərbiyə başlanır. Ona görədə insanların şüurlu surətdə özüntərbiyəsi yetkinlik, insanın özündərk etməsi dövründən başlanır. Özündərketmə dövründə tələbat özüntərbiyə metoduna çevrilir. Ancaq həyat, yaşamaq, yəni özüntərbiyə obyektiv, real həyatı təlabata sevrilir. O, yenidən tərbiyə vastələri axtarır, özündə yeni keyfiyyətlər formalaşdırmanın zəruriliyini dərk edir. Bunun üsün zəruri olan tələbatlar özüntərbiyə motivinə çevrilə bilər. Bu tələblər insanların yaşadığı və fəaliyyət göstərdiyi maddi həyyatdan doğan tələbatlardır. Məhz bu tələbatlar əsasında insanlar öz hərəkət və davranışlarında yeni keyfiyyətlər formalaşdırır. Artıq şəxsiyyət öz-özündə yeni əxlaqi keyfiyyətlər formalaşdırmağa səy göstərir. Bu isə özüntərbiyəni tərbiyyədən fərqləndirən əsas və başlıca şərtdir.

Özüntərbiyə formalaşdırılacaq əxlaqi keyfiyyətlərlə, cəmiyyətin tələb etdiyi yeni keyfiyyətlərlə – şəxsin malik olduğu adət və rəftarlara, o imkanlara uyğun gəldikdə daha asanlıqla baş verir.

Özüntərbiyə anlayışı geniş mənada özüntəhsil anlayışını da əhatə edir. Dar mənada isə tərbiyə cəmiyyətin və fəaliyyətin tələbi əsasında özüntərbiyəni mənəvi keyfiyyətlərin formalaşdırılması və ya hər hansı əxlaqi keyfiyyətin adət, davranış, rəftarında çıxarması prosesidir. Özüntərbiyənin özündərketmə, özünü məcbur etmə , özünənəzarət, özünü ələalma kimi anlayışları mövjutdur.

**Özüntərbiyə rəhbərlik**.

Özüntərbiyə rüşeyimləri tərbiyyənin ilk mərhələlərindən başlanır. Yəni verilən tərbiyə tələbləri şüurlu surətdə mənimsədildikjə, uşağın özü tərəfindən transformasia edildikjə özündərketmə, özünü məjbur etmə meyilləri ilə başlanır. Bu prosesə məhz müəllim rəhbərlik etməlidir. Müəllim tərbiyə tələbləri verdikjə uşaq şəxsiyyətinə, onun güjünədə mürajiət etməlidir. Yəni tərbiyəçi və müəllim tərbiyə tələbləri ilə tərbiyə olunanın fəaliyyətinə elə

istiqamət verilməlidir ki, onlarda müstəqillik, təşəbüskarlıq, yaradıjılıq fəallıq yaransın.Bu təsirlər həmsinin tərbiyə olunanda öz - özündə səylə işləmə arzusu və ona daxili tələbatda yaratmalıdır. Bu isə tərbiyyəçinin tərbiyyələndirmə fəaliyyəin əsasını təşkil edir.

Mədəniyyət müəssisələrində isə bu iş daha böyük ustalıq, pedaqoci ustalıq və takt tələb edir. Beləki mədəniyyət müəssələrində marağa görə birləşən müxtəlif yaş qururlarında bu işin aparılma səviyyəsi də müxtəlif olur. Yaşlılardan ibarət bu iş daha mürəkkəb olur. Beləki dövrün aktual istimai – siyasi problemləri insanların əxlaqına müxtəlif şəkildə təsir göstərir. İnsanlarda düzgün münasibət formalaşdırmaq, problemli situatsiyaları düzgün dərk etdirmək rəhlərdən xüsusi birliklər pedaqoci ustalıq tələb edir. Beləki, tərbiyyəsi mövsut şəraiti obyektiv şəkildə təhlil etməli, şəxsi özünə nəzar salmağa, özü – özünü hərəkət və fəaliyyətini təhlil etməyə məjbur etməlidir. Şəxsiyyət özünü təhlil edərək öz nöqsanlarını dərk etməli və ya özünün doğru bildiyi, amma jəmiyyət və ətraf mühit tərəfindən qəbul edilməyən səhv davranış və ya hərəkətlərini görməli başa düşməlidir. Anjaq bundan sonra şəxs də özünütərbiyə etmə arzusu və meyli yarana bilər. Özüntərbiyə bütün dövrlərdə mövjudı olmuşdur. Xüsusən inqilablar və yenidənqurma dövürlərində buna böyük ehtiyyajlar yaranmışdır. Beləki köhnə ijtimai münasibətlər əsasında formalaşmış şəxs yəni jəmiyyətin tələblərinə jətin alışır, onda çaşqınlıq yaranır, yəni tələbləri qəbul edə bilmir. Mədəniyyət müəssələri, injəsənət müəssələrinin tərbiyyəvi fəaliyyəti belə vəziyyətdə daha çox aktuallıq kəsb edir. Mədəniyyət müəssələrində aparılan tədbirlər vastəsi ilə yeni əxlaqi tələblər, ijtimai münasibətlərin mahiyyəti təhlil edilməli, onun daxili mənzərəsi insanlara dərk etdirilməlidir. Yeni münasibətlərin qəbul edilərək insanların mənimsəməsinə düzgün istiqamət verilməlidir. Hər bir yeni ijtimai münasibətlər isə yeni əxlaqi keyfiyyətlər yaradır və jəmiyyət üzvlərindən bu keyfiyyətləri mənimsəməyi, ona uyğun hərəkət etməyi tələb edir. Odur ki, özüntərbiyə ijtimai xarakter daşıyır, onun məzmunu jəmiyyətin dəyişməsilə bərabər gedir. İşgüzar, kamil və hərtərəfli şəxs isə mühit və onun yeni tələbləri ilə ayaqlaşmağa, özündə zəruri keyfiyyətlər formalaşdırmağa, lazım olmayanları aradan qaldırmağa çalışır. İjtimai həyat hadisələrində fəal iştirak etməyə ona bu və ya digər şəkildə təsir göstərməyə çalışır. Bu isə əsasən, insanın özünün həyata olan münasibətini başa düşdükdən, dərk etdikdən sonra başlanır. Həyatın insana verdiyi tələbləri, şəxs özü – özünə verməyə başlayır.

Özüntərbiyə təlabatının əmələ gəlməsində subyektiv səbəblər, amillərdə mühüm rol oynayır. Subyektiv şərtlər dedikdə formalaşmış adətlər, rəftarlar, əxlaqi anlayışlar, ümumi inkişaf səviyyəsi, iradi keyfiyyətlər,maraq, meyl və sairə başa düşülür. Bu keyfiyyətlər insanların fərdi keyfiyyətlərindən təzahür edir. Özüntərbiyə stimulları maddi və mənəvi olmaqla iki yerə bölünür. Maddi stimullu insanların əmək fəaliyyəti və iqtisadi tələbləri ilə bağlı olan stimullardır. Bu stimullar özüntərbiyyədə əsas rol oynayır.

Mənəvi stimullara isə insanların mənəviyyata olan tələbatlarından doğan stimullar daxildir. Mənəvi stimullar da insanların həyatdakı mövqeyindən doğur, maddi təminatla bağlı olur.

Müstəqil iş üçün sual və tapşırıqlar.

1.Özüntərbiyə stimulları hansılardır.

2.Mühit özüntərbiyəyə nejə təsir edir.

3.Mədəniyyət müəssələrində hansı özüntərbiyə imkanları vardır.

## PEDAQOJİ PROSESDƏ ÖZÜNTƏHSİL

Biz əvvəlki dərslərimizdə öyrəndik ki, təhsil dar və geniş mənada işlənilir. Geniş mənada təhsil insanların həm sistemli təlim müəsisələrində müəyyən dövr ərzində, həm də bütün ömrü boyu bilik, bajarıq və vərdişlərə yiyələnmə prosesini, yəni həm də özüntəhsil əhatə edir. Özüntəhsil sistemli təlim müəssisələrində, müəyyən mənada, müəllimin rəhbərliyi altında təhsillə paralel aparılır. Müəllimin rəhbərliyi altında aparılan təhsil-bilik, bacarıq və vərdişlərə yiyələnmə insanların həyata və vərdişlərə yiyələnmə həyata hazırlanması işinə xidmət etdiyi üçün, onları mütləq müstəqilliyə, müstəqil şəkildə biliklərə yiyələnmə və onu tətbiq etməyə hazırlanmalıdır. Sahibkarlığa istinad edən müasir iqtisadi-ictimai quruluş da insanlarda müstəqilliyin inkişafını, müstəqil şəkildə biliklərə yiyələnmə bacarığının formalaşdırılmasını aktual bir tələb kimi qarşıya qoyur.

Çünki istehsalın yüksək texnika, kompyuterlə idarə edilməsi, texniki idarəetmənin sürətli inkişaf özüntəhsilin aktuallığını bir daha artırır.

Sistemli təhsil müəssisələrində təlim, mənimsəmə elə aparılmalıdır ki, bu istənilən zaman özüntəhsil üçün bazaya çevrilə bilsin. Daha doğrusu təhsil nəticə etibarilə öz yerini özüntəhsilə versin. Deməli, özüntəhsil təhsil sisteminə daxildir, ümumi təhsilin davamıdır, özüntəhsildə təhsil kimi ictimai-iqtisadi tələblərlə bağlıdır, məhsuldar qüvvələrin inkişafı ilə əlaqədardır. Məhsuldar qüvvələrin inkişafı insanlarda yeni bilik, bacarıq və vərdişlər formalaşdırılması tələbləri meydana çıxarır ki, bu da insanları özüntəhsilə məcbur edir.

Bu həmçinin cəmiyyətin pedaqoji proses qarşısında qoyduğu tələblərdən də irəli gəlir. Hərtərəfli inkişaf etmiş şəxsin keyfiyyətlərindən biri də onun öz ixtisasını istədiyi zaman dəyişə bilməsi, ixtisasına şüurlu yanaşaraq təkmilləşdirə bilməsi, yeni zəruri bilik, bacarıq və vərdişlərə müstəqil şəkildə bilməsidir. Daima öz inkişafının qayğısına qala bilməsidir.

Özüntəhsil insanların yüksək şüurluluq və dərk etməsi, idraki fəallığı əsasında baş verir. Obyektiv aləm hadisə və faktlarının dərk olunması onların daxili inkişaf qanunlarının mənimsənilməsi, təhlil-tərkib olunması, insanın həmin hadisə və faktı tam dərk etməsi deməkdir. Bu həmçinin o deməkdir ki həmin dərk olunmuş elmi həqiqətdən, qanundan insan lazım olduqda istifadə edə bilər. Həmin bilikləri istehsalın, təsərrüfatın müxtəlif sahələrinə tətbiq edə bilər. Bu tətbiq etmə prosesi isə insandan yaradıjılıq, əməyin təkmilləşdirilməsi meyli isə təşəbbüskarlığı, yeni məlumatlar, elmi biliklərə yiyələnmə tələbatı yaradır. Yeni məlumatlara yiyələnmə isə özüntəhsil motividir. İnsan ona lazım olan fakt və hadisəni, elmi məlumatı öyrənmək üçün yenidən təhsilə qoşulur. Deməli özüntəhsil yüksək şüurluluq və idraki fəallıq, dərk etmə əsasında mümkün olur. Həmçinin bu proses əvvəlki təcrübə və intelektual səviyyə əsasında baş verir. Şəxs, fərd malik olduğu imkanlara istinad edərək özündə yeni keyfiyyətlər, bilik və bacarıqlar formalaşdırır. Yeni, müstəqil yiyələnilmiş biliklər, bacarıqlar motivlərdən asılı olaraq müxtəlif şəkildə həyata keçirilə bilər; tam yeni bilik bacarıq və vərdişlər və ya mövcüd bilik, bacarıq və vərdişlərin yeni formalara salınması, təkmilləşdirilməsi. Bu motivlər insanların həyati – zərurətindən və ya mağarağından doğan tələblərlə bağlıdır. Özüntəhsildə həyat üçün zəruri olan motivlər daha çox üstünlük təşkil edir. Bu motivlər insanların həm iqtisadi həm də ictimai mövqeyi ilə bağlı olur. İnsanların qarşılaşdığı iqtisadi ehtiyaclar, səmərəli iqtisadi münasibətlərdən dağan özüntəhsil daha şüurlu və intensiv şəkildə aparılır. Çünki bu insanların daxili və maddi marağından doğan, şüurlu sürətdə dərk olunan özüntəhsil, yenidən mənimsəmə prosesidir.

Özüntəhsil prosesinin müxtəlif motivləri mövcuddur. Bunlardan bilavasitə işi ilə bağlı olan yeniliklərin tətbiqi, fəaliyyəti ilə –yəni işi ilə bağlı olan yeni problemin meydana çıxması; işinin uzun müddət müşahidəsi və təhlili ilə bağlı olaraq yeni təkmilləşdirmə maraqlarının meydana çıxması və s. göstərmək olar.

İş sahəsi, fəaliyyətin əsası ilə bağlı olan yeniliklərin öyrənilərək tətbiq edilməsi, müəyyən mənada məcburi və zəruri özüntəhsildir. Yenilikləri öyrənərək işinə tətbiq etmə cəmiyyətin tələbidir. Hər bir vətəndaş işçi işindəki yenilikləri izləməli, onu işinə tətbiq etməyi öyrənməlidir. Bu müasir sahibkarlığa istinad edən cəmiyyətdə daha çox aktuallıq kəsb edir. Beləki, yenilikləri dərk edərək işinə tətbiq edə bilməyən şəxs istehsala, maddi nemətlər istehsalına mənfi təsir göstərdiyinə görə işdən azad edilir.

Bəzən fəaliyyət prosesində müəyyən çətinliklər, problemlər meydana çıxır. Bu problemin həlli, çətinliyin aradan qaldırılması işçidən həmin iş prosesinin, fəaliyyətin elmi əsaslarını öyrənməyə, təhlil-tərkib edərək müqayisələr aparmağa məcbur edir. Bu zaman işçi müstəqil şəkildə öyrənir, elmi araşdırmalar aparır, yeni nəticələr çıxarmağa çalışır. Bu mənimsəmənin, özüntəhsilin müvəffəqiyyətində sistemli təhsil müəssisələrində yiyələnmiş bilik, bacarıq və vərdişlər böyük rol oynayır. Müstəqil işləmə bacarığı, mənbələrdən səmərəli istifadə, biliklərini tətbiq edə bilmək özüntəhsildə böyük əhəmiyyətə malikdir.

Marağa görə özüntəhsildə yaradıcılıq və təşəbbüskarlıq əsas motiv rolunu oynayır. Yaradıcılıq meylinə malik insanlar daim axtarır, öyrənir, işində yeniliklər etməyə çalışırlar. Bu insanların daxili tələbləri əsasında baş verən özüntəhsildir, öyrənmədir. Daxili öyrənmə, araşdırma tələbi insanları narahat edir, uzun müddət bir yerdə oturmağa qoymur, axtarışlar aparmağa məcbur edir. Bu zaman insan həm bildiklərinə, malik olduqlarına nəzər salır, onu artıq yeni nöqteyi-nəzərdən təhlil edir, öyrəndikləri ilə bağlayır, yeni nətijələr, qənaətlər çıxarmağa çalışır. Bu proses özü insanların öyrəndiklərinə, insanların idraki fəallığına yeni məna verir. Əgər sistemli təhsil müəssisələrində hər hansı bir elmi məlumat məcburi öyrədilmişsə, bu yeni şəraitdə, yəni əvvəl öyrənilmiş məlumata yenidən təcrübi baxış şəraitinində həmin məlumat yeni məna kəsb edir. O, həyatiləşir, doğmalaşır,hər kəsin doğrudan da xüsusi malına çevrilir. Fəaliyyətin bu cür təşkili isə əvvəl öyrənilmişlərdən yeni şəraitdə istifadə etmə, özüntəhsil və yeni fəaliyyət üsulları müəyyən etmə üçün imkan yaradır.

İndi özüntəhsilə tərif verərək:

Özüntəhsil şəxsiyyətin müstəqil yolla bilik, bacarıq və vərdişlərə yiyələnməsi prosesidir.

Əgər təlim müəllimin rəhbərliyi altında təhsil alma prosesidirsə, özüntəhsilin müəllimin rəhbərliyi olmadan, müstəqil şəkildə təhsil alma prosesidir.

Özüntəhsilin aşağıdakı formaları mövcüddür: fərdi,qrup,kollektiv.

Fərdi özüntəhsil şəxsiyyətin heç kəslə ünsiyyətdə olmadan təkbaşına bilik, bacarıq və vərdişlərə yiyələnməsidir. Bu təhsil prosesində şəxsiyyət öz əvvəlki təhsil bazasına, yaradıcılıq və müxtəlif işləmə bacarığına əsaslanır. Fərdi təhsilin əsas üstün cəhətlərindən biri ondan ibarətdir ki, şəxsiyyət öz ideyalarını, fikirlərini sərbəst şəkildə heç kəsin müdaxiləsi olmadan təfəkkür süzgəcindən keçirir, təhlil, tərkib edir.

Fərdi təhsil tam və təkminləşmiş adamlar tərəfindən daha müvəffəqiyyətlə həyata keçirilir. Bu həmçinin fərdin daxili tələblərindən irəli gələn təhsil prosesidir. Hər kəs müəyyən bir sahəyə aid ciddi maraq göstərir və bu maraq onu yenidən öyrənməyə gətirib çıxarır. Məsələn alimin, elmi işinin müstəqil təhsili və ya tədqiqatı, ali təhsili mütəxəssislərin ixtisaslarının tələb etdiyi şəxsi təhsil və s. buna misal ola bilər. Bundan əlavə hər bir şəxs öz maraq və meylinə uyğun ədəbiyyat üzərində işləyir, istədiyi şəraitdə istədiyi material üzərində işləmək imkana malik olur. Digər tərəfdən müasir iqtisadi vəziyyət də insanları yenidən öyrənməyə, öz üzərində yenidən işləməyə məcbur edir. Bəzən sənət seçmə təsadüfü xarakter daşıyır. Ali təhsili və ya orta ixtisas təhsilini bitirdikdən və istehsalatda atıldıqdan sonra gənc müəyyən edir ki, düzgün sənət seçməyib, və yaxud da seçdiyi sənət onun intellektual, fiziki və ya maddi imkanları ilə uyğun gəlmir. Bu vəziyyətdə özüntəhsilin tələbi yaranır. Mövcud bilik, bacarıq və vərdişlərə yiyələnməyə başlanır. Belə halda seçim səmərəli və uyğun şəkildə aparılır.

Bütün yüxarıda qeyd edilənlərlə yanaşı fərdi təhsilin çatışmayan cəhətləri də mövcuddur. Belə ki, əgər fərdin müstəqil işləmək bacarığı yoxdursa, o bu işin öhdəsindən çətin gəlir və bəzən pessimizmə qapılır. Bəzən isə adamlar müstəqil işləməyin priyom və metodlarını bilmirlər. Müstəqil təhsil alan fərd çox zaman işi müvəffəqiyyətlə icra edib etmədiyini bilmir.

Ona görə də fərdi təhsil hər kəsdən möhkəm iradə, işküzarlıq, əməksevərlik, tələb edir. Digər tərəfdən fərdi təhsilin müvəffəqiyyətlə yerinə yetirməsi fərdi təhsillə kollektiv təhsilin əlaqələndirilməsini tələb edir. Belə halda fərdlər qarşılıqlı sürətdə bir-birini yoxlayır, nöqsan cəhətləri izə çıxarır, bir-birinin təcrübəsini öyrənirlər və s.

Özfəaliyyət birlikləri, təkmilləşdirmə kursları, xüsusi tip dərnəklər, nəzəri konfranslar, seminarlar və s. kollektiv özüntəhsil məşğələləridir. Kollektiv özüntəhsilin bu növləri qədim tarixə malikdir.

Məsələn, XIII-XX əsrlərdə Qərbdə, Rusiyada, Şərq ölkələrində bu qəbilədən olan dərnəklər və məşgələlər mövcud olmuşdur. Kollektiv özüntəhsilin məşğələləri demək olar. Çünki dərnək və seminarların xüsusi rəhbəri olur.

Müəyyən məsələlərdə kollektiv üzvlərinə istiqamət və məsləhət verirlər.

Öyrənmə, iş, fəaliyyət müstəqil, təklikdə baş versə də, nəticələrin müzakirəsində kollektivin bütün üzvləri iştirak edirlər. Təlim metodları həm də özüntəhsil metodları kimi çıxış edir.

Kitab üzərində iş, mənbələrdən istifadə, müqayissə, problemli izah, radio və televiziya verlişlərini dinləmək, xüsusi çalışmalar, əzbərləmə və s. Metodlarından özüntəhsil metodu kimi istifadə edilir.

Təhsil kimi özüntəhsilin məzmunu da cəmiyyətin iqtisadi inkişafı ilə müəyyən edilir. Müxtəlif ictimai-iqtisadi dövrlərdə özüntəhsilin məzmunu, ona verilən tələblər müxtəlif olmuşdur. Müasir dövrdə özünütəhsilin məzmunu bir sıra şərtlər əsasında müəyyən edilməlidir.

Məzmun müəyyən edilərkən fərdin şəxsi marağı və meyli, şəxsiyyətin fəaliyyət göstərdiyi iş sahəsinin xüsusiyyətləri , gündəlik ictimai siyasi hadisələr və s. nəzərə alınmalıdır.

Bəzən özüntəhsili müstəqil işlərlə qarışdırırlar. Müstəqil iş müəllimin rəhbərliyi ilə, təhsil alanın yaradıcılıq və müstəqillik qabiliyyətlərini yoxlamaq və inkişaf etdirmək məqsədilə tətbiq edilir. Məsələn orta məktəblərdə şagirdlərin çıxışlar və referatlar hazırlanmaları, xüsusi məqsədli çalışmalar üzərində işləmələri öz arzu və meylinə uyğun olan elm sahəsində müstəqil öyrənmələri və s. ali məktəblərdə yoxlama və kurs işləri, labarator məşğələlər,

çertyoj işləri və s. Bu işlərin hamısına məhz müəllim rəhbərlik edir. Amma özünün yaradıcılıq və müstəqillik eyni məsələ üzərində lazım gəldikdə uzun müddət işləmə müəssisələrinə görə müstəqil işlər özüntəhsilin maddi bazasını təşkil edir. Şəxsiyyətin özüntəhsilin müvəffəqiyyəti ilk növbədə onun məcburi təhsil prosesində qazanmış olduqları iradi keyfiyyətlər dözümlülük, yaradıcılıq, müxtəlif mənbələrdə müstəqil işləmə qabiliyyətlərinə yiyələnmə səviyyəsindən asılıdır.

Şəxsiyyətin özüntəhsilində kitabxanalar da əhəmiyyətli rol oynayır. Elmi-kütləvi və digər kitabxanalar şəxsiyyətin müstəqil təhsili üçün hər cür şərait yaradır. Müstəqil çalışan şəxs kitabxana vasitəsilə özünə lazım olan bütün ədəbiyyatları əldə edir. Bu isə onlara müstəqil işləmək üçün imkan yaradır. Digər tərəfdən kitabxana işçiləri müstəqil təhsillə məşqul olan, amma kitabdan istifadə də çətinlik çəkənlərə kömək edir, onlara kitabdan istifadə, təhsil aldığı sahə üzrə ədəbiyyat seçə bilmək işlərində kömək edir, istiqamət verirlər.

Deməli, kütlələrin müstəqil təhsili üçün şərait yaratmaq, kitabxana və onun işçilərinin bir nömrəli vəzifəsidir.

Mərkəzi kitabxanalarda müstəqil təhsil alanlara kitab seçmə, kitablardan istifadə, kitabların alma, istifadə etmə, kataloqlardan istifadə, kitabları qaytarma, qaydaları da öyrədilir ki, bu da heç bir (təhsil müəssisələrindən başqa) təhsil müəssisələrində əvvəlcədən fərdlərə öyrədilməyib.

Kitabxanalar orta və digər təhsil müəssisələrinin, şagird və tələblərinə, müstəqil öyrənmək işində yardım edən əsas müəssisədir. Kitabxanaların müxtəlif istiqamətlərdə, mövzularda, apardığı işlərdə iştirak etmək üçün şagirdi və tələbələr axtarışlar aparır, müəyyən məsələləri öyrənməyə çalışırlar ki, bu da öz növbəsində özünütəhsildir.

Özüntəhsilin həyata keçirilməsində mədəniyyət müəssisələri əhəmiyyətli yer tutur. Belə ki, mədəniyyət müəssisələri şəxsiyyətin hərtərəfli fəaliyyəti və o cümlədən özüntəhsil üçün geniş imkan və şəraitə malikdir. Bu isə mədəniyyət müəssisələrinin funksiyaları, onların qarşısında duran vəzifələrlə bağlıdır. Mədəniyyət müəssisələrinin vəzifəsi bilavasitə insanların asudə vaxtlarını səmərəli təşkil etmək və bununla da onlarda cəmiyyətin keyfiyyətləri formalaşdırmaq, onların yaradıcı qabiliyyətlərini daha da inkişaf etdirməkdən ibarətdir.

Mədəniyyət müəssisələrində təşkil edilmiş dərnəklər, texniki yaradıcılıq birlikləri, müxtəlif klublar, özfəaliyyət kollektivləri insanların müstəqil təhsilinə, onların yaradıcılıq imkanlarının inkişaf və tətbiqinə xidmət edir. Məsələn: Texniki yaradıcılıq dərnəkləri (gənc radistlər, gənc texniklər və s.) texnikanın müxtəlif sahəsinə maraq göstərən adamları birləşdirir. Belə dərnəklərdə hər kəs marağlandığı sahə üzrə müstəqil fəaliyyət göstərir, əldə etdiyi nəticəni və ya onda yaranmış ideyanı həmin dərnəkdə tətbiq edir.

Mədəniyyət müəssisələrində hər kəs onu maraqlandıran sahə üzrə – elmi texniki ictimai- siyasi, bədii yaradıcılıq təsərrüfat – idarə və s. – yaradılmış qruplarda birləşir, öz yaradıcılıq qabiliyyətlərini, təhsilini inkişaf etdirirlər.

Yaradılmış özfəaliyyət kollektivləri şəxsiyyətin özünütətbiqinin ən yüksək faktorudur.

Belə ki, özfəaliyyət kollektivləri hər kəsə öz bacarıq və qabiliyyətlərini nümayiş etdirməyə geniş imkan və şərait yaradır.

Belə kollektivdə şəxsiyyətin həmçinin qabiliyyət və bacarıqları, nəzəri səviyyələri daha da təkminləşir və inkişaf etdirilir.

Müstəqil təhsil prosesində təkmilləşdirmə kursları da əhəmiyyətli yer tutur. Təkminləşdirmə kursları bir tərəfdən şəxsiyyətin ixtisas üzrə müstəqil hazırlığını yüksəldir və təkmilləşdirir, digər tərəfdən isə ixtisasa verilən yeni tələbləri, yeni kəşfləri bilavasitə işə tətbiq etmə yollarını başa salır. Ona görə də istehsalın, kənd təsərrüfatını, qeyri-istehsal sahələrinin bütün işçiləri vaxtaşırı olaraq təkmilləşdirmə kurslarından keçirlər.

Müxtəlif tip teatırlarda da özüntəhsil imkanları genişdir. Məsələn:Tələbənin öyrəndiyi hərifi və təcrübi məsələlər yeni formada tələb edilir. Rejissorun tələblərini aktyor dərk etmək üçün düşünür, onu bildikləri ilə müqayisə edir, əlaqələndirir, yenisini öyrənməyə cəhd edir, və yaxud hər bir yeni rolu aktyor yaşından və iş stajından asılı olmayaraq, öyrənmək, yəni personajın sözlərini əzbərləyir, onun psixoloji xüsusiyyətlərini dərk etməyə çalışır, əxlaqi və ictimai görüşlərini, mövqeyini dərk etməyə çalışır. Bu aktyor fəaliyyətinin əsasını təşkil edir, onun inkişafını təmin edir. Bu həmçinin teatrşünasa da aiddir. Hər bir rol haqqında söz demək, onu təhlil edərək münasibət bildirmək hər bir teatşünasdan həm tamaşaya qoyulan əsəri dərindən dərkı etməyi, həm də aktyoru öyrənməy tələb edir. Bu isə müəyyən mənada özüntəhsildir.

**Müstəqil iş üçün sual və tapşırıqlar:**

1. Özüntəhsilə verilən müasir tələblər.
2. Özüntəhsilə aid fikirlər.
3. Mədəniyyət müəssisələrində özüntəhsil işləri.
4. Özüntəhsil üsulları.

## ƏDƏBİYYAT


1. Azərbayjan Respublikasının konstitusiyası. Bakı,1998
2. Azərbayjan Respublikasının Təhsil Qanunu. Bakı,1992.
3. N.M.Kazımov, Ə.Ş.Həşimov. Pedaqoqika. Bakı «Maarif»,1996.
4. N.M.Kazımov Məktəb pedaqoqikası, Bakı «Çaşıoğlu»,2002.
5. Z.Qaralov Azərbayjanda təhsil iş planının əsasları. «Azərbayjan müəllimi», 21-31 fevral,2001.
6. Pedaqoqika, M.1968.
7. Pedaqoqika, Bakı «Azərnəşr» 1966.
8. Pedaqoqika. M.1972.
9. Vvedenie v pedaqoqiku M.»Prosveşenie» 1975.
10. Pedaqoqika şkolı. M.»Prosveşenie»1977.
11. Pedaqoqika, Bakı, «Renesans»,2000.
12. C.Y.Lerner Proses obuçeniə i yeqo zakonomernosti.M,»Prosveşenie»1980.
13. Didaktika sredney şkolı M, «Prosveşenie»,1983.
14. Pedaqoqika,M., «Prosveşenie»,1983.
15. Ə.Y.Seyidov Pedaqoqika tarixi,B. «Maarif»1968.
16. Ə.Y.Seyidov, Azərbayjanda pedaqoci fikrin inkişaf tarixindən. B., «Maarif»1982.
17. Məktəb Pedaqoqikası (rusçadan tərjümə) B. «Maarif»1982.
18. A.Rzayev, B.Əhmədov, Pedaqoqikadan mühazirə konspektləri,B., «Maarif» 1983.
19. Ə.S,Bayramov,Ə.Ə.Əlizadə,Psixoloqiya»B., «Maarif» 1989.
20. V.V.Krayevskiy Problemı nauçnoqo obosnovaniə obuçeniə, M.1977.
21. V.Okon, Osnovı problemnoqo obuçeniə. M. «Prosveşenie»,1968.
22. Q.A.Clina Pedaqoqika.M., «Prosveşenie»1984.
23. Y.R.Arazov İskusstvo vospitıvat.M. «Prosveşenie»1985.
24. N.Kazımov Ali məktəb pedaqoqikası.,B., «Nijat»1999.
25. A.Aslanov İnjəsənət və tərbiyə, B. «Gənjlik»,1967.
26. A.Şükürov, Kulturologiya. B., «Elm»1998.
27. Ə.Tağıyev, Q.Əliyev, Kulturologiya. B., «Təbib»1997.
28. N.M.Kazımov, Tərbiyənin elmi pedaqoci əsasları, B. «Maarif», 1983.
29. Əhmədov N. XIX əsr Azərbayjan məktəbi,B., «Maarif»,1985.
30. Y.Talıbov, F.Sadıxov, S.Quliyev, Azərbayjanda məktəb və pedaqoci fikir tarixi, B.
31. «Ünsiyyət»,2000.
32. N.Tusi, Əxlaqi-Naziri, B., «Elm»1989.
33. M.Maxmudov, Problemnoe obuçenie»,M., «Prosveşenie»,1979.
34. Pedaqoqika, M. «Prosveşenie» 1981.
35. Pedaqoqika, B., «Maarif» 1993.
36. Xrestomatiya po pedaqoqike. M., «Prosveşenie»1976.
37. Ə.Həşimov, Azərbayjan xalq pedaqoqikası, B.,1993.
38. Ə.Ağayev, Pedaqoci fikrimiz: dünənimiz, bu günümüz, B.,2000.
39. Avestva. Azərbayjan klassik ədəbiyyatı kitabxanası.
40. Y.V.Zankov, Didaktika i jizn, M.1968.
41. S.Q.Şapovalenko «Metodika prepodovaniya ximii v sredney şkole», M.,1963.
42. Kulturologiya, (Pod. red. Draça Q.V.) R-D,1997.
43. M.S.Kaqan, Kultura i deyatelnost»M.1976.
44. L.Stoloviç, «Cizn, tvorçestvo i iskusstvo»,M.1978.
45. K.D. Uşinski, Seçilmiş əsərləri, (rusça) M.,1952.